**GÜLHÜSEYN HÜSEYNOĞLU**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

# HEKAYƏLƏR

## ANA

Mən onun tez-tez tənha guşələrə çəkilərək ağladığını eşidirdim. Bir dəfə özüm də bunun şahidi olmuş, ona təsəlli vermək arzusu ilə yanına getmiş, lakin bir kəlmə də danışa bilməmişdim. Axı mən ona nə deyə bilərdim? Hamı «darıxma, ay Leyla xala, məktub gəlməyəndə nə olar, yəqin uzaq yerdədir, allah qoysa özü gələr» dediyi halda, ona eyni sözlərlə mən də təsəlli verə bilərdimmi? Yox, əsla yox! Bəs onda həqiqəti bütün çılpaqlığı ilə ona necə danışmalı, onun gecə-gündüz sızlayan qəlbini nə sayaq ovutmalı idim? Bunları düşünəndə nitqim tutulur, ürəyim şiddətlə çırpınırdı.

Leyla xala bizim qonşuluğumuzda yaşayırdı. Yaralanıb cəbhədən qayıtdığım gündən o, həmişə bizə gəlib-gedər, mənimlə söhbət etməyi çox sevərdi. Mən isə onu hər dəfə görərkən dərdim təzələnər, bir anda başımın üstünü kədər buludları alardı. Leyla xala belə hallarda üzümə diqqətlə baxar, qüssəmin əsl səbəbini bilmədiyindən, incə və mehriban səsi ilə mənə təsəlli verərdi:

– Ana sənin boyuna qurban, darıxma, igidin başına çox işlər gələr, oğul, şükür allaha ki, sağ-salamat gəlib çıxmısan!.. Yaraların da sağalıb... bir az zəifsən, nə olar, o da düzələr, təki canın sağ olsun!..

Mən bəzən onun bu sözlərindən cəsarətə gələr, əhvalatı danışmağa və son borcumu verməyə çalışırdım. Lakin...

Bir gün bağçamızdakı qoca palıd ağacının kölgəsində uzanıb kitab oxuyurdum. Birdən ürək odlayıcı, yanıqlı bir səs məni mütailədən ayırdı. Qulaq asmağa başladım; kim isə ağlayır, həzin-həzin bayatı çağırırdı:

Əzizim balabanı,
Asta çal balabanı.
Hamının balası gəldi,
Bəs mənim balam hanı?..

Tüklərim ürpərdi, bədənimə yayılan üşütmə iliklərimə işlədi. Taleyimdən için-için şikayət edən bu qadın sədası mənə tanış gəldi. Ayağa durub qonşu həyətə baxdım; ağlayan o idi. Leyla xala. O, evlərinin qabağındaca oturmuşdu, toxuduğu corabı göz yaşları ilə isladırdı. Bu hal məni son dərəcə mütəəssir etdi. Onun yanına getmək istədim, elə bu vaxt bir sağsağan uçub, Leyla xala ilə bizim bağımızı ayıran xəndəyin üstündəki qarağaca qondu və qırıldamağa başladı. Qulağına quş səsi dəyən Leyla xala, qəflətən yuxudan ayılan adamlar kimi, tez başını qaldırdı və şad xəbərlər müjdəçisi sağsağanı görüb sevindi. O ayağa durdu və çoxdan axtardığı quşa həyəcanla müraciət etdi:

– Ey nisgilli anaların xoş müjdəçisi sağsağan, əgər balam gələcəksə, yerini dəyiş, sağsağan, yerini dəyiş...

Sağsağan yerindən tərpənmədi.

Ana qəlbi daha səbr edə bilmir, bütün dərdlərini açıb ona söyləyirdi.

– Axı mən anayam, sağsağan, balam gələcəksə, yerini dəyiş, eşidirsənmi, yerini dəyiş...

Sağsağan heç nə aldırmadan qanadlarını oynadırdı. İntizar ana isə məhzun baxışlarını ondan çəkməyərək ümidlə gözləyirdi. Onun bu halı və yalvarışları məni son dərəcə mütəəssir etdi. Ağır düşüncələr içərisində çırpınarkən, birdən-birə haradansa başıma bir fikir gəldi: sağsağanı uçurmaq. Elə bu məqsədlə də sürünə-sürünə qarağacın altına gəldim və yerdən kiçik bir daş götürüb atdım; quş uçdu. Bu an elə bil ananın da qəlbindən kədər uçdu, onun göz yaşları qurudu, rəngi açıldı, titrəyən dodaqlarına təbəssüm qondu...

Mən onun sevinclə «şukur», «şükür» deyə evə girdiyini görüb öz hərəkətimdən razı halda geri döndüm.

Bu hadisə eynilə sabahkı gün də davam etdi. Yazıq Leyla xala oğlunun sağ olduğuna inanır, daha ağlamırdı.

Ancaq mən onu aldatmağıma peşman olmuş, vicdan əzabı çəkməyə başlamışdım. Leyla xalanın günahı nə idi, niyə mən həqiqəti ondan gizlədirdim? Cəbhə dostumun xahişini, son sözlərini, vəsiyyətini yerinə yetirməkdə mən haqlı idimmi? Bu suallar daima məni düşündürür, qəlbimi sıxır, əzirdi.

Sağsağanı uçurduğuma təəssüf edirdim. Ancaq nə etmək ki, artıq gec idi, quş vərdiş etdiyindən, Leyla xalanın nəvazişkar səsini eşidən kimi qanad çalıb fəzalara uçur, ana sevinir, mən isə qəhərlənirdim.

***

İsti avqust günlərindən biri idi. Həyətdə oturub söhbət edirdik. Bir neçə qonum-qonşu, tanış-bilişimiz bizə toplaşmışdı. Leyla xala da burada idi. Bir qədər söhbətdən əmim üzünü mənə tutub cəbhə həyatından danışmağımı xahiş etdi. Mən oturanları bir-bir nəzərdən keçirib, daha çox Leyla xalaya baxdım. Onun daima yollar əsiri olmuş həsrətli baxışları bir anlığa mənə zilləndi. Mən nədənsə tərəddüd edir, danışmaq istəmirdim. O bunu duyduğundan, yavaş və titrək səslə dedi:

– Danış, oğlum, danış, şirin söhbətinlə ana qəlbini dindir.

Mən:

– Əziz dostlar, qulaq asın, sizə qəhrəman bir ellimiz barəsində danışacağam, - deyərək sözə başladım...

Mən əvvəlcə, onun ilk dəfə necə görüşdüyümdən, çiyin-çiyinə vuruşduğumuz döyüş meydanlarından, onun şücaətlərindən danışıb, sonra əsl mətləbə keçdim.

– Biz cəbhəyə getdiyimiz zaman bir-birimizdən ayrılmamağa and içmişdik. Lakin amansız əcəl bizi ayırdı. Odlu döyüşlərin birində dostum köksündən yaralandı və bir an içərisində ildırım vurmuş ağac kimi yerə sərildi. Mən cəld özümü ona yetirdim. Dostumu qan aparırdı. Tez başını yerdən qaldırıb dizlərimin üstünə aldım, əllərimlə saçını sığalladım: «Sən nə edirsən, dostum, qalx, yaranda qorxulası bir şey yoxdur, keçib gedər!» - dedim. «Yox... mənə təsəlli vermə... Dostum... Səndən bir xahişim var: vətənə dönsən, bizə gedib gözü yol çəkən anamın gözlərindən öpərsən... Deyərsən ki, vətən övladları evə dönəndə... o, kandar üstə durub məni görməyəndə... «Bəs mənim balam hanı... hanı?...» deyərək ağlamasın...»

Dostum bu sözləri deyib susdu və bir daha danışmadı, şəfqət bacıları yetişənə qədər dizlərimin üstündə can verdi.

Biz onu hörmətlə dəfn etdik. Hissəmizin döyüşçüləri onun qanını yerdə qoymacaqlarına and içdilər. Mən də onun cənazəsi qarşısında diz çökərək and içdim!

Sözümü qrutarıb Leyla xalaya baxdım. Onun gözləri yaşarmışdı, sinəsi aramsız qalxıb-enirdi. O, gözlərimin içinə baxır, odlu baxışları ilə məni sarsıdırdı. O baxışlar mənə nələr söyləmirdi! Mən Leyla xalanın gözlərindən qəlbini aydınca oxuyurdum. Buna görə də onun iztirabları önündə «o, sənin oğlundur, ana, icazə ver, gözlərindən öpüm» deyə bilmədim və üzümü əmimə tutub:

– Əmican indi de görüm belə bir oğulun anası ağlayarmı? - soruşdum.

Əmim sualımın əsl mənasını duyub dərindən köksünü ötürdü, Leyla xalanı süzərək:

– Yox, oğlum, ağlamaz, heç vaxt ağlamaz! – cavabını verdi...

***

Bu əhvalatdan sonra mən hər gün Leyla xala ilə üz-üzə gəlirdim. O həmişə eyni nəzərlərlə mənqə baxır, məhzun baxışları ilə «balam hanı?» deyirdisə də, soruşmağa dili gəlmir, cəsarəti tükənir, qorxurdu!

Bəli, o qorxurdu... qorxurdu... çünki ana idi!

## NİZAMİNİN DOSTU

Tofiq sinif yoldaşları ilə Nizami muzeyinə getmişdi. Muzey yaman xoşuna gəlmişdi. Oradakı rəngbərəng şəkillər hələ də gözlərinin qabağında idi. Axşam yeməyindən sonra gördüklərini anasına danışır, özü sevindiyi kimi onu da fərəhləndirirdi... Birdən yadına düşdü ki, ana dilində sabahkı dərsini hələ hazırlamamışdır («Oğlum Məhəmmədə nəsihət» şeirin əzbərləməli idi).

Tofiq ayağa durub öz kiçik stolunun arxasına keçdi, dərs cədvəlini gözdən keçirəndə yolddaşı Nəbiylə sinifdəki mübahisəsi yadına düşdü. Ona elə gəldi ki, Nəbi indi də onunla üz-üzə dayanıb kinayə ilə deyir:

– Hə, Tofiq, şeiri əzbərlədin? Səhər çox döşünə döydü ki, hamımızdan yaxşı hazırlayacaqsan. Nizaminin, guya bizdən çox istəyirsən. Amma, bil ki, Nizamini mən də çox sevirəm... Səndən də çox.

– Yox, yox, Nəbi! – Tofiq düşüncəli halda öz-özünə dilləndi: - Bilirəm, Nizamini sən də istəyirsən. Ancaq heç vaxt məndən çox istəyə bilməzsən!.. Heç vaxt!

O, stolun siyirtməsini çəkib, qiraət kitabını götürdü, fikirləşdi ki, Nizaminin çox sevdiyi şeiri yaxşı əzbərləməklə sübut edə bilər.

Tofiq şeiri bir dəfə diqqətlə oxudu. Elə ürəyinə yatdı ki... Sonra da hissə-hissə oxuyub əzbərlədi...

Soyunub yerinə girəndə özündən razı qaldı, ürəyində şeiri təkrar edə-edə onu yuxu apardı.

***

...Qapı yavaş-yavaş döyülürdü. Tofiq gözlərini ovuşdura-ovuşdura durub açdı. Qapı ağzında ağsaqqal bir qoca dayanmışdı. Qocanın mehriban sifəti Tofiqə tanış gəlirdisə də ancaq onu harada gördüyünü yadına sala bilmirdi. Onun iri, mənalı nəzərinə baxır, kiprik belə tərpətmirdi. Birdən sifətini təəccüb və heyrət bürüdü: «Vay məni... bu ki Nizamidir!.. Gör kimi tanımırdım, a!..»

O, şairi hörmətlə içəri dəvət etdi:

– Buyurun, baba can, xoş gəlmisiniz!

Nizami asta addımlarla keçib əyləşdi. Böyük razılıqla Tofiqə baxdı. Tofiq heç bilmirdi nə etsin, nə desin, sevincini hansı sözlərlə bildirsin. Nəhayət dilləndi:

– Baba can, nə yaxşı oldu, bizə gəldiniz!.. İndi Nəbi qoy görsün...

– Nəbi kimdir, oğlum? – deyə şair maraqlandı.

– Sinif yoldaşımdır.

– Siz neçənci sinifdə oxuyursunuz?

– Beşincidə. Hə, demək istəyirdim, baba can, sizin üstünüzdə Nəbiylə sözləşmişik. Nəbi deyir sizi o çox istəyir, mən deyirəm yox, mən çox istəyirəm...

Nizaminin dodaqları qaçdı, ancaq bir söz demədi. Sonra nəzərləri divardan asılmış iri şəklə zilləndi. Tofiq də gah şəklə baxırdı, gah Nizamiyə. Özlüyündə şəkillə qonağı tutuşdururdu. Birdən fikrinə nə gəldisə rəngi ağardı, gözləri alacalandı.

Şair, Tofiqin keçirdiyi həyəcanların səbəbini o saat başa düşdü. Bəs necə?! Axı o, insan qəlbinin bilicisi idi. Böyük bilicisi! Əlini Tofiqin çiyninə qoyub təmkinlə dedi:

– Oğlum, yəqin mənim öldüyümü, zənn nlədin, eləmi? YOx, yox, mən ölməmişəm, oğlum! Kim buqu deyirsə səhv edir. Mən sizində birlikdə həmişə yaşayıram. «Gələcək nəslə kitab» şeirimdə ki, bunu aydın demişəm. Yadında deyil?! Bir qulaq as:

Özüntək diri bil məni cahanda,
Mən də canlanıram, sən canlananda.
Uzaq tutma məni dost məclisindən,
Mən səni görərəm, görməsən də sən!

Nizami danışdıqca Tofiqin ürəyinə dolan şübhə yox olurdu...

Şair sözünü qurtaranda o dedi:

– Baba can, məktəbimizdə xatirinizi çox istəyirlər. Eh... İndi uşaqlar sizi görsələr o qədər sevinəcəklər, o qədər sevinəcəklər ki... Baba can, sabah mənimlə bizim məktəbə gedərsiz?

Nizami:

– Gedərəm, oğlum, niyə getmirəm, - dedi və sonra bir şey xatırlayırmış kimi tələsik soruşdu: - Sən axı, deyəsən, mənim şeirimi əzbərləyirdin, elədir?

– Bəli, baba can, mən onu indi əzbər bilirəm. İstəyirsiz deyim?

– Həvəslə qulaq asaram, oğlum!

Anasının səsinə oyanan Tofiq yuxu gördüyünü başa düşdü, ancaq halını pozmadı. Yuxusunda nə görmüşdüsə hamısını anasına danışdı, hələ üstəlik axşamdan əzbərlədiyi şeiri də onun üçün ucadan söylədi.

Anası sevinclə əlini onun kürəyinə vurdu:

– Sən Nizamini, doğrudan da çox sevirsən, oğlum! – dedi.

Anasının sözlərindən ruhlanan Tofiq onu divardan asılmış şəklin yanına gətirdi. Şəklin altında yaşıl rəngli karandaşla, iri hərflərlə yazılmışdı:

Özüntək diri bil məni cahanda,
Mən də canlanaram, sən canlananda...

*1944*

## AĞ KƏLAĞAYI

Bahar xala yenicə almış olduğu məktubu oxutmaq üçün qonşuya getmək istəyirdi ki, qapını döydülər. O, tələsik yaylığını başına örtüb qapını açdı. Qapı ağzında qarabuğdayı, dolğun, iyirminci baharına yenicə qədəm qoymuş, ağ kəlağayılı uzunhörüklü bir qız durmuşdu.

Bir anlıq onların hər ikisi təəccüb və sualdolu nəzərlərlə bir-birinə baxdılar. Lakin bu çox çəkmidi. Uzunhörüklü qız əlindəki kiçik kağız parçasına gözucu baxıb:

– Xala can, Bahar İbrahim qızı sizsinizmi? – soruşdu və iri, qara gözlərini onun mehriban, gülər üzünə zillədi.

– Mənəm, qızım, içəri gəlsənə, qapıda niyə dayanmısan?! – deyib Bahar xala onu evə dəvət etdi.

Əyləşdilər. Mahiyyə institutunda oxuduğunu və buraya komsomol komitəsi tərəfindən oğlu ilə yazışmasında ona kömək eləmək üçün göndərildiyini qısaca Bahar dalaya danışda. Bahar xala onun bu gəlişinə çox sevindi, dil-ağız elədi, ürəkdən razılığını bildirdi. Dedi:

– Qızım, amma necə də vaxtında gəlmisən, elə indicə kağız almışdım, oxutmaq üçün qonşuya getmək istəyirdim... Ala, bir oxusana görüm sağ olmuş nə yazır, - məktubu ona uzatdı.

Mahiyyə üçkünc məktubu alıb açdı, oxudu...

Rövşən məktubunda sağ-salamat olmasından, döyüşçülərin düşmənlə necə igidliklə vuruşduqlarından, öz yaxın dostlarının səmimiyyət və mehribanlığından yazmış, sonra ona tez-tez məktub göndəməyən anasını bir azca məzəmmət etməyi də unutmamışdı.

Baha xala ayağa durub rəfdən fincan-nəlbəki götürdü, gətirib stolun üstünə qoydu, sonra da mətbəxə keçib çaydanı, dəm çaynikini gətirdi, fincanlara çay töküb birini Mahiyyənin, birini də öz qabağına qoydu.

Mahiyyə çaya işarə ilə:

– Bu nədir, xala, nə zəhmət çəkirsiniz? – dedi.

– Qızım, heç bir zəhməti-filanı yoxdur, əsl zəhmət sənindir, gəlib xalanı axtarmısan, tapmısan.

– Bu bizim borcumuzdur.

– Çox sağ ol, qızım!

– Dəyməz, xala can!

– Qızım, di çayını soyutma, götür iç, - deyən Bahar xala özü də qabağındakı fincanı götürüb, içməyə başladı, bir qədər içəndən sonra fincanı yerə qoyub dedi: - Sonra da, qızım, əgər mümkün olsa, mənim dilimdən Rövşənə bir parça kağız yazarsan.

– Mümkün olsa nədir, xala?! Mütləq yazacağam. Məgər bundan ötrü gəlməmişəm?!.

– Di çayını götür iç.

Mahiyyə utancaqlıqla əlini fincana apardı, çay hələ isti idi. Dedi:

– Xala, bu ki lap qaynardı, gəl əvvəlcə məktubu yazaq, çayı sonra içərəm.

Bahar xala mürəkkəb, qələm gətirdi. Mahiyyə yazmağa başladı. O, ağ vərəqləri qaraladıqca, Bahar xala arabir onu saxlayır və:

– Qızım, burasını, bax, lap elə mən dediyim kimi yaz, qoy oxuyanda sevinsin, şad olsun, - deyirdi.

O öz ürək parçasına ürək sözlərini göndərməyə çalışır, Mahiyyə də onları ürəklə kağıza köçürürdü... Nəhayət, ana sözlərini deyib qurtarandan sonra qız oraya öz dilindən bu sözləri də qeyd elədi:

«Rövşən, mən sizi tanımıram, yənin ki, siz də məni tanımırsınız. Ancaq siz kim olursunuzsa-olun, mən sizi bir döyüşçü kimi tanıyır və bu məktubu yazdıran ananızla birlikdə sizə öz səmimi salamlarımı göndərirəm».

Çay soyumuşdu. Bahar xala onu təzələmək istədi. Mahiyyə mane oldu.

– Eybi yoxdur, xala, elə bu cür yaxşıdır. – Götürüb içdi.

– Qızım, qoy birini də gətirim.

– Yox, xala, bəsdir, instituta getməliyəm. Tələsirəm.

Mahiyyə qalxdı, məktubu yolda poçta vermək üçün özü ilə götürdü və Bahar xalaya həmişə baş çəkəcəyini söyləyib, əlini ona uzatdı. Bahar xala ona razılıq edib, üzündən öpdü.

***

Bu görüşdən bir neçə gün keçmişdi. Bahar xala əllərini qoynuna qoyub, oğlunun nə vaxt qayıdacağı haqqında fikirləşirdi ki, Mahiyyə gəldi, onun halını pərişan görüb tez yanına yüyürdü, kefini soruşdu. Baha xala kədərli olduğunu Mahiyyəyə bildirməməyə çalışaraq:

– Niyə, qızım, pis deyiləm, - dedi. – Ancaq hərdənbir... heç özüm də bilmirəm... Ürəyim sıxılır. Darıxıram!

– Yox, xala, mən görürəm, siz nəyisə məndən gizlədirsiniz. Ancaq nahaq! Elə bilin mən də sizin qızınız. Söyləyin, ürəyinizi sıxan nədir? Nə olmuşdur?

– Heç bir şey yoxdur, qızım! Mən doğrusunu deyirəm. Heç bir şey... Ancaq bu axır zamanlar, bilirsən, çox qatmqarışıq yuxular görürəm. Əhvalım pis olur, deyirəm uşağın başında bir xəta-zad olmasın.

– Elə buna görə yəqin kefsiz olursunuz. Amma lap nahaq yerə, - Mahiyyə ona təsəlli verməyə başladı. – Rövşənə nə olub ki?! Sağ-salamatdır, özündən də tez-tez məktub gəlir. Tezliklə müharibə də qurtarar, onda daha məktubu yox, öz gəlib çıxar. Elə deyilmi xala?

– Eh... nə bilim, qızım, allah ağzından eşitsin, mənim əziz balam... – Bahar xala bir qədər fikrə getdi, sonra qoynundan bir əks çıxarıb Mahiyyəyə uzatdı: - Təsəllimi, bax, bundan alıram!..

Mahiyyə şəklə baxdı, gözlərinə inanmaq istəmədi. Bu o idimi? Bəlkə yanılırdı? Adam da adama bu qədər oxşayarmı? Yox? Mahiyyə səhv eləməmişdi, bu o idi.

O, şəklə bir də, bir də baxdı, çırpınan qəlbinin gözü ilə baxdı, iki il bundan əvvəl həyatından silinməz izlər buraxmış bir hadisə gəlib gözləri önündə dayandı və bunu o, çəkinə-çəkinə Bahar xalaya danışdı...

...Susuzluqlan bağrı yarılmış geniş düzləri geridə buraxaraq «Bakı-Buzovna» elektrik qatarı yerl kimi irəli cumur, əzəmətli şəhərin istisindən baş götürüb qaçan adamları vaxtında bağlara, dəniz sahillərinə çatdırmağa tələsirdi. Hər iki yandan pəncərələri açıq olsa da, vaqonların içi od tutub yanır, yaxalar açılır, yelpiklər ara vermədən işləyirdi...

Sonuncu vaqonda açıq pəncərəyə yaxın oturmuş Mahiyyə, sərin olsun deyə, boğazı altından bağladığı ağ kəlağayısının uclarını açdı, dərindən nəfəs aldı, nəzərləri bayaqdan bəri ona dikilən qara gözlərə sataşdıqda qızardı, gözlərini yerə zillədi.

Mahiyyə bir neçə dəfə idi ki, indi onunla üz-üzə ooturmuş qaragözlü oğlana beləcə təsadüf edir və onun çox mənalı, cazibəli nəzərlərindən utanır, başını aşağı salırdı. Bilsəniz, Mahiyyə bu baxışları oğrun-oğrun süzərkən mənasını bilməyə nə qədər can atmış, oğlan isə danışmadığından, bu, onunçün bir sirr olaraq qalmışdı...

İndi də Mahiyyə hələlik ona müəmmalı görünən, lakin xoşu gəldiyi bu baxışların nüfuzedici təsiri altında sıxılır, özü də hiss etmədən yanaqları allanırdı. O, gəncə baxmağa çalışsa da, qəribə bir hissin sövqi ilə hərdənbir yenə başını qaldırır və utancaq baxışları oğlanın odlu baxışları ilə toqquşanda, tez gözlərini

yana çevirirdi. Baxmaq ürəyindən olsa da, bunu biruzə verməyi qızlıq mənliyinə sığışdıra bilmirdi.

Ancaq bu dəfə onların baxışması uzun sürmədi. Birdən-birə cövlana qalxmış dəlisov Bakı küləyi qızın kəlağayısını başından alıb, havada oynada-oynada apardı.

Mahiyyə təəssüf və həyəcanla kəlağayısının dalında baxdı, sonra nəzərlərini oğlana çevirdikdə, onun ayağa durduğunu gördü. Elə bu zaman elektrik qatarı qarşıdan gələn başqa elektrik qatarına yol vermək üçün azacıq nəfəs alıb dayandı. Oğlan bu təsadüfə sevindi və tez üzünü qıza tutub:

– Siz narahat olmayın, mən bu saat kəlağayınızı gətirərəm, - dedi.

Mahiyyə etiraz edərək:

– Yox, yox, zəhmət çəkməyin, sizə əziyyət olar, - dedisə də, o buna əhəmiyyət vermədi, sürətli addımlarla qapıya sarı yönəldi, tez özünü yerə atıb kəlağayının dalınca qaçdı və onu küləyin ağzından alıb geri döndü. Gətirib qıza uzatdı. Mahiyyə kəlağayını alıb:

– Çox sağ olun, sizə böyük əziyyət oldu, - dedi.

– Dəyməz, - gəncin cavabı eşidildi, - sonra da, bu mənim üçün əziyyət deyil, xoşdur.

Onlar bir-iki kəlmə güclə danışdılar. Elektrik qatarı artıq Sabunçuya çatıb dayanmışdı. Oğlan burada düşməli idi. O, qızla xudahafizləşib vaqondan enərkən qəlbi güclü və əsrarəngiz bir hisslə titrədi...

Həftələr, aylar keçdi, Mahiyyə bu qəribə təsadüfü unuda bilmədi. Təsadüf elədiyi gənc xəyalından bir an belə silinmədi. Hər zaman, hər yerdə onu düşündü, onu axtardı, fəqət tapa bilmədi.

Mahiyyə onu sevmişdimi? Bilmirdi. Onun bu iki ildə bildiyi yalnız bu olmuşdu: onu bir daha görmək, onunla ürəkdən-ürəyə danışmaq arzusu.

Nəhayət, o bü gün özünü xoşbəxt saydı; bayaqdan bəri əlində tutduğu əksə bir daha diqqətli nəzərlərlə baxdı, orada gülümsəyən qara gözlərin seyrinə daldı. Həmin gözlərdi; onu heç vaxt rahat buraxmayan, min bir gecə nağılları tək cazibədar, qəlbinin dərinliklərinə nüfuz edən qara gözlər!

***

Kəlağayı əhvalatı Mahiyyəni Bahar xalaya daha ürəkdən bağladığından, tez-tez onun yanına gəlib-gedər, Rövşənin məktublarını oxuyar və bir-bir onlara cavab yazardı. Bəzən də o, boş vaxtlarında saatlarca Bahar xala ilə oturar, onun ürəyinə yatan söhbətlər edərdi. Bu söhbətlər zamanı Bahar xala, ondan ailələri, qohumları haqqında sorğu-sual edər, aldığı cavablardan xoşlanardı. Hətta bir dəfə Mahiyyənin təkidilə onların kəndinə getmiş, ailələri ilə tanış olmuşdu. Bahar xalanın Mahiyyəgilin ailəsindən aldığı təəssürat, bir oğul anası kimi onu razı salmışdı.

Bahar xala ilə Mahiyyə arasında yaranan bu ülfət və mehribanlıq getdikcə Rövşənə də öz təsirini göstərirdi. Artıq o, məktublarını başqa ruhda yazır, anası ilə Mahiyyənin bir yerdə adını çəkir, sevinirdi; çünki anası artıq tək deyildi, onun halını soruşan, qeydinə qalan vardı.

Mahiyyə bir gün onlara gələndə Bahar xalanı üzəri zərlə işlənmiş məxmər boğça ilə məşğul olan görüb yanına yüyürdü:

– Bunlar nədir, ay xala, gör necə də parıldayırlar, elə bir indicə dükandan alınmışdılar, - deyərək Mahiyyə gözlərini boğçadakı rəngarəng yaylıqlara zillədi.

Bahar xala onu bağrına basdı:

– Eh... qızım... Bunlar oğlumun nişan şeyləridir. Həmişə bağlı qalmasın deyə, çıxarıb tez-tez havaya verirəm.

O, bir-bir yaylıqları boğçadan çıxartdı, qatlarını açmağa başladı. Mahiyyə onların adlarını ürəyində pıçıldadı:

– Zəkiyyə yaylıq, əsmə şal, gecə-gündüz...

Birdən «gecə-gündüz»ün içindən bir üzük sürüşüb yerə düşdü. Mahiyyə tez əyilib onu götürdü, işıqda belə parıldayan üzüyün qaşı onun çox xoşuna gəldi və o:

– Bu da ki, xala, yəqin nişan üzüyüdür, - dedi.

Bahar xala dərindən köksünü ötürə-ötürə:

– Elədir, qızım, elədir, - dedi. – Düşmənin görüm anası mələm qalsın. Axı hərənin özünə görə bir arzusu, bir dərdi vardı...

– Xala can, bəs onun istədiyi qız kimdir?

Bahar xala böyük ürək çırpıntısı ilə verilən bu sualın əsl mənasını başa düşməyə bilməzdi. Odur ki, tələsik:

– Heç kim, qızım, - dedi, - özü burdaykən, kimi almaq istədimssə, bəyənmədi. Ana, mənim hələ evlənən vaxtım deyil, dedi. Sonra da davaş düşdü... O getdi. Başladığım iş yarımçıq qaldı...

Rövşənin nişan üzüyü gəlib Mahiyyənin gözləri önündə durdu, ürəyində çırpınan bir arzu daha da böyüdü: «Bahar xala, görəsən oğlun cəbhədən döndüyü zaman sən mənə istədiyim muştuluğu verəcəksənmi?..»

***

Rövşən məktublarının birində anasının Mahiyyə ilə şəklini çəkdirib ona göndərməsini və bu şəkli həmişə qoynunda gəzdirəcəyini yazmışdı. Bahar xala oğlunun istədiyini həyata keçirmək üçün Mahiyyəni tələsdirdi. Onlar əksxanaya getdilər. Şəkilçəkən onları yan-yana əyləşdirdi. Mahiyyənin ağ kəlağayısını başından götürmək istədi. O mane oldu...

Şəkil hazır olan kimi onu məktubla bərabər cəbhəyə yola saldılar...

Bu, onların Rövşənlə son yazışmaları oldu. Ondan daha məktub gəlmədi, ünvanı bilinmədi.

Bahar xala hər səhər, qulaqları səksədə, pəncərə önündə dayandı, bala həsrəti ilə vuran qəlbi çırpınırdı; gözlərindən səssiz-səssiz yaş axıdaraq onun yolunu gözlədi, lakin soraq olmadı.

O, Rövşənin şəkillərini yanaqlarından süzülən gümüş damcılarla islatdı, zəkiyyə yaylığı bağrına basdı, əsmə şalla qarşı-qarşıya durub söhbət elədi. Mahiyyənin təsəllilərinin uzun-uzadıya dinlədi, məktub gəlmədi.

Ananın səbri tükəndi; Mahiyyə, ürəyində min həsrət gizlin-gizlin Rövşənin nişan üzüyünü gözdən keçirtdi, dərin-dərin köks ötürdü, məktub gəlmədi.

Aylar bir-birini adlayıb keçdi. Bahar xala dolaşıq-dolaşıq yuxular gördü, il tamam oldu, məktub gəlmədi.

Bu intizar Mahiyyənin bakir qəlbini əzdi, incitdi, lakin onu ümidsizliyə düçar edə bilmədi. O, Bahar xalaya ümidsizlik anlarında ümidverən çıraq oldu...

***

Gözəl bir yaz səhəri idi.

Çiçəklər çətir kimi ağacların budaqlarını örtmüşdü.

Mahiyyə bu gün çox erkən oyandı. Bahar xalaya dəymək üçün tələsdi. Lakin qapıya yetişər-yetişməz poçtalyonla qabaqlaşdı. Poçtalyonun əlində məktub vardı. Mahiyyə ünvanına baxdı. Sevinci yerə-göyə sığmadı, zərfi alıb evə qaçdı. İçəri girən kimi:– Bahar xala, məktub... Rövşəndən!.. Muştuluğumu ver! – deyərək onun boynuna sarıldı, dodaqlarından öpdü.

Baha xala şadlığından özünü itirdi, nə edəcəyini bilməyərək, bütün varlığı ilə məktuba əsir kəsildi, sevincdən gözləri doldu, ağladı. Sonra isə yalnız:

– Şad xəbər olasan, qızım, oxu, tez oxu, nə istəsən verəcəyəm – deyə bildi...

Məktub çox qısa idi. Rövşən yazırdı:

«Ana can, bilirəm, kağız göndərməmək üstündə məni danlayacaqsan, ancaq, ana, başıma gələn macəraları bilsən, görəcəksən ki, mən haqlıymışam! Ana, bu məktubu sizə dünən böyük hücumla aldığımız Berlin şəhərindən yazıram. Tezliklə görüşənə gələcəyəm... Ana, Mahiyyəni möhkəm qoru, ondan muğayat ol. Axı mən onu...

Mahiyyə son kəlməni oxuya bilmədi. Baxışları yerə zilləndi. Bahar xala onun saçlarını tumarladı. Mahiyyə başını qaldırıb Bahar xalanın gülümsəyən çöhrəsində eyni sözü oxudu: sevirəm!!!

Bahar xala:

– Axı, qızım, mən sənə muştuluq verəcəkdim, - deyərək azacıq durdu, sonra nə fikirləşdisə, gedib boğçasını gətirdi, ordan bir üzük çıxardıb qızın barmağını taxdı.

Mahiyyə utana-utana üzüyə baxdı, ürəyi çırpınırdı...

Bu, Rövşənin nişan üzüyü idi.

*1945*

## BİR ÖMRÜN ÇIRAQLARI

«Eh!.. Ömür-gün yaman keçib gedir. Yaman!.. Gözüvü açıb yumunca bir də görürsən ki...»

Bəli, Səriyyə bütün gecəni bu əhvali-ruhiyyə ilə keçirdi.

Bu axşam onun evinə tanımadığı, görmədiyi təzə adamlar gəlmişdi. Yeni qohumluğun təməl daşlarını qoymaq istəyən təzə adamlar... Səriyyə əvvəlcə gördüklərinə, eşitdiklərinə inanmaq istəmədi. Axı ona elə gəlirdi ki, hələ ərə getməli qızı yoxdur... yoxdur!

Yox, Səriyyə yanılırdı. Onun ərə getməli qızı vardı. Özü də ağıllı, kamallı, gözəl qızı vardı. Bəli, bu, həqiqət idi. Elçilərin gəlişi bu həqiqəti bir daha təsdiq edirdi. Ancaq o da həqiqət idi ki, ananın gözündə onun övladları, ürək parçaları hələ də uşaq idilər. Anaya elə gəlirdi ki, onları öz isti nəfəsindən, hərarətli qoynundan məhrum edə bilməz. Övladları naqad açsalar da, hələ ana nəvazişinə, ana məhəbbətinə möhtacdırlar. Lakin elçilərin gəilişi ananın bu təsəvvürlərini alt-üst etdi. Elçilərin gəlişi Səriyyənin bu vaxta kimi keçdiyi həyat yolunu gözləri önündə canlandırdı...

Səriyyənin iki qızı, bir oğlu vardı. Böyük qızının adı Rəfiqə idi. Rəfiqə ucaboylu, dolu bir qızdı, qalın qaşları, iri qara gözləri, xoşagəlim, şirin, qarabuğdayı sifəti vardı. Güləndə yanaqlarında xırdaca çökək əmələ gəlir, sifətini daha da qəşəngləşdirirdi.

Kiçik qızının adı Validə idi. Validə ortaboy, nərmanazik qızdı. Ağıllı, düşüncəli, cəzbedici gözlərinin heyranı olmamaq mümkün deyildi. Ağ, qəşəng sifəti vardı.

Səriyyənin ortancılı oğlan idi. Adı Elçindi, Elçin Validə ilə bir boyda idi. Gözəllikdə bacılarından geri qalmazdı. Sifətini çoxlu iri qara xallar bəzəyirdi.

Səriyyə sevimli ərini, özü demiş, davaya yola salanda Rəfiqə beş, Elçin üç, Validə isə bir yaşında idi. Bir ildən sonra cəbhədən ərinin qara xəbəri gəldi. Gənc ana bütün mehrini, məhəbbətini uşaqlarına saldı. Ərinin ocağını qorumağı, istisini saxlamağı ölənəcən qarşısına məqsəd qoydu. Ərinin vaxtında Səriyyə evdarlıq

edərdi. İndi Volodarski adına Bakı tikiş fabrikində işə girməyə məcbur oldu. İşi çoxaldı.

Səriyyənin əri çox uşaqcanlı idi, lakin uşaqlarını böyütmək ona qismət olmadığından Səriyyə də ürək parçalarını, sevimli ərinin yadigarlarını ürəklə, məhəbbətlə, ərinə layiq bir məhəbbətlə böyütməyə, sevib böyütməyə çalışırdı. Ancaq imkanı, maddi imkanı, çox vaxt, onun əl-qolunu bağlayırdı, ruhunu əzərdi...

Bir dəfə ruhunun əzildiyi vaxtda qapıları döyüldü. Gələn məhəllərində yaşayan, zərxara içində gəzib-dolaşan orta yaşlarında bir arvaddı. Gəlişi Səriyyəni təəccübləndirsə də onu hörmətlə qarşıladı. Arvad sözlü adama oxşayırdı. Xoş-beşdən sonra gəlişinin səbəbini birbaşa dedi:

– Cavan, göyçək gəlinsən, ərivün də qara kağızını alıbsan, eşitmişəm. Özüvə yazığın gəlsin. Haçanacan özüvə zülm eliyəcəksən. Səni yaxşı yerdən istəyən var. Bizim kişinin dayıoğlusudur. Böyük bir restoranda bufetçidir. Pula pul demir. Bir az axsaqlığı var. Onunçun da əsgərlikdən qalıb. İstəyəndə elə yeriyir ki, heç bilinmir. Bilinənən nə olacaqdı ki... Sənə yaman gözü düşüb. Deyir ki, xanım kimi saxlaram onu, təki mənə bir «həri» desin. Hə, nə deyirsən? Sevindirim onu?!

Səriyyə özünü güclə saxlayırdı. Xasiyyətiydi, onunla danışan adamı axıracan səbirlə gərək dinləyəydi, fikrini tamam-kamal öyrənəydi. Elə ki, öyrəndi, bundan sonra birdəfəlik sözünü deyərdi. İndi də səbirlə qonşu arvada qulaq asdı, eşitdikləri qəlbini incitsə də axıracan onu dinləməyə dözdü, həm də ona görə ki, qonşu arvaddı, qəlbinə toxunmaq istəmirdi. Necə olsa «salam-əleyk»ləri vardı. Elə ki qonşu ürəyini boşaltdı, Səriyyə eşitmək istəmədiyi söz-söhbəti birdəfəlik kəsmək istədi:

– Ünbül bacı, mən papaq deyiləm ki, başdan-başa qoyulam. Üç uşaq anasıyam. Bunu bilin. İndən belə bu sayaq söz-söhbətnən bir də...

Ünbül tez özünü yığışdırdı, pərtliyini büruzə verməməyə çalışaraq Səriyyəni fikrini tamamlamağa qoymadı, ürəyi yanırmış kimi dodaqucu mızıldandı:

– Mənə nə var eee, mən səninçün... dedim ki.... Ürəyim yandı da, axı cavansan, cavanlıq gedir axı, qaça-qaça gedir, bir də geri qayıdan deyil!..

– Qurban olsun Rəfiqəmin, Validəmin, Elçinimin bircə qara telinə mənim gedən cavanlığım, qayıtmayacaq cavanlığım Ünbül bacı! Gəlin bu barədə bir də danışmayaq. İstəyirəm ki, aramızdakı salam-əleyk qalsın.

Ünbül dinmədi. Haçandan-haçana Səriyyə dedi:

– Ünbül bacı, yəqin bilirsiz, yorğan-döşək sırımaqda səriştəm var. İşimizdə də xahiş eləmişəm ki, iyulun on beşindən məni məzuniyyətə buraxsınlar. Sözümü eşiblər. İstəyirəm bu vaxda yorğan-döşək sırıyam. Əgər qonşulardan istəyən olsa məni nişan verin. Məvacibnən uşaqların üst-başını düzəldə bilmirəm.

Ünbülün dili yenə açıldı:

– İstəyən çoxdu, Səriyyə, siftə elə bizimkilərdən başlarsan. Dalıycan səninfün o qədər müştəri tapım ki, başuvu qaşımağa macalın olmasın...

Ərə getmək təklifi Səriyyəyə bundan sonra da neçə dəfə olmuşdu və hər dəfəsində də o, qətiyyətlə «yox!» demişdi. Hər «yox!» deyəndə də sevimli ərini düşünmüş, balalarını gözünün qabağına gətirmişdi, başqa kişiyə onların necə ata deyəcəklərini fikirləşəndə dəhşətə gəlmişdi. «Səriyyə ölər, balalarım, atanızdan sonra ərə getməz. Bunu bilin! Qoy hamı bilsin. Birdəfəlik yaxamdan əl çəksinlər. Məni rahat buraxsınlar!..»

Nəhayət, özü demiş, onu rahat buraxdılar. Bir də adını çəkən olmadı...

Uzun qış gecələrində övladları ananın başına yığışar, onun şirin söhbətlərinə qulaq asardılar. Böyük qızı Rəfiqə başını anasının sinəsinə qoyar, kiçik qızı Validə balaca qollarını anasının boynuna dolayar, oğlu Elçin başını onun dizi üstünə qoyub uzanardı. Balalarının isti, doğma nəfəsi ayaqları, qolları ağrıyan, bədəni gizildəyən ananın bütün yorğunluğunu canından çıxarar, qollarına qüvvət, ürəyinə mətanət gətirərdi. Belə anlarda o, çox vaxt sevimli ərini yadına salardı, gözləri yaşarardı. Bu zaman ananın yanaqlarından diyirlənən isti göz yaşı Rəfiqənin üstünə düşəndə, qız başını onun köksündən qaldırıb deyərdi:

– Ana, sən yenə ağlayırsan? Axı mən sənin ağlamağını istəmirəm, heç istəmirəm, ana.

– Mən də istəmirəm, ana, mən də istəmirəm, - deyib Validə də anasının üzündən öpərdi.

Bu zaman Elçin də ayağa qalxar, gözlərini düz anasının yaşarmış gözlərinə zilləyib, ərklə deyərdi.

– Ağlama, ana, ağlama, bildin?!

Belə vaxtlarda balalarının ürəyini sıxmamaq üçün ana tez göz yaşlarını qurudar və:

– Mən ki heç ağlamıram, balalarım, niyə də ağlayım?!. Sizin kimi uşaqları olan ana da ağlayarmı? – deyərdi.

Gecələr ana uşaqlarını başına yığanda çox vaxt qızları ona qəribə və maraqlı suallar da verərdilər. Böyük qızı Rəfiqə bəzən zarafatla və incimiş halda üzünü anasına tutub soruşardı:

– Ana, niyə məni qara, VAlidəni ağ doğmusan, hə? Olmazdı ki, elə ikimizin də sifəti bir rəngdə olsun?

Validə isə ərköyüncəsinə deyərdi:

– Ana, niyə Rəfiqənin boyu mənimkindən hündürdür. Olmazdı ki, elə bizi bir boyda doğaydın?

– Xalların hamısını vermisən Elçinə, oğlanın xal nəyinə gərəkdir? – Rəfiqə soruşardı.

Bu zaman Elçin də söhbətə qarışardı:

– Doğrudan, ana, sən gərək xalları qızlara, Rəfiqənin boyunu da mənə verəydin. Onda Rəfiqə ilə Validə olardı bir boyda, xalları da aralarında bölüşərdilər.

Qayığkeş ana uşaqlarının bu sözlərinə yalnız gülümsəyər, mehriban əllərilə onların başını sığallayar və özünəməxsus bir təmkinlə deyərdi:

– Mənim əziz balalarım, siz hamınız gözəlsiz, heç birivüz bir-birindən nə əksik, nə də artıq deyilsiz, hamınız mənim gözümdə birsiz, gözəlsiz...

İndi isə...

Bu sözlər və bu sözlərin deyildiyi illər arxada qalmışdır. İndi Səriyyənin balaları böyümüşdülər. Onların yuvalarından pərvaz etmək vaxtı gəlib çatmışdır. Budur, böyük qızı Rəfiqəyə elçi gəlmişdir. Səriyyənin ürəyi qəribə bir hisslə döyündü... o, həm fərəhlənir, həm kədərlənirdi. Ona görə fərəhlənirdi ki, övladını

böyüdüb ərsəyə yetirmişdi. Övladı da ağıllı-kamallı çıxmışdır. Ona görə kədərlənirdi ki, iyirmi iki il bir yerdə olduğu, qanadları altında bəslədiyi, bircə nəfəs aldığı övladından ayrılacaqdır. Lakin bu kədərin özündə belə nə isə yenə bir təskinlik, bir arxayınlıq vardı. Kimin qızı anasından ayrılmamış, başqa evə köçməmişdir?! Eh, bu təbiətin də gör necə amansız qanunları var. Qız böyüdən anaların gör nə ağır qisməti var...

Ana düşüncələr içərisində ikən elçilər axırıncı dəfə Səriyyənin fikrini soruşdular. Onun sözü bu oldu ki, qızı ilə danışmamış o bu barədə hələlik heç bir söz deyə bilməyəcəkdir.

Elçilər gedəndən sonra Səriyyə qızı ilə danışdı. Məsələ aydındı. Təbiətin qanunnundan kənara çıxmaq, görünür, mümkün deyildir. Qız da, oğlan da bir-birini sevirdilər.

Günlərin birində el qaydasınca toy edib Səriyyənin ilkini apardılar. Az keçmədi o, kiçik qızı VAlidəni də yuvasından uçurmalı oldu.

Qaldı Elçin. Elə bu vaxtlarda ana hiss etdi ki, Elçin də bir qızla sevişir. Elçin də ailə qurmaq fikrinə düşüb. Elçin! Elçin Səriyyəni hamıdan çox incitmişdi. Bu barədə fikirləşəndə, özü demiş, başından tüstü qalxırdı...

Elçinin dəcəllikləri qurtarmaq bilməzdi. Səriyyəni tez-tez məktəbə çağırırdılar. O da imkan tapa bilməzdi getsin. İmkan tapanda da müəllimlər düşərdilər üstünə, de ki, deyəsən. Ana danlaq, tənə altında qalardı, xəcalət çəkərdi, tər tökərdi. Söz verərdi bir də olmayacaq. Amma olardı, bir də olardı. Elçinin şuluqluqları qurtarmaq bilməzdi. Ana da sıxılardı, ürəyi ağrıyardı, gözləri dolardı.

Bir dəfə də Səriyyə eşitdiyindən yaman sarsıldı. Elçin papirosa qurşanmışdı. Ananı dəhşət götürdü. Dünya gözündə qaraldı. Qəlbində ərini haraya çağırdı. «Hardasan, ay Məmmədağa, hardasan?! Gör bir oğlun başıma nələr gətirir! Elçin el içində başımızı yerə soxacaq, ay Məmmədağa, hardasan?!»

Səriyyə məktəbdən evə necə qayıtdığını bilmədi. Üzüqoyulu çarpayıya yıxılıb ağlamağa yox, hıçqırmağa başladı. Uşaqları onu sakitləşdirə bilmirdilər. O, hıçqırır, hıçqırırdı.

Səriyyə haçandan-haçana hıçqırığını kəsdi, başını qaldırdı. Ağlamaqdan gözləri qızarmış, gözlərinin altı şişmişdi, səsi xırıldayırdı, zorla bu sözləri dedi:

– Elçin, o zəhrimarı tərgitməsən, özümə əl qaldıracam, özümü öldürəcəm. Atan Məmmədağanın ruhuna and olsun ki, öldürəcəm. Bunu bil, Elçin!

Qızlar ağlaşmağa başladılar. Elçin söz verdi. Parirosu atacağına, şuluqluq etməyəcəyinə atasının ruhuna and içdi. Qızlar sakit oldular. Səriyyə ayağa qalxdı. Elçinin gözlərinə baxdı. Diqqətlə baxdı. Oradakı əzabı, peşmançılığı görəndə bir az təskinlik tapdı, sakit oldu:

– Allah sənə rəhmət eləsin, ay Məmmədağa! – dedi.

Elçin sözünün üstündə durdu, papirosu atdı, ana ruhən sakitləşdi. Ananın yavaş-yavaş məktəbdən də ayağı çəkilməyə başladı. «Şükür, deyəsən, hər şey qaydasına düşür!..»

Qızlar köçəndən sonra Elçin anasının başına yaman dolanırdı. Elçindən görünməyən bir işdi bu. Bunu səriyyə açıq-aşkar sezir, sevinirdi. Elçinin sevdaya düşdüyünü hiss edəndən ananın bu sevinci daha da çoxaldı. O, məsələni ətraflı öyrəndi, bu dəfə özü başqalarının qapısına elçi getdi. Borca-xərcə düşdü, toy edib oğlunu evləndirdi.

Bir gün Səriyyənin bütün övladları onun başına toplaşdılar. Əvvəllərdə övladı üç idisə, indi altı olmuşdu. Səriyyə onları böyük iftixar və qürurla gözdən keçirdi. Qəlbi fərəhdən köksünə sığmadı. Uşaqlarının vaxtilə öz qüsurları barəsində ərklə etdikləri giley-güzar ananın yadına düşdü. O, bu söhbətləri məmnuniyyətlə gəlininə və yeznələrinə danışdı. Sonra onların bu barədə fikrini öyrənmək istədi. Əvvəlcə böyük yeznəsinə sual verdi.

Böyük yeznəsi dedi:

– Ana, Rəfiqənin heç bir nöqsanı yoxdur. O, hamıdan gözəldir.

Ana kiçik yeznəsinə baxdı.

– Validənin gözəlliyinə heç bir söz ola bilməz, ana! – kiçik yeznəsi dilləndi.

Səriyyə gəlininə baxdı, oğlu Elçin haqqında onun fikrini bilmək istədi. Gəlin utandığından başını aşağı dikdi.

– Yəqin mənim ağıllı gəlinimdən də soruşsam, o da deyəcəkdir ki, «Elçin hamıdan gözəldir» - deyib ana sağ əlini gəlinini başına çəkdi.

Gəlin başını qaldırıb qayınanasına baxdı. Onun baxışlarının ifadəsi Səriyyənin sözlərini təsdiq edirdi.

Bundan sonra Səriyyə dedi:

– Siz haqlısınız, balalarım. Könül sevən göyçək olar. Sizin hər birivüzün sevdiyi, seçdiyi özü üçün gözəldir. Sizin hamıvız da mənim üçün gözəlsiz. Axı siz mənim balamsız.

Bu zaman Rəfiqə anasını qucaqlayıb dedi:

– Ana, mən gəlmişəm səni aparım bizimlə bir yerdə qalasan.

Validə dedi:

– Yox, yox, ana səni mən aparacağam, gərək bizimlə qalasan.

Elçin isə bacılarının sözlərinə etiraz edib, ərklə dilləndi:

– Mən anamı heç kəsə vermərəm. Anam mənimlə qalıb, mənimlə də qalacaq.

Rəfiqə əlavə etdi:

– Qoy anamız özü desin.

Validə bu sözdən bərk yapışdı:

– Hə, qoy anamız özü desin.

Elçin hirsləndiyini o saat büruzə verdi:

– Yaxşı, desin, qoy desin.

Ana böyük məhəbbət hissilə uşaqlarını süzdü:

– Mənim əvvəl bir evim vardı, indi üçdür. Hamıvız mənim üçün birsüz. Evüz də mənim gözümdə birdir. Amma, balalarım, mən Elçinin atasının evində qalmalıyam. Çünki bu evdə atanızın ocağı yanır. O ocaq ki, sizi öz hərarətiynən böyüdüb bu həddə çatdırıb. Sizə isə, qızlarım, tez-tez qonaq gələcəm.

Rəfiqə dedi:

– Ana, axı sən bizim zəhmətimizi çox çəkmisən. Bəs biz bu zəhmətin əvəzini nə ilə verərik?

Təxminən eyni sözləri Validə də təkrar elədi.

Səriyyə üzünü əvvəlcə Rəfiqəyə tutub soruşdu:

– Qızım, sən ailəndən razısan?

– Bəli, ana can, - Rəfiqə pıçıldayırmış kimi cavab verdi.

– Validə, qızım, sən necə?

Validə dedi:

– Mən də razıyam, ana!

– Bəs, oğlum sən? – deyərək na bu dəfə üzünü Elçinə tutdu.

– Mən də ana can, mən də razıyam! – Elçin qürurla sinəsini qabağa verdi.

Səriyyə dərindən köksünü ötürərək uşaqlarına dedi:

– Siz mənim zəhmətimin əvəzini verdüz, ömrümün çıraqları, bundan savayı mənə heç nə lazım deyil, heç nə!

## «ATA DÜŞÜNCƏLƏRİ» SİLSİLƏSİNDƏN

### QURUCU

Hər gün işdən gələndən, yeyib-içəndən sonra oğlum başımın üstünü kəsdirir, məni cürbəcür oyuna, söhbətə çəkir. Düzü, onunla əylənmək mənə də zövq verir, könlümü açır. Odur ki, çağırışına şəvəslə qoşuluram. Marağını oxşamaq, onu sevindirmək üçün hər dəfə təzə bir şey axtarıb tapıram. Yatanacan başını qarışdırmağa çalışıram.

Oğlum saat doqquzda yatır. Bir dəqiqə o yana keçsə, anası hirslənir. Qınamıram. Axı oğlum hələ balacadır (üzümümə gələn ay beş yaşı tamam olacaq), balacalara da, bilirsiniz, çox yatmaq, vaxtında yatmaq lazımdır!..

***

Bu axşam yorğundum. Bütün günü mədəndə, yenicə qazıb qurtardığımız quyunun yanında olmuşdum. Ayrı cür şıltaqlıq edirdi. İpini hələm-hələm ələ

vermək istəmirdi. Ancaq öhdəsindən gəldik. Yüyəni ağzına keçirib, möhkəmcə cilovladıq, iradəmizə tabe elədik. Elədik, amma yamanca da yorulduq; lap əldən düşdük... Bu söhbəti mən niyə saldım?.. Hə, yorğunluğumun səbəbini demək istəyirdim. İstəyirdim biləsiniz ki, oğlumu əyləndirməyə həvəsim yox idi, ancaq ürəyini də sındırmaq istəmirdim, düzü, buna gücüm çatmırdı.

Ayağa durub stolun arxasına gəldik. Köhnə «repertuarımızdan» bir-ikisini işə saldım. Əvvəlki təsiri bağışlamadı. Oğlum təzə, ancaq təzə şey istəyirdi. Bunu dili ilə deməsə də, baxışlarından duyurdum.

Oğlumun baxışları! Büllur, məsum baxışları!.. Oğlum hələ danışa bilməyəndə onunla yeganə ünsiyyət vasitəm bu baxışlar olmamışdımı? Bunlar üzümə dikilərkən duyduğum zövqü, nəşəni sizə necə izah edim?.. Neftçi babayam, hisslərimi ifadə üçün münasib sözlər tapa bilmirəm. Elə bilirəm məni sözsüz də başa düşərsiniz...

Nəsə, mətləbdən uzaq düşməyək. Oğlumu məşğul etmək üçün fikirləşirdim. Fikirləşə-fikirləşə də stolun üstündəki domino qutusunu qabağıma çəkdim. Qara, zərif, mərmər kimi işıldayan balaca daşları, özüm də fərqinə varmadan, bir-birinin üzərinə qoymağa başladım. Adətimdir: düşünərkən əlim də gərək bir işdə olsun. Axırıncı daşı qoyanda gördüm ki, stolun üstündə bir bina ucalır, oğlumun da baxışları qəribə bir maraqla bu binaya zillənmişdir.

– Hə, necədir, xoşuna gəlir, ya yox?! – deyə ondan soruşdum.

– Yaxşıdır, ayta, yaxşıdır!.. – O, balaca əllərini sevinclə bir-birinə vurub şappıldatdı, sonra nə fikirləşdisə, tez xəbər aldı: - Ayta, uçursam, birdən uçursam, neynərsən?

– Yenidən quraram!..

Oğlum şəhadət barmağını binaya necə ilişdirdisə, daşların stolun üstünə, yerə səpələnməsi heç bir saniyə də çəkmədi. Halbuki... Halbuki onu düzəltməyə yüzlərlə belə saniyələr sərf olunmuşdu.

Oğlum yerə tökülmüş daşları yığdı, gətirib qabağıma tökdü...

Az keçmədi bayaqkı bina hazır oldu.

Oğlum yenə uçurdu...

Mən də yenə qurdum...

Oğlumun bunu nə vaxt uçuracağını gözləyirdim. Gözləyirdim, ancaq deyəsən onda artıq belə bir həvəs görünmürdü. O nə isə fikirləşir, tərəddüd keçirirdi. Mən bunu yenə onun baxışlarından oxudum. Oxuyan kimi də dedim:

– Hə, nə oldu, birdən dayandın?

– Eh, nə olsun ki... Bu asandır. Bir barmaqnan uçub tökülür.

– İstəyirsən çətin olsun?

– Həəə!.

– Di onda gəl ev qur! – Cəld düzəltdiyim binanı ona sarı itələdim.

O da:

– Nə yaxşı!... – deyib həvəslə qara, zərif, mərmər kimi işıldayan daşları bir-birinin üzərinə düzməyə başladı.

Düzdükcə sevinci yerə-göyə sığmadı, lakin bina yarıya çatmamış uçdu. Oğlum pərt oldu, ancaq ruhdan düşmədi, inadından dönmədi.

Mən də onu başa saldım, səhvlərini göstərdim. Dedim ki, bala, evi başlayanda bünövrəsinə fikir ver. Bünövrə gərək düzgün qoyula, bir balaca əyri oldu, qurtardı, duruş gətirən deyil.

Oğlum da dediklərimə huş-guşla qulaq asır, daşı daş üstə qoyurdu. Gəlirdi, gəlirdi, lap az qalmış daşlar sürüşüb ətrafa səpələnirdi... O da yenidən yığır, yenidən işə başlayırdı. Hər dəfə də mən onu daha həvəslə, daha inamla işə girişdiyinin şahidi olurdum. Bu, məni dedikcə sevindirirdi. Oğlumun əməlinə baxdıqca ürəyimdə öz-özümə deyirdim: «Bax, belə ha... Başına döndüyüm, baxışlarına qurban olduğum oğul, həmişə çətin işin dalınca get! Çətini asan eylə!.. Həmişə qurmağa, yaratmağa, ucaltmağa çalış, ay mənim qurucu oğlum! YOxsa uçurmağa, yıxmağa, dağıtmağa nə var ki?!»

İstəyirdim bu sözləri ona da deyəm. Ancaq düşünürdüm ki, hələ tezdir, böyüyər, özü hər şeyi başa düşər. Düşərmi?..

Kaş başa düşəydi!...

*Dekabr, 1961*

# KÜLƏK GÜCLƏNİRDİ

Orduxan gecəki yuxusuzluğunun əvəzini çıxmaq istəyirmiş kimi uşaq təkin mışamış yatırdı. Özgə vaxtlarda onun bu sayaq yatmasından Səmayənin ürəyi axardı.

Səmayə çoxdan ayaqüstə idi. Duran kimi süfrəni də hazırlamışdı. Orduxanı gözləyirdi. Özgə vaxtlarda Səmayə mışamış yatan Orduxanı isti öpüşlərə qərq edər, «Canım, Orduxanım, pəhləvanım» deyə-deyə nəvazişlə onu oyatmağa çalışardı. Amma indi heç yaxınına belə getmək istəmirdi. Əlləri qoynunda oturmuşdu. Qəlbi sıxıla-sıxıla, didilə-dililə düşünürdü. «Nə vaxtacan uşaq üzünə həsrət qalacağam?! Nə vaxtacan əzablar içində qovrulacağam?! Ana olmaq istəmirəmmi mən? Niyə Gülbikə beş uşağın anası olsun, mən bircəciyinin də olmayım?! Niyə axı, niyə?!.»

Orduxan gözlərini açar-açmaz gərnəşdi, hələ yarıyuxulu gözləri Səmayəyə sataşanda gecəki xoşagəlməz söz-söhbət o andaca yadına düşdü, qanı bərk qaralsa da, özünü zorla ələ alıb dedi:

– Durmusan, mən də bu saat yadına düşdü, qanı bərk qaralsa da, özünü zorla ələ alıb dedi:

– Durmusan, mən də bu saat...

Səmayə onu axıracan dinləməyib mətbəxə keçdi. Özgə vaxtlarda o gəlib zərif, uzun barmaqlarını Orxudanın sinəsində gəzdirərdi. Xoşallanan Orduxan pıçıldardı:

– Səmayə!

Cavabında eşidərdi:

– Can!..

Orduxan nəşələnərdi:

– Gəl, uzan yanımda...

Səmayə nazlanardı:

– Bəsindi, qalx, işə gecikərəm.

– Sənə qurban olum, Səmayə, səndən doya bilmirəm heç.

– İstəyidim bu deyil ay səfeh?! Doysan neylərəm mən?!

İndi isə... Aralarında soyuq külək əsməyə başlamışdı.

Orduxan ayağa durdu, tələm-tələsik əl-üzünə su vurub stolun arxasına keçdi. Bir stəkan təzə dəmlənmiş çay içdi. Yeyib-içməkdə həmişə Səmayənin tərifli sözlərini eşidən Orduxanın indi iştahı qaçmışdı. Getməyə hazırlaşanda Səmayə sözləri dilini yandırırmış kimi dayana-dayana, güclə dedi:

– Daha... gəlmə. Qəti qərara gəlməyə... çalış. Qərarıvu bu gün mənə deyərsən. Saat beşdə bulvarda ol. Qız qalasının qabağındakı yeri deyirəm. Orda səni gözləyəcəyəm.

– Səmayə, bəlkə...

Səmayə ona macal vermədi axıracan sözünü desin:

– Yox, yox, Orduxanq, daha bəsimdir, gizli görüşlərdən cana doymuşam. Nə vaxtacan özümküləri, camaatı aldadacağam. Kifayətdir. Sən ya oranı, ya buranı seçməlisən. Buranı seçdin buyur gəl, göz üstə yerin var. Yox, əgər oradan ayrıla bilmədin canın sağ olsun, dözərik birtəhər, daha buranı ömürlük yadından çıxart. Eşidirsən, ya Gülbikə, ya mən?!

Orduxanı eşitdiyi sözlər sancırdı, sarsıdırdı. «Ay allah!.. Necə də amansız olub bu qız? Beş uşağın atasına da belə demək olarmı: ya oranı, ya buranı?!»

Belə düşünsə də Səmayəyə başqa sözlər dedi Orduxan:

– Axı sənsiz yaşaya bilmərəm, gözümün işığı, mənim istəkli arvadım.

Səmayə kinayə və acıqla:

– Kəbinsiz arvadım, aşnam desənə – dedi.

– Mən səninlə günü bu gün kəbin kəsdirməyə razıyam, ay insafsız. Ancaq neyləyim ki, bizdə iki kəbinə...

Səmayə bilirdi ki, dalısı «icarə vermirlər» gələcək, odur ki, bunu eşitməmiş dedi:

– Ona görə mən də istəyirəm ki, bu işə nöqtə qoyaq.

– Deмək asandı: «nöqtə qoyaq». Deyirsən, amma mənim nə çəkdiyimi heç fikirləşmirsən. Heç yazığın gəlmir mənə. Bir qram da gəlmir. – Bu sözlərini deyə-deyə Orduxan nəzərlərini «əkbinsiz arvadı»nın iri, qara gözlərinə zillədi.

Səmayə qətiləşdi:

– Başqa çarəmiz yoxdu, Orduxan. Niyə başa düşmək istəmirsən? Mən... – O, azacıq dayandı, sifətində əzab çəkdiyini bildirən ifadələr çoxaldı – gecə dedim axı sənə, bir də təzədən niyə dedirtmək istəyirsən, hə?!

Səmayə gözlərini yalnız bir an Orduxanın üzündə saxlaya bildi. Orduxan həmin anı tutdu: «Ana olmaq istəyirəm, ana!»

***

Orduxan Səmayənin mənzilindən çıxanda fikri heç özündə deyildi. Bu gün gərək nazirliyə dəyəydi. Hiss elədi ki, bir iş görmək halında deyildir. Gəlib-gəlib düz nazirliyin qapısında qayıtdı. «İndi getməsəm yaxşıdı, işləri bir az da korlaram...»

Özünün də şəhərdə bir-iki xırda-para işləri vardı. Uşaqlarına bəzi şeylər alacaqdı. İstədi yolunu mağazalara salsın. Ayaqları getmədi. «Əh, cəhənnəm olsun hamısı... Bəs evdən çıxanda Gülbikəyə söz vermədin, Orduxan?! Nə tez yadından çıxdı?! Ağzıvu qulağına söykəyib demədin ki, gözüm arvad, gərək bu dəfə sənə əladan da əla bir dəst alt paltarı alam. Gecə gördüm, yamanca kasıblamısan. Mənim diqqətsizliyimdir bu. Uşaqlara alıram həmişə, sən yaddan çıxırsan, arvad... Dedin? Dedim! Bəs almağa niyə getmirsən?! Eeeh, indi mən o hayda deyiləm. Səmayə qoyur ki, ağlımız başımızda hərlənək!. Nə olar eee, bir dəfə də evə əliboş getsəm?! Dünya dağılmayacaq ki?! Hələ bir görüm evə qayıda biləcəyəm?!.»

O ağır düşüncələr içində çox sevdiyi sahil bağına gəldi. Bu bağda Səmayə ilə bağlı xatirələri vardı. Özü də hiss etmədən gəlib ona tanış, ona əziz skamyada oturdu. Bu skamyada o, Səmayə ilə yaxınlaşmış, açılmamışdı. İntim hisslərinə sərbəstlik vermişdilər. İndi budur, Səmayə ilə canıbir, qəlbidir olan vaxtda külək əsməyə başlamışdı. Bu küləyi o heç gözləmirdi. Külək əsir, əsirdi.

Orduxan qəlbini gizildədən skamyada oturan kimi nəzərlərini uzaqda qaralan gəmiyə zillədi. Gəmi gəlirdimi ki, gedirdimi, dayanmışdımı, ayırd edə bilmədi. Doğrusu, bu haqda başını yormaq istəmirdi. Onsuz da yükü çoxdu, fikirləşməli, fikirləşməliydi. Gözünün qabağındaca qağayılar elədən-belə, belədən elə uçuşur, çığırışırdılar. Orduxan həmişə çox maraq göstərdiyi bu mənzərəyə baxırdısa da, ancaq fikrində Səmayə ilə, Gülbikə ilə danışır, onları müqayisə edirdi. «Burada qeyri-qanuni arvadım var, Səmayə. Yuşmaq, pərğu bədən, ağca maya. Ağlımı başımdan alır, Səmayə. Ruhuma qida verir, əsəblərimi sakitləşdirir, könlümü açır, özümü cavanlaşdırır... Orda, evdə qanuni arvadım var, Gülbikə... O ya bir kötükdür, ya arvad. Heç fərqi yoxdur mənimçün... Dayan, dayan, sən nə dedin, kötük?! Hə, kötük! Ay nankor, ay insafsız!.. Bunu sən o adam barəsində deyirsən ki, pambıq tarlalarında ən ağır zəhmətə qatlaşıb beş il səni oxutmuşdur?! Hə! O adam barəsində deyirsən ki, sənin beş uşağını yedirmiş, içirmiş, əyin-başının qayğısına qalmışdır?! Hə!.. Sən də əlin belində oxumusan, qızlarla mazaqlaşmısan, axırda da birini – Səmayəyə ilişmisən, vurulmusan?! Hə!.. O adam barəsində deyirsən ki, sənin oxumağın naminə, uşaqlarının korluq çəkməməsi naminə öz gözəlliyini, qadınlıq incəliyini itirmişdir, əlləri, ayaqları kobudlaşmışdır, özün demiş arvad ikən dönüb kötük olmuşdur?! Hə.. O adam barəsində deyirsən ki, səni yaşatmaq, bir sənət yiyəsi eləmək üçün öz yaşamamamışdır, öz yaşayışını əzab, əziyyət yumağına döndərmişdir?! Hə.. Nəhayət, o adam barəsində deyirsənki, öz geyiminə fikir verməyib səni həmişə təzə paltarda oxumağa yola salıb, sən də tələbə yoldaşların arasında başıaşağı olmamısan?! Hə!.. Daha mənim sənə heç bir sözüm yoxdur!.. Sənə heç bilmirəm ki, daha nə cür ağır söz deyim?!. Sən kimsən e, bayaqdan yapışmısan boğazımdan, buraxmırsan? Mən sənin vicdanınam. Səndən əl çəkən deyiləm, sən məni ayaqlaya bilməzsən, Orduxan!..»

Orduxan yerində qurcalandı. Qağayılar elədən-belə, belədən elə uçuşur, çığırışırdılar. Bir yekəsi elə Orduxanın həndəvərində dolaşırdı. Külək əsir, əsirdi.

Tərəddüd Orduxanın varlığını bürümüşdü. Skamyada qurumuşca oturmuş bu adamın qəlbində hissləriylə şüurunun mübarizəsi gedirdi. Hansı hələbə çalacaqdı,

hansı?! Hissləri Orduxanı Səmayənin yanına çəkirdi, şüuru Gülbikənin. İki yol ayrıcında qalmışdı, çırpınır, çapalayırdı.

Birdən qarşısında bir adamın dayandığını hiss elədi, başını qaldıranda tez ayağa durdu:

– Orduxan, bu sənsən?!

– Mənəm, Ağamirzə müəllim, mənim əziz müəllimim, salam professor.

– Əleyküməssalam, Orduxan! Bilirsən, səni əvvəlcə tanıya bilmədim. Bəs qanın niyə qaradır?

– Heç, elə bir şey yoxdur, professor.

Orduxan belə dedisə də ürəyində düşündü: «Həmin müəllimsən ki, durubsan. Həssas, hər şeyi adamın üz-gözündən oxuyan».

Ağamirzə iti, nüfuzedici baxışlarını Orduxanın düz gözlərinin içinə zillədi:

– Mən heç vaxt səni belə görməmişəm axı. Hanı o üzügülər, şən, zarafatcıl Orduxan. Fakültəmizin Orduxanı. İndi elə bil... – birdən o duruxdu. Nə fikirindən keçdisə, tələsik soruşdu: - Bəlkə bir hadisə-zad üz verib sənə, Orduxan?!

Orduxan özünü yığışdırdı.

– Elə bir şey yoxdur, Ağamirzə müəllim!..

Ürəyində isə Orduxan belə fikirləşdi: «Dərdim böyükdür Ağamirzə müəllim! Ay mənim həssas müəllimim. Biləydiz nə dərdə düşmüşəm, nə dərdə düşmüşəm!.. Ancaq bunu sizə necə deyim?! Deyə bilərəmmi heç? Kaş, deyə biləydim! Arxayınam ki, ən doğru məsləhəti siz mənə verərdiz!..»

– Oturaq, Orduxan.

Oturdular.

– Yaxşı, de görüm uşaqların necədir, böyüyüblərmi?!

– Canınıza dua eləyirlər, Ağamirzə müəllim. Böyüyürlər.

– Sənin beş uşağın gərək olsun, Orduxan.

– Düzdür, professor, beşdir.

– Dördü qızdır, biri oğlan. Qızlarının adı «Gül» ilə başlayırdı. Oğlunasa gərək ki, Babəkin adını qoymuşdunuz, elədir?

– Elədir, professor.

Orduxan Ağamirzənin hafizəsinə təəccüb elədi. Onlara iki semestr dərs demişdi. Tələbələrin sevimlisi idi. Onlarla zarafat eləməyi xoşlardı. Xüsusən də Orduxanla. Onun evli olduğunu biləndən sonra hərdənbir sataşardı da ona. Bütün auditoriya bu xoş zarafatdan uğunub gedərdi. Yoldaşları da, Ağamirzə müəllim də Orduxanın uşaqlarının adlarını bilirdilər. Bir dəfə seminar məşğələsində mübahisə qızışmışdı, söhbət cehizdən düşmüşdü. Elə bu vaxtda professor özünəməxsus şirin zarafatla mübahisə edənlərə üzünü tutub demişdi:

– Sizə nə var, sakit-sakit, arxayın-arxayın cehiz haqqında danışırsınız. Ancaq bir Orduxana baxın, yazığı indidən fikir götürüb ki, dörd qızın cehizini necə yığıb-yığışdıracaq. Tələbələr gülüşmüşdülər.

Orduxanla bir rayondan, bir kənddən olan tələbə qız da demişdi:

– Ağamirzə müəllim, Orduxanın yoldaşı qoçaqların qoçağıdı, qabaqcıl pambıqçıdı, yaxşıca da qazanır. O hamısını düzəldəcəkdir.

Ağamirzə də əlavə etmişdi:

– Orduxan da papağını yan qoyub gəzəcəkdir.

Orduxan bütün bunları ürəyi kövrələ-kövrələ xatırladı.

Ağamirzə soruşdu:

– Orduxan, sevimli qızlarının adını yadıma sal bir görüm.

Orduxan həvəslə dedi:

– Yazgül, Aygül, Yenigül, Eyzəngül.

Ağamirzənin eyni açıldı:

– Bəh-bəh. Xoşbəxt atasan, Orduxan. Gün o gün olsun onları bir-bir öz əlinlə köçürəsən.

– Sağ olun, professor. Ömrünüz uzun olsun!

Ağamirzə razılıqla Orduxana baxdı:

– Mən bilirəm, Orduxan, sən uşaqcanlı, ailəcanlı bir adamsan. Sən uşaqlarını istəyən, qayğıkeş atasan. İndi qızlarının adını deyəndə də bunu hiss elədim. Axıracan belə olsun.

Orduxan düşünürdü: «Allah sizi haradan yetirdi mənimçün, ay Ağamirzə müəllim! Heç bilirsiz, necə vaxtında gəlib çıxdız!..»

– Orduxan, fikrə getdin, düz demirəm?

– Düz deyirsiz, Ağamirzə müəllim. Uşaqlardı da bizi yaşadan.

– Əvvəlcə gərək biz onları yaxşı tərbiyə edək, yaxşı oxudaq, gümrah böyüdək...

Orduxan tələbəlik illərində olduğu kimi müəllimini indi də böyük maraqla dinləyirdi, qanadlanırdı...

Ağamirzə Orduxanla sağollaşıb getdi. Orduxan xeyli onun ardınca baxdı, sonra nəzərlərini dənizə çevirdi. Dəniz dalğalanırdı. Qağayılar sulara baş vurur, qalxır, çığırışırdılar. Külək vıyıldayırdı...

Orduxan saatına baxdı. Beşə on dəqiqə qalırdı. Ürəyi döyünməyə başladı. Ayağa durdu. Həsrətlə, yana-yana haçandan-haçana oturduğu skamyaya baxdı, baxdı, yavaş-yavaş, istəməyə-istəməyə oradan uzaqlaşdı...

«Qız qalasının qabağındakı yer»də Səmayə gözləyirdi. Orduxan kədər içində yaxınlaşdı. Soyuqca salamlaşdılar.

Orduxan üzünü Səmayəyə tutdu:

– Səmayə, gəl tərsliyi burax, elə əvvəlki təkin...

Səmayə bir az da ciddiləşdi, Orduxana sözlərini qurtarmağa imkan vermədi.

– Yox, mümkün deyil. Nöqtə qoymalıyıq.

– Ömrüm boyu nöqtəyə nifrət edəcəyəm. Səmayə!

Səmayə dedi:

– Əlvida, Orduxan!

Orduxan dedi:

– Sağ ol, Səmayə!

Dəniz təlatümə gəlirdi. Külək güclənirdi.

*Oktyabr, 1985*

## «GÜNLƏRİN BİR GÜNÜNDƏ» SİLSİLƏSİNDƏN

## ADINI SİZ DEYİN

Qışın ortaları idi. Qar hələ yağmamışdı (Bakıda yaşayanlar üçün bu, o qədər təəccüblü deyil), amma soyuqlar əməlli-başlı düşmüşdü. Külək sillə kimi adamın üzünə dəyib keçirdi...

Trolleybus duracağında xeyli adam vardı (deyəcəksiniz az olan vaxtı haçan olub?!). Diqqətimi birisi xüsusilə cəlb elədi. Onun açıq başı təzəcə sulanmış asfalt kimi işım-işım işıldayırdı, saçını yağladığına şəkk-şübhə ola bilməzdi. Tünd-mavi rəngli, balağı çox dar şalvar geymişdi. Ayağında qapqara, nazikburunlu tufli vardı. Par-par parıldayırdı. Oğlanın başaı ilə ayaqları elə bil parıldamaqda yarışa girmişdi. O, külrəngli, olduqca gödək paltosunun ensiz nazik boyunluğunu qaldırmışdı...

Yanımda yaşlı iki qadın durmuşdu. Deyəsən onların da nəzərləri bu oğlanda idi. Birdən daha yaşlısı üzünü qonşusuna tutub əsəbi halda dedi:

– Bircə, sən allah, o göyərmiş stilaqaya bax... Forsundan başına papaq qoymur, nə var, nə var saçının ütüsü pozular. Gör bir soyuqdan necə büzüşüb kirpiyə dönüb.

– Balam, şəhərdə elə qripi yayan bu alabəzək qırılmışlar deyil bəyəm?! – deyə o biri qadın müsahibinin sözünə qüvvət verdi. – Soyuqda, çovğunda bir gün başıaçıq, yaxasıaçıq gəzib forslanırlar, sonra da bir həftə qripdən zingildəyirlər. Bizim qonuşuluğumuzda da bir beləsi var. Yatanda anasının kapron corabını başına geyir, sən demişkən, saçının ütüsü pozulmasın... Anası da gecə-gündüz deyinhadeyindədir ki, oğlu corablarının ilməsini qaçırır. Amma sən indi gəl oğulun iddiasına bax! Danışanda ağzına çullu dovşan sığışmır. Əslini axtarsan, bizimlə heç danışmaq istəmir. Bəs necə?! Axı o özünü mədəni sayır, hə, biz isə onun gözündə avamıq, dünyadan xəbər-ətəri olmayan avam.

– Əcəb mədəniyyətdir, balam, isti otaqda başına kapron corab gey, gir isti yorğan-döşəyin içinə... Səhər də boranda, çovğunda başıaçıq, döşüaçıq düş şəhərin

canına... Nə deyim, vallah bəlkə biz doğrudan xəriflәmişik, belә şeylәri başa düşmürük?

Trolleybus gəldiyindən, adamlar ona doğru axışdılar. Başıaçıq oğlan, de bayaq, irəli soxulub yaşlı qadınlardan da qabaq özünü içəri saldı... Hamı minəndən sonra trolleybus yola düşdü və elə düşər-düşməz, sürücünün təqsiri üzündən, qəfildən adamları bərk silkələdi. Bu zaman bir qız, özündən asılı olmayaraq, başıaçıq oğlanın ayağını tapdaladı və tez də günahkarmış kimi ondan üzr istədi. Başıaçıq oğlan nəsə dodaqaltı mızıldandı, lakin səs-küy olduğundan, mən onun qıza verdiyi cavabı eşitmədim.

O biri duracaqda xeyli adam düşdü, trolleybus seyrəkləndi. Mən indi başıaçıq oğlanın lap yanındaydım. O, tez-tez ayaqqabısına baxıb rəngdən-rəngə düşürdü. Mən də baxdım. Sağ ayağındakı ayaqqabısının sağ tərəfində tapdaq ləkəsi gördüm.

Bu vaxt trolleybusda iki yer boşaldı. Birisində mən oturdum, birində o. oturan kimi də nəzərləri yenə ayaqqabısına zilləndi, sonra başını qaldırıb yan-yörəsinə göz gəzdirdi. Heç əksin onda fikri olmadığını yəqin edib, cibindən səliqə ilə qatlanmış qar kimi ağ cib dəsmalını çıxartdı, əyilib bir göz qırpımında ləkəni sildi. Gədənin birdən-birə rəngi-ruhu özünə qayıtdı. Sinə dolusu rahat nəfəs alıb, dəsmalı cibinə qoymaq istəyirdi ki, burnunun ucu titrədi, «həpçi» edib dalbadal üç səbir gətirdi. Əlindəki dəsmalla burnunu təmizlədi, ağzının yanlarını sildi, dəsmalı səliqə ilə büküb cibinə qoydu. Bir dəqiqə keçməmiş yenə asqırdı, yenə həmin dəsmalı çıxarıb ağız-burnunu təmizlədi və trollleybusdan düşdü.

İki-üç addım atmamış boğazını arıtlayıb, süpürülmüş ayna kimi asfaltın üzərinə ləkə saldı. Az qalmışdı bu, oradan keçən bir qadının üstünə düşsün. Qadın ayaq saxlayıb, bir az aralıda qoyulmuş yaraşıqlı ağ zibil qutusunu ona göstərdi. Zibil qutusuna baxa-baxa oğlanın çiyinləri qalxıb-endi, o mənasızca cülümsədi, bayaqkı dəsmalla ağız-burnunu silib, yoluna düzəldi.

Pəncərədən arxasınca xeyli baxdım, gözdən itincəyədək baxdım... Özüm də bilmirəm niyə baxırdım...

Günlərin bir günündə, qışın ortalarında təsadüf etdiyim bu əhvalatı sadəcə qələmə aldım, ancaq adını qoymadım. Nə olar, əziz oxucular, adını siz deyin.

*Fevral, 1960*

## «BALACA DOSTLARIM ÜÇÜN» SİLSİLƏSİNDƏN

### ANA QOYNU

Cəmilə harada iki, toyuq-cücə görərdi oradan əl çəkməzdi. Anasına da dediyi həmişə bu olardı.

– Ana, nə olar, mənə cücə al da... Gör onlara necə baxaram...

Günlərin bir günündə anası da zoomağazadan iyirmi cücə alıb gətirdi. Cəmilə yay tətilinə buraxılmışdı, bu gün-sabah bağa köçəcəkdilər.

Cəmilə yupyumru, sarı dimdikli, bapbalaca cücələri görəndə sevinci yerə-göyə sığmadı.

Anası böyük bir qutuda cücələrinə yer düzəltdi; onlar üçün yemək hazırladı, su qoydu.

Özü də balaca stulunda əyləşib, onlara tamaşa etməyə başladı...

Atası işdən gələndə Cəmilə qaçıb əllərindən tutdu, çəkə-çəkə qutunun yanına gətirdi:

– Atası, gör nə qəşəng cücülərim var... Anam alıb.

Ata qızının başını tumarlayıb dedi:

– Ay şeytan, axır ki, istəyinə çatdın. Ancaq gərək yaxşı qulluq edəsən ki, ölməsinlər!

– Yaxşı baxacağam, atası. Yaxşı, yaxşı!

***

Cəmilə səhər hamıdan tez durdu. Tələsik dəhlizə gəlib qutuya baxanda heyrətdən gözləri alacalandı, birbaşa atası yatan otağa qaçdı...

Cəmiləni narahat edən nə idi? Yoxsa cücülərinə bir şey olmuşdu?

Atası gəlib qutuya baxanda hər şey aydın oldu. Axşamdan bərk isti olduğuna görə onlar dəhlizin pəncərələrini açıq qoymuşdular. Gecədən xeyli keçmiş isə şiddətli yağış başlamışdı, səhərə yaxınq dəhlizin havasını soyutmuşdu. Cücələr, görünür, soyuğa davam gətirmədikləri üçün bir-birinin qoynuna girmiş, bir-birinə bərk qısılmış, qutunun bir küncünə sıxılmışdılar.

– Qızım, cücələrin sağ-salamatdır, onların büzüşüb bir-birinə qısılması səni qorxutmasın, axı, onlar körpədir. Körpəyə bilirsən də nə lazımdır?

Atası sualedci nəzərlə Cəmiləyə baxanda o, bir istədi desin «yox», sonra yadına düşdü ki, balaca bacısı xəstə yatanda həkim anasına tapşırmışdı ki, onu isti yerdə saxlasın, soyuğa verməsin. Buna görə də böyük-böyük cavab verdi.

– İsti yer lazımdı, ata, isti yer.

– Doğrudur, qızım, ancaq elə-belə isti yox, isti ana qoynu, isti ana nəvazişi. Bunların isə anaları yoxdur. Bir balaca soyuq oldumu, o saat bir yerə yığışır, özləri üçün bax, beləcə ana qoynu düzəldirlər... İndi gərək, qızım, sən bu yazıqlara elə baxasan ki, anasız olduqlarını hiss eləməsinlər. Yadında saxla ki, körpə üçün dünyada ana qoynundan isti, rahat yer tapmaq çətindir.

Atası gedəndən sonra, Cəmilə cücülərinə qulluq etməyə başladı. Onu indi bir şey çox düşündürürdü: cücülərinə atasının dediyi kimi baxa biləcəkmi?

*İyul, 1958*

## ELÇİNİN AĞACI

Elçin babasını görməyə tələsirdi. Nəhayət, gözlədiyi gün gəlib çatdı. Yığışıb bağa köçdülər.

Bağda onları birinci qarşılayan Musa kişi oldu. Elçin onu görcək, özünü maşından yerə atdı:

– Baba, mən sən deyən kimi oxudum, bütün qiymətlərim «5»dir.

– Ay sağ ol, mənim ağıllı balam, afərin, - deyərək Musa kişi əlini nəvəsinin başına çəkdi, əyilib alnından öpdü. – Bax, indi oldun mənim birinci dostum!

– Baba, sənə bağ işlərində kömək edəcəyəm, mənə iş tapşırarsan?

– Tapşıraram, oğlum, niyə tapşırmıram. Təki səndə həvəs olsun.

– Baba, müəllimimiz deyir ki, yaxşı oxuyan şagird yaxşı iş görməyi də gərək bacarsın, ata-anasına kömək eləyə bilsin.

– Müəlliminiz düz deyir, bala, zəhmət ki var, canın cövhəridir. Nahaq deməyiblər ki, işləyən dəmir parıldar, işləməyən dəmir paslanar.

Baba nəvələri ilə bir-bir görüşdü, xoş dillə onları danışdırdı.

***

Musa kişi yay-qış bağda qalar, meynələrə qulluq edərdi. Yay gələndə səbirsizliklə nəvələrinin yolunu gözlərdi. Onun üç nəvəsi vardı: Elçin, Lətif, İradə. Elçin hamıdan böyüyü idi. Lətif ondan iki yaş kiçikdi. İradə isə dörd yaşına yenicə girmişdi.

Baba bağda soğan, keşniş, turp, vəzəri, pomidor, badımcan və çoxlu gül-çiçək əkmişdi. Vaxtlı-vaxtında bunlara qulluq eləyirdi. Gündə iki dəfə sulayırdı: bir səhərçağı, bir axşamüstü.

Elçin də hər səhər erkən babası ilə yuxudan qalxır, onunla birlikdə çalışardı. Hələ bu yandan Lətifldə İradə də həvəsə düşmüşdülər: tez-tez qaçıb babalarının yanına gəlir, onlara da tapşırıq verməsini istəyirdilər. Nəvələrinin işə can yandırmaları babanın könlünü açırdı. O görürdü ki, tənbəllik deyilən azardan bu uşaqların canında əsər-əlamət belə yoxdur.

Bağda nəhəng bir qarağac vardı. Hər yana qol-budaq atmışdı. Deyilənə görə yaşı iki yüzdən yuxarı idi. Bu ağacın kölgəsi bağın ən səfalı guşəsi sayılırdı. Günün qızmar vaxtında belə, bura sərin olurdu. Elçin də babası ilə bir qədər işləyəndən sonra gününü burda keçirir, Musa kişinin nağıllarına qulaq asır, kitab oxuyur, yatıb dincəlirdi.

***

Yayın ən isti günlərindən biri idi. Elə isti idi ki, nəfəs almaq olmurdu. Qarağacın altı isə yenə əvvəlki kimi sərindi. Hamı bura yığışmışdı. Aralarında qonşu bağlardan da istiyə tab gətirməyənlər vardı (o ətrafda bu yekəlikdə ağac ancaq Elçingilin bağında idi). Qonşular kölgəsində oturduqları ağac barəsində, onu əkib gedən adam barəsində danışırdılar:

– Nə yaxşı iş görübsən, ay belə ağacı əkib gedən! Kölgəsində bircə dəqiqə oturanda adam cana gəlir.

– Nə əcəb bu varmış, yoxsa isti bizi lap əldən salardı!..

Elçin danışanlara diqqətlə qulaq asırdı. Musa kişinin fikri onda idi. Qonşular isə elə hey yaşıllıqdan, qarağacdan danışırdılar.

***

Ertəsi gün lap tezdən Elçin babasının yanına gəlib, ona mühüm bir sirr açırmış kimi yavaşca dedi:

– Baba, nə olar, mənə ağac əkməyi öyrət də... Qoy mən də ağac əkim. Özüm ona qulluq edəcəyəm.

Baba nəvəsinin fikrini ürəkdən bəyəndi. Ona ağac əkməyi öyrətdi. Ancaq onu da dedi ki, indi vaxtı deyil. Bu işi ya payızda, ya da yazın əvvəllərində görmək lazımdır.

– Baba, axı o vaxt mən şəhərdə olacağam.

– Eybi yoxdur, bala, darıxma, mən özüm vaxtı çatanda sənin ardınca şəhərə gələrəm. Heç darıxma.

Elə də oldu. Baba ilə nəvə münasib bir cün seçib birlikdə ağac əkdilər. Çinar ağacı...

Elçin böyük həvəsli bu körpə çinara qulluq edirdi. Şəhərə köçəndə onu babasına tapşırır, ya olanda yenə özü baxırdı. Çinar yavaş-yavaş dirçəlməyə başlayırdı...

İndi hamı bu ağaca Elçinin ağacı deyir. Bu, Elçinin ürəyini fərəhlə doldurur. O, yaşa dolduqca əkdiyi çinar da böyüyür. Çinar böyüdükcə Elçinin arzuları da qanadlanırdı: çinar böyüyəcək, uca, uca ağac olacaq. İsti olanda adamlar kölgəsinə yığışacaq, dincələklər. Sonra da hamı bir ağızdan deyəcəkdir:

– Nə gözəl ağacdır! Nə yaxşı iş görübsən, ay  Elçin, bu ağacı əkən yerdə!.. Əlin-qolun var olsun!

*Avqust, 1958*

## ÇOXBİLMİŞ

Keçən dərsi danışmaq istəyənlər əl qaldırmışdılar. Tükəz müəllimin kimisə axtaran gözləri birdən Adilə sataşdı. Adil müəllimin nəzərlərindən yayınmaq üçün heç bilmirdi nə etsin...

Tükəz müəllimin amiranə səsi sinifdəki dərin sükutu pozdu:

– Adil, sən gəl.

Adilin rəngi qaçdı, ayağa durub çəkinə-əkinə dedi:

– Müəllim... müəllim... mən bilmirəm.

Müəllim təmkinlə soruşdu:

– Niyə?

Adil cavab vermək əvəzinə qıpqırmızı qızarıb, başını aşağı saldı.

– Hə, belə de, aydındır... Dünən cavab verdiyinə, «4» aldığına arxayın olmusan, elə bilmisən ki, bu gün səndən soruşmaram. – Tükəz müəllim sinfə göz gəzdirdi.

İki ildən bəri dərs dediyi şagirdlərin diqqəti onda idi. Adil isə ayaq üstə dayanaraq, rəng verib rəng alırdı, müəllimin üzünə baxmaqdan çəkinirdi, Tükəz müəllim ona belə bir sual verdi:

– Adil, atan harda işləyir?

– Neftayıran zavodda.

– Nə iş görür?

– Operatordur.

– Hər gün işə gedir?

– Bəli, müəllim.

– Bax, görürsən, atan hər gün işə gedir ki, sən yaxşı yeyib-içəsən, yaxşı geyinəsən, asudə oxuyasan, vaxtlı-vaxtında da dərsə gələsən, həm də hər gün hazır gələsən. Axı dərs oxumaq da sənin işindir... Otur.

Adil pərt halda oturdu. Müəllim jurnala nə isə yazdı. Uşaqlar onun əlinin hərəkətindən «2» yazdığını dərhal başa düşdülər.

***

Ertəsi gün Tükəz müəllim Adilin oturuşundan, üz-gözündən, sakit baxışından hiss etdi ki, o, dərsə hazır gəlmişdir. Daha ondan soruşmadı. Axı sinifdə uşaq çoxdur. Hər gün eyni şagirddən soruşmaq mümkün də deyil.

Adil isə yerində oturub fikirləşirdi: «Gör nə çoxbilmişdir! Üzümə baxan kimi bildi ki, öyrənmişəm, soruşmadı. İndi gərək gün hazır gələm... Əcəb işə düşdüm!..»

Belə işə düşmək pisdirmi?

*Sentyabr, 1958*

## İTMİŞ KEÇİ

Fikrət bacısı Məhbubəni çox istəyir. Məhbubə ondan dörd yaş böyükdür, üçüncü sinifdə oxuyur.

Bir axşam Məhbubə dərsini hazırlayırdı. Fikrət onun yanına gəlib dedi:

– Bacı... ay bacı, bir baxginən də.

Məhbubə başını qaldırdı. Fikrət əlindəki oyuncağı ona göstərdi:

– Gör nə yaxşıdır!

Fikrətin əlində şiş buynuzlu, uzun saqqallı keçi vardı. Fikrət barmağı ilə onun buynuzlarına toxunanda keçi salam verirmiş kimi başını aramla endirib qaldırırdı.

Oyuncaq Məhbubəyə tanış gəldiyindən qardaşından soruşdu:

– Bunu sənə kim verib?

– Həyətdən tapmışam.

– Ver bir baxım.

– Yox, özüm tapmışam, özümündür.

– Özün tapanda nə olar, ver baxım, yenə verərəm.

Fikrət oyuncağı bacısına uzatdı:

– Yaxşı, ala.

Məhbubə keçini alıb diqqətlə nəzərdən keçirdi, qulaqlarına baxanda hər şey ona bəlli oldu.

Bu oyuncaq qonşuluqda yaşayan Minayənin idi. Minayənin böyük bacısı Münəvvər Məhbubə ilə bir sinifdə oxuyur. Məhbubə tez-tez onlara gedir, birlikdə dərslərini öyrənirlər. Bir neçə gün əvvəl Məhbubənin yanında Minayə keçini əlindən salıb, bir qulağını dibindən sındırmışdı, sonra da oyuncağının zədələnməsinə dözə bilməyib ağlamışdı. Bu zaman Münəvvər ilə Məhbubə, onu sakit eləyib keçinin qulağını yapışqanla bərkitmişdilər.

«Yazıq Minayə, indi də yəqin sevimli keçisini itirdiyi üçün ağlayır» - belə düşünən Məhbubənin ürəyi sıxıldı. Əhvalatı tələsik qardaşına danışıb dedi:

– Səhər keçini aparıb verərsən Minayəyə, bildin!

Bacısının sözü Fikrətin xoşuna gəlmədi, üz-gözünü turşutdu.

– Demək, sözümə baxmırsan?

– Mən bilmirəm, mən keçini yerdən tapmışam. Özümündür.

– Sənin deyil, özün deyirsən ki, onu tapmısan, elə bunun üçün də gərək sahibinə qaytarasan! İndi Minayəni anası danlayacaq, bəlkə daha ona oyuncaq almayacaq.

Fikrət isə çiyinlərini çəkə-çəkə bacısına deyirdi:

– Mənə nə var, yerdən tapmışam, özümündür. Mən heç nə bilmirəm...

Divanda uzanıb dincələn ata qızı ilə oğlunun söhbətini eşidirdi. O, işarə ilə arvadını çağırıb qulağına nəsə pıçıldadı. Arvadı da cavabında başı ilə razı olduğunu bildirdi. Ata ayağa durdu, oğlunun sevimli oyuncağı Buratinonu götürüb gizlətdi.

Bir azdlan ana gəlib oğlundan Buratinonu soruşdu. Fikrət onu qoyduğu yerdə görməyib əl-ayağa düşdü. Hər yeri axtardılar. Tapılmadı ki, tapılmadı.

Fikrətin gözləri dolmuşdu, tez-tez burnunu çəkir, az qalırdı ki, ağlasın. Bu vaxt anası onu danlamağa başladı:

– Daha sənə bir də oyuncaq almaram, nə alıram elə itirirsən. Belə də iş olar?

Fikrət ağladı. Səsə ata gəldi. O da Buratinonu axtarmağa başladı. Bir-iki dəqiqə keçməmiş qışqırdı:

– Tapdım, tapdım, budur ey, burada imiş, - ata divanın böyrünü göstərdi.

Fikrət atasının yanına qaçdı. Buratinonu alıb sinəsinə sıxdı, rəngi açıldı, yaşlı gözləri sevinclə parladı.

Ata arvadını və qızını yanına çağırdı, oğluna eşitdirmək məqsədilə onlara dedi:

– Görürsünüz, itirdiyini tapanda adam necə sevincək olur. Oyuncağını tapıb verməsəydim, yəqin Fikrət onu gecə də yuxusunda görəcəkdi. İndi necə də şaddır!..

Şad olan Fikrətin nəzərləri birdən Məhbubənin əlindəki şiş buynuzlu, uzun saqqallı keçiyə sataşanda tutuldu, şadlıqdan əsər-əlamət qalmadı.

Daha nə Məhbubə, nə ata-anası keçini sahibinə qaytarmaq barəsində Fikrətə bir söz demədilər. Ancaq o, səbirsizliklə səhərin açılmasını gözləyirdi.

*8 sentyabr, 1960*

## YUXUN ŞİRİN OLSUN, BALASI!

– Ana, ay ana, bəs sən yatmırsan?

– Yox, qızım, görürsən işim var, dəftərləri yoxlayıram.

– Nə olar, səhər yoxlarsan da... Mən istəyirəm sən də yatasan.

– Yox, qızım, yata bilmərəm. Dəftərləri gərək bu axşam yoxlayam, səhər uşaqlar görsünlər ki, nə qiymət alıblar.

– Gecən xeyrə qalsın, anası!

– Yuxun şirin olsun, balası!

Qızın başı yastığa düşür, ananın başı dəftərə sarı əyilir. Qızın gözləri yol çəkir, ananın gözləri rəqəmləri bir-bir yoxlayıb yola salır...

***

– Ana, ay ana!..

– Nə var, bala?! Mənə mane olursan axı... Yaxşı, dodağını sallama, de görüm nə istəyirsən?

– Ana, sən heç uşaqlara «2» verirsən?

– Hərdənbir olur...

– Mən istəyirəm sən heç kimə «2» verməyəsən.

– Bu bəyəm məndən asılıdır?!

– Bəs kimdən asılıdır, ana?

– Şagirdin özündən, onun biliyindən...

– Yox, ana, söz ver ki, heç kəsə «2» verməyəcəksən.

– Yaxşı, qızım, yatginən, uşaq bu vaxtacan oyaq qalmaz ki...

– Gecən xeyrə qalsın, anası!

– Yuxun şirin olsun, balası!

***

– Ana, sən hələ yatmamısan?

– Yox, qızım. Bəs sən niyə oyandın, əlbət işıq gözlərinə düşür, yuxunu qaçırır?

– Yox ana, istəyirəm sən də yatasan...

– Dəftərləri elə indicə yarı eləmişəm.

– Baxım, - deyərək qız keçi kimi çarpayıdan atılıb anasının yanında hazır oldu.

O, maraq dolu gözlərinin təzə yoxlanmış açıq dəftərə zillədi, vərəqin sonunda qırmızı mürəkkəblə yazılmış «2» rəqəmini görəndə tutuldu.

– Ana, bəs mən xahiş eləmədim: heç kəsə «2» verməyəsən?!.

– Qızım, bu işə «2»-dən artıq qiymət vermək olmaz.

– Bəs indi o neyləyəcək? Əlbət ağlayacaq, hə?.. Ata-anası danlayacaq, yoldaşlarının da yanında utanacaq.

– Qızım, bax, dəftərində onun səhvlərini düzəltmişəm. O da indi gərək bu səhvlərini görüb çox çalışsın. Mən də onunla ayrıca məşğul olacağam. Elə edəcəyəm ki, bir də «2» almasın. Di get, uzan yat.

Qız könülsüz-könülsüz yerinə qayıtdı:

– Ana, mənim məktəbə getməyimə altı ay on iki gün qalıb düzdür?

– Düzdü, qızım, yatginən.

– Ana, mən məktəbə gedəndə heç «2» almayacam.

– Əlbəttə, qızım, sən gərək həmişə «5» alasan.

– Bir də, ana, bir də... – qız duruxdu, ürkək-ürkək anasına tərəf boylandı – ana, bir şey desəm mənə gülməzsən ki?!.

– Yox, qızım gülmərəm.

– De ata canı!

– Ata canı gülmərəm, qızım.

– Ana mən oxuyub sənin kimi müəllim olanda heç kəsə «2» verməyəcəm.

– Təki olsun, qızım, təki sənin şagirdlərin yaxşı oxusunlar, sən də onlara «2» verməyəsən.

– Gecən xeyrə qalsın, anası!

– Yuxun şirin olsun, balası!

*Sentyabr, 1965*

## ÖZGƏYƏ ƏRİŞTƏ KƏSƏN OĞLAN

İkinci sinifdə oxuyan oğlunun gündəliyində atası qeyri-adi bir yazıya rast gəldi. Gündəlikdə qəşəng xətlə yazılmışdı:

«Özü üçün umac ova bilmir, özgəyə əriştə kəsir».

Atanın dodaqları qaçdısa da özünü saxladı, çox ciddi və kinayə ilə oğlundan soruşdu:

– Hə, de görək bu gün nə «qəhrəmanlıq» göstərmisən. Gündəliyinə bu atalar sözünü müəllimin yazması heç də nahaq deyil.

Heydər çox o yan-bu yan elədisə bir şey çıxmadı. Atası onun danışmasını təkidlə tələb etdi. Heydər də axırda əlacsız qalıb qorxa-qorxa əhvalatı danışmağa başladı:

– Tapşırılan şeiri əzbərləməmişdim. Səhər dərsə gedəndə İftixara rast gəldim. O da öyrənməmişdi. İşimiz şuluqdu, nə edəcəyimizi bilmirdik. Məktəbə az qalmış birdən İftixar dedi:

– Gəl bu gün qabaqda oturaq. Müəllim əgər məni çağırsa arxam sənə tərəf dayanaram, sən də kitabı partanın altında tutub, ordan asta-asta deyərsən. Yox, əgər səni çağırsa, onda mən pıçıldaram. İkimizin də işi düzələr. Hə, nə deyirsən, razısan?

– Razıyam.

Sinfə gəldik. Qabaqda oturan iki yoldaşımızla yerlərimizi dəyişdik. Müəllim gələnəcən İftixarla təzə yerimizdə oturub, hələm bir balaca məşq də elədik...

Müəllim də gəldi. Sinfə göz gəzdirəndə bizə baxdı. Çox baxdı. Ürəyimiz qopdu. Qorxduq ki, bax, indicə bizi öz yerimizə qaytaracaq. Ancaq qaytarmadı. Stulundan əyləşib hazır-qayib elədi, sonra soruşmağa başladı. İftixarın adı ikinci çəkildi. O, cəld qalxıb sözləşdiyimiz yerdə arxası mənə tərəf durdu. Mən də kitabı

partanın altında açıb gözlədim. İftixar şeirin adını özü dedi. Gerisini mən pıçıldamağa başladım. Düz yarıya qədər oxumuşdum ki, müəllimin səsini eşitdim:

– İftixar bəsdir, gerisini də Heydər desin.

Mən kitabı tələsik partanın gözünə qoyub özümü itirmiş halda ayağa durdum. İftixar yerinə qayıtmaq istəyəndə müəllim onu saxladı:

– Sən də dayan.

Əcəb işə düşdük. Ayaqlarım əsə-əsə gəlib İftixarın yanında durdum.

– Heydər, şeirin gerisini başla.

Bilirdim ki, başlayım. Daşdan səs çıxdı, məndən yox.

Müəllim üzünü İftixara tutdu:

– İftixar, bir də başdan de, bəlkə Heydərin yadına düşə.

Ay dedi ha! Amma yox, şeirin adını dedi. Dalısı gəlmədi. Hardan da gələydi. Kitab orda qalmışdı, mən burda.

Müəllim ikimizə də «2» verdi. Mənim gündəliyimə hələ bir üstəlik bu sözləri də yazdı, tapşırdı ki, əzbərləyim.

– Yaxşı, bəs o sizinlə yerlərini dəyişən şagirdlərə müəllim bir söz demədi? – Heydərin atası soruşdu.

– Dedi. Onları da danladı ki, niyə yerlərini dəyişməyə razılıq veriblər. Bizə görə o yazıqlara da söz gəldi.

– Yaxşı, atalar sözünü əzbərləmisən?

– Əzbərləmişəm.

– Bir de görək.

– Özü üçün umac ova bilmir, özgəyə əriştə kəsir.

*11 sentyabr, 1965*

## YAĞIŞ YAĞIR

Günəşin ilıq şüaları otağın bir tərəfinə düşüb. Pəncərə pərdəsinin hərəkəti ilə hərdənbir titrəşən, gah irəli, gah geri qaçan bu şüalara dörd yaşlı Azər oynayır, atılıb-düşür, yerə-göyə sığmır.

Otağın o biri tərəfində stol arxasında Azərin atası oturub. Kitab oxuyur.

Birdən şüalar yox olur. Azərlə oynayan şüalar. Azər dörd bir yanına təəccüblə baxır, dodağı sallanır. Tez atasının yanına gəlir, astaca ətəyini dartır, gileyli-gileyli:

– Ata, ata, işıq qaçdı, - deyir.

Atasının fikri oxuduğu kitabda ola-ola:

– Nə?!. Nə aşdı?!. – deyə soruşur.

– Aşdı yox, ata, qaçdı, işıq qaçdı... Elə mehriban oynayırdıq ki... Bilmirəm nə oldu, - Azərin çiyinləri qalxıb-endi – qaçdı...

Ataya indi aydın olur ki, «qaçan» nədir. Odur ki, ayağa durub oğlunun əlindən tutur, pəncərənin qabağına gətirir, başa salmağa çalışır:

– Oğul, işıq qaçmayıb. O səni niyə qoyub qaçmalıydı ki... Özün deyirsən ki, mehriban-mehriban oynanırdınız. Elədir?

Azər ciddi?

– Bəli, - cavab verdi.

– Ay sağ ol. İndi qulaq ver gör sənə nə deyirəm. Bax, görürsən o buludları, günahkar o buludlardır. Onlar yavaş-yavaş gəlib günəş şüalarının qabağını kəsiblər. Sən də elə bilmisən şüalar qaçıb. Hə, oğul, görünür yağacaq. Yağmasa bu hava açılana oxşamır.

– Ata, qoy onda yağış tez yağsın, tez də qurtarsın, evimizə işıq gəlsin.

– Darıxma oğul, darıxma, hər şeyin vaxtı var...

Haçandan-haçana yağış yağmağa başladı. Başladı, ancaq qurtarmaq bilmədi. Payız yağışı idi, hara qurtaracaqdı.

Azərsə darıxır, yaman darıxır. Yağışın kəsməsini, işığın gəlməsini gözləyir.

Atası:

– Səbir elə oğul, səbir elə – deyir.

Yağış yağır, yağır, yağır.

*Noyabr, 1966*

## KİŞİ KİMİ

– Ver bura, ver!

– Yox...

– Bax, elə eləmə gücnən alım a!..

– Ala bilməzsən, ala bilməzsən.

– Alanda kişi kimi söz vermədin ki, haçan istəsəm qaytaracaqsan?!.

– Kişi kimi söz vermədim.

– Kişi kimi verdin.

– Yox.

– Ə, sənə demirəm verginən... – Söhbəti uzatmağa daha hövsələn çatmayan yeddi yaşlı Orxan özündən iki yaş yarım kiçik olan Elşadın üstünə cumdu.

Qardaşının hücumunu gözləyən Elşad ovcunda tutduğu balaca əsgər oyuncağı bir az da bərk sıxdı, yumruqları ilə özünü müdafiə etməyə çalışdı. Ancaq axıracan gücü çatmadı. Orxan onu yerə yıxdı, sinəsinə çöküb sağ yumruğunu açmaq istəyəndə Elşadın qulaq batıran zil səsi otağı başına götürdü. Bu, evdəkiləri haraya çağırmaq üçün sınaqdan çıxmış bir işarə idi.

Baş-başa olan hər iki otağın qapıları açıq olduğundan o biri otaqda oğullarının söhbətini dinləyən Rizvan özünü saxlaya bilməyib, ucadan səsləndi:

– Bu saat ikiniz də buraya, tez-tez...

Orxan hirslə Elşadı buraxıb ayağa sıçradı, dolmuş halda, qorxa-qorxa atasının hüzuruna yeridi:

– Bəs Elşad ağa niyə gəlmir?

Orxan çiyinlərini çəkdi:

– Mən bilmirəm.

Elşadın səsi eşidildi:

– Gəlirəm, atası, bu saat.

Yellənə-yellənə gəldi. Orxandan azacıq aralı durub girdə qara gözlərini ərköyünlüklə atasına zillədi.

Onun sağ əlinin barmaqları hələ də düyümlü idi. Aşkardı ki, qardaşından aldığı oyuncağı hələm-hələm vermək fikrində deyil.

– Bu nə boğuşmadır yenə salmısınız, hə?! – Rizvanın səsi uşaqların qulaqlarında cingildədi.

Birinci Orxan dilləndi:

– Ata, bilirsən...

– Bilirəm, - Rizvan onun sözünü kəsdi, - söhbətinizi eşidirdim. – Üzünü Elşada tutdu. – Bu nədir, yenə cığallığa başlamısan.

Elşad çəkinə-çəkinə olsa da etirazını bildirdi:

– Yox...

– Necə yox ki, kişi kimi söz vermisən...

– Mən kişi kimi söz verməmişəm.

– Bəs necə söz vermisən? – Rizvan onu öz sözü ilə tutmaq istədi.

– Elə-belə söz vermişəm.

Rizvan gülməkdən özünü güclə saxladı.

Orxan yenə and-aman elədi. Atası onu sakitləşdirib Elşada dedi:

– Bax, indi mənə kişi kimi de görüm oyuncağı alanda necə söz vermişdin?

Elşad əvvəlcə qımışdı, sonra qızardı, ancaq dinmədi. Atası onun işıqlı, oynaq gözlərindən aydınca oxudu: «Kişi kimi!»

– Aydındır... Hər şey aydındır... – Rizvan ona lap yaxınlaşdı. – Elşad, adam verdiyi sözü heç vaxt unutmaz. Kişi kimi söz vermisən, kişi kimi də üstündə dur. Yoxsa bundan sonra sözünə bir də heç kəs inanmaz. Zəhmət çək oyuncağı kimdən almısansa ona da qaytar.

Yamanca qanı qaralmış Elşad fısıldaya-fısıldaya ovcundakı oyuncağı acıqla Orxanın ayaqları altına atdı.

Orxan tez əyilib götürmək istədikdə atası qoymadı:

– Götürmə! Elşad, qardaşın oyuncağı sənə necə veribsə sən də ona eləcə qaytar.

Elşad yavaş-yavaş əyilib oyuncağı götürdü, ilk dəfə görürmüş kimi o üzünə-bu üzünə baxdı, qardaşına uzadanda Rizvan dedi:

– Bax, indi bu oldu kişi kimi.

*13 noyabr, 1967*

## «BİRİ VARMIŞ, BİRİ YOXMUŞ...»

Nəvə yetim qalmışdı. Ayyarımlığında anadan, altı yaşında atadan. Nənə onu qısılmağa qoymurdu. Darıxmağa qoymurdu.

Nənənin sinəsi maraqlı nağıllar, həzin laylalar, ürəyəyatan bayatılarla dolu idi. Atalar sözü, məsəllər dilindən düşmürdü. O, hər axşam qaragözlü, irigözlü, məsumbaxışlı sevimli nəvəsini yanında oturdur, bildiklərindən şirin-şirin ona danışırdı.

Nəvənin gözəl yaddaşı vardı. Nənəsi bir nağılı ikinci dəfə danışanda o dəqiqə onu dayandırırdı:

– Bunu yox, nənə! Bunu danışmısan. Təzəsini danış. Təzəsini...

Nəvə çox dərrakəli, fərasətli idi. Nənəsinə sualı sual dalınca verir, hamısına da ətraflı cavab istəyirdi... Nənə də cavab verirdi.

Nəvəsinin təzə-təzə sözlər eşitməyə, yeni bir şey öyrənməyə can atması nənənin də ürəyini açır, onu fərəhləndirirdi. Hərdən öz-özünə deyirdi: «Bu uşaqdan bir şey çıxacaq... Sən özün yetimin köməyinə çatginən, ilahi!»

Nəvə yatanda nənənin ürəyində arzular baş qaldırır, anasız qalmış körpəyə, qızının əziz yadigarına layla deyirdi:

Oxşasın dilim səni,
Böyütsün elim səni.
Meydanda at oynadan

Bir igid görüm səni.

Günlərin bir günündə nənə nəvəsinə belə bir nağıl da danışdı: «Biri varmış, biri yoxmuş, bir keçi varmış. Bu keçinin gözünün ağı-qarası üç balası varımış. Bu çəpişlərin birinin adı Şəngülüm, birinin adı Şüngülüm, birinin də adı Məngülüm imiş...»

Nənə danışır, nəvə həyəcanlanır, həyəcanlanır... Sonra iri qara gözlərində sevinc parlayır. Axı keçi qurddan intiqamını almışdır.

O axşam çəpişlər uzun zaman nəvənin gözü qabağından getmədi. Ana keçinin qayğıkeşliyi, balaları üçün özünü oda-közə vurması xəyalından çəkilmədi...

***

İllər keçdi, nəvə böyüdü. Nəvə şair oldu. Xalqımızın sevimli şairi!

Nənə çoxdan dünyaya göz yummuşdu. Ancaq şair onun unutmurdu, unuda bilmirdi.

Bir axşam şair xəyalən yenə öz uşaqlıq illərinə qayıtdı, nənəsini xatırladı. Onun nağıllarını, zümzümə etdiyi laylalarını xatırladı. Nənəsinin ahəngdar səsi qulaqlarında cingildədi: «Biri varımış, biri yoxumuş...»

Şair düşündü, düşündü... Düşüncələr onu öz uşaqlıq həyəcanlarını, ana keçinin acgöz qurda qələbəsindən doğan sevincini balaca dostları ilə bölüşdürmək qərarına gətirib çıxartdı. Yazı masısının arxasına keçdi, qələmi götürüb əvvəlcə əsərin adını yazdı: «Şəngül, Şüngül, Məngül». Sonra misralar dağ çayı kimi axdı, axdı:

Biri varmış, biri yoxmuş,
Məzlumların dərdi çoxmuş.
Saqqallı bir keçi varmış,
Gəzdiyi yer qayalarmış.

Bəli, uzun zamandan bəri xalqımızın qəlbində yaşayan gözəl nağıl ilk dəfə şeir dili ilə danışdı. Onu gözəl sənətkar Mikayıl Müşfiq danışdırdı. Bu, onun öz balaca oxucularına böyük hədiyyəsi oldu. Uşaqların ən sevimli kitablarından oldu...

Şairə elə gəldi ki, nənəsi Qızqayıt ölməmişdir, o yenə də nağıl danışır, ancaq indi təkcə ona – nənəsinə yox, bütün nəvələrə, bütün uşaqlara danışırdı: «Biri varımış, biri yoxumuş...»

*1968*

## SİMİC

Bilalın iki qızı, bir oğlu var. Böyük qızı Sevinc ikinci sinfə keçib. İki bacının bir qardaşı – Surxay beş yaşındadır. Kiçik bacı Təranənin də iki yaşı təzəcə tamam olub.

Uşaqlarıynan məşğul olmağa Bilal, ancaq istirahət günlərində vaxt tapır. Surxayın əzbər dediyi şeirləri dinləyir. Təranənin başını tumarlayır, məktəbli Sevinclə isə ciddi söhbətlər etməyi xoşlayır.

Növbəti istirahət günündə Bilal nə düşündü, nə düşünmədi, oğlunun hesabdan biliyini yoxlamaq fikrinə düşdü:

– Sənin beş alman var, Surxay, ikisini Sevincə, birini Təranəyə versən sənə neçəsi qalar?

Surxay heç fikirləşmədən, ərköyün-ərköyün:

– Beş, - dedi.

Gözlmədiyi cavabdan ata bir az pərt oldu. Nə üçünsə ona elə gəlirdi ki, Surxay hesabı gərək yaxşı bilsin.

Başa salmağa çalışdı:

– Oğul, bir yaxşı-yaxşı fikirləş, sonra cavab ver. Axı sən düz demədin. Beş qalmaz.

– Qalar.

– Necə yəni qalar?! – Bilal daha hirsini uda bilmədi. Ədə, beş alman var, ikisini götürüb verirsən Sevincə, birini Təranayə, sənə neçəsi qalır?

– Beş.

– Sən nə danışırsan?! Korafəhimin biri, korafəhim!

Bilal özündən çıxmışdı, elə bil qarşısındakı həmişə şeir deyərkən bağrına basmaq istədiyi Surxay deyil, əziz bir şeyi salıb sındırmış acgöz pişikdi.

Ərinin acıqlandığını görən ana yaxına gəlib söhbətə qarışdı:

– O, korafəhim deyil, Bilal. Amma...

– Nə amma... Kor-kor gör-gör də... Daha bunun əmması yoxdur ki...

– Var, Bilal, var... Bircə səbir elə, - deyərək üzünü oğluna çevirdi. – Balası, Sevincin beş alması var, ikisini sənə, birini Təranəyə versə, onda neçəsi qalar?

– İkisi.

Bilalın təəccübündən gözləri böyüdü:

– Heç nə başa düşmürəm, mənim dediyim misalnan bunun nə fərqi varmış ki...

– O fərqi var ki, surxayı öldür, özündə olan bir şeyi bacılarına verməz. Ancaq bacılarında nə görsə istəyir. İndi belə uşağa sən nə deyərsən? Korafəhim, ya...

– Simic deyərəm, - Bilal narazılıqla başını buladı. – Simic!

*İyul, 1968*

## BALACA ADAM

Ceyhun nağılı çox sevir. Şəkilli kitabları da. Özü hələ kitab oxuya bilməsə də böyüklər köməyinə çatır. Ən çox da anası və üçüncü sinifdə oxuyan bacısı. Təkdənbir atası da bu işə qoşulur. Ancaq təkdənbir. Axı o, Neft daşlarında işləyir. On gün orada, beş gün evdə olur.

Bu gün Ceyhunun kefi kök idi. Atası Neft daşlarından təzəcə gəlmişdi. Gələrkən yolda ona şəkilli kitablar alıb gətirmişdi.

Atası çörəyini yeyib qurtaranacan Ceyhun kitabları varaqlayıb şəkillərinə baxdı. Sonra əlində Abdulla Şaiqin «Tıq-tıq xanım» kitabı atasının yanını kəsdirdi:

– Ata, ata, bu kitabı oxuyarsan?

– Oxuyaram, oğul. Ancaq qoy bir stəkan çay içim, sonra, yaxşı?

– Yaxşı. Atası, heç bilirsən nə olacam?!

– Yox.

Ceyhun özündən razı halda:

– Dəmirçi! – dedi

Atası başa düşdü ki, bu hardan gəlir. Axı keçən dəfə gələndə o, Mikayıl Müşfiqin «Şəngül, Şüngül, Məngül» kitabını alıb gətirmişdi. Nağılların, kitabların, multfilmlərin, sirk tamaşalarının təsirilə tez-tez sənət dəyişmək son vaxtlar Ceyhunda adət şəklinə düşmüşdü. İndiyəcən o, tankçı, çoban, təyyarəçi, gülməli adam (Ceyhun sirk tamaşalarındakı klonu belə adlandırır), sürücü olmuşdu. İndi də dəmirçi olmaq istəyirdi. Atası bunun nə ilə əlaqədar olduğunu bilsə də yenə soruşdu:

– Niyə dəmirçi olmaq istəyirsən, oğul?

– Ona görə ki, keçinin buynuzlarını yaxşıyaxşı itiləyərəm. O da canavarın qarnını yırtar, ondan intiqam alar. Atası, düzdü, dəmirçi yaxşıdı?

– Pis sənət yoxdur, oğul.

– Mən dəmirçi olacam. Qurtardı getdi.

Atası bir istədi desin: «Bəs on gün bundan qabaq sürücü olmaq istəyən sən deyildin, ay Ceyhun?!» Ancaq demədi. Ona belə cavab verdi:

– Nə olursan ol, oğul, təki adam olub bir yana çıxasan, adam.

Ceyhunun iri, qara gözlərində təəccüb göründü:

– Bəyəm, mən indi adam deyiləm?!.

Atası beş yaşında uşaqla dərinə getmək istəmədi:

– Yox, adamsan, oğul, adamsan. Ancaq indi balaca adamsan, böyüyəndə isə böyük adam olacaqsan.

*11 may, 1970*

## BƏHRAM

O, anadan olanda babası təzəcə vəfat eləmişdi. Atasının ürəyincə ona babasının adını qoymuşdular.

Ancaq evdə heç kim onu bu adı ilə çağırmırdı. Çağırmağa ürək eləmirdi. Nənəsi də, atası da, anası da.

Körpəni hərəsi bir cür əzizləyirdi.

Nənə onu dizi üstə oturdub əlini başına çəkəndə:

– Əvəz bala! – deyirdi.

Ata onu götürüb başı üstünə qaldıranda:

– Ataşım, qardaşım! – söyləyirdi.

Ana onu qoynuna alıb süd verəndə:

– Balacığım, dovşancığım! – pıçıldayırdı.

Uşaq bu sözləri eşidə-eşidə böyüyürdü. İki yaş yarımına çatanda nənəsinə dedi:

– Nənə, mən dovşanam, dovşan.

Evdə hamı başa düşdü ki, onun «Doşvan» sözündən daha çox xoşu gəlir.

O gündən «Əvəz bala», «Ataşım, qardaşım», «Balacığım, dovşancığım» sözləri təkcə «Dovşan» kəlməsi ilə əvəz olundu. Evdə onu belə çağırırdılar:

– Dovşan.

Bu söz qonşular arasına da, həyətə də yayıldı.

***

Vaxt gəldi, o, bağçaya gedəsi oldu...

Tərbiyəçi məşğələ zamanı eşitdi ki, uşaqlardan biri yanında oturan qaraşın oğlanı «Dovşan» deyə çağırır. Onlara yaxınlaşdı. Qaraşın oğlandan soruşdu:

– Oğlum, sənin adın nədir?

– Dovşan.

Uşaqlar gülüşdü. Tərbiyəçinin də dodaqları qaçdı. Özünü gülməkdən güclə saxladı. Qaraşın oğlana dedi:

– Yox, oğlum, sənin adın Dovşan deyil. – Sonra o, üzünü uşaqlara tutdu. – Bu oğlanın çox qəşəng adı var: Bəhram. Bundan sonra ona «Dovşan» deməyin. Kim desə küncə qoyacağam.

***

Bəhram yolda nənəsinə təzə xəbər verirmiş kimi dedi:

– Nənə, bağçada mənə təzə ad qoydular: Bəhram.

Nənə barmağını dişlədi. Bəhram əlavə etdi:

– Müəllim dedi ki, kim mənə Dovşan desə onu küncə qoyacaq. Nənə, düzdür müəllim mənə yaxşı ad qoyub?

– Düzdür, bala, düzdür. Bəhram yaxşı addır.

– Nənə, sən də mənə Bəhram de, yaxşı?!

– Yaxşı, oğul, deyərəm.

– Atam da desin, anam da desin.

– Onlar da deyərlər quzum, deyərlər.

***

İndi Bəhrama ya evdə, ya da qonşular arasında biri çaşıb «Dovşan» deyəndə acığı gəlir, o saat dodaqları sallanır, qorxudurmuş kimi deyir:

– Bax, müəllimə deyərəm a!.. Gəlib səni küncə qoyar!..

*24 mart, 1971*

## QAYIŞ

Adama cəza verəndə də analar verəydilər. Uzaqbaşı küncə qoyacaqlar: on beş dəqiqə, yarım saat, bir saat. Yoxsa atalar kimi... Bir balaca ayağını düz qoymadın tez qayışa əl atırlar.

Ataların bircə bu qayışı olmaya. Sizi bilmirəm, mən üç-dörd dəfə qayışın ağrısını dadmışam. Yaman olur qayış ağrısı. Elə göynədir, elə göynədir ki...

Bunlar çoxdan olub. Məktəbə getməyən vaxtlarımda. İndi üçüncü sinifdə oxuyuram. Evə tez-tez «5» gətirirəm. Atamın yaman xoşu gəlir. «5» görəndə əlini kürəyimə vurur, «mənim ağıllı oğlum» deyir.

Amma atamın qayışı evimizdə yenə öz işini görür. Bu qayışı indi işə saldıran qardaşım Bəşirdir. Bəşir qəribə uşaqdır. İstəyirəm onun haqqında sizə bir az danışım.

Bəşir məndən beş yaş balacadır. Ancaq hərdən özünü elə aparır ki, guya mənimlə bir yaşdadır. Atam, anam məni əzizləyəndə tez özünü çatdırır ki, mən də varam, mən də.

Bəşir bir gün həyətə düşəndə neçə cür söyüş öyrənir. Bunları evdə təkrar eləyəndə cəza alır. Anam eşidəndə küncə qoyur, atam eşidəndə qayışı işə düşür. Belə vaxtlarla tez-tez məni ona nümunə göstərirlər:

– Bir bax, qardaşın Mirağaya, heç gör söyüş söyür.

İstəyirəm deyəm ki, Bəşir boyda olanda mən də söyürdüm. Elə indi də birisi məni söyəndə mən də onu söyürəm. Bunsuz olmur. Ancaq deyə bilmirəm. Atamın qayışı gəlib durur gözümün qabağında.

Bir dəfə anam Bəşirə cəza verib küncə qoymuşdu. Onda Bəşir üç yaş dörd aylığında idi. Yadımda yaxşı qalıb. Bəşir hələ cəza vaxtı qurtarmamış anamdan su istəyir. Anam da su vermir. Acıqla ona:

– Bəşir, sənin hələ bir dilin də var mənimlə danışmağa?! – deyir.

Bəşir də yazıq-yazıq:

– Var, anası, var! – deyib dilini çıxarır, ona göstərir.

Bəşirin sözlərinə atam ürəkdən qəhqəhə çəkib gülür və anamdan xahiş eləyir ki, onun xatirinə Bəşiri bağışlasın. Anam da bağışlayır...

Bir gün Bəşir – onda dörd yaş üç aylığında idi – radioqəbuledici qoyulmuş tumboçkanın qapısını açır, qapının üstündə oturub özü üçün yellənməyə başlayır. Bəşirin ağırlığından tumboçka əyilir, radioqəbuledici gurumbultu ilə yerə düşür. Bəşir qorxusundan qışqırır. Yaxşıdır, özü radioqəbuledicinin altında qalmayıb. Ancaq bir bala ayağı cızılıb. Bu zaman mən məktəbdə olmuşam. Evə gələndə gördüm Bəşir öz «küncündə» dayanıb. Səbəbini soruşanda anam mənə əhvalatı danışdı.

Atam bunun üstündə Bəşiri iki dəfə qayışa qona elədi. Bir dəfə əhvalatı eşidəndə, bir dəfə də radioqəbuledicini çyninə alıb təmirdən gətirəndə. O, radioqəbuledicini tumboçkanın üstünə qoyub üz-gözünün tərini sildi, sonra Bəşiri yanına çağırdı:

– Sənin ucbatından bu yekəlikdə şeyi beşinci mərtəbədən düşürüb çıxarmışam. Artıq zəhmətə salmısan məni. Utanmırsan?! – deyib qayışını əlinə aldı.

Bəşir qorxsa da səsini çıxarmadı. Günahının ağır olduğunu özü də daşa düşürdü. Qayış işə düşdü. Hiss elədim ki, atam birinci dəfədə olduğu kimi vurmadı. Görünür, Bəşirin büzüşüb qalması və səsini çıxarmaması atamın ürəyini yumşaltmışdı.

***

Radioqəbuledici əhvalatından iki ay keçmişdi. Sahil bağına gəzməyə getmişdik: atam, anam, Bəşir və mən. Gəzə-gəzə gəlib «Bahar» yaya kino-teatrının olduğu yerə çıxdıq. Sahil bağında bura bizim ən çox xoşumuza gələn yerdir. Yay kino-teatrının qabağında balaca hovuz var. Hovuzun ortasında göbələk şəkilli balaca fontan. Hovuzun yan-yörəsi həmişə uşaqla dolu olur.

Biz buraya gələn kimi atam, anam bir tərəfə çəkilib skamyada otururlar. Bəşirlə mən isə tez özümüzü hovuzun yanına veririk. Onun ətrafında oynayırıq. Bir

də görürsən bir uşaq hovuza qayıq buraxdı, hamı tamaşasına yığıldı. Bir başqasının şarı suya düşdü, onu tutmaq üçün hamı əl-ayağa düşdü. Xülasə, hovuzun yön-yörəsi həmişə maraqlı olur.

Hovuz hərdən ata-anaları narahat da eləyir. Bir də görürsən Bəşir boyda ya ondan balaca bir uşaq əyilib su ilə oynadığı vaxt gurumbultu ilə hovuza düşür. Hovuz da yaman dərindir a!.. Uşağı vaxtında çıxarmasalar o saat boğular.

Bir dəfə, onda üç yaşım olardı, hovuza mən də baş vurmuşam. Atam suda batıb-çıxdığımı görər-görməz şalvarlı özünü dalımca suya atmış, məni xilas eləmişdir.

Bu əhvalatı atam, anam indiyəcən o qədər danışıblar ki. Mənimsə bu batmaq əhvalatından heç xoşum gəlmir. Ancaq neyləyim, böyüklər danışanda kiçiklərdən icazə almırlar.

Biz indi də gəlib boş bir skamyada əyləşdik. Mən maraqlı kitab gətirmişdim. Oturan kimi oxumağa başladım. Bəşir hovuzun yanına qaçdı. Bir azdan yanımızda yaşlı bir kişi arvadı ilə gəlib oturdu. Kişi oturmamışdan əvvəl atamla salamlaşdı.

Bəşir su ilə oynayırdı. Anam ona acıqlandı:

– Bəşir, əlini sudan çək, hovuza düşərsən.

Bəşir əlini çəkdi hovuzdan bir-iki addım geri çəkildi.

Atam fikirli-fikirli mənə baxdı. Mənə elə gəldi ki, vaxtı ilə məni hovuzdan çıxardığı səhnəni xatırladı.

Başımı kitaba əydim. Anamın səsi yenə qulaqlarımda cingildədi:

– Bəşir, əlini sudan çək!

Mən atama baxdım. Gördüm o da mənə baxır. Qorxdum ki, indi yəqin deyəcək: «Sənin dalınca suya atıldığım kimi, deyəsən, Bəşirin dalınca da suya atılmalı olacağam!» Ancaq demədi. Demədiyi üçün ondan razı qaldım.

Kitab oxumaq həvəsim daha qaçdı. Fikrim Bəşirin yanına uçdu. Bəşir əlini üçüncü dəfə suya salanda atamın səsi ətrafa yayıldı:

– Bəşir!

Bəşir tez əlini sudan çəkib atama sarı çevrildi. Atam hirslənmişdi. Onu çağırdı:

– Bu saat bura gəl!

Bəşir gəldi. Atamın qarşısında dayandı. Atam dedi:

– Əlini suya salma, qayışı açaram sənin üçün a!..

– Açarsan şalvarın düşər, hamı sənə gülər.

Bəşirin bu gözlənilməz sözünə yaşlı kişini gülmək tutdu. Atam da ona qoşuldu. Yaşlı kişi Bəşirə dedi:

– Bala, sən nə hazırcavab oğlansan, hə?! – Üzünü atama tutdu: - Xoşuma gəldi hazırcavablığı. – Sonra üzünü yenə Bəşirə çevirdi: - Cavabın xoşuma gəldi. Ancaq ata-ananın da gərk sözünə baxasan. Onda qiyamət oğlan olarsan.

Yaşlı kişi Bəşirin adını soruşdu. Atam dedi. Sonra mənim adımı dedi. Haqqımızda danışmağa başlayanda Bəşirlə «gizlənpaç» oynamağa getdik.

***

O gündən indi xeyli keçib. Nə sirsə bilmirəm, atamın qayışı bu müddət əzrində bir dəfə də işə düşməyib. Buna Bəşirin hazırcavablığı səbəb olub, ya nə? Bilmirəm. Atamdan soruşmağa da ürək eləmirəm. Qorxuram yadına salam. Elə yadından çıxsa yaxşıdır.

*23 iyul, 1971*

## SÜBH ÇAĞI

Baba birinci dəfə idi nəvəsini görürdü. Nəvəsinə baxırdı oğlunun uşaqlığı gözünün qabağına gəlirdi. Həmin çatma qara qaşlar, qara gözlər. Qara gözlərin ağı süd kimi ağappaq, qarası kömür kimi qapqara.

Oğlu bu yaşda olanda sevincək əlindən tutub məktəbə aparmışdı. Ancaq oğlu bir az ətli-qanlı idi. Nəvəsi gözünə arıq göründü. Oğluna gileylənir kimi soruşdu:

– Bu uşaq niyə belə arıqdır? Çörək-zad vermirsiz buna?

– Niyə vermirik, ay dədə. Yemir. İştahı olmur.

– Burda olar. Yaxşı eləyib gətirmisən nəvəmi. Məktəbə gedənəcən burda qalar. Bir az ətə-qana gələr. Sübh çağı ki, onunla yuxudan durub bağ-bağatı, çöl-çəməni gəzib dolandıq ha, iştahı öz-özünə açılacaq.

– Sübh çağı nədi, ay dədə, sən onu heç saat doqquzda oyada bilməzsən.

– Bax, bu olmadı, oğul. Uşağı korlamısan. Adam ki, tezdən durmadı, heç nə. Ancaq qorxusu yoxdur. Hələ körpədir mənim Rəşidim, hələ ömrünün sübh çağındadır mənim nəvəm. Biz elə sübh çağında da onu oyadarıq. Bəs necə?! Kənd yerində yuxuya qalmaq olmaz, adama gülərlər.

– Dədə, onu da deyim ki, nəvən yaman sualbazdır a? Gördükləri barəsində o qədər soruşacaq ki?.. Qorxuram bu xasiyyətiynən səni bezikdirə.

– Qorxma. Məni özün kimi kəmhövsələ bilmə. Sən özün uşaqlıqda az soruşmusan? Soruşar cavabın alar. Qorxma. Məktəb vaxtı çatanda da özüm götürüb Bakıya gətirərəm.

***

– Baba, baba, gör nə balaca yoldur!

– Bala can, buna cığır deyirlər, cığır.

Baba nəvəsinin baxışlarında sual gördü. Düşündü ki, yəqin oğlunun bir neçə gün əvvəl «nəvən yaman süalbazdır a!» sözlərini təsiri ilə Rəşid sorğu-sualdan çəkinir. Cavab verdi:

– Cığır yola tez çatmaq üçündür, bala! Siftə kimsə buradan getmiş, kəsə yol salmışdır. Dalısınca başqaları gedib-gəlməyə başlamışlar.

– «Kəsə» nədir, baba?

Qəfil ağzından çıxan sual üçün uşaq qorxdu ki, indicə babası hirslənəcək, atamı kimi «işə düşmədik!» deyəcək. Ancaq baba hirslənmədi. «İşə düşmədik!» də demədi. Cavab verdi:

– Kəsə, yəni birbaşa... Dayan, dayan, səni necə başa salım. Hə, bura bax, bir var sən elə bu yol ilə o təpənin ətrafını dolanıb gedəsən. Bu, bir az uzun olar. Bir

də var elə buradan özünə cığır açasan, təpənin bu üzündən o üzünə adlayasan. Bax, bu olar kəsə yol. Başa düşdün, bala?!

– Bəli, baba.

– Meşə, dağ-daş, çöl-çəmən cığırsız olmaz, balacan. Harda cığır gördün, bil ki, gediş-gəliş var. Gediş-gəliş varsa demək həyat var.

Onlar təpənin dövrəsinə dolanmış yolla gəlib gözəl bir meşəyə çıxdılar.

– Baba, gör nə sakitlikdir eee?!.

– Meşə də insan kimi nəfəs alır, dincəlir, bala. Bir azdan o yuxudan oyanacaq, hər şey dilə gələcək, oxuyacaqdır.

Meşəni keçib ətrafa səs sala-sala, köpüklənə-köpüklənə, gurultuyla axan çaya çatdılar.

– Necə də iti axır, baba?

– Bağ çayıdır, bala, gərək elə belə də axsın. Onda dağların gücü var.

Çay ensizdi. Üstündən körpü yerinə budaqları qırılmış qarağac salınmışdı. Qarağacın üstü ilə çayın o biri sahilinə keçdilər. Bura tala idi.

– Baba, babacan, damcıya bax, damcıya! Şüşə kimi necə də parıldayır?!

– Şehdir o, balacan. Sübhdən ki çöl-çəmənə, meşəyə, kol-kosa beləcə baxırsan, hər şeyi şeh içində yuyunan görürsən. Günəşin intizarını çəkirlər. Günəş çıxan kimi qurunmağa başlayacaqlar. Sübhün şəffaf şehi, səhərin xəfif mehi babanın da, nəvənin də ürəyini açır, ruhunu oxşayır. Onlar danışa-danışa, gözəl, ürəkaçan mənzərələri süzə-süzə gedirlər.

Nə baba yoruldum deyir, nə nəvə. Nəvə birinci dəfə gördüklərinə heyran olur, baba ömrü boyu gördüklərindən ağızdolusu, ləzzətlə danışır.

«Sualbaz»ın sualları qurtarmaq bilmir, cavabı hazır babanın sinəsi boşalmaq.

***

O, gözünü açanda babası hələ yatırdı. Görünür, dünənki qatar onu çox yormuşdu.

Cəld ayağa durdu. Bir ayda o,, necə də qaralmış və kökəlmişdi...

Rəşid, babası oyanmasın deyə pəncəsi üstə yeriyərək o biri otağa keçdi. Anası da, atası da yatırdılar. Səssizcə mətbəxə keçdi. Kranı açıb əl-üzünü yudu...

Suyun səsinə anası oyandı. Saata baxdı. Yeddiyə beş dəqiqə işləmişdi. Tez ayağa durdu. Axı bu gün oğlu məktəbə getməliydi. Onu oyatmaq üçün o biri otağa keçdi. Rəşid yerində yoxdu. Baba şirin-şirin yatırdı.

Ana mətbəxə gəldi. Rəşid-əl-üzünü silirdi. Anası gülə-gülə dedi:

– Səndən nə əcəb, ay bala?!

– Öyrəşmişəm, ana, baba öyrədib.

Ana-balanın şirin danışığına ata da, baba da oyandılar.

Süfrəyə yığışanda gəlin qayınatasına dedi:

– Gözümün qabağında dağ kimi durmuşdu ki, Rəşid məktəbə gedəndə onu yuxudan necə oyadacağam. Bu gün özü hamımızı qabaqlayıb.

Baba xəfifcə qımışıb oğluna baxdı. Oğlu gülümsədi:

– Sənin yanında yuxuya qalmaq olar, ay dədə?!

Baba çayını içə-içə dedi:

– Birinci gün nəvəmi gərək məktəbə özüm aparam. Atasını da mən aparmışam. Nə bilim, deyirlər, guya əlim yüngüldür.

Bu fikri hamı bəyəndi. Səkkizə on dəqiqə işləmiş baba ilə nəvə evdən çıxdılar...

***

Məktəbin qabağında şagirdlər sinif-sinif sıraya düzülmüşdülər. Yanlarında da sinif rəhbərləri. Lap başda birincilər dayanmışdılar. Rəşid I «b» sinfinə düşmüşdü. İkinci cərgədə birinci durmuşdu.

Dərs ilini başlanmasına həsr edilmiş yığıncağı açmazdan əvvəl direktor ata-analar dayanan tərəfə nəzər salıb dərs hissə müdirinə nəsə dedi. O da başı ilə razı olduğunu bildirib Rəşidin sinif müəllimini çağırdı. Bu, gənc bir müəllimdi. Dərs hissə müdiri direktorun və özünün fikrini ona dedi. O da düz Rəşidin babasının yanına gəldi:

– Direktor da, dərs hissə müdiri də belə məsləhət görürlər ki, yığıncaqda six çıxış edəsiniz, şagirdləri, müəllimləri, ata-anaları təbrik edəsiniz.

Baba etiraz elədi:

– YOx, qızım nə danışırsız? Cavan ata-analar var, qoy onlar danışsınlar, - deyib yan-yörəsində durmuş gənc valideynləri göstərdi.

Rəşidin müəllimi dediyinin üstündə durdu, gənc ata-analar da ona tərəfdar oldular. Baba razılıq verdi...

Baba həyəcan keçirirdi. Nə danışacaqdı? Nədən başlayacaqdı? «Bu qədər adamın qabağına çıxırsan, gərək ağıllı bir söz deyəsən... İndi mən onlara nə deyim?!»

Baba belə fikirləşərkən direktor onun, hamıdan yaşlı valideynin adını çəkdi. Baba irəli yeridi, gəlib direktorun yanında durdu, üzünü ona zilləmiş şagirdlərə, müəllimlərə, ata-analara tutdu, nəzərləri ilə Rəşidini axtardı, bir anlığa baba-nəvə üz-üzə dayandılar. Baba nəvənin baxışlarında elə bil oxudu: «Danış, baba, danış, həmişə mənə danışdıqlarından danış. Hamının xoşu gələcək. Gələcək, baba!»

Baxışları nəvəsinin baxışlarına zillənmiş halda baba sözə başladı:

– Burda görürəm, çox adam var. Çoxlu da ata, ana var. Bir belə adamın içində mənə söz veriblər. Şəksiz qoca olduğum üçün. Direktor demişkən, hamıdan yaşlı olduğum üçün. Bu hörmətin əvəzində mən də istəyirəm elə qocayana bir neçə kəlmə söz deyəm.

Bu gün məktəblər öz qapılarını uşaqlarımızın üzünə açıblar. Görürsüz, hamı şadyanalıq, sevinc içindədir. Ancaq deyə billəm məktəbə siftə ayaq açanların sevinci lap çoxdur. Odur iki cərgə lap başda durublar. Onların içində mənim nəvəm də var. Onlar ömürlərinin sübh çağındadır hələ. Onlar üstü şehli, təzə-tər otlar, çiçəklər timsalındadır hələ. Belə təzə-tər otların da, çiçəklərin də, bilirsiz, günə, qızıl şüalara ehtiyacı olur. Bax, bu balaların da elm, bilik şüalarına ehtiyacları var. Bunu da onlara siz verəcəksiz, müəllimlər! Məktəb verəcək. Məktəb onları həyata hazırlayacaq.

Arzum nədir mənim? Rəşidim və onun həmyaşları məktəbi üzüağ qurtarsınlar. Həyata atılanda tapdanmış yolla getməsinlər. Özlərinin cığırı olsun.

Sürətləri dağ çaylarının sürətinə oxşasın. Çaylar güclərini dağlardan alır, onlar eldən alsınlar. Elə arxalanan oğulun hələm-hələm dizi bükülməz...

İlk zəng çalındı. Şagirdlər dalğalandılar. Sinif-sinif içəri keçdilər. Valideynlər üzlərində fərəh əl eləyə-eləyə qaldılar.

*Avqust, 1971*

## BALAMİRZƏNİN NƏVƏLƏRİ

Balamirzənin üç nəvəsi var. Üçü də qızdır. Üçünün də adını Balamirzə özü qoyub: Rəna, Nigar, Lalə.

İri, qaragözlü böyük bacı Rənanın doqquz yaşı var. Üçüncü sinfə keçib. Rəna deyib-gülən, zarafatcıl qızdır. Məzəli, gülməli söz-söhbətilə babasının ürəyini açır, onu darıxmağa qoymur. Babası da onu «məzəli nəvə»si hesab edir.

Qonurgözlü, itibaxışlı ortancıl bacı Nigar yeddi yaşındadır. Bu il məktəbə gedəcək. Nigar bir az qaraqabaq, azdanışandır, elə həmişə istədiyi də budur ki, ona nağıl, maraqlı əhvalatlar danışsınlar, o da oturub əli çənəsində heyran-heyran dinləsin. Balamirzə Nigara «dinləyici nəvəm» deyir.

Qaragözlü, şirindilli kiçik bacı Lalə beş yaşın içindədir. Lalənin bir az dəcəlliyi, bir az ərköyünlüyü, bir az da küsməyi var. Oynamağına söz ola bilməz. Oyun havalarımızdan «Tərəkəmə»ni, «Uzundərə»ni elə oynayır ki, babasının sevincindən gözləri yaşayır. Onu yarızarafat, yarıciddi «rəqqasə nəvəm» adlandırır.

Balamirzə mətbəə işçisidir. Yaşı altmışı keçsə də təqaüdə çıxmır, «nə qədər canımda su var işləyəcəyəm» deyir. İşləyir də. Özü deyən nəvələrinin ruzusuna ortaq olmaq istəmir. Balamirzənin arvadı, üç bacının bir istəkli nənəsi Kübra isə təqaüdə çıxıb, özü deyən nəvələrinə canla-başla qulluq etmək üçün. Edir də.

Bu axşam Balamirzənin bir köhnə dostu onlara qonaq gəlmişdi. Ağır illərin dostları idilər. Bir-birlərini heç unutmaz, fürsət ələ keçincə görüşər, bir-birlərindən hal-əhval tutardılar.

Balamirzə ədib dostunun gəlişinə çox sevinirdi. Bilmirdi heç necə onun qulluğunda dursun. Onun belə əl-ayağa düşməsini görən dostu dedi:

– Balamirzə, Kübra xanıma da de, mən indicə yeyib gəlmişəm. Bir stəkan pürrəng çaya sözüm yoxdu. Başqa heç nə lazım deyil. Gəlmişəm nəvələrinlə tanış olam, həmişə danışırsan onlardan. İndi mənimlə tanış elə, yaxından tanıyıram onları.

Balamirzənin gözləri güldü, elə bil qarabuğdayı sifətinə işıq gəldi.

– Baş üstə, Miryəhya, o da mənim gözüm üstə, - dedi.

Nəvələrini çağırdı. Gəldilər.

– Əminiz Miryəhyaynan tanış olun.

Qızlar növbə ilə yaxına gəlib Miryəhya ilə görüşdülər, görüşə-görüşə adlarını da pıçıldadılar.

– Rəna.

– Nigar.

– Lalə.

Miryəhya dodaqlarında təbəssüm Balamirzəyə baxdı:

– Balamirzə, indi istəyirsən mən bunların ikinci adlarını da deyim. Gör səhv eləmirəm ki?!

Balamirzənin sifətində gülüş göründü, süfrəni salıb çay gətirməyə gedən Kübra bir anlıq ayaq saxladı, qızlar sorğulu nəzərlərlə bir-birinə baxdılar. Miryəhya onları çox maraqlandırdığını görüb dedi:

– Balamirzə, bu qız – o, Rənanı göstərdi, - sənin məzəli nəvəndir. Bu qız Nigarı göstərdi, - sənin dinləyici nəvəndir, bu isə – barmağını Laləyə tərəf uzatdı, - sənin rəqqasə nəvəndir, düzdür?!

– Düzdür, Miryəhya, düzdür.

– İndi ki, düzdür, Balamirzə, bunlar da gərək öz ikinci adlarını sübut eləsinlər. Məzəli nəvən bizə bir məzəli əhvalat danışsın, rəqqasə nəvən rəqs eləsin, dinləyici nəvən, söz yox, bizi dinləyəcək, öz yerində, bs o bizimçün neyləyə bilər, Balamirzə?!

– O da bizimçün şeir deyər, əmisi, şeir. Heç bilirsən nə şeirlər bilir?

– Yaxşı, sən deyən olsun, Balamirzə. Mən buna razı. Birinci kimdən başlayaq indi, hə, kimdən?

Qızlar bir-biriylə baxışdılar. Balamirzə dedi:

– Əmisi, deyirəm, bir əvvəlcə rəqqasə nəvəmin oynamasına tamaş eləyək. Mən bu saat radiolanı yandırım. «Tərəkəmə»ni çaldırım, nəvəm də oynasın.

Musiqi çalınanda Lalə ortalığa düşdü, süzdü, süzdü.

Oynayıb qurtaranda nənəsinə doğru qaçdı, başını onun qolları arasında gizlətməyə çalışdı. Babası başına əl çəkdi. Miryəhya dedi:

– Afərin, Lalə, dostum. Balamirzənin rəqqasə nəvəsisən ki, nəvəsi. İndi də, Balamirzə, deyirəm böyük bacını dinləyək. Sənin məzəli nəvəni. Bir məzəli əhvalat danışsın, biz də dinləyək.

Rəna babasına baxdı, babası baxışları ilə danışmasını bildirdi:

Rəna babasına üzünü yaxın tutub bu dəfə astadan soruşdu:

– Molla Nəsrəddin lətifələrindən olsun?!

– Olsun, lap yaxşı, - Balamirzə onu ürəkləndirdi.

Rəna dedi:

– Bir şəhərdə xalqın pıçıltısı da hakimin qulağına gəlib çatırdı. Bir gün hakim azarlayır. Bunu eşidən Molla ağacdan bir neçə dənə alma dərib hakimi yoluxmağa gedir. Hakim deyir:

– Molla, birdən-birə dişim də başladı ağrımağa, qulağım da... Mənə bir əzab verdilər ki, gəl görəsən. Bu gün bir yaxşı dəllək tapıb dişimi çəkdirdim. Daha ağrısı qurtarıb. Amma bu zəhrimar qulağım elə ağrıyır ki, ağrıyır. Bir həkim də tapılsaydı...

Molla tez onun sözünü kəsib deyir:

– Hə, hə... Bircə halal süd əmmim adam da tapılıb sənin o qulağını çəksəydi sən də rahatlanardın, camaat da.

Lətifəyə hamı güldü. Bircə Rənada başqaö miryəhya onun əlini sıxıb:

– Afərin! – dedi. Sonra üzünü Balamirzəyə tutdu. – Balamirzə, məzəli nəvən də sınaqdan yaxşı çıxdı. İndi görək ortancıl nəvən neyləyəcək?!

Ortancıl nəvə şeir deyəcəkdi. Babasına baxdı, sonra lap yaxına gəldi, babası fikrini başa düşdüyündən ona tərəf əyildi, Nigar pıçıldadı:

– «Yazgünləyi»ni deyim?

Babası razılıqla:

– Hə, hə, onu de.

Nigar «r» hərfini deyə bilmirdi, əvəzində «y» deyirdi. O, şeiri aramla, ifadəli deməyə başladı:

Gəl, gəl ay yaz günləyi!
İlin əziz günləyi!
Dağda ərit qaylayı,
Bağda əyit qaylayı!
Çaylay daşıb sel olsun,
Taxıllay tel-tel olsun,
Ağaclay açsın çiçək,
Yaypağı ləçək-ləçək.

Nigar şeiri oxuyuğ qurtaranda Miryəhya soruşdu:

– Babasının dinləyici nəvəsi deyə bilərmi ki, bu şeiri kim yazıb?

– Sabiy baba, - deyərək Nigar əlüstü cavab verdi.

– Nigar da sınaqdan yaxşı çıxdı. Balamirzə, nəvələrinə söz ola bilməz, allah başacan eləsin.

– Çox sağ ol, Miryəhya, o gün olsun sənin də nəvələrin olsun.

Miryəhya Nigarı yanına çağırdı:

– Sən necə qızsan, Nigar?

– Mən nə bilim, siz biləysiz?!

– Ay sağ ol, sən nə ağıllı qızsan, Nigar!..

İstədi soruşsun bu cür cavab verməyi sənə kim öyrədib. Soruşmadı. Bildi ki, bunlar hamısı Balamirzənin işləridir. Əslən təvazökar, təmkinli olan baba nəvələrini də o ruhda tərbiyə edir, böyüdür.

## ŞOKALADLI KONFET

Bakı darülmüəlliminində uşaqlara yalnız istirahət günlərində şəhərə çıxmağa icazə verilirdi. O vaxt istirahət günü cümə günlərində olurdu.

1923-cü ilin payızı. Cümədir. Əkrəm şəhərə çıxmağa o qədər də meyl göstərmədi. Əlində yarıda qalmış maraqlı kitabı vardı. Onu oxuyub başa çıxmağı üstün tutdu. Bir də fikirləşdi ki, şəhərə gəzməyə çıxanların çoxusunun burada ata-anası, qohum-əqrabası var. Onunsa... «Yaxşısı budur ki, oturub kitabı qurtarım...»

O bir saat olardı ki, şirin mütailə edirdi, çiyninə yüngülcə toxunurdu. Başını qaldıranda özündən bir sinif aşağıda oxuyan dostu Fuadı gördü. Fuad dedi:

– Əkrəm, anam deyir, gəl bizə, Cavid əfəndi də bizdədir.

Fuadın anası Şəfiqə Əfəndizadə darülmüəllimatın müəllimi idi. Cavid isə darülmüəlliminində işləyirdi. Cavidgilin ailəsi Şəfiqəgilin ailəsi ilə yaxın idilər. Cavidgil darülmüəlliminin olan binanın üçüncü mərtəbəsində, Şəfiqəgil həmin binanın həyətindəki birmərtəbəli evdə yaşayırdılar.

Şəfiqənin əri 1918-ci ildə rəhmətə getmişdi. O, üç oğlunu: Fazili, Adili, Fuadı sonsuz qayğı ilə böyüdür, onların təhsil almaları üçün var qüvvəsi ilə çalışırdı.

Əkrəm Lahıcdan gəlmişdi. Üç ildi ki, darülmüəlliminində oxuyurdu. Çalışqan olduğundan az vaxtda müəllimlərin hörmətini qazanmışdı. Bir şagird kimi onun xətrini Hüseyn Cavid də çox istəyirdi. Şəfiqə xanım Əkrəmə dərs deməsə də, onu öz uşaqlarından, demək olar ki, ayırmazdı...

Əkrəm sıxıla-sıxıla içəri girəndə müəllimi, sevimli şair və dramaturq Hüseyn Cavid stol arxasında tək oturmuşdu.

– Salam, Cavid əfəndi!

– Əleykəssalam, Əkrəm, gəl, gəl, çəkinib eləmə. Gəl otur, konfet yeyək.

Əkrəm müəllimi ilə qabaq-qabağa oturdu. Stol üstündəki konfetqabında şokaladlı konfet vardı. Hüseyn Cavid bir konfet götürdü. Əkrəmə də təklif elədi ki, o da götürsün. Əkrəmin ürəyindən keçsə də, cəsarət eləmədi.

Hüseyn Cavid konfeti ləzzətlə yedi, kağızını Əkrəmin qabağına qoyub dedi:

– Şəfiqə xanım mətbəxdə bizim üçün kakao hazırlayır, içəndə ləzzət alacaqsan.

O, yenə konfet götürdü, yedi, kağızını Əkrəmin qabağına qoydu. Yenə...

Ev sahibəsi kakao gətirəndə Əkrəmin qabağında xeyli konfet kağızı vardı. Hüseyn Cavid dedi:

– Şəfiqə xanım, sizin bu oğlunuz Əkrəm qarınqulu imiş, görün nə qədər konfet yeyib.

Əkrəmin yumru sifəti qıpqırmızı qızardı, özünü itirdi. Nə etsin?! Desin ki, o yeməyib?! Necə desin?! Sevimli şairini, əziz müəllimini yalançı eləsin. Dili quruyar belə sözü dilinə gətirsə. Bəs ona necə olsun?! «Qarınqulu» sözünü boynuna götürsün?! Razılaşsın bu sözlə?! Necə razılaşsın?!

Əkrəmin bərk tutulduğunu görən Şəfiqə məsələni açıb-ağartmaq istədisə də, Hüseyn Cavidin işarəsi, him-cimi buna mane oldu. Ancaq o, Əkrəmin də qanqaralığına, pərtliyinə dözə bilmirdi. Bircə bunu eləyə bildi ki, Əkrəmi dilə tuta-tuta kakaonu zorla ona içirtdi.

Kakao Əkrəmin yaman xoşuna gəlmişdi. O, ömründə birinci dəfə idi ki, kakao içirdi...

***

Qonaqlar xeyli vaxtdı getmişdilər. Ancaq ev sahibəsi sakit ola bilmirdi, Əkrəmin pərtliyi, qızarıb pörtməsi gözləri önündən çəkilmirdi. Özünü danlayırdı ki, gərək Cavidin sözünə qarışaydı. Onun dediyinə inanmadığını Əkrəmə bildirəydi. «Cavid əfəndi qoydu ki... Kişilərin də keçmə bu zarafatlarından...»

Çox düşünəndən sonra o bu qərara gəldi ki, gec də olsa Əkrəmə desin ki, şirin zarafatları çox sevən Cavid əfəndinin növbəti zarafatlarından biri idi bu konfet əhvalatı...

***

Ertəsi gün Hüseyn Cavidin Əkrəmgilə dərsi vardı. Sinfin qabağında Əkrəmi saxladı:

– Əkrəm, birdən dünənki sözümə Şəfiqə ananın inandığını zənn edib məndən inciyərsən a!

Əkrəm arxayın-arxayın dedi:

– Cavid əfəndi, zarafat elədiyinizi, özünün də inanmadığını Şəfiqə xanım dünən mənə bildirdi.

Cavid də təəssüflənirmiş kimi dedi:

– Görürsən, bir sutka gözləyə bilməyib. Ana ki, ana!..

O, görkəmli alim, tanınmış ədəbiyyatşünas Əkrəm Cəfər ömrünün bu əziz anını indi qəlbi kövrələ-kövrələ, hörmətli müəllimlərinə minnətdarlıq hissilə xatırlayır.

# MƏNSUR ŞEİRLƏR

# BƏNÖVŞƏ ƏFSANƏSİ

Baharın ilk günü idi. Biz bir neçə yoldaş bulaq başında oturub ətrafımızı bürüyən zərif güllərin, çiçəklərin, üstü şehlə örtülmüş yaşıl otların xoş ətri ilə nəfəs alır, dincəlirdik.

Bulaq başı söhbətsiz olmaz deyərlər. Biz də söhbət edirdik. Hərə bir söz deyir, bir söz danışır, məclis getdikcə qızışırdı...

Növbə bayaqdan bəri gözlərini orda-burda bitən tər bənövşələrə zilləyərək, fikrə getmiş dostuma çatdıqda, o bizə bir əhvalat danışacağını bildirdi və:

– Mənə bunu sinəsi qorxulu nağıllar, əfsanələr və qədim rəvayətlərlə dolu dünyagörmüş bir qoca nağıl etmişdir – deyərək sözünə başladı.

...Qədim zamanlar bu diyarda aslan ürəkli, bəbir biləkli bir cavan yaşardı. Onun adı Bahardı. Naxırçı oğlu Bahar...

O, hər səhər günəş hələ tülu etməmiş evdən çıxar və... hara getsə yaxşıdır? – deyə dostum yanında oturmuş qızların birinə müraciət etdi. Qız azacıq duruxdu, sonra birdən-birə:

– Bulaq başından yaxşı... Hara gedə bilər? – dedi.

Dostum davam etdi:

– Bəli, kəndin yaxınlığındakı bulaq başına gedər və orada tənha bir daş üzərində oturaraq kiminsə yolunu aramsız gözlərdi.

İlan kimi burularaq əsrarəngiz meşənin qəlbindən keçən bulağın ahəngdar şırıltısı, vüsal eşqi ilə çırpınan sevdalı bülbüllərin məlahətli nəğmələri, öz təravətləri ilə meşəni bihuş edən rəngarəng güllərin xoş rayihəsi, xəfif-xəfif əsən sabah mehinin həzin, olduqca həzin musiqisi, meşə ağaclarının necə, sehrli pıçıltıları onu burada vəcdə gətirər və o da papağını gözünün üstə aşırar, ən çox xoşladığı bir bayatını ahəstə-ahəstə deyərdi:

Əzizim bağda dara,
Zülfünü bağda dara.

Bülbülü güldən ötrü
Çəkdilər bağda dara!

Bu onun həmişə oxuduğu bir bayatı idi. O, nədənsə hər səhər bu bayatını bulaq başında oxuyar və sevgisi üstə ölümə getmiş fədakar aşiqin dərin faciəsinə qəlbən acıyardı. Bahara elə gələrdi ki, sanki o bu mahnısı ilə dünyadan nakam getmiş biçarə aşiqi yenidən yaşadır, ona sadiq ürəklərdə əbədiyyət heykəli qurur, onu yad edirdi.

O, mahnısına başlar-başlamaz arxadan göylər pərisi ay qədər gözəl bir qız çiynində sənək zahir olar və bu həzin mahnını eşitmək üçün dayanar, onu dinlərdi. Günəş də elə bu zaman yaxındakı ağacların arxasından baş qaldırar və öz qızıl saçlarını Baharın nəğməsindən məst olmuş meşənin üzərinə sərər, ayna bulağın göz yaşı kimi şəffaf suyunu al-əlvan rənglərə boyayar... Bahar da mahnısını qurtarardı.

– Bülbülü güldən ötrü çəkdilər bağda dara... Hə? – qız arxadan səslənən, sənəyi çiynindən yerə qoyardı.

Bahar onun səsini eşidincə tez yanına qoşar:

– Bəli, mənim Bənövşəm, elədir – deyər və onu əyləşdiyi daşın yanına gətirərdi.

Onlar burada xeyli oturar, gələcək xoş günlərini göz önünə gətirər və o çağların xəyalı ilə deyib-gülərdilər.

Bənövşə nədənsə bu zamanlar sirri özünə də məlum olmayan bir həyəcanla:

– Görəsən həqiqi aşiqləri bu dünyada hansı qüvvə ayıra bilər əzizim – təkrar-təkrar Bahardan soruşardı.

Bahar həmən dəqiqə onun sualının əsl mənasını anlar və:

– Məhəbbət dünyada ən böyük qüvvədir, əzizim, ona sahib olanları heç bir şey ayıra bilməz – deyərək onun həyəcanını sakit etməyə çalışar, qəlbini ovundurardı.

– Bəs ölüm?!

– Sadiq ürəkləri o da ayıra bilməz!..

Bənövşə ayna bulaqdan sənəyini su ilə doldurub gəldiyi yolla qayıdar, Bahar sirli meşənin dərinliklərində yox olardı...

Onlar beləcə hər güq məlum bulaq başında görüşərdilər.

***

Bənövşə ölkənin adlı-sanlı, bildər bir gözəli imiş. Bahar el-oba içərisində öz misilsiz igidliyə nə qədər tanınırmışsa, Bənövşə də bir o qədər öz cazibədar gözəlliyi ilə məşhurmuş. Onun adı dillərdə gəzir və dövlətinə, varına güvənən hər kəs... Hər kəs bu mələk təbiətli qıza sahib olmaq üçün çalışır, əlindən gələni əsirgəmirmiş. Onun sorağına ölkənin hər yerindən adlı-sanlı cavanlar axışıb gəlir, qapıları səhərdən-axşama qədər elçilərlə dolu olurmuş. Ona qucaq-qucaq qızıl hədiyyələr gətirilir, ona dünyalar vəd edilirmiş. Fəqət o, bunların heç birinə etina etmir, yalnız naxırçı oğlunu sevir, saf təmiz bir məhəbbətlə sevirmiş. Onun bütün arzuları Baharla gülür, Baharla da qanadlanırmış.

Lakin Bənövşə Baharı sevdiyini heç kəsə deyə bilmir, ona bir xətər yetirələcəyindən qorxurmuş. O, yaxşı bilirmiş ki, desə də, deməsə də – fərqi yoxdur – onu naxırçı oğluna verməyəcək, hələ bir üstəlik danlayacaqlar da...

Onunçun da Bənövşə adına gələn bütün elçiləri kor-peşman geri qaytarırkən xan babasına sadəcə heç kəsi sevmədiyini deyirmiş...

Fəqət çox yaxşı deyiblər ki, sən saydığını say, gör fələk nə sayır. Get-gedə Bahar ilə Bənövşənin məhəbbəti dillərə düşür, ölkənin hər tərəfinə yayılır. Hələ Bənövşədən gözlərini çəkməmiş varlı dəliqanlılar özlərini təhqir olunmuş hesab edir və Bahardan intiqam almaq fikrinə düşürlər... Və bir gün səhər erkən özlərini sıx kolların arxasına verib onu ölümcül yaralayırlar

Bahar o gün ilk dəfə olaraq sevimli Bənövşəsinin görüşünə gedə bilmir.

Bənövşə bulaq başında onu çox gözləyir, nəhayət gəlmədiyini görərək, qorxulu şübhələr içərisində geri qayıtdığı zaman onu iki yol ayrıcında qızıl qanlara bulanmış halda çiçəklər üzərində sərilib qalmış görür.

– Bahar can, de hansı namərd səni bu hala saldı, əzizim, - deyərək Bənövşə onun başını yerdən qaldırıb dizləri üstünə alır.

Bu zaman qulaqlarında səslənən fəradlarla dolu bir mahnı onun bütün vücudunu sarsıdır.

Bu kimin səsidir?..

Bənövşə Baharın dodaqlarına baxır, bayaqdan bəri açıla qalmış hərəkətsiz, solğun dodaqlar indi tərpənir və sanki tanış bir mahnının son dəfə təkrar edirdi:

Bülbülü güldən ötrü
Çəkdilər bağda dara!

***

Baharın ölümündən sonra Bənövşə bir an ayağını bulaq başından kəsməz, qərib-qərib boynunu buraraq oradakı tənha daş ürəzində oturar... Baharın həzin mahnısını oxuyar, təkrarən oxuyardı.

Meşədən keçən hər bir kəs bu yanıqlı, həzin səsə qulaq kəsilər, onu dinləmədən ötə bilməzdi.

Bir gün bahar öz yaşıl örtüyünü yığıb meşəni tərk etdi. Elə bu gündən Bənövşənin də səsi eşidilməz oldu. Bütün kənd əhli axışıb bulaq başına gəldi. Hər yeri axtardılar. O yoxdu, sanki o da Baharla getmiş, meşəyə əlvida demişdi.

Payızın soyuq günləri başladı, qış gəldi. Ayna bulaq buz bağladı. Bənövşədən bir soraq olmadı. Lakin kəndlilər ondan yenə ümidlərini kəsmədilər. Onu bir daha görmək üçün gələn bahara bel bağladılar və səbirsizliklə onun gəlişini gözlədilər.

Nəhayət, bahar gəldi. Bütün kənd bulaq başına axışdı. Fəqət o, yenə yoxdu. Bənövşə gəlməmişdi.

Onlar tənha daşın yanına gəldilər və birdən-birə daşın böyründən hələ onlara məlum olmayan, boynu çiynində bitmiş bir zərif çiçəyin baş qaldırdığını gördülər... Və o gündən bu məsum çiçəyə bənövşə adı verdilər...

Dostum sözünü bitiriö mənalı nəzərlərlə bizə baxdı.

Biz, indi susur və məsum görkəmiylə yoldan keçənləri özünə cəlb edən bənövşə haqqında düşünürdük. Araya dərin bir sükut çökmüşdü.

Sükutu ancaq sakit-sakit axan bulağın həzin şırıltısı pozurdu.

*10 yanvar, 1946*

## MÜJDƏÇİ

Bir gün bizə beş polis məmuru gəldi. Onlar məni tutmaq üçün gəlmişdilər! Məni apardılar. Səndən ayrı düşdüm.

Ayrılıq! İnsanların həyatında ağır möhnət olan bu ayrılığı sən qabaqcadan hiss etmişdin: sövqi-təbinləmi, nədənmi bilmirəm... Ancaq hiss etmişdin...

Sən onda hələ körpə idin. Təzə-təzə dil açan bir körpə...

Yaxşı yadımdadır: mən işdən gələndə sən «ata», «ata» deyib önümə qaçar, sevincdən nə etdiyini bilməzdin. Otağın dörd tərəfinə dolanıb başın gicəllənə qədər fırlanardın. Bu zaman mən də səni qollarım arasına alıb çırpınan ürəyini sakit etməyə çalışardım.

Bir azdan sən sakit olar – bunu mən qəlbinin döyüntüsü ilə təyin edərdim – və köksümdə uyumağa başlardın...

Çox vaxt mən sənə hədiyyə gətirərdim. Sən bu hədiyyələri alanda da sevinərdin, lakin sən məni görərkən başqa cür sevinərdin, oğlum! Bu sevinc qara gözlərinə həyat verər, təzətər yanaqlarına şəfəq salar, pənbə dodaqlarını astaca tərpədər, xoş üzünü gülüş çiçəkləriylə bəzərdi. Bu sevinc kiçicik qəlbinə dəryalar qədər nəşə sığdırar, bütün vücudunu titrədərdi. Bu sevinc mənə olan sonsuz məhəbbətinin sadəcə ifadəsiydi. Bu, ananın mənə, mənim anana olan əbədi sevgimizin tərənnümü, yoxsul evimizin qızıl dirəyiydi.

Bir axşam sən yatdıqdan sonra ananla başın üzərində durub sənin şirin mışıltına qulaq asırdıq.

Anan dedi:

– Əzizim, bilmirəm bunu nə ilə izah edim: sən gedən kimi bu tifil bütün günü «ata», «ata» deyib səni arayır, qapı döyüldümü, sənin gəldiyini düşünüb qapı ağzına qaçır, orda səni deyil, başqasını görəndə kor-peşman geri qayıdır, yenidən səni səsləməyə başlayır. Yaşyarım körpənin həyatında bu olan iş deyil. Qorxuram uşağın başına bir iş gəlsin.

Bu, qəribə olsa da ananı sakit etməyə çalışdım. O isə:

– Yox, yox – dedi, - bu nə isə bir bədbəxtliyin... Bilirsən, qoca arvadlar deyirlər ki, bəzən uşaqlar ölümqabağı ata-anaları üçün çox şirin olmağa çalışırlar... Bəlkə bu da...

Anan sözünü qurtara bilmədi, gözləri yaşardı. Mən onun nəmli gözlərini öpdüm. O da əyilib astaca sənin gözlərindən öpdü...

Sənin hər gün məni belə aramağın bir aya qədər davam etdi. Sonra...

Sonra məni sizdən ayırdılar... Zorla ayırdılar, oğlum!..

İllər bir-birini qovur, sən böyüyürsən. Atasız böyüyürsən, oğlum! Lakin sən heç vaxt məni unutmur, həmişə, hər yerdə arayırsan. Hicran möhnətinin sənə güc gəldiyi anlarda anan imdadına çatır, min gür nəvazişlə könlünü ovundurmağa çalışır. O sənin səadətin üçün şirin yuxunu belə özünə haram edir; gündüzləri Təbriz karxanalarında işləyir, gecələri onun-bunun paltarını yuyur...

Oğlum, heç bilirsənmi, bu, ananın izzəti-nəfsinə nə qədər toxunur! Axı, o vətənimizin dağları qədər məğrur, yenilməzdir! Paltarını yuduğu ərköyün Təbriz xanımlarından onun nəyi əskikdir? Gözəlliyimi? Yox. Ağlımı? Yox. Bacarığımı? Yox!

Lakin yoxsulluğun üzü qara olsun, səni ac və çılpaq qoymamaq üçün anan bütün əzab-əziyyətlərə dözür.

Oğlum! Unutma ki, sənin anan adi qadınlardan deyil. Onun barəsində eşitdiyim bir söz bilsən mənim başımı nə qədər uca eləmişdir. Bu yaxınlarda yanımıza təzə bir məhbus gətirdilər. Ananı yaxşı tanıyır. Bunu mənə o danışdı. Mən tutulanda bir neçə ay sonra bir oğlan yanına gəlib ona ərə getməsini təklif etmişdir.

Anan həmin gənci istehzalı nəzərlərlə süzmüş və təkəbbürlə demişdir:

– Mən yalnız namusu olan adama ərə gedə bilərəm.

Gənc özünü itirmiş halda kəkələyərək soruşmuşdur:

– Məgər mənim namusum yoxdur?

– Xeyir! Anan qətiyyətlə cavab vermişdir. – Namusu olan və vətənin azadlığı uğrunda, sənin və mənim uğrumda zinadları özünə məskən edən bir fədainin arvadına belə təklif edərmi?

Deyirlər ananın bu sözlərindən sonra həmin gənc başını əlləri arasına alıb getmiş, onu bir daha Təbrizdə görən olmamışdır.

Anan belə analardandır, oğlum! Onu daima sev, oxşa!

Eşitdiyimə görə sən bəzən yaşarmış qara gözlərini ananın məhzun və mənalı gözlərinə zilləyərək:

– Ana, söylə atam hardadır? – soruşarmışsan.

O zaman bu sualınla ananın da gözlərinin yaşarmasına səbəb olar, o da çox düşüncəli halda sənə cavab verərmiş:

– Soruşma, quzum, atan uzaqlardadır... Əl çatmaz, ün yetməz uzaqlarda!

Bəli, mən doğrudan da səndən çox uzaqlardayam. Lakin bu uzaqlıq cisməndir, oğlum! Ruhən, qəlbən mən həmişə sənin yanında, ürəyindəyəm!

Ancaq hicran hələ güclüdür, quzum! O, meydanda at aynadır! Qoy oynatsın!.. Oynada-oynada onu da bilsin ki, vüsalımıza az qalmışdır. Az!

Oğlum, mənim sizdən ayrılacağımı evimizdə birinci olaraq sən hiss etmişdin. İndi mənə elə gəlir ki, qayıdacağımı da birinci sən hiss edəcəksən, deyilmi? O zaman sən xoş bəxərin böyük səadətini müjdəçisi olacaqsan!

Eh, oğlum! Bilsən sənin belə bir müjdəçi olacağını necə arzu edirəm! Bu, təkcə mənim deyil, milyonların arzusudur!

*20 yanvar, 1955; 1956*

## ABDULLA ŞAİQİN XATİRƏSİNƏ

– Böyük bir yazıçının, sənətkarın qələmi əlindən düşdü! – dedilər.

– Nəcib, gözəl, xeyirxah bir insanın ürəyi dayandı! – dedilər.

El yığıldı, dostlar gəldi, qohum-qardaş, oğul-uşaq töküldü: - «Gəlin çiynimizə alaq, son mənzilə aparaq» - dedilər.

Apardılar. Ədəblə, hörmətlə, adına-sanına layiq bir şərəflə ədfn elədilər, son torpağı töküb, «Gəlin, vidalaşaq» - dedilər.

Onu torpağa tapşırıb, məzarını tərk etdilər; kimi bir az tez, kimi bir az gec... Hamı getdi!.. Düşünə-düşünə, mükəddər, başlarını aşağı dikə-dikə getdilər... Gedə-gedə iki nəfər biri-birinə baxıb həkimanə: - «Bəli, bu gündən bu da qarışdı min ilin ölülərinə», - dedilər.

Yox!.. Sonuncunu düz demədilər, mirzə, düz demədilər! Axı sən min ilin ölülərinə yox, min ilin dirilərinə qarışdın! Sən Nizamilərə, Füzulilərə, Vaqiflərə, Sabirlərə, Mirzə Cəlillərə, Cavidlərə, Cəfərlərə, Üzeyirlərə qarışdın!

*26 iyun, 1959*

## AY NUR ÇİLƏYƏNDƏ...

Təbiət gümüşü rəngə boyanır, yarpaqlar pıçıldaşır, ulduz ulduzu çağırır, sevgililər görüşə çıxır, ay nur çiləyəndə...

Qapılara elçilər gəlir, qızların ürəyi səksəkədə olur, qoşa zurnadan «Vağzalı» süzülür, nişanlı qızlar gəlin gedir, ay qur çiləyəndə...

***

Qonşu idik. Uşaq vaxtı səhərdən axşamacan atılıb düşərdik, deyib-gülərdik, ağacdan ağaca, budaqdan budağa qonardıq, nə vaxt qaş qaraldığını bilməzdik. Bir də onu görərdi ki, anan həyətdə ora-bura boylanıb səni çağırır, sən də onun səsinə

hay verər, götürülüb evə qaçardın, qaça-qaça dönüb də tez-tez mənə əl eləyərdin, ay nur çiləyəndə...

***

İllər keçdi. Yaşa dolduq. Arzular qəlbimizdə yuva saldı. Arzular – sənin də, mənim də qəlbimi coşduran, bizi yaşamağa, yaşatmağa çağıran arzular!

Böyüdükcə bir şeyi başa düşə bilmirdim, ay qonşumuzun qızı, niyə məndən qaçırdın, özün də istəmədən qaçırdın, ananı, qardaşlarını görən kimi qaçırdın. Niyə qaçırdın axı? Canım, böyüdük də, daha bir-birimizə düşmən ki kəsilmədik?

Axşamlar pəncərənizin qabağından keçəndə bəzən ayaq saxlar, sənin o incə, gözəl, məlahətli səsini dinlərdim. Sən də çox güman ki, mənim qulaq asdığımı bilməyib ahəstə-ahəstə oxuyardın, ay nur çiləyəndə:

Qızılgülü dərərlər,
Məxmər üstə sərərlər,
Xoş o qızın halına
Sevdiyinə verərlər.

Orta məktəbi bitirmişdik. Sən işləmək, ata-anana kömək eləmək istəyirdin, kənddə qalacaqdın; mən oxumaq istəyirdim, şəhərə gedəcəkdim...

Bir yay axşamında artıq yol üstə idim. Bütün qonşular yığılmışdı. Hamı ilə əl tuturdum. Növbə sənə çatdı... Əlini əlimə alanda mənə elə gəldi ki, sən ürəyimin döyüntülərini eşidirsən. Gözlərimiz biri-birinə sataşanda sən, ildırım çaxacağından qorxurmuş kimi, tez başını aşağı dikdin...

Mən yola düşdüm. Hamı mənə əl eləyirdi, sən də. Lakin mən uzaqdan ancaq səni, bir də yellədiyin ağ ipək dəsmalı götürdüm, ay nur çiləyəndə...

***

İndi, əziz qonşu mən qayıtmışam. Mən gələnəcən sən də gözəl sağıcı olmusan...

İndi biz kəndimizin işıqlı, firavan, mədəni gələcəyi üçün inadla çalışırıq. Bəzən elə olur ki, evə bir yerdə qayıdırıq, ay nur çiləyəndə...

***

Yadındamıdır, bir səhər sevdiyimiz tut ağacının kölgəsində xeyli mübahisə elədik. Sən hardasa oxumuşdun... «Sevgi bir xəstəlikdir...» Bununla heç cür razılaşmaq istəmirdin. Gözəl, incə bir hiss xəstəlik adlandırmaq sənə qəribə görünürdü.

İndi, qonşu can, bu «qəribə xəstəliyə» mən də tutulmuşam, nə vaxt, özüm də bilmirəm, ancaq onu bilirəm ki, rahatlığımı, asudəliyimi itirmişəm. Bu, nə qədər əziyyətli, cəfalı olsa da, mən şikayətlənmirəm. Mən ancaq bunun sənə də sirayət etməsini istəyirəm. İstəyirəm ki, qəlbimin tellərini həyəcana gətirən mizrad sənin də qəlbinin tellərini titrətsin, həyəcana gətirsin, ay nur çiləyəndə...

***

Təbiətə gümüşü rəngə boyanır, yarpaq pıçıldaşır, ulduz ulduzu çağırır, sevgililər görüşə çıxır, ay nur çiləyəndə...

Qapılara elçilər gəlir, qızların ürəyi səksəkədə olur, qoşa zurnadan «Vağzalı» süzülür, nişanlı qızlar gəlin gedir, ay nur çiləyəndə...

Nə olaydı, ay mənim qonşum, sən də bir axşam beləcə qapımızdan girəydin... Ağ gəlin duvağını başından götürüb pəncərəni açaydıq, otağımıza ay nur çiləyəydi, yarpaqların pıçıltısı xoş musiqi kimi qulaqlarımızda səsləneydi, bizi dünyanın gözəlliklərindən zövq almağa çağıraydı.

Sən utana-utana olsa da deyəydin:

– Görürsənmi, əzizim, sevgi qarşılıqlı olduqda xəstəlik deyil, şəfa olur!

Mən deyəydim:

– Təkcə şəfa deyil, səadət olur!..

Xəifi axşam mehi də bizim sözlərimizi hər tərəfə aparaydı, hamının qulağına pıçıldayaydı, ay nur çiləyəndə...

*11 yanvar, 1960*

## GƏNC ANANIN ETİRAFI

Mən ata nəvazişi görməmişəm! Hələ kiçik, çox kiçik ikən ondan məhrum olmuşam.

Atamın dəfn mərasimi yadıma gəlmir. Ancaq deyirlər cənazəni evdən çıxararkən mənim təəccübdən böyümüş gözlərimdə yaş donmuşmuş. Şaxtalı, acı, sərt havalarda kiçik gölməçələrdən donan kimi.

Böyüdükcə atasızlığım mənə çox yer eləyirdi. Həyət-bacada, qonum-qonşuda yaşıdlarımın dilində «atam gəldi», «atam aldı», «atam acıqlandı» sözlərini eşidəndə özümü bilmir, qəlbim sıxılmağa başlayır, gözlərim dolurdu. Mavi, nəhayətsiz ənginliklər qara buludlarla dolan kimi.

Ona görə yox ki, onların atası vardı... Yox! Qətiyyən yox! Mən istəmirəm heç kim atasız olsun! Heç kim!

Ona görə ki, mənim atam yoxdu, mənim!

Anam da, qohumlarımız da uşağam deyə məni atamın qəbri üstə aparmazdılar. Bu hələ nədir ki... Məni heç ağlamağa qoymazdılar. Elə ki, görərdilər tutulmuşam, özümdə deyiləm, tez başımın üstünü alar, məni ovundurmağa çalışardılar. Dodaqlarımda zərrəcə təbəssüm görməyində, yaxamı buraxmazdılar. Heyhat! Onlar təbəssümlə, tutqun səmada azacıq görünüb tez də yox olan günəş kimi gəldiyi ilə getdiyi bir olan təbəssümlə mənim rahat olduğumu düşünərdilər. Halbuki...

Halbuki dolan səma boşalmalı idi. Mən dolan ürəyimi yalnız gecələr baş yastığa qoyarkən xısın-xısın ağlamaqla boşaldar, sonra yuxulardım. Belə anlarımda

ürəyimdən keçən (qəribə də olsa, deyəcəyəm) bu olardı: «Öləndə vəsiyyət edəcəyəm məni atamın qəbrində basdırsınlar. Atamla bir yerdə!..»

Bir dəfə necə oldusa bunu evdə də ağzımdan qaçırdım. Böyük mərəkəyə səbəb oldu. Hamıdan da çox hirslənən anam idi: «Sən allah, bunun bir boyuna baxın, neybət-neybət danışmağına baxın, vəsiyyət eləməyinə baxın!.. Adam quruyub qalır!..»

«Quruyub qalmalı» bir şey yoxdu. Mən hər şeyi daha düşürdüm... və sözlərimdən heç bu çıxmırdı ki, həyatdan küskün olmuşam, tez ölmək istəyirəm, ya ölməyə hazırlaşıram, yox. Mən o sözlərimlə ancaq atamın xatirəsinə olan məhəbbətimi ifadə etmək istəmişdim... Vəssalam. Bir də, adam əvvəl-axır ölməlidir, ya yox?

***

Bütün qızların gözlədikləri «Vazğalı» havası bir gün mənim üçün də çalındı... Yoldaşım yaxşı adamdır. Mən ona tez-tez uşaqlıq xatirələrimdən, düşüncələrimdən danışıram, maraqla dinləyir. Biz onunla hərdənbir atamın qəbri üstə gedirik. Ancaq bir şərtlə: atamın qəbri üstə mən ağlamayım. Mən də ağlamıram. Bəzən ikimizin – oğlumuzu da aparırıq. Heç bir şey başa düşmür. Babasının qəbri üstə elədən beləyə, belədən eləyə atılıb-düşür, torpaqla oynayır. Mən də altdan-altdan ona baxıram. Elə bilirəm, atamın arzusu ayaq tutub yeriyir...

İkinci körpəm olacaqdı. Oldu. Ancaq qalmadı. Nisgili, adı qaldı, özü qalmadı. Mənim çoxdan qurumuş göz yaşımı yenidən axıtdı. Doqquz ay bətnimdə gəzdirdiyim, qanımla, canımla bəslədiyim ciyərparamı atamın qəbri yanında nəm torpağa tapşıranda qəlbim tüğyana gəldi: «Öləndə vəsiyyət edəcəyəm məni körpəmin qəbrində basdırsınlar. Körpəmlə bir yerdə!..»

Sanki yatmışdım, ayıldım. Başımı qaldırıb tez atamın qəbrinə baxdım və orada elə bir iri hərflərlə həkk olunmuş bu sözləri oxudum: «Öləndə vəsiyyət edəcəyəm məni atamın qəbrində basdırsınlar. Atamla bir yerdə!..»

Quruyub qaldım! Bəs indicə dediyim sözlər nə idi? Atamın xatirəsinə xəyanət deyildimi? Nə nankor övladam! «Ata, ata» deyib xısın-xısın hıçqırdığım gecələr harda qaldı? Harda!?

Yox, mən özümü təqsirləndirməkdə, deyəsən, tələsmişdim! Bəli, bəli, tələsmişdim. Azacıq sonra mən bunu başa düşdüm.

Atamın xatirəsini həmişəki kimi mən indi də əziz tuturam. Ancaq...

Etirafımı burdaca qurtarmaq istəyirəm.

*16 iyun, 1963*

## İLK QƏDƏM

İki nəfər yol ilə gedirdi. İki nəfər.

Qabaqda gedən arxadan gələni hiss eləmirdi. Təkcə arxadan gələnimi? Yox, bu dəqiqə o, yan-yörəsində bir şey görmür, duymur və duymağa can atmırdı. Bütün-bütünə diqqətinə, səyini, nəzərlərini yalnız irəliyə zilləmişdi. Fikri-zikri ancaq irəlidə idi. Ona elə gəlirdi ki, arxayar, yan-yörəyə bircə saniyəliyə də olsa baxmaq onu yubaqdıra bilər, şirin, xoş, gözəl düşüncələrindən ayılmaq. Buna görə də ətrafına nəzər salmadan fərəhlə, qürurla, uçurmuş kimi irəliyə gedirdi. İrəlidə nə vardı ki?!

Arxadan gələn irəlidə gedənə baxırdı. Mehriban-mehriban, ürəyi əsə-əsə, həsrətlə, əlindən qaçırdığı körpəcə, məsum quşun arxasınca baxan kimi, öz dünəninə qəfil təsadüf eləyən adam kimi. Baxdıqca gülümsəyir, gözləri dolur, təəssüf edir, düşünürdü. Düşünə-düşünə də irəliyə gedirdi. İrəlidə nə vardı ki?!

Onların ikisinə də gecə elə gəlmişdi ki, səhər gec açılır. İkisinə də! Elə gəlmişdi. Ancaq səhər vaxtında açılmışdı.

Onların biri o birindən on beş il böyük. Nə az, nə çox, on beş il!

«Böyük» «kiçiyin» üst-başından, əlindəki çantasından, balaca hörüklərini bəzəyən lentlərdən hara getdiyini yaxşı bilirdi. Bilsə də yenə onunla bərabərləşəndə elə-belə, söhbət üçün soruşdu:

– Səhər-səhər hara belə, ay qəşəng qız?

– Məktəbə!

Ancaq «qəşəng qız» özündən boyca iki dəfə böyük görünən «xala»dan heç soruşmadı o hara gedir. Niyə də soruşaydı?! Bu gün onunçun heç fərqi yoxdu kim hara gedir. Onu indi yalnız bir şey məşğul edir, düşündürür, həyəcanlandırırdı: o, məktəbə gedir, məktəbə!

Bunu «xala» da başa düşdüyündəndi ki, «qəşəng qız»ı bir daha əziz düşüncələrindən ayırmamaq üçün sual vermədi.

Bir azdan ikinci də uca bir binanın geniş qapısı qabağına gəlib çıxdı. Məktəb qapısının. İkisi də.

Biri bu qapıdan ilk dəfə girəcəkdi. Qapının arxasında nə vardı, nə olacaqdı, bu hələ onunçun dumanlı, əsrarəngizdi.

Biri düz on il bu qapıdan gündə ən azı iki dəfə girib-çıxmışdı. Ən azı! Bu qapının arxasında nə qədər xatiratı, təəssüratı, ürək çırpıntıları, həyəcanları qalmışdı. Uşaqlığı, ilk gəncliyi qalmışdı. İndi, budur, o yenə bu qapıdan keçməyə gəlmişdir. Keçəcəkdir. Yox, daha şagird kimi yox, müəllim kimi keçəcəkdir. Müəllim kimi!

Səs-küy müəllimi düşüncələrindən ayırdı. Məktəbin qabağına o qədər uşaq, o qədər uşaq yığılmışdı ki... O, «qəşəng qız»ı yanında görməyəndə nə üçünsə narahat oldu, tələsik onu uşaqların içində axtarmağa getdi. Tapdı. Əlindən tutdu. Nə sirsə «qəşəng qız» da əlini çəkmədi. İkisi də qabağa, lap qabağa gəldi. Elə buradaca birdən-birə ikisinin də qəlbini qəribə bir nigarançılıq, hətta deyəsən, təlaş hissi bürüdü:

«Görəsən oxuda biləcəyəm?!»

«Görəsən oxuya biləcəyəm?!»

«Görəsən şagirdlər sözümə baxacaq?!»

«Görəsən müəllim necə qarşılayacaq?!»

«Görəsən...»

«Görəsən...»

Məktəb qapısı taybatay açıldı. Rəngdən rəngə çalan axın bir an içində adlğalandı. Müəllim şagirdin əlindən bir az da bərk tutdu. İkisinin də qəlbi şiddətlə döyündü. Döyünən qəlbin çırpıntıları onları bir-birinə daha da istətdi, bağladı. Şagird müəllimə pənah gətirdi, müəllim şagirdə güvəndi. Əllər, xəfifcə titrəyən əllər hərarətlə bir-birini sıxdı. Bu zaman müəllimin qulağına sanki səs gəldi. Ona tanış, doğma olan bir səs! Yox, o yanılmamışdı. Səs dərunindən gəlirdi:

– On beş illik zəhmətinin meyvələrin burada yetişdirəcəksən, müəllim, burada!..

Müəllimə elə gəldi ki, o elə indi ilk meyvəsinin əlindən tutmuşdur. Bəli, bəli, ilk meyvəsinin! Varlığına birdən-birə hakim kəsilmiş bu hiss qəlbini inamla doldurdu, ümid qığılcımlarını şöləl追əndirdi, ona ayrı bir cəsarət verdi. Qəti addımlarla yeriyib ilk şagirdi ilə birlikdə məktəb qapısından içəri keçdi...

İlk qədəmləri mübarək olsun!

*27 avqust, 1963*

## QATAR GEDİR...

Qatar gedir...

Hər gün neçə-neçə qatar... Kəndin yaxınlığından keçib gedir.

Onun yaxşı yadındadır, uşaq vaxtı, qatar keçəndə rəfiqələriylə qaça-qaça yolun kənarına gələr, dikdirdəcə durub, gözləri önündən bir-bir ötən vaqonlara, pəncərələrdən baxan adamlara, tanımadığı «xalalara», «əmilərə» əl edərdi.

Qatar gözdən itincəyədək, qabaqda qaralan meşəyə girincəyədək əl edərdi.

Düşünmədən, ürəyi ağrımadan, əl eləməyin əsl mənasını duymadan əl edərdi.

Gündə neçə-neçə qatarı beləcə yola salmaq onun üçün bir oyuna çevrilmişdi. Adicə uşaq oyunlarından birinə.

Nə qədər ki, uşaq idi, qayğı, kədər, gözləri yol çəkən düşüncə, ayrılıq həyəcanı hələ qəlbinə yol tapa bilməmişdi, o, bu «oyun»dan ayrı cür zövq alırdı. Ayrı cür!. Nə qədər ki, uşaq idi!..

Elə ki, böyüdü, bunu nə zaman, necə unutduğunu özü də bilmədi. Bir azdan sonra həmin «oyun» ona gülünc göründü. Sonra qayğısız uşaqlıq xatirələrindən biri oldu. Sonra...

Sonra elə bir vaxt da gəldi ki, qatar arxasınca əl eləməyin əsl mənasını bütün dərinliyi ilə duydu, ürək ağrısı ilə yaşadı...

Budur, qatar gedir, o, əl edir. Ona elə gəlir ki, gedən qatar deyil, ürəyidir, ürəyi.

Qatar gedir. Onun gözdən itməsini, meşəyə girməsini o necə də istəmir! Min, milyon dəfə istəmir! Amma qatar gedir, ona məhəl qoymadan, onu duymadan, saymadan gedir.

Bax, indicə gözdən itəcək, bax, indicə meşəyə girəcəkdir. O hələ də əl edir. Onun indi yalnız əli deyil, bütün vücudu, varlığı tərpənir, ürəyi əsir, gözləri dolur. Dolan gözlər, dolub-boşalan gözlər, qatarı heç olmasa bir anlığa tutub saxlamaq üçün olan-qalan son dəfə toplayan gözlər nigaran-nigaran baxır...

Qatar gedir, o əl edir... Əl edir...

Qatar gedir...

*7 aprel, 1954*

## İŞIQ VƏ ZÜLMƏT

Sinif gözləyir. Sinif nigarandır. «Kimdən soruşacaq, kimdən?!

Qarşıda oturan iki qızdan biri kordur. Müəllim nə düşünür, nə düşünmür, sorğu-suala elə onlardan başlayır...

Kor qız danışır... Üzündə xoş bir ifadə gəzir. Ağır, halal zəhmətinin bəhrəsini görənlərin üzündə gəzən kimi. Səsi, cingiltili səsi inam yaradır. Biliyinə, qüvvəsinə inam! İstər-istəməz yaradır.

Rəfiqəsi danışır... Əsim-əsim əsir. Əsim-əsim! Əlləri də, səsi də, varlığı da əsir. Əsdikcə də inamsızlıq oyadır. İstər-istəməz oyadır.

Arada kor qız ona bəzi sözlər pıçıldayır. Çətinlikdən çıxarmaq üçün. Müəllim də eşidir. Ancaq nədənsə üzə vurmur, vurmaq istəmir.

Biri pıçıldayır, biri düşünmədən təkrar edir, biri düşüncükcə dəhşətə gəlir: «Aman allah, biliksiz adam nə qorxaq, nə yazıq, nə miskin olurmuş!.. Nə!.. Nə!..»

Biri pıçıldayır, bir tutuquşu tək təkrar edir, biri heyrət içində donub qalır. Tilsimə düşən, ovsunlanan adam kimi. Qalır və birdən-birə ona elə gəlir ki, qarşısında daha iki tələbəsi yox, işıqla zülmət dayanmışdır. Ancaq işıqla zülmət!

Bəli, dərsi bilməyən qız indi ona kor kimi görünür. Üz-gözündə nə bir işıq, nə bir ağıl nişanəsi. Üzü də, gözü də, varlığı da zülmət pərdəsinə bürünmüş. Zülmət!

Ancaq korun üzü işıqlıdır, üzünə nur çilənmişdir, üzündən cəsarət yağır. Hətta müəllimə elə gəlir ki, cavab verərkən onun işığa həsrət gözlərində belə işıq sayrışır. İşığa həsrət gözlərində. İşıq!

*7 iyul, 1966*

## GÜL ÖMRÜ

Gül pardaqlayıb açılırdı... yan-yörəsinə ətir saçır, bağ-bağçanı bəzəyir, gözləri oxşayırdı.

Qızlar dərib döşlərinə taxırdılar. Baharın, məhəbbətin rəmzi kimi.

Oğlanlar dərib dəstə bağlayırdılar. Təmiz hisslərin toplusu kimi. Sevgili qızlara aparmaq üçün.

Balaca, balaca bir uşaq dərib evə qaçırdı. Atıla-atıla. «Anası, təbrik edirəm!» demək üçün. Həssaslıq, ilk övlad hədiyyəsi ananın ürəyini kövrəldir, yanaqlarından diyirlənən gözyaşları gülün ləçəklərinə düşürdü. Şeh damlası kimi.

Şair kürsüdən şeir deyir, xanəndə nəğmə oxuyur, bəstəkar öz əsərinə dirijorluq edirdi. Bir anda yüzlərlə insanın ruhunu oxşayır, könlünü açır, xəyalını

qanadlandırırdılar. Bir anda! Xəyalı qanadlanan insanlar da bunun əvəzində onlara dərib gül təqdim eləyirdilər, gül! Min-min təşəkkürlərinin, alqışlarının nişanəsi kimi. Şairə də, xanəndəyə də, bəstəkara da. Gül pardaqlanıb açılırdı... Yan-yörəsinə ətir saçır, bağ-bağçanı bəzəyir, gözləri oxşayırdı...

Xanəndə hisslə, yana-yana oxuyurdu:

Mən sənə gül deyərəm,
Gülün ömrü az olur...

Az olmur, amma yaxşı olur, şərəfli olur, nəcib olur.
Gül kimi yaşayın, insanlar, gül kimi!

*12 iyul, 1966*

## BAL ARISI

Hara baxırsan çiçəkdir. Çiçək.

Sol yan çiçək. Sağ yan çiçək. Hər yan çiçək.

Hər birinin də öz ətri, öz rəngi, öz görünüşü, öz gözəlliyi.

Boyu-buxunu, qaməti. Baxışı. Axışı.

Arılar, kəpənəklər, çəyirtkələr, saysız-hesabsız böcəklər ruhoxşayıcı, məstedici rəngarəng çiçəklər arasında belədən eləyə, elədən beləyə uçuşurlar. Çiçəkdən çiçəyə qonub şirə sorur, qidalanırlar. Nəşəylə. Doyunca. Zövq ala-ala. Ana torpağın səxavətlə, bəzəkli xonça kimi açdığı süfrədən hamısı pay alır. Hamısı. Arılar da, kəpənəklər də, çəyirtkələr də...

Bayaqdan fikrimdə bir sual dolaşır. Bəs sonra, sonra bütün bu kəpənəklər, çəytirkələr, bu müxtəlif böcəklər aldıqlarının əvəzində nə verəcəklər, bal arısı nə?!

Və birdən-birə bal arısı nəzərimdə o qədər böyüyür, o qədər böyüyür ki, heç bir ölçüyə sığmır.

Dahilər də belədir. Eynilə.

*13 iyul 1966*

## MƏHƏBBƏT

Papağını başına qoyub dedin:

– gedirəm...

Gözümdə dünya qaraldı. Dünya. Ürəyim əsdi. Ürəyim gizildədi. Ürəyimdən nələr keçmədi, nələr!.. Yazıq ürəyimdən, bəlalı, cəfalı ürəyimdən. Ah, bu sözü mən gözləyirdim. Əvvəl-axır deyiləcəkdi. Geci-tezi vardı. Deyiləcəkdi... Güclə özümü ələ aldım. Özümü sındırmadım. Sındıra bilmədim.

– Get, - dedim, - get!

Gözlərimə baxsaydın «getmə!» oxuyardın, «getmə!»

Ancaq sən baxmırdın, gözlərin yerə dikilmişdi.

Dedin:

– Unut. Hər şeyi unut!..

Düşündüm: «Bu tezlikdə?! Ağır olmazmı?! Nə dediyini duyursanmı?!».

Dedim:

– Çalışaram, unudaram!

Dedin:

– Bağışlamağa... bağışlamağa necə, söz verirsən?!

Yandım. İçin-için yandım. İlahi, insan necə də davamlı, necə də dözümlü olurmuş. Dözdüm. Yana-yana dözdüm. Dözüb də xəfif bir təbəssümlə, yox-yox, saxta, yapma bir təbəssümlə dedim:

– Verirəm!.. Bağışlamağa söz verirəm!

Getdin...

Saxlaya bilmədim. Saxlaya bilməzdim. Məhəbbətini uçurmuşdum. Məhəbbətini! Özünü saxlamağın mənası vardımı?!.

*28 iyul, 1966*

# İLK QAR

Qar yağır. Şəhərimizə qar yağır, ilk qar!.. Yağır da, tez əriyir də. Tez.

Hamı sevinir. Hamı. Uşaqlar da, cavanlar da, qocalar da. Sevinir. Axı şəhərimizə qar yağır. Qar üçün susamış şəhərimizə. İlk qar! Tez ərisə də, yağır.

Hamı, hamı da sevinir...

Kədərlənirəm. İstəsəm də, istəməsəm də kədərlənirəm.

***

Qar yağırdı. Şəhərimizə qar yağırdı, ilk qar!.. Yağırdı da, tez əriyirdi də. Tez.

Hamı sevinirdi. Hamı. Uşaqlar da, cavanlar da, qocalar da. Axı şəhərimizə qar yağırdı. Qar üçün susamış şəhərimizə. İlk qar... Tez ərisə də yağırdı.

Hamı, hamı da sevinirdi.

Mən də sevinirdim. Mən də. Hamıdan artıq sevinirdim... Şəhərimizə qar yağırdı, ilk qar!.. Yox, yağan qar deyildi, ağ çiçəklərdi, başımıza yağırdı. Onu da, məni də təbrik eləyirdi. Biri-birimizə ilk məhəbbətimizi etiraf etdiyimiz üçün. Təbrik! İlk qar ilk məhəbbətimizin çiçəkləri kimi başımıza səpələnirdi...

İlk qar yağdı da, tez əriyib yoxa çıxdı da. İzi də qalmadı. İlk qarın. İzi də.

İlk məhəbbətimiz də ilk qar kimi oldu. Tez gəldi, tez də əriyib yoxa çıxdı, ancaq izi qaldı. İlk məhəbbətin. İzi.

***

Qar yağacaq. Şəhərimizə qar yağacaq, ilk yar!.. Yağacaq da, tez əriyəcək də. Tez.

Hamı sevinəcək. Hamı. Uşaqlar da, cavanlar da, qocalar da. Sevinəcək. Axı şəhərimizə qar yağacaq. Qar üçün susamış şəhərimizə. İlk qar!.. Tez ərisə də yağacaq.

Hamı, hamı da sevinəcək...

Kədərlənəcəyəmmi? Sevinəcəyəmmi? Bilmirəm...

*1 avqust, 1966*

## ÖMÜR-GÜN

Səhər. Göz yaşı kimi şəffaf, körpə kimi pak, məsum səhər. Günəşli, qarlı səhər.

Qar yağır. Narın-narın. Gün çıxır. Asta-asta. Gah tutulur, gah da çıxır. Asta-asta. Çıxanda hər yan gülür. Qarlı həyət-baca da, bağça-bağ da, oynaşan, qaçışan uşaqlar da. Gülürlər.

İki uşaq, iki totuq uşaq qartopu oynayır. Yanaqları qıpqırmızı. Biri oğlan, biri qız. Qız oğlanı, oğlan qızı qovur. Yıxılır, durur, qaçır, sevinc içində atılıb-düşürlər. İkisi də. Heç nə haqqında düşünmür. Düşünmək ağıllarına da gəlmir. Oynayır, çığırışırlar, gülüşürlər.

***

Günorta. Göz yaşı kimi şəffaf, körpə kimi pak, məsum səhərin, günəşli, qarlı səhərin günortası – yolun yarısı.

Qar yağır, şiddətlə, ağına-bozuna baxmadan yağır. Qar qar üstə qalanır.

İki cavan, bir-birinə yaraşan iki cavan qartopu oynayır. Yanaqları qıpqırmızı. Bir oğlan, biri qız. Oğlan qızı qovur. Tutmaq üçün. Yumuralıdığı qarı sifətinə sürtür, qız qışqırır. Çırpınır. Oğlanın əlindən qurtarıb qaçmaq üçün. Qaçır... Gülüşürlər. Şaddırlar. İkisinin də sifəti od tutub yanır... Hərdən dayanıb baxırlar. İki uşağa, iki totuq uşağa baxırlar. Heyran-heyran baxırlar. Uşaqlıqlarımı gözlərinə

görünür, ya nə? Gülümsünürlər. Sonra yenə qartopu. Yenə... Oğlan qovur, qız qaçır. Qız qovur, oğlan qaçır. Qaçırlar. Sürətlə. Yorulmaq nə olduğunu bilmədən, hey qaçırlar... Qovuşana qədər. Qaçırlar.

***

Axşam. Göz yaşı kimi şəffaf, körpə kimi pak, məsum səhərin, günəşli, qarlı səhərin axşamı. Həyəcanlı, səksəkəli axşam.

Qar yağır. Aram-aram yağır, dayanır, yağır.

İki qoca, biri-birinə dayaq, biri-birinə pənah iki qoca. Yanaqları payız rəngi, qürub rəngi. Biri arvad, biri kişi. Arvad kişiyə sığınmış, kişi arvada. Bərk-bərk. Yıxılmamaq üçün. Paltolarının boyunluğunu qaldırmışlar. Soyuqdan donmamaq üçün. Bağça-bağla gedirlər. Hərdən dayanıb baxırlar. İki cavana, biri-birinə yaraşan iki cavana. Həsrət-həsrət baxırlar. Cavanlıqları yada düşür. Qorxu bilməz, soyuq bilməz, yüyəni boş buraxılan cavanlıqları. Gözləri dolur. Həsrətlə baxan gözləri. İkisinin də. Dolur. Ürək yanır, ürək fəryad edir, ürək dilə gəlir. İkisinin də ürəyi. Dilə gəlir.

Gün keçdi, ömür keçdi,
Cavan olmam bir də mən.

Dilə gələn ürəklərin fəryadını, o gizli fəryyadı, o gizli iniltini dilə gətirməyi heç birisi istəmir. Heç biri! Ancaq fərqi yoxdu: ömür-gün keçmişdi, gələcəkdi. Onu saxlamağa insanın gücü çatmır.

Bircə buna çatmır insanın gücü. Bircə buna!

*2 avqust, 1966*

## BİR SÖZ

Gözlərini daha çox sevəcəyəm. Daha çox! Niyəsini soruşma, heç olmasa sən soruşma niyəsini. Sən soruşma!

***

Bir sözüm vardı. Sənə deyiləsi, yalnız sənə deyiləsi, çoxdan deyiləsi bir sözüm. Deyə bilmirdim. Deməyə cəsarət eləmirdim.

Bir gün sənə yanaşdım, özüm də bilmirəm necə yanaşdım:

– Bir sözüm var... Sənə deyiləsi....

Qaşların çatıldı. Yaman çatıldı:

– Nə söz?!

Dedim. O bir sözümü dedim. Sənə düçar olduğum gündən ürəyimə qonan, məni gah ruhlandıraraq ənginliklərə uçuran, gah qol-qanadımı qıraraq daşa-qayaya çırpan, yuxusuz gecələrimin yeganə həmdəmi, dadlı ümidi, şirin xəyalı, nəcib arzusu o bir kəlmə sözümü dedim. Dedim və birdən-birə mənə elə gəldi ki, dünya ağırlıqda yükü çiynimdən götürdülər.

Susdum. Cavab üçün. O bir sözümün cavabı üçün susdum. Bir an keçdi... Yalnız bir an! Bir il, bir qərinə, bir əsr qədər uzun olan, sevincimi, kədərimi hazırlayan bir an!.. Başını qaldırdın, ürəyim əsdi. Baxıb getdin. Bir söz demədən getdin. Bir söz!

***

Bir söz var. Mənə deyiləsi, yalnız mənə deyiləsi bir söz. Deyilmir. Deyiləcəkmi? O bir söz, o bir sözümün cavabı. Deyiləcəkmi?..

Gözlərin, səndən xəbərsiz mənimlə ünsiyyət bağlamış, iri qara gözlərin, mehriban gözlərin «hə» deyir, dilin susur.

***

Bözlərini daha çox sevəcəyəm. Daha çox! Niyəsini soruşma, heç olmasa sən soruşma niyəsin. Sən soruşma!

*11 sentyabr, 1966*

## ANA VƏ TORPAQ

Körpə ananın südünü əmdi, yuxusunu yedi. Ana yanmadı, gözlərinin nuruna, ürəyinin qanına, qollarının qüvvəsinə, hamısını, hamısını verdi körpəsinə, nəfəsinə, həyat səsinə. Bir tikəsinə də yanmadı. Bir tikəsinə də. Böyütdü körpəsini, ömür səyyarəsini. Ayaq üstə qoydu. Torpaq üstə qoydu.

Torpaq sinəsində gəzdirdi onu. Yedirtdi, geydirdi. Ana nəvazişiylə, ana zövqüylə. Heç nəyini əsirgəmədi torpaq, heç nəyini. Əsirgəmədi ondan!

Oğul böyüdü, böyüdü... Əli çörəyə çatdı. Səsi-sədası el obanı aşdı, şəhərləri dolaşdı. Oğul məşhurlaşdı... Və birdən-birə o qədər qohum-əqrəbası tapıldı ki... Çoxunun heç səsini eşitmədiyi, üzünü görmədiyi, gördüklərinin də soyuqluğundan həmişə üşüdüyü qohum-əqrəbası. Özü də mat qaldı.

Çıraq yansın, pərvanələr öz-özünə yığışacaq. Yığışırdı qohumlar da. Yığışırdı. Söz-söhbət də qızışırdı. Biri daha yaxın qohum olduğunu, biri adı-sayınla göylərə sığmadığını söyləyir, kimi haçansa əlindən tutduğunu, kimi qayğı bəslədiyini sözarası deyir... Hərə bir cür yerini şirin salmağa çalışırdı. Hamı, hamı danışırdı.

Danışmayan yalnız ana idi, torpaq idi. Ana torpaq, torpaq ana! Onların təbiəti belədir. Təbiəti!

*22 sentyabr, 1966*

## HANI

Səni kim yaradır, kim yaşadır?
Yaratdığına, yaşatdığına peşman olurmu heç?!
Sənə güclüsən, dəhşətlisən desəm az olar!
Qılıncdan da kəsərlisən desəm az olar!
Tez gəlməkdə tayın varmı?
Gözlənilmədən gəlməkdə sənə çatan olarmı?
Gəlişin yamandır. Titrədir də, saraldır da, soldurur da.
Gedişin...
Gedişini görən xoşbəxt hanı, Ayrılıq?! Hanı?!

*15 oktyabr, 1966*

## BƏNZƏYİŞ

*Əsarət zəncirini qıran, müstəqillik*
*yoluna çıxan xalqlara daost töhfəsi kimi.*

Qızılbalıq tora düşmüşdü. Yaman düşmüşdü. Balıqlar gözəli, çaylar gözəli, dənizdə üzəli hələ belə şey görməmişdi.

Çırpınır, çapalayır, atılıb-düşürdü...

Didib parçalar, yırtardı düşdüyü toru.

Yırtardı, imkanı olsaydı, gücü çatsaydı!

Gücü çatmır, dözə bilmir, dözə bilməzdi, qızılbalıq.

Dənizin dərinliklərinə baş vurmuşdu, çayların şirin suyundan içmişdi, oylağı suların geniş qoynunda bol-bol nəfəs almışdı. Dözə bilməzdi...

Çırpınır, çapalayır, atılıb-düşürdü... Hey atılıb-düşürdü!.. Belə getsə ölə bilərdi...

Öldü də, qızılbalıq, öldü də!

Qızılbalığı xatırlayıb da insanlar haqqında düşünürəm mən. İnsanlar, dəhşətli işgəncələrə məruz qalsalar da əqidələrindən dönməyən, azad olmaq ümidlərini son dəqiqələrində belə itirməyən, bircə an da itirməyən, ölümləri ilə azadlıq eşqini daha da alovlandıran insanlar haqqında!

*28 oktyabr, 1996*

## KÜSÜLÜLƏR

Qız dedi, oğlan eşitmədi. Oğlan dedi, qız eşitmədi. Ürəklər susdu, əsəblər danışdı. Sözlər, bir-birilə düz gəlməyən sözlər qol-qanad açdı. Fikirlər haçalaşdı...

Getdilər. Hərəsi bir yana. Yana-yana!

Bir gün keçdi. İki gün keçdi... əsəblər soyumağa, fikirlər aydınlaşmağa başladı.

Qız düşündü: «Yaman oldu. Gözlənilmədən oldu. Kobud danışdım. Xasiyyətim də ki... Gəlsənəm?! Yox, yox, dünyasında. Özümü sındırmaq?! Ölsəm də...»

Oğlan fikirli-fikirli küçələri dolaşdı: «Hövsələdən çıxanda üzümü görmə... İndi nə olacaq?! Yoxy, ayağına getmərəm, elə bilər ölürəm ondan ötrü!.. Bəs ölmürsən?! YOx, ölsəm də getmərəm! Heç getmə!.. Döz görüm necə gözürsən?!»

Peşmançılıq hissi günü-gündən çoxalırdı. Qürurlar da hasar olub qarşısını alırdı. Hasarı adlamağa nə qızın iradəsi çatırdı, nə oğlanın cəsarəti. Peşmançılıq hissi də ürəkləri, neçə vaxtdan bəri bir vuran, bir çırpınan, bir sevən ürəkləri, əsəblər coşanda heç yada düşməyən ürəkləri gözəgörünməz alovla yandırırdı.

Yanan ürəklərin nə tüstüsünü görən vardı, nə acısını duyan. Hardan da olaydı?! Qız elə anasına təzəcə oğlan haqqında söhbət açmaq istəyirdi ki, sözləşib küsdülər. Yaman küsdülər.

İndi heç birisi istəməsə də küsülülüyün ömrü uzanırdı.

Qız ürəyini yeyə-yeyə dururdu: «Bir səs-səmir çıxmadı... Bircə əlac qalır. Bircə günə qalır əlac! Bircə günə!.. Bu zəhrimar ürəklə heç bacarmaq olmur. Dözümü heç yox imiş bu ürəyin? Bircə o gün gəlsəydi, tez gəlsəydi?!».

Oğlanın da səbri lap tükənmişdi: «Uzandı, yaman uzandı. Bir barışdıran da tapılmır. Hardan? Bir adama-zada demirsən ki?! Barışın! Necə?! Get yanına, de: gəl barışaq! Ay dedim ha!.. Yox, ümid bircə şeyə qalır. Bircə o gün gəlsəydi?!».

***

Gəldi, o gün gəldi!

Qız təzə paltarını, təzə ayaqqabısını geyindi, ilk dəfə görüşdükləri, həmişə görüşdükləri, nəhayət, küsüşdükləri yerə tələsdi. Ürəyi həyəcandan elə çırpınır, elə çırpınırdı ki... «Görəsən gələcəkmi?! Gəlməlidir, gəlməyə bilməz. Bu gün axı...»

Sahil bağındakı ən yaşlı, ixtiyar söyüd ağacına çataçatda onu gördü. «Gəlmişdir! Sənə qurban olum, belə bayram, Novruz bayramı, qurban olum!».

Oğlan da qızı gördü, ona doğru addımladı. «Dedim gələcək! Var ol bayram, küsülüləri barışdıran bayram, Novruz bayramı. Var ol!..».

Heç bilinmədi nə vaxt əllər bir-birinə uzandı.

Qız dedi:

– Neçə-neçə belə bayramlar görəsən!

Oğlan dedi:

– Yüz-yüz belə bayramlar görəsən!

– Səninlə bir yerdə.

– Həmişə bir yerdə!

Qız dedi, oğlan eşitdi, oğlan dedi, qız eşitdi. Sözlər, ürəyatan, ruhoxşayan, bir-biriə düz gələn sözlər qanad açdı çevgililərin ürəyini açdı.

Oğlan dedi:

– Gəl söz verək: bir də küsməyəcəyik. Yoxsa bir il gözləməyə nə səndə taqət qalar, nə məndə.

Qız dedi:

– Mən söz verirəm!

Oğlan dedi:

– Mən də söz verirəm. Mən də!

Əl-ələ tutub əziz bayram günündə sahil bağına axışın izdihama qoşuldular.

*İyul, 1968*

## AXAR SU

Axar suya baxıram... Şeh damlası kimi şəffaf, şırıldaya-şırıldaya axan suya! Axır, axır. Baxıram, ürəyim axır.

Axar suya baxıram... Könlüm-ruhum, qolum-qanadım açılır.

Axar suya baxıram... Uzaq, uzaq yollar, məsafələr qısalır. Ümid çoxalır.

Axar suya baxıram... Ömür mənalanır. Fikirlər qol-budaq atır, şaxələnir.

Axar suya baxıram... Axır, axır.

Axar su durğunluğu sevməz. Sevirəm axar suyu, sevirəm!

*30 iyul, 1968*

## GÖZƏL

Trolleybusa bir qız mindi. İyirmi-iyirmi iki yaşlarında. Boyu-buxunu da, yerişi də, baxışı da gözəldi. Gözəl.

Baxışlar, kişilərin baxışları bir göz qırpımında ona sarı çevrildi. Günəbaxanlar günəşə doğru çevrilən kimi.

Bir oğlan dərhal durub yer verdi.

O astaca:

– Təşəkkür edirəm, - deyib oturdu.

Oğlana elə gəldi ki, «təşəkkürü» təkcə onun dili yox, uzun-qara kiprikləri də, xəfifcə qızaran yanaqları da, azca təkəbbürlü baxışları da dedi.

Oğlan özünü göyün yeddi qatında hiss elədi. Xoş təbəssümlə, böyük nəzakətlə:

– Dəyməz! – dedi.

Gözəl öz aləminə daldı. Ətraf, yan-yörə onun üçün yoxa çıxdı. Yoxa.

Və birdən özündən, gözəlliyindən razı, gözəllik qüruru ilə, gözəlliyinə inam hissiylə dolu baxışları qarşısında oturmuş qırx-qırx iki yaşlarında bir qadına dikildi. Niyə elə oturan kimi onu görməmiş, duymamışdı?! O pərişan, o kədərli baxışları niyə hiss eləməmişdi? Niyə?

Doğrudan da, onun nəzərləri qadına zilləndiyi anda qadın baxışlarında bir kədər, bir pərişanlıq gəzirdi. Bu, iyirmi il əvvəlki gözəlliyinə, cavanlığına təsadüf eləyən, kövrələn, ürəyi ağrıyan bir adamın kədəri, pərişanlığı idi. Hər cür qibtədən, həsəddən uzaq kədər və pərişanlıq idi.

Qızın baxışlarını üzərində hiss eləyən kimi qadının baxışlarındakı bu müqəddəs, bu müqəddəs kədər, pərişanlıq bir sərtliklə, özünü müdafiəyə hazırlaşan bir adamın sərtliyi ilə əvəz olundu.

Baxışlar, özündən, gözəlliyindən razı, gözəllik qüruru ilə gözəlliyinə inam hissiylə dolu baxışlar sərt baxışlarla toqquşdu. Elə bil ildırım çaxdı, göy guruldadı.

Baxışlar dilə gəldi, baxışlar danışdı:

«Cavanlığına güvənirsən?»

«Mənim günahım varmı?!»

«Cavanlıq tez keçir».

«Saxlamaq olarmı?!»

«Olmaz! Təəssüf ki, olmaz!»

Qadının baxışları mülayimləşdi, mehribanlıq, səmimiyyət, hərarət göründü baxışlarında. Hərarət!

Qızın baxışlarındakı özündən, gözəlliyindən razı, gözəllik qüruru, gözəlliyinə inam hissi yoxa çıxdı. Mehribanlıq, səmimiyyət, hərarət yarandı baxışlarında, hərarət!

«Hamı sənə baxır...»

«Duyuram».

«Başın gicəllənməsin!»

«.....»

Qızın nəzərləri yerə dikildi. Sonra yenə qadına sarı çevrildi:

«Nə etməliyəm?!»

«Bircə özünü bu günəbaxanlardan qoru... İşığa bənddilər, onlar, işığa!..»

Trolleybus dayandı. Qız ayağa durdu.

«Sağ olun!»

«Allah amanında!»

Qız düşdü. «Günəbaxanlar» boylandılar.

Qız gedir, rastına çıxanların nəzərlərini üzərində hiss elədikcə qadının baxışlarında duyduğu məna gözlərində daha da böyüyür, böyüyürdü:

«Bircə özünü bu günəbaxanlardan qoru... İşığa bənddilər onlar. İşığa!.. İşığa... İşığa!..»

*23 sentyabr, 1968*

## DÜNYADA BİR QADIN YAŞAYIR

Dünyada bir qadın yaşayır. Cavan, gözəl... Hansı ölkəyə, hansı muzeyə ayağına bassa toy-bayram olur o ölkədə. Pərəstişkarlarının sayı-hesabı bilinmir. Tamaşasına düşmək üçün növbə-növbəyə calanır. Kişilər bir yana, qadınlar valeh olurlar hüsnünə, gözəlliyinə. Baxdıqca baxır insan övladı, baxır, zövq alır, xəyala dalır, qəlbində xoş duyğular oyanır. Düşünə-düşünə gedir adam. Gedir. Kişi də, qadın da, qoca da, cavan da.

Dünyada bir qadın yaşayır. Xəfifcə kədərlənə-kədərlənə, düşünə-düşünə, gülümsəyə-gülümsəyə əsrləri yola salır, yola salır. Özü qalır. Xəfif kədəriylə, zərif düşüncəsiylə, xoş rayihəli təbəssümüylə. Qalır!

Dünyada bir qadın yaşayır. Qadın gözəlliyinə, zərifliyinə həmişə pərəstiş oyadıb, oyadır, oyadacaq, öz ürək yanğısına hamını şərik eləməklə gözəlliyin qədir-qiymətini, sanbalını qaldırır, qaldıracaq, ürəkləri yandırır, yandıracaq bir

qadın. Dahi Leonardo da Vinçinin yadigarı, övladı, əlli yaşından sonra pənah gətirdiyi yeganə sığınacağı, ümidgahı, qibləgahı, ölənə kimi özüylə gəzdirdiyi Cokondası, sonası, həyatının mənası, ətri, səfası bir qadın!

Dünyada bir qadın yaşayır. Florensiyada doğulmuşdur. Parisdə yaşayır. Yaşadıqca allahına – Leonardo da Vinçiyə təşəkkür edir, minnətdarlıq əlaməti olaraq xəfif-xəfif gülümsəyir, gülümsəyir...

Dünyada bir qadın yaşayır.

*Oktyabr, 1968*

## GÖRÜŞÜRLƏR

Görüşürlər!.. Görüşürlər!.. Görüşlərdə nədən danışılmır, nədən?!

Görüşə çıxırdı onlar da. Sevənlər, sveilənlər kimi.

Danışırdı onlar da. Sevgidən, sevib-sevilməyin xoşbəxtliyindən, biri-birini anlamağın gözəlliyindən danışırdılar.

Hər görüşdə qızın dediklərindən bircəsi ancaq oğlanın beynində qalırdı. Tək bircəsi.

Bir görüşdə, sözgəlişi demişdi:

– Əmim oğlu bizə elçi göndərmək istəyir...

Zərgərdir əmisi oğlu.

Bir görüşdə elə-belə, saya almır kimi eşitdirmişdi:

– Anam deyir ki, sarışın oğlanın gözü yaman tutub səni!

Nazir oğludur sarışın oğlan.

Bir görüşdə məharətlə söz içində əritmişdi:

– Xalam hər bizə gələndə qara «Volqa»lı oğlanı hey tərifləyir...

Akademikdir atası qara «Volqa»lı oğlanın.

Görüşlərdən, oğlanın dediklərindən qızın da beynində bir şey ilişib qaldı. Yaman qaldı.

Növbəti görüşdə oğlan birbaşa demişdi:

– Məhəlləmizdə yaşayan qaraşın qızın məndən yaman xoşu gəlir. Anam deyir: o qız gəlinim olsa rahat dünyadan köçərəm. Xalam da qulağımı doldurur: qız deyil, qızıl parçasıdır, əldən versən başına döyə-döyə qalacaqsan, ömrün boyu yanacaqsan!..

Zavodda operatordur atası o qızın!

Son görüş oldu bu görüş. Son görüş.

*Peredelkino, 21 fevral, 1969*

## HUMANİZM

Külək əsdi.

Böyük bir ağacdan kiçik, kiçik bir yarpaq düşdü.

– Ağaca nə oldu?..

– Ağac nə itirdi?..

Yox, yox, siz yarpağın, ayaqlar altında qalan, xəfifcə küləyin təmasından belə üşüyən, özünə yer tapa bilməyən yarpağın halını düşünün. Yarpağın!

*Peredelniko, 6 mart, 1969*

## SƏNİNLƏ NEYLƏYİM?

Ürəyim, ürəyim!.. Səninlə neyləyim?!.

«Sevirəm» dedi.

«Sevmirəm» dedin.

Daha görünmür...

«Təsadüfən» qarşıma çıxmır, işə gedəndə, işdən gələndə. Çıxmır.

Muzeyimizin xəstəsiydi. Özü belə deyirdi. Bütün sərgilərə baxar, birini də buraxmazdı, birini də. Hansı bəs?! Üçüncü sərgidir düzəldirik, gəlib baxmır, baxmır...

Qız qalasını, valeh olduğu Qız qalasını da unutmuşdur nədir?! Yeri görünür yan-yörəsində, özü yox!

Bu, inad idimi, yoxsa şıltaqlıq, ürəyim? İndi də cəfasın çəkirsən: «Sevirəm... sevirəm... sevirəm!» deyirsən.

Ürəyim, ürəyim!.. Səninlə neyləyim?!.

*15 may, 1965.*

## TATAR QIZLARI

İdel çayının suyunu içər, mehini duyar, sehrinə dalar, pərvəriş tapar tatar qızları!

Rəngbərəng çiçəklərdən ətir alar, rəng alar, gözəllikdə çoxlarını heyran qoyar, vurğun könülləri yaxıb-yandırar tatar qızları!

İncəsənəti sevər, sənətkara hörmət bəslər, Tukayı ürəkdə yaşadar, ər evinə cehiz aparar tatar qızları!

Bizim Üzeyirin, Müslümün gözəl, qəşəng baldızları, tatar qızları!

*Kazan, 2 iyun, 1969*

## O SAYAQ

Saçlarım ağarır. Ağarsın da, neyləyim?!

Qaşlarıma dən düşür. Qabağını ala bilər gileyim?!

Bu qırışlar hardan gəldi, nə vaxt gəldi, sifətimdə yuva salan, çoxalan qırışlar?! Nə bilim? Nə bilim?!

Bilirəm ki, ağaran saçlar, çoxalan qırışlar dəyişdirir məni. Boynuma alsam da, almasam da dəyişdirir.

Dəyişmirsən. O sayaq qalırsan. Həmişə nəğməli, sahilə həmişə meylli ləpələrin hüzurundakı kimi, aylı-ulduzlu axşamın sehrli işığı, şirincə əfsunundakı

kimi, ilk görüşdəki kimi qalırsan. Necə duyurdunsa, necə görünürdünsə, necə idinasə!.. Eləcə, eləcə!.. Qalırsan, qalacaqsan da!..

Xəyalımda, xəyalımda!..

*4 aprel, 1970*

## ÖMRÜMÜZ BOYU

Kimi deyir vaxt tez keçir.

Kimi deyir vaxt gec keçir.

Kimi heyfsilənir.

Kimi gileylənir.

Vaxt nə heyfsilənənə baxır, nə gileylənənə, nə onu eşidir, nə bunu. Sürətini azaltmır da, artırmır da... Saniyə saniyəni çəkir, dəqiqə dəqiqəni. Gün günü qovur, il ili.

Heyfsilənənin də, gillənənin də ömründən gedir bu saniyələr, dəqiqələr, günlər, illər. Ömründən!

Əvəzində ona da, buna da xatirə qalır. Xatirə! Şirini də olur bu xatirələrin, acısı da. Hərə tökdüyünü yığır.

Ömrümüz boyu xatirə yığa-yığa gedirik.

*15 iyul, 1971*

## GÜCÜNƏ BAX, GÜCÜNƏ!..

Qara günün gücünə bax, gücünə!..

Qara saçları gör necə də ağartdı.

Ağ günün gücünə bax, gücünə!..

Hə əlləşir, ha vuruşur, ağ saçların bircəciyini də qaralda bilmir. Bircəciyini də...

*23 oktyabr, 1972*

## PAYIZ

Son heyvalar dərilir. Bağ-bağatdan əl-ayaq çəkilir. Süfrələrin bəzəyi olur, ətri, dadı olur saralmış heyvalar. Son heyvalar...

Uzun gecələr gəlir. Gündüzləri qısalda-qısalda uzanan gecələr. Televizorlu, radiolu gecələr. Uzun gecələr...

Yarpaqlar düşür. Budaqlarından qopud hara gəldi düşür. İstəməyə-istəməyə. Sarala-sarala. Yarpaqlar...

Küləklər əsir, küləklər qılınc kimi kəsir. Üşüdür. Çılpaqlaşan ağacları da, bəhrəsini verən, kimsizləşən bağ-bağatı da, mənzilbaşına tələsən adamları da. Küləklər...

Payızdır... Eh, ömürlərinin yazını, yayını yaşayanlara nə var!.. Payızını yaşayanlar istər-istəməz fikrə düşür, yarımçıq qalmış işlər, həyata keçməmiş arzular yada düşür, düşünürlər. Düşündürən fəsildir... Payızdır!..

*16 noyabr, 1972*

## ÇƏTİN YOL

– Su atacaqsan?!

– Atacağam!

– Atma, yalvarıram, ana! QOnşulardan ayıbdır!

– Adətimizdir, bala, səfərə çıxanın dalınca su atarlar. Su aydınlıqdır. Necə olsa çətin yola gedirsən.

– O yollar mənim üçün çətin deyil, o yollara alışmışam, ana! Elə unudursan ki, mən alpinistəm, dağa-daşa dırmanmaq, qayadan qayaya tullanmaq işimdir, sənətimdir. Çətin yola gedəndə atarsan, indi atma, yaxşı?!

Əlacı kəsilən ana:

– Atmaram, yaxşı! – desə də oğlu pillələri düşər-düşməz yenə öz bildiyini eləyirdi...

Suyun səsinə oğul çevrilib baxır, ərpkyana gileylə baxırdı: «Ana ki ana!..»

Ananın qəlbində səksəkə, nigarançılıq, həyəcan bir az da artır, artırdı: «Sağ-salamat qayıdarsan, bala!..»

***

Oğul həyəcan içində özünü səliqə-sahmana salır, saata baxdıqca həyəcanı daha da artırdı...

Ananın gözü onda idi. Oğlunun həyəcanlarına zahirən laqeyd qalsa da daxilən sevinir, düşünürdü: «Hər şey vaxtında, oğul!.. Atan rəhmətlik «hə» almağa gələndə heç iyirmi yaşı yox idi, sən iyirmi üçün içindəsən...»

Üz-üzə dayandılar. Oğul çəkinə-çəkinə soruşdu:

– Atacaqsan?!

Oğlunun səsində ana bir titrəyiş duydu. Ötkəm-ötkəm cavab verdi.

– Atacağam!..

Oğlunun səsi çıxmadı, oğul birinci dəfə idi ki, anasına «atma» demədi. Demək istəmədi. Sonsuz razılıqla hər şeyi başa düşən anasına baxdı. Ana baxışlarından oxudu: «Qurban olum ana, suyu yaxşı-yaxşı at, çoxlu at. Çətin yola gedirəm, ana, çətin!»

Oğul gözucu saata baxdı, ananın ürəyi kövrəldi: «Gör necə də həyəcanlanır!.. Bəs deyirlər sevgi yoxdur, yoxdursa, bu uşağı belə titrədən nədir?! Tanımadığım qız, eşq olsun sənə! Eşq olsun!.. Halalın olsun! Alpinist belə titrəyirsə demək ciddidir... Ürəkdən sevir. Kaş bu cür də seviləydi!..»

Oğul pillələri düşər-düşməz ana arxasınca su atdı.

Suyun səsinə oğul çevrilib baxdı, minnətdarlıqla baxdı: «Sağ ol, ana, sağ ol!»

Ananın qəlbində fərəh, sevinc bir az da artdı: «Hə» ilə qayıdasan, bala!.. Çətin yola gedəndə atarsan... Demək çətin yolun ürəyə gedən yol imiş, bala, ürəyə!..»

*18 mart, 1973*

## AĞACLARIM

Palıdım, palıdım – vüqarım!

Çinarım, çinarım – ucalığım!

Dəmirağacım – mətinliyim, iradəm!

Söyüdüm, söyüdüm – pərişanlığım, məftunluğum, kədərim.

Vüqarım da var, ucalığım da. Mətinliyim, iradəm də. Pərişanlığım da var, məftunluğum, kədərim də.

*20 may. 1973*

## BİR MAHNI VAR

Aylı-ulduzlu, sevdalı gecə. Gəncə gecəsi...

Ruh oxşayan, könülaçan bağça. Çinarlı bağça.

Əlləri qoynunda bağça sahibi.

Narahatdı. Yaman narahatdı bağça sahibi.

Düşüncəli, kədərli, nigaran baxışları çinara dikiləndə köz kimi oldu onun qəlbi. Xəfif küləkdəncə alışan köz kimi. Çırtıldadı: «Ömrünün yaraşığı, ruhumun işığı hardadır harda, hey?!. Gülüşüm, sevincim hardadır, harda, hey?!, Cavab ver, çinarım, yaşıdım, həmsirrim, həmdərdim çinarım, cavab ver hardadır, dildarım, harda, hey?!»

Susur çinar. Neyləsin çinar?! Nə desin, bilməyir çinar?! Xəcalətmi çəkir, dinməyir çinar?!

Onun varlığında təlatüm. Könül tellərində ehtizaz! Aram ola bilmir. Aram ola bilməz. Öz-özünə pıçıldayır: «Yan, ey qəlbim, yan, çıtırda, hey!..»

Yana-yana yandıran qəlbin səssiz harayı lələk qələmə güc verir:

Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz,
Hər nəfəs çəkdim, hədər getdi o saət sənsiz...

«Sənsiz!..» «Sənsiz» kiçik bir bağçada yarandı. Gəncəyə, Azərbaycana yayıldı. Ölkələr dolaşdı. Əsrlər aşdı.

***

Pianonun dilləri tüğyana gəldi. Şirmayı dilləri könül tellərinin ehtizazı ilə hərəkət edən barmaqlar tüğyana gətirdi.

Səslər gün batar-batmaz ulu dağlara çökən sissizliyin fonunda həmişəvar dərələrdən həzin-həzin axan sular kimi çağladı, çağladı:

Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz,
Hər nəfəs çəkdim, hədər getdi o saət sənsiz...

Ecazkar barmaqları şirmayı dillər üzərində gəzən insanın qəlbi dalğalandı, dalğalandı: «Yandım hicrində sənin, yanğımı söndürmədilər, söndürmədilər, söndürə bilmədilər, hey!..»

***

Səhəri müğənni dostu dinlədikcə, «Sənsiz»i dinlədikcə yerində otura bilmədi, öz-özünə pıçıldadı: «Nə vaxtsa, haçansa sevdiyinə bir anlıq da olsa qovuşmaq arzusunu, ümidini yaşadan «Sənsiz!..» Bir anlıq da olsa, hey!..»

Ev sahibinin də, dostunun da sifətində iki zolaq yaranmışdı. «Sənsiz» yaratmışdı bu zolaqları. «Sənsiz!»

– «Sənsiz»i oxuyursan?

– Yox, oxumuram... Yaşayıram... «Sənsiz»i yaşayıram. Yaşaya-yaşaya oxuyuram. Yaşaya-yaşaya!

Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz,
Hər nəfəs çəkdim, hədər getdi o saət sənsiz...

Bir mahnı var. Mahnılar içində bir mahnı. Üç dühanın nəfəsi var bu mahnıda. Üç dühanın. Əbədiyyət fonduna daxil bu mahnı, əbədiyyət, hey!..

*30 iyul, 1973*

## HƏSRƏTƏM

Bir pilləkənə açılardı qapılarımız. Bir pilləkənə...

– Salam, - deyərdin.

– Salam, - deyərdim.

Səhər, axşam. Deyərdik.

Ürəkdən gələn sevincimizi, ürəyə çökən kədərimizi belə bilərdik, belə bölərdik.

***

Görmədiyim, tanış olmadığım adamlar sizə ayaq açmışdı. Bir gün...

– Salam.

Yox, mənə elə gəldi ki, sən ayrı söz dedin, ayrı söz: «Neyləyim?.. «Həri» üçün gəliblər... Nə deyim?»

– Salam.

Yox, əslində, dedim: «Bax da... Nə məşvərət... Ürəyə nə məsləhət?!»

Bir gün də...

Ağ duvağın altından baxışlarınla salam verdin.

Yox, «Gedirəm, sağlıqla qal!» dedin.

Baxışlarımla salamını aldım.

Yox, sənə «yaxşı yol!» arzuladım.

***

Ağır günlərim həyatda çox olub. Ancaq o günü, sənə «yaxşı yol» arzuladığım günü ən ağırı sayıram. Ən ağırı! Aman allah, insanın basaratı necə də bağlanarmış?! Axı niyə o gün mən duymadım, duya bilmədim ki, səadətimi aparırlar. Səadətimi!

«Evlənmək qaçmır ki... Qoy bir müdafiə eləyim, mənzil alır, avadanlıq düzəldim, evlənərəm də... Deyirlər, arvadın gərək heç nədən korluğu olmasın. Onun-bunun arvadına baxıban köks ötürməsin...»

Bu düşüncələrdimi gözlərimi bağlayan, qəlbimi qapayan, ağlımı çaşdıran? Nə deyim? Dərdimi kimə söyləyim?

«Evlənmək qaçmır ki...»

Yox, qaçırmış. Necə jə sürətlə qaçırmış!..

Müdafiə çoxdan eləmiş, dosent də olmuşam. Doktor, professor da olacağam. Mənzilim, bağım, maşınım da var. Amma nəyə gərək...

***

Unutmaq istəyirəm səni, unuda bilmirəm.

Gümanım illərə gəlir. İllər səni unutdurar deyirəm. Yanılıram... burda da yanılıram!..

Burnumun ucu göynəyir kirayədə qaldığım o balaca, o quş yuvası otaq üçün. O sehrli, o sevgili otaq üçün. Bir pilləkənə açılardı qapılarımız... Bir pilləkənə...

– Salam, - deyərdin.
O salama həsrətəm...

*14 sentyabr, 1973*

**GÜRCÜ GÖZƏLİ**

Tbilisiyə gəldim, gördüm səni, gördüm, gürcü gözəli!
Odunuza alışanların halına yandım, ürəkdən yandım, gürcü gözəli!
Bütün dərinliyiynən duydum indi yazıq Sənan nə çəkib!..

Mərhaba, Tiflis imiş cənnəti dünya yerinin,
Yığılıbdır ona cəmiyyəti huri pərinin –

deyən Vaqif nə çəkib!..

Mənim tanrım gözəllikdir, sevgidir –

söyləyən Cavid nə çəkib!..

Alagöz Yelena, xanım Yelena!
Hazıram başına dönüm Yelena –

yazan Cavad nə çəkib!..

Çəkdiklərini çəkib də yana-yana gediblər onlar. Gediblər. İndi gəlsinlər, görsünlər mən nə çəkirəm. Gözəlin, gözəlliyin yanğısı necə yaxıb yandırır məni, necə, gürcü gözəli!

Baxıram sənə, düşünürəm: «Yanmağın da bir həddi olmalıdı, ya yox?!» Baxıram. Gülümsəyirsən elə. Baxışların güləüş içində də yandırır, gürcü gözəli!

Neyləyə bilərəm ki?! Sənan odlananda, Vaqif alışanda, Cavid alovlananda, Cavad yananda mənə nə var ki?! Yanmağım əyər xoşdursa sənə, ürəyincədirsə, yandır məni, gürcü gözəli!

Odlar oğluyam, yanmağa alışmışam, öyrəşmişəm, yandır məni, yandır, gürcü gözəli!

*Tbilisi, 30 iyul, 1975*

## ÖZÜN KİMİ

Günəş demirəm sənə... Demərəm! Bir Günəşimiz var. Nəfəsiylə, hərarətiylə dörd milyard adamı isidir. İsidəcək! Biz də onların arasındayıq.

Ay demirəm sənə... Demərəm! Bir Ayımız var. Nurlu ziyasında dörd milyardın gözü var. Sevənlər, sevilənlər, gözləyənlər, gözlədənlər, qovuşanlar, həsrətlilər, tərəddüd edənlər, əzab çəkənlər ona baxır, ondan zövq alır, onu özlərinə məhrəm sayır, ürəklərindən keçəni hüzurunda danışırlar. Danışacaqlar. Biz də onların arasındayıq.

Sən demək istəyirəm sənə... Eləcə sən!.. Mənə sən lazımsan. Özün. Özün kimi! Özünəməxsus nəfəsin, hərarətinlə, nəvazişin, mehribanlığınla, təbiiliyinin, sadəliyinlə, düzlüyün, ismətinlə, diqqətin, bütün varlığınla!

Sənə nə dünyamızı – gözəl-gözəl dənizləri, çayları, dağları, meşələri ilə, nə əngin səmamızı – sayrışan, baxışan, axışan ulduzları ilə vəd edirəm. Nə işim var onlarla?! İxtiyarımdadı ki?! Bəşəriyyətin adından danışamı bilərəm?! Bəli, sənə mənimki olmayan, imkanımdan xaric, gümanım gəlməyən heç nə vəd eləmirəm, eləmərəm!

Ancaq gəl vəd eləməkdə məni xəsis bilmə. Gücüm çatan, mənimki olan, gümanım gələn nəyim varsa vəd eləməyə hazıram.

Buyur, hələlik, təkcə ürəyimdir!.. Ürəyin üçün darıxan, ürəyinlə birləşməyə can atan ürəyim!

Nə deyir ürəyin?

*28 may, 1976*

## MƏNSUR ŞEİRLƏRİM MƏNİM

Gözəlliyə, gözəllərə, gizlin deyil, meyliniz var.

Yarpaq düşsə bir ağacjan ürəyiniz ağrıyar, ağrıyar!

Anaların qəlbini duyan da siz.

El-oba dərdinə həyan da siz.

Ana torpaq, insaniyyət, halal çörək, fədakarlıq, əvəzini gözləməyən xeyirxahlıq, insan kimi düşünüb də insan kimi yaşamaq, bütöv olmaq – həmişəlik söhbətiniz, sözünüzdür.

Yanılmalar, aldanmalar, çəkilməz hicran yanğısı, qəlb ağrısı, qəlb ağrısı – düşüncəniz, qayğınızdır, ağrınızdır, mövzunuzdur, mövzunuzdur.

Sevincə, kədərə otraqsınız.

Yalandan, riyadan uzaqsınız.

Nə yaxşı ki, varsınız!..

Varımsınız!.. Həyatımsınız!

Belə həyatımdan sonrakı həyatımsınız, mənsur eşirlərim mənim!

*16 oktyabr, 1977*

## HƏMİŞƏ OXUCULARIN YANINDA

Biri vardı, biri yoxdu...

Bir şair vardı, od kimi alışıb yanardı, yandırardı...

Bakı bağlarına yolu düşdü bir gün onun, nə düşdü. Odlu qəlbinə od düşdü, alovlandı, alovlandı.

Bağlar boşaldı, şair qayıtdı, ürəyi orda qaldı, bağlarda qaldı, yandı, yandı... Gecəyarısı qəlbinin hərarəti az qala kağızı yandıracaqdı:

Yenə o bağ olaydı, yenə yığışaraq siz
o bağa köçəydiniz...

Şairin yanar qəlbinin odu oxucuların qəlbinə od apardı. Həsrətləri oyatdı, dodaqları tərpətdi:

Biz də muradımızca fələkdən kam alaydıq,
sizə qonşu olaydıq.

Bir şair var. Xatirələr yanğısını kövrəldir, ürəkləri gizildədir, arzuları canlandırır:

Arzuya bax, sevgilim, tellərindən incəmi?
Sözlə, ürəyincəmi?

Bir şair olacaq! İnsanlar, əgər insanlıqlarını itirməyiblərsə, sevə bilirlərsə, sevmək, sevilmək əhəmiyyətini saxlayıbsa, xatırlamağı, kövrəlməyi bacarırlarsa, sevinib kədərlənə bilirlərsə deyəcəklər:

Yenə o bağ olaydı, yenə yığışaraq siz
o bağa köçəydiniz...

Sən də həmişə onların yanında olacaqsan, həmişə, Müşfiq!

*2 iyun, 1978; 19 fevral, 1985*

## AĞ ŞANI

Talvar düzəltdirdi bağında bağ sahibi. Adamboyundan da ucaydı talvar.

Meyvələr talvara qaldırılırdı, əməlindən razı qaldı bağ sahibi. Razı qaldı...

Üzüm vaxtı yetişdi, dost-tanış yığışdı. Ayaq altına kətil qoyub talvardan salxım dərdilər, üzüm yedilər. Kimi qara şanı, kimi ağ şanı, kimi sarıgilə. Yedilər gilə-gilə. Yedilər. Sonra da dedilər:

– Balam, baldan şirin olardı Bakı şanısı, şirinliyinə nə oldu bunun.

– Kəhraba rəngində görmüşük ağ şanını, hara getdi o rəng, necə oldu o rəng...

– Adnandı Abşeron şanısı, Bakının ağ şanısı, deyəsən elə adı qaldı!

Giley-güzara qoşuldu bağ sahibi də:

– Deməyin, deməyin, mən də şanını, ağ şanını heç tanıya bilmədim... Tanıya bilmədim.

Qonaqların sözündən o qədər də incimədi, bağ sahibinin sözü yaxıb-yandırdı ağ şanını. Yaxıb-yandırdır! İçəridən göynədi. Necə göynədi! «Ah, bağ sahibi, bağ sahibi! Nə deyim sənə?! Necə deyim sənə?! Hanı mənim kəhraba qumum, narın qumum, hərarətli qumum?! Bir qarışlığında, nəfəs-nəfəsə nazlı-nazlı uyuyardım, səhər-səhər günəşin zərrin, ılıq şüaları canıma hopardı... Ah, necə hopardı!.. Talvara məni niyə çıxartdın, ay bağ sahibi?! Niyə çıxartdın axı?! İndi narın, kəhraba, doğma qum aşağıda qalıb, mən yuxarıda. Həsrətik bir-birimizə. Həsrəti! O deyilmi rəngimi ədyişən, dadımı qaçıran?!»

Heyf ki, dili yoxdu, olsaydı qonaqların elə hüzurundaca ürəyindəkiləri bağ sahibinə deyərdi, hələ çox şeylər deyərdi, çox şeylər, Bakının şöhrəti-şanı, ağ şanı!.. Deyərdi!

*25 avqust, 1978*

## ZİRVƏLƏR SIRASINDA

Qələm əlində fikrə gedərdi o.

Fikirsiz-düşüncəsiz qələm gərəkdi ki?!

Ağıllı, düşüncəli, kədərli gözləri keçmişəmi qayıdardı?! Gələcəyəmi qanadlanardı?!

***

Dördüncü ilinə yenicə qədəm qoyurdu ki, yetimliyin pəncəsinə keçdi o. yaman keçdi.

Yetimliyin üzü qaradır demişlər, üzü qara. Çırpırdı onu dağlardan dağlara.

Baba evi. Ağır idi güzəranı babanın da. Ehtiyacla əlbəyaxa vuruşdaydı fağır baba. Bir günsə o, nəvəsiylə yola çıxdı, arabaçıya yaxın getdi, yalvarıb yaxardı baba!

– Kazana gedən yolun uğurlu, ürəyin mərhəmətli olsun, ay arabaçı! Tanrıya xoş gələr, bu körpənin də özünlə götürərsən, ana Kazana yetirəsən, uşaq istəyən olsa verəsən, - dedi.

Arabaçı razılaşdı, arabası yola düşdü.

Dizləri titrədi, bədəni əsdi, ürəyi ağrıdı babanın...

Kazanda Novo-tatarski qəsəbəsi. Məhəmmədəlinin evi. Ömrünün iki ili də burada qalır körpənin. Sonra qəyyumlar xəstələnir, baxımsız uşaq yenə babası evinə gətirilir.

Kırlaylı Saqdi oğulsuzdu, oğulluğa götürür uşağı. Doqquz yaşınacan. Saqdinin güləşlə örtülü daxması doğmaca, isticə sehrli yuvası olur uşağın...

Sonra Uralsk. Bibi qəyyumluğu...

Sonra... Eh, hansını deyəsən?! İradə gərəkdi sınmayasan!

Sınmırdı da o. iradəsi vardı, qələmi vardı, böyük istedadı vardı, sınmırdı. Sınsaydı özü olmazdı...

Gələcəkdən, bəs gələcəkdən nə gözləyirdi ağıllı, düşüncəli, kədərli gözlər?! Nə?!.

Azadlıq gözləyirdi! Xoşbəxtlik gözləyirdi! Xalqı üçün, ruhu üçün, qələmi üçün. Necə gözləyirdi, ilahi, necə gözləyirdi. Gələcəyə qanadlanan gözlər!

***

Qələm əlində fikrə gedərdi o.

Fikirsiz-düşüncəsiz qələm nəyə gərəkdi ki?!

Düşünər, yazardı, yorulmaq, qorxu nə olduğunu bilmədən hey yazardı. Əməlindən ruhlanardı, dərdi-qəmi, qayğıları çoxalardı, ideallarına daha inamla, daha ürəklə sarılardı.

Ancaq sən saydığını say... Bəli, bəli! Demə onun ən böyük düşməni gizlində imiş. Canının-qanının düşməni. Yırtıcı-yırtıcı düşməni. Necə gəldi, necə yıxdı, necə apardı onu?! Xəstəlik, yıxıcı, yırtıcı vərəm xəstəliyi. Apardı. İyirmi yeddi yaşında.

***

Tatarıstanla fəxr edərdi o.

Tatarıstan onunla fəxr edir indi.

Tatarıstanın dərdi-qəmi onun şerindəydi.

Onun dərdi-qəmi Tatarıstanın könlündədir indi.

Tatarıstan torpağının kiçicik bir guşəsində – Kuşlavıcda dünyaya göz açmışdı o.

Tatarıstana sığmır, dünyanı gəzir, dolaşır indi.

Yer üzündə zirvələr, poetik zirvələr sırasında bir zirvə də ucalır. Qabdulla Tukay zirvəsidir o, Qabdulla Tukay.

*20 iyun, 1980*

## PAYIM MƏNİM

Yer üzündə şəhərlər var. Mənzərələi, görünüşlü, cəzbedici, cazibəli, axar çaylı, coşğun dənizli, əzəmətli, izdihamlı şəhərlər.

Biri də mənim qismətimə düşüb bu şəhərlərdən. Coşğun dənizli şəhərlərdən. Ə şəhər sənsən, əzizim, canım-ciyərim, mehribanım! Üç-dörd yaşından qoynundayam, səninləyəm, Bakı, Bakım mənim!

İçərişəhərin var, Bayırşəhərin var, Qaraşəhər, Ağşəhərin var, ey ixtiyar şəhərim! Keçmişimizin, əcdadımızın səsi, nişanəsi İçərişəhər sənin kökündür. Bu kök üstündə boy atmısan, atırsan, atacaqsan, ey Bakı, Bakım mənim!

İçərişəhərin küçələrində, dar döngələrində, əyri dalanlarında atamın-anamın ayaq izləri var. Uşaqlıq, yeniyetməlik, ilk gənclik, qismən də gənclik çağlarımın isti yuvasıdır. İçərişəhər. Acılı-şirinli xatirələrimin kövrək toplusudur İçərişəhər. Sənin kökün. Bu kök üstündə mən də boy atmışam, ərsəyə çatmışam, Bakı, Bakım mənim!

İqlimin sərtdir bir az. Soyuğun üşüdür bir az, istin yandırır bir az. Nə olsun ki?! Alışmışıq. Havalarını tez-tez dəyişdirən xasiyyətli küləklərin var, xəzrin, gilavarın var. Bilmirsən xəzri nə vaxt gedir, gilavar nə vaxt gəlir. Gilavar nə vaxt gedir, xəzri nə vaxt gəlir. Öyrənmişik, Bakı, Bakım mənim!

Dəniz sahillərindən olmaz, ləpələrinə bir az neft qarışmasa. Kəhrəba qumlarından hey danışmaq olar, ona süfrə qalıqları, şüşə qırıntıları bulaşmasa. Sən darılma, sən neyləyə bilərsən?! Səni başa düşürəm, gileylisən. Sənin gömgöy suların, kəhraba, narın qumların əvvəlki təravətini, rəngini almalıdır, Bakı, Bakım mənim!

Sən məni sehrləmisən! Sehrliyəm mən! Hansı respublikada, hansı vilayətdə, hansı şəhərdə olsam, harda qalsam, gecələsəm səninçin darıxıram, qoynuna can atıram, can Bakı, Bakım mənim!

Qismətim, payım mənim!

*26 iyul, 1982*

## DÜNYANIN QƏRİBƏ İŞLƏRİ VAR

Axardın...

Qoynundan keçdiyin yurdun istəklisiydin, fərəhiydin, yaraşığıydın.

Axardın...

Axar-baxarlıydın, sahillərin səni sevənlərlə, sevib sevilənlərlə, deyib gülüşənlərlə dolu olardı. Əzizlənərdin. Sevincinin sonu görünməzdi.

Axardın...

Mənsub olduğu torpağın, yurdun, ölkənin ortasından axmaq baş ucalığıdır çay üçün, bilirsən! Belə baş ucalığı sənə də qismət olmuşdu əzəldən. Missisipi kimi, Volqa kimi, Nil, Qanq, Amazonka, Fərat, Niger, Menam, Yantzı, İnd, İravadi kimi!

Axardın...

Şadlana-şadlana, şövqlə,y an-yörəni gəzib dolaşanlara zövq aşılaya-aşılaya... Ancaq sən demə qılınc başının üstündəymiş... Doymazdı şahın gözü, sonsuzdu çarın iştahası, sevincin yoxa çıxdı, özün sərhədə çevrildin.

Axırsan...

Gözlərin yol çəkir, fikirlisən, əsəbisən! Dözürsən, dözümünə özün də təəccüb edirsən...

Dünyanın qəribə işləri var, Arazım!

*12 mart, 1983*

## ANIN HÖKMÜ

Onun musiqiylə ünsiyyəti dörd yaşından başlamışdı. Atasının istəyi, ətkidiylə başlamışdı. Sonra özündə yaranan həvəs, vurğunluq... Beləcə getdikcə onun üçün hava olmuşdu, çörək, su olmuşdu musiqi. Varlığına hakim olmuşdu musiqi. Ömrünün qanadları olmuşdu musiqi.

Elə o qanadlardı ki, iyirmi iki yaşında onu Bonndan Vyanaya uçurmuşdu. Az vaxtda pianoçu-improvizator kimi tanıtmışdı. Kübar salonları, dəvətlər, çağırışlar... Şöhrət qapıları yavaş-yavaş üzünə açılırdı. Daha nə lazımdı ki?! İndi hər şey özündən asılı deyildimi?! O birilirdi ki?! İndi hər şey özündən asılı deyildimi?! O bilirdi bunu: yazırdı, yaradırdı. Qəlbi də doluydu. Səslərlə dilləndirməliydi qəlbinin istəklərini, həyəcanlarını, insanlara deyəcəyi sözləri. Səslərlə! İşləyirdi, gecə-gündüz işləyirdi. Bəs necə? Şöhrət qabağında özünü itirən oğullarından deyildi o. var qüvvəsi ilə çalışacaqdı, zamana öz sözünü deyəcəkdi.

Ancaq di gəl ki... Qulaqları əvvəllər də ağrıyırdı... Amma indi, iyirmi altı yaşında kar oldu o. kar!

***

Bir gün çay sahilinə gəldi. Çox düşüncəli, kədərliydi. Axar suya baxdı, baxdı. Qəlbi inildədi, gizildədi, təlatümə gəldi qəlbi. «Yazıçı sözlərlə, rəssam rənglərlə, bəstəkar səslərlə... möcüzə yaradır!.. Səslərlə! Bəs bu səsləri, təbiətin səslərini eşitməkdən məni məhrum eləməkdən qəsdin nədir ay tale, taleyim mənim?! Mən axı səslərlə möcüzə yaratmaq istəyirəm. Musiqimlə insanların ruhuna od salmaq istəyirdim. Od! Təbiətin səslərindən qidalanmalı deyildimi?! Çox düşündüm mən, çox götür-qoy elədim. Yox, yaşamağın heç bir mənası yoxdur, yoxdur, yoxdur!..»

O özünə əl qaldıracaqdı... Elə bu ancada birdən yadına Senekanın «Medeya» faciəsindən əzbər bildiyi bir kəlam düşdü: «Tale cəsarətlilərdən qorxur, qorxaqları məhv edir...» Yuxudaymış kimi ayıldı. Və birdən-birə dəhşət içində özü özündən utandı. «Nə? Qorxaq?! Mənmi qorcağam?! Yox, heç vaxt, heç vaxt. Mən bu miskin, bu rəzil adı həndəvərimə qoymaram!.. Heç vaxt qoymaram!.. Heç vaxt!.. Əziz, müqəddəs Seneka, görün bir hansı anda yadıma düşdünüz, hansı vaxtda köməyimə gəldiniz, qərarımı puç elədiniz...»

O var diqqətiylə axar suya baxdı. Suyun səsini axarından almağa çalışdı. Ətrafa boylandı, ağacların yarpaqları titrəşirdi. O, heç bir şey eşitmədi. Ancaq

sıxılmadı da, yarpaqların tərpənişindən küləyin gücünü, yarpaqların xışıltısını, suyun pıçıltısını hissləriylə, duyğusuyla, varlığıyla təsəvvür etməyə, edə-edə də eşitməyə çalışdı. «Yox, mən eşidəcəyəm... Eşidəcəyəm... Eşidirsinizmi, təbiblər! Mənə bir köməyiniz dəymir. Qulaqlarımı sağalda bilmirsiniz... Acizlərsiniz!.. Ancaq mən eşidəcəyəm!.. Eşidirəm!.. Mənim köməyim var. Köməkçim tapıldı... İradə, iradə, iradə! Tale ilə ancaq sən vuruşa bilərsən! Sən! Meydan sənindir!»

O, qollarını geniş açdı, bütün kainatı qucaqlayırmış kimi dedi:

– Ana təbiət, özün mənə kömək ol. Kömək ol. Kömək ol! Əl-ələ ver mənimlə, arzularım ürəyimdə qalmasın! Ürəyimdə biləsən nələr yatır, nələr? Özün görəcəksən!.. Əl-ələ ver mənimlə, mənim anam!

Ömrünün ən ağır anında özünü itirmədi o. itirmədi!..

İtirsəydi... bəşəriyyət Bethoveni itirəcəkdi. Bethoveni!..

*18 avqust, 1984*

# SƏNƏDLİ HEKAYƏLƏR, OÇERKLƏR

# ƏMƏK VƏ ŞƏRƏF

Onun haqqında eşitmişdim, özünü görməmişdim. İncil yetişdirən isti avqust günəşinin yandırıcı şüaları altında onun iş yerinə gedərkən kiminsə arxadan məni çağırdığını eşitdim. Çevrilib baxdım: qəzetlərin birində işləyən jurnalsit tanışımdı. Ayaq saxladım. Yaxınlaşdı. Əl verib görüşdük. Sonra məndən:

– Hara belə? – soruşdu.

– Depoya, - dedim.

– Bakı paravoz deposuna?

– Bəli, bəs sən?

– Yolumuz birdir, mən də oraya gedirəm. Yaxşı, xeyir ola?

– Xeyirdir, Firidun Ağayevi görəcəyəm.

– Sosialist Əməyi Qəhrəmanını?

– Bəli.

– Azərbaycan SSR Ali Sovetinin deputatını?

– Hə.

– Pah atonnan, indi deyəcəm ki, mənə də o lazımdır, inanmayacaqsan.

– Bəlkə inandım, bəlkə yox.

Gülüşdük.

Söhbətləşə-söhbətləşə Bakı dəmir yol stansiyasına gəldik. Dəmir yolu boyunca bir qədər getdikdən sonra diponun qapısına yaxınlaşdıq. Növbətçi məqsədimizi biləndə bizi içəri buraxdı. Köhnə bir vaqonun içərisindən keçib həyətə daxil olduq.

Həyətdə bir neçə paravoz nəzərimizi cəlb elədi. Lap yaxınımızdakı nəhəng bir paravozu yuyurdular. Bir nəfər də bütün işə diqqət yetirirdi. Müxbir ona yaxınlaşdı, köhnə tanış kimi görüşdü və üzünü mənə tutaraq dedi:

– Tanış ol, paravoz briqadalarının təlimatçı-maşinistlərindəndi, Yaqub Fərzəli, Firudun Ağayevin iş yoldaşıdı.

Tanış olduq. Müxbir gəlişimizin səbəbini Yaqub Fərzəliyə bildirəndən sonra üçümüz Bakı paravoz deposunun rəis müavini Yunus Həsənovun kabinəsinə

gəldik. İçəridə Həsənovdan başqa üç nəfər də vardı. Yaqub bizi onlarla tanış etdi. Öyrəndik ki, ikisi paravozsürən, biri isə paravoz brriqadalarının partiya təşkilatçısı Qabrieoovdur. Paravozsürənlər Firidun Ağayevin briqadasındadı. Bunlar Azərbaycan SSR Ali Sovetinin deputatı Aleksyev və adlı-sanlı gənc paravozsürən Məmməd Qasımovdu.

Rəis müavini Ağayevin dalınca adam göndərəndən sonra bizə:

– Firidun dayı depomuzun ürəyidi, - dedi. – Depoda onun iştirakı olmayan bir iş təsəvvür eləmək çətindi. Onun qiymətli təklifləri, göstərişləri işimizi qabağa salır...

– O təkliflərdən bir-ikisini deyə bilərsiniz? – soruşdum.

– Əlbəttə. Bax götürək elə onun aprel ayında olan bir təklifini, - Yunus həvəslə cavab verdi. – Depoda paravozların təmiri yubadıldığı bir vaxtda Ağayev təklif elədi ki, hər maşinist özü öz paravozunu təmir eləsin. Çilingərlərə ümid olub özünü bir yana çəkməklə ölkənin dəmiryolçular qarşısında qoyduğu vəzifələri yerinə yetirmək olmaz. Maşinst gərək öz paravozunun ustası olsun. İnsafla deyim ki, maşinstlərimiz də, kişinin dediyinə səs verdilər... Təklifin yaxşı da səmərəsi oldu. Maşinstlərdən Əzizov və Medvedev 88303 nömrəli paravozu, Sobolev və Mkrtıçev 9637 nömrəli paravozu yaxşıca təmir elədilər.

– Başqa bir misalı da mən demək istəyirəm, - Alekseyev sözə qarışdı. – Biz bu yaxınlarda Firidunun təklifilə üç paravozu mədəni şəklə salmışıq, onları əməlli-başla rəngləmiş və nikkelləmişik. İndi bu paravozlar Azərbaycan dəmir yolunda məşhurdur. Bu paravozların maşinistləri Məmməd Qasımov, Məcidov və sizin qulbeçəniz bunun üçün yalnız Ağayevə minnətdarıq. İndi bizim paravozlarımız sazdır, köhlən at kimidir.

– Firidun dayı mənim ustam olub. – deyərək Məmməd Alekseyevin sözünə qüvvət verdi. – Maşinstliyin sirrini mənə o kişi öyrədib. Həmişə özümü onun yetirməsi hesab etməklə fərəhlənmişəm.

Yunus:

– O da səninlə həmişə fəxr eləyir, Məmməd. Boş yerə deyildi ki, 1943-cü ildə onu maşinstlikdən təlimatçı-maşinst vəzifəsinə keçirərkən öz paravozunu ancaq sənə etibar elədi.

Yaqub Fərzəli özünü saxlaya bilmədi:

– Çünki Məmməd onun yetişdirmələri içərisində birinci idi. Ustasının paravozuna ancaq o minə bilərdi.

Yunus:

– Yaxşı yadıma düşdü, bayaqdan Yaqubu niyə danışdırmırıq, Fİridun haqqında o, çox şeylər deyə bilər. Kişini 1919-cu ildən tanıyır. Yaxın dostdular. Hər şeyin təzəsi, dostun köhnəsi, deyiblər.

Yaqubdan xahiş etdik. O, azacıq duruxdu, dərindən nəfəs alıb sözə belə başladı:

– Yaxşı yadımdadır, birinci dəfə depoda işə girərkən Firidunu çilingər köməkçiliyinə qəbul eləmişdilər. Ancaq Firidun üçün işin böyüyü-kiçiyi var idi məgər?! O, əsl iş adamıydı, işinə can yandırırdı. Tez-tez təkrar elədiyi məsəl də buydu: «İşləyən dəmir parıldar, işləməyən dəmir pas tutar». Özü də bunu ən yorğun vaxtlarında təkrar eləyərdi. Az keçmədi ki, dostumu ocaqçı təyin elədilər. Altı ay da bu işin qulpundan yapışdı, sonra maşinst köməkçisi oldu. Onda dayi Azərbaycan şuralaşmışdı. Firidun, deyə billəm ki, dörd iləcən bu vəzifədə işlədi, gündüz bilmədi, gecə bilmədi, işlədi; savadsızlığını ləğv etməliydi, gecə kurslarını havayı ötürmədi, o ki var oxudu. Depo müdiriyyəti Firidunun qabiliyyətini gördü. 1924-cü ildə onu Tiflisə maşinst kursuna göndərdi. Səkkiz ay kursda oxuyub bilikli maşinst kimi öz doğma yuvasına qayıtdı... Elə o işləyən 1943-cü ilə kimi maşinst vəzifəsində işlədi...

Bayaqdan bəri yazı yazmaqla məşğul olan Qabrielov başını qaldırıb bizə baxdı, yəqin ki, o da Firidun barəsində danışmaq istəyirdi.

Bunu hiss edən Yunus:

– Hə. Qabrielov, - dedi, - bəs sən bizim qəhrəman haqqında yoldaşlara nə deyə bilərsən?

Qabrielov qələmi əlindən yerə qoyaraq dedi:

– Mən ondan danışmağa başlasam gərək işinizi buraxıb elə mənə qulaq asasız. Ona görə mən ancaq bir faktı deyəcəyəm burda. İndicə paravoz briqadalarının ilin əvvəlindən bu yana yanacağa etdikləri qənaət cədvəlini gözdən keçirirdim. Ağayevin paravoz briqadası yeddi ay ərzinjə 140 ton yanacağa qənaət eləyib.

Qapı birdən açıldı, otağa iki nəfər daxil oldu. Onlardan təqribən qırx yeddi-yırq doqquz yaşlarında olanı irəli gəlib bizimlə görüşdü. Mən sövqi-təbii olaraq bunun Firidun olduğunu hiss elədim.

Yunus dedi:

– Qəhrəmanımız gəlib çıxdı, indi istədiyiz qədər onunla söhbət edə bilərsiniz.

Məni indi ən çox Ağayevin xasiyyəti, ailə başçısı kimi sifətləri, məişəti, yaşayışı maraqlandırırdı. Əmək qəhrəmanı kimi haqqında çox şey eşitdiyimiz Firidunu indi də uşaqlarının əhatəsində, ocağının başında görmək istəyirdim. Fikrimi ona bildirəndə razı qaldı, işin axırında bizi evinə aparacağına söz verdi və xahiş etdi ki, əgər darıxmasaq oturub onu gözləyək.

Onu bir saat gözləməliydik. Bu vaxtı biz depoyla tanışlığa həsr elədik, paravozsürənlərin işiylə yaxından tanış olmağa çalışdıq...

Vaxt yetişdi, Ağayev gəldi. Birlikdə yola düşdük. Mən indi fürsətdən istifadə edərək onu diqqətlə gözdən keçirdim. Orta boylu, enlikürək bir adamdı. Bizə çox sadə və mülayim insan təsiri bağışlayırdı. Danışanda üzü gülürdü...

Çox çəkmədi ki, vağzalın qarşısındakı iri binalardan birisinin önündə dayandıq:

– Üçüecü mərtəbəyə çıxacağıq, - Firidun bizə müraciət etdi.

O, qabaqda, biz də onun dalınca yuxarıya qalxdıq. Qapını bir gənc açdı. Üç otaqdan ibarət səliqəli mənzilə daxil olduq. Ağayev bizi əvvəlcə qapını açan oğlu Ağa ilə tanış etdi.

Öyrəndik ki, Ağa Tbilisi Dəmir Yol Nəqliyyatı Mühəndisləri İnstitutunun Bakı filialının istismar fakültəsində oxuyur.

Bizə oturmaq üçün yer göstərdilər. Əyləşdik. Ağayev o biri uşaqları haqqında da məlumat verdi. Onun Ağadan başqa üç uşağı vardı. Ağadan kiçiyi Kamal Ix sinifdə, Kamaldan kiçiyi Şövkət VI sinifdə oxuyurdular.

Uşaqlarını oxutmaq barəsində danışarkən o deyirdi:

– Bilirsiz, mən özüm yetim böyümüşəm. İki yaşında ikən atam ölmüş, anamın himayəsində yarıac, yarıtox yaşamışam, vəziyyətimiz ağır olub, oxuya bilməmişəm. Savadsızlığımı sonralar ləğv etmişəm. Odu ki, özümə söz vermişəm: övladlarımı gərək oxudam. Məni oxudan olmayıb. Amman mən oxudacağam.

– Firidun dayı, siz bu evdə çoxdan olursuz? – jurnalist soruşdu.

– Xeyr, burya son illərdə köçmüşük. Bundan əvvəl bir ev var, Telfonnı küçəsində, orda olurduq. O evin də qəribə tarixçəsi var. Danışsam yəqin ki, inanmayacaqsız. Canım, inanmalı da deyil. Hər kəs olsa inanmaz.

Bizi maraq götürdü, təkidlə danışmasını xahiş etdik. O, sözə belə başladı:

– İndiki kimi yadımdadı, depoda təzəcə işə girmişdim. 1919-cu ilin soyuq ayları başlanmışdı. Deponun yaxınlığında bir zirzəmi vardı. Orda bir yoldaşımla qalırdıq. Zirzəmi çox rütubətliydi, soyuqdu. Gecələr soyuqdun yata bilmirdik. Bir dəfə Telfonnı küçəsindən yoldaşımla keçirdim. Gözəl bir imarətin qabağında ikimiz də birdən dayandıq. Mən imarətin pəncərələrini gözdən keçirə-keçirə yoldaşıma dedim: «Gör nə qəşəngdir. Bizə burda mənzil versələr qiyamət olar? Balam, biz insan deyilik?!» Yoldaşımsa dodağını büzüb dedi: «Gözlə, Firudun, boğazında qalar. Bizim gərək canımız elə o padvalda çıxa». Mən də kirimişcə qaldım, yoldaşıma ayrı söz-zad demədim.

Bu əhvalatdan bir neçə il keçdi...bir gün depoda işləyirdim. Bir də onu eşitdim ki, məni çağırırlar. Getdim. Dedilər ki, gedək sənə mənzil verəcəyik. İnanmadım, qərəz ki, nə başınızı ağrıdım, məni zor-gün götürüb gəldilər həmin imarətin qabağına. O imarətin ki, orada yoldaşımla bir hovur durub zəmanədən şikayətlənmişdik. Yuxarı çıxdıq. 3-cü mərtəbədə mənə bir otaq verdilər və çıxıb getdilər. Sonradan bu hadisədən xəbər tutan dostum əvvəlcə inanmaq istəmədi, onu təzə otağıma aparıb çaya qonaq elədim. Dostum yalnız çay içəndən sonra dedi: «Firudun, atalar doğru deyiblər: niyyətin hara, mənzilin də ora».

Biz Firidun dayıya hey suallar verir, onu daha çox dindirməyə çalışırdıq.

– Firidun dayı, sizin adlı-sanlı paravozsürən olmağınızın əsas sirri nədədir? – Bu sualı tanışım verdi.

Bu, qəzetçilərin ənənvi sualıdır. Suala Firidun Ağayevin cavabı belə oldu:

– Burada, məncə elə böyük bir sirr yoxdu. Hər kəsin öz işində usta olması üçün, zənnimcə, üç əsas şey lazımdı: birincisi, həvəsdi, ikincisi, iradə möhkəmliyidi, üçüncüsü də, zəhmətə qatlaşmaqdı, işdən qorxmamaqdı. Bunlar ki, oldu ha, daha sənin üçün öz işində heç bir çətinlik olmaz. Mən belə başa düşürəm, depomuzda da cavanlara həmişə deyirəm: yaxşı maşinst olmaq istəyirsiz işinizi sevin, ondan bərk yapışın. Vaxt ikən fürsətdən istifadə eləyin, axı sizin əsl öyrənmək vaxtınız indidi. İndidi, başa düşüz. Sonra da böyük Nizaminin bu kəlamını onların yadına salıram:

Dünyada keçməsin boş cavan çağın,
Yol get ki, güclüdür indi ayağın.

Mən hələ Bayıl neft mədənlərində işlərkən yoldaşlarımla tez-tez vağzala gedərdim. Paravozlara tamaşa edərdim. Dəmiryolçu olmağa böyük həvəs oyanmışdı məndə. Elə bu həvəs də məni apardı. Söz yox, bu, asan da olmuyub. Bunun üçün çox çətin əziyyətli, ancaq mənim üçün şərəfli sayılan bir yol keçmişəm. Zəhmət yolu keçmişəm...

İçəriyə əlində padnos bir qadın girdi, bizə xoş gəldin elədi, qabağımıza çay qoydu və getdi. Bu, Firidun dayının arvadı Ballı xanım idi. Ev sahibi birinci olaraq əlini stəkana apardı, ətkidlə bizdən də içməyi xahiş elədi. Çay içə-içə söhbətini də davam etdirdi:

– Elə hey çalışardım ki, paravozum saz olsun, onun hər bir hissəsi düz işləsin. Tez-tez silərdim ki, təmiz olsun, parıldasın paravozum. Arvadı evdə parça-marça qırıntılarına həsrət qoymuşdum. Əlimə nə düşərdisə aparıb paravozumu silərdim. Belədi də, paravoz da istəyir ki, həmişə qulluğunda dursan, ona yaxşı baxasan. Onda o da sənin sözünə yaxşı baxar, el yanında üzünü ağ elər.

Ballı xanım boşalmış stəkanları aparmaq üçün gələndə mən zarafatyana soruşdum:

– Ballı xanım, Firidun dayı yenə sizin parça qırıntılarını yığışdırıb depoya aparırmı?

– Yaxşıdı ki, indi boynuna alır, Ballı xanım gözucu Firiduna baxdı. – Onda heç boynuna qoya bilmirdim ki?! Deyirdi xəbərim yoxdu ki, yoxdu, məni qaralamısan, arvad.

Gülüşdük.

Firidun dayı bizi evin yuxarı başında qoyulmuş tikiş maşınının yanına apardı:

– Xalq Yollar Komissarlığından hədiyyədir, - dedi. Vaxt keçirdi, biz Firidunla, onun ailə üzvlərilə görüşüb çıxdıq. Pillələri enərkən fikirliydik. Görünür, hər birimiz öz aləminə dalmışdı. Küçəyə çıxanda jurnalist dedi:

– O uzun zaman zəhmət çəkib, indi də bala-bala bəhrəsini görür.

Mən də dedim:

– Bir buğda əkməsən, min buğda biçməzsən.

– Yaxşı dedin bunu.

– Atalar deyiblər bunu, atalar!..

– Orasını bilirəm, ancaq sən burda o atalar sözünü yerinə salıb işlətdin. Etiraz eləməsən reportajım üçün bu atalar sözünü sərlövhə götürərəm.

– qurbandır! Ümumiyyçtlə, qəzetçilər atalar sözü və məsəllərə tez-tez müraciət etsələr uduzmazlar.

– Yaxşı, sən yəqin ki, oçerk yazacaqsan, hə?

– Görək də... İstəyirəm. Baş tutsa... adını da sadəcə belə qoyacağam: «Əmək və şərəf». Bir az quru səslənsə də Firidun dayının keçdiyi həyat yolunu, elə bilirəm, düz fiadə edər. O, özü danışanda fikir verdin, Nizamidən gözəl bir beyt misal gətirdi. Xoşuma gəldi. Ona görə mən də istəyirəm yazım üçün böyük Nizaminin bu misralarını epiqraf götürüm6

Gecəni, gündüzü çox vermə bada,

Yaxşı ad uğrunda çalış dünyada!

*1947*

## ANA – ALİM

Otuz beş-otuz altı yaşlarında qarabuğdayı qadın teleqrafçının stoluna yaxınlaşar-yaxınlaşmaz ortaboylu cavan bir kişi zarafatla ona dedi:

– Kamilə xanım, evdən çıxdığınız dördcə gün deyil, ikinci teleqramdır yola salırsız. Xoş halına, xoşbəxtdir.

– Əlbəttə, xoşbəxtdir, - Kamilə zarafatı cavabsız qoymaq istəmədi. – Ancaq, Ağadadaş, indi teleqramı sənin düşündüyün kimi ərimə yox, böyük oğluma göndərirəm. Onu bu gün səkkiz yaşı tamam olur.

Məşhur buruq ustası Ağadadaş Kərbəlayı oğlu tələsik dedi:

– Onda sizi təbrik eləyirəm, Kamilə xanım! Arzu eləyirəm böyüyüb kamallı oğlan olsun.

– Çox sağ ol, Ağadadaş, sənin qızların üçün də bunu arzu edirəm...

Kamilə teleqrafçının stolundan aralanırkən bir qadın ona yanaşdı:

– Bağışlayın, Qədimova Kamilə sizsinizmi? – soruşdu.

Kamilənin təəccüblü baxışları onun üzündə gəzdi:

– Bəli, mənəm, - dedi.

Qadın özünü təqdim etdi:

– «Sovetskaya jenşina» jurnalının əməkdaşıyam. Sizin bir neçə dəqiqə vaxtınızı almaq istərdim.

Kamilə məmnuniyyətlə:

– Buyurun, - dedi və Ağadadaşdan üzr istəyib jurnalistlə bir tərəfə çəkildi.

Jurnalist Kamiləyə onun həyatı, işi barədə vermiş olduğu bir neçə suala müfəssəl cavab aldıqdan sonra xahiş etdi:

– Əgər mümkünsə, indi də labarotiyanızda nə üzərində çalışdığınızı deyin.

Kamilə müsahibinin dərinə getdiyini görüb dedi:

– Dərinlik nasosu ilə istismar üsulunun kompleks məsələlərinin həlli üzərində çalışırıq. Bunlardan ən mühümü nasosların daha dərin quyularda işlədilməsini təmin etməklə bərabər qazın dərinlik nasosuna zərərli təsiri və qum tıxacı ilə mübarizə üçün yeni üsullar axtarıb tapmaqdan ibarətdir.

Kamilə dediklərini jurnalistin yazdığını gördükdə özünün danışıq sürətini bir az da azaltdı:

– İlk nəticələrə nail olmuşuq. Dərinlik nasosu ilə ilşləyən quyulara yeni qaz lövbəri buraxılması faydasız olmayıb. İndiyə kimi laboratoriyada bir neçə müxtəlif quruluşlu qaz lövbəri sınaqdan keçirilib. Dörd gövdəli qaz lövbərinin quruluşu dəyişdirildikdən sonra onun nefti qazdan ayırmağa daha əlverişli olduğu aydın olub.

– Hazırda necə, dörd gövdəli qaz lövbərindən istifadə olunurmu?

– BƏli, respublikamızın, həmçinin, ölkəmizin bir çox neft rayonlarında səkkiz yüzdən yuxarı bu cür qaz lövbərindən istifadə edilir...

Jurnalın əməkdaşı Kamilənin cavablarını sürətlə cib dəftərçəsinə yazırdı, yazıb qurtaran kimi də yeni sual verirdi:

– Dörd gövdəli qaz lövbəri neft hasilatını artırmağa kömək edirmi?

– Çox kömək edir. Bakının neft mədənlərində belə lövbərlər hesabına neft hasilatı xeyli artıb.

Kamilə susdu. Jurnalın əməkdaşı axırıncı kəlməni yazıb başını qaldırdı. Kamilə onun baxışlarından hiss elədi ki, sual ətrafında yenə danışmasını istəyir. Odur ki, sual gözləmədən dedi.

– Onu da nəzərinizə çatdırım ki, həmin lövbərlər mədənlərdə tətbiq olunarkən yeni təkliflər də ortaya atanlar olur: məsələn, elə götürək usta Nurbala Quliyevin təklifini. Əvvəllərdə qaz lövbərini təmir etmək üçün quyudan çıxaranda boruları da qaldırmaq lazım gəlirdi. Qurbalaya görə isə qaz lövbəri ilə nasos birləşdiriləndə daha boruları qaldırmağa ehtiyac qalmırdı. Mən ustanın təklifini qəbul edib yeni quruluşlu qaz lövbəri hazırlanmasında ona köməyimi əsirgəmədim. Beləcə, birinci dəfə olaraq onun işlədiyi mədənlərdə qondarma nasosa birləşdirilən

lövbər hazırlayıb quyulara buraxıldı, yaxşı da nəticə verdi. İndi həmin mədənlərdə belə lövbərlərlə qırx quyu işləyir.

– Qondarma lövbərin adi lövbərlərdən üstünlüyü nədən ibarətdir?

– Ondan ibarətdir ki, o, qaldırma-endirmə əməliyyatına sərf edilən vaxtın iki-üç dəfə azalmasına imkan verir...

Tənəffüs qurtarmışdı. Kamilə ilə jurnalst söhbət edə-edə Kremli böyük salonuna keçdilər. Burada ilk dəfə idi ki, səmərələşdiricilərin, ixtiraçıların və istehsalat yenilikçilərinin Ümumittifaq müşavirəsi keçirilirdi.

***

Moskva – Bakı sərnişin qatarı ağır nəfəs alıb dayandı. Sərnişinləri qarşılamaq üçün gələnlər vaqonlara doğru axışdılar. Onların arasında iki uşaq nəzəri daha çox cəlb edirdi. Biri səkkiz, biri beş yaşında olardı. İkisinin də əlində gül dəstəsi vardı. Kiçiyinin əlindəki böyüyünkünə nisbətən bir az kiçikdi. Düşünmək olardı ki, gül dəstələrinin yaşlarına görə onlar üçün bağlamışdılar. Uşaqların yanında orta yaşlı bir kişi dayanmışdı; tez-tez ətrafa göz gəzdirir, arabir adamların arasından irəli cummaq istəyən uşaqların əllərindən tutub saxlayırdı...

Sərnişinlər düşməyə başlamışdılar...

Beşinci vaqonun pəncərəsi qabağında duran qadının gözləri kimi isə axtarırdı. Birdən qadın o tərəf-bu tərəfə boylanan uşaqları və onların yanında durmuş kişini gördükdə bilaixtiyar pəncərənin şüşəsini döyəcləyərək:

– Tələt! Rüfət! – qışqırdı.

Səsinin titrəyişindən onun bu uşaqların anası olduğu duyulurdu. Ayrı cür ola da bilməzdi. Yalnız ana uşaqlarını bu cür səsləyə bilərdi. Bu səsdə həyəcan dolu bir sevinc, ayrılıqdan doğan bir intizar, nigarançılıq, körpələrin ən çox ehtiyac hiss etdikləri nəvaziş, ana qəlbinin incə tellərinin ehtizazını əks etdirən ahəng vardı.

Ananın səsini uşaqlar atalarından tez eşitdilər. Eyni qışqırıq onlardan da qopdu:

– Ana!..

– Anacan!..

Uşaqlar da, ata da dərhal vaqonun pillələrini qalxdılar. Uşaqlar qabağa keçib gül dəstələrini analarına uzatdılar.

Ana gül dəstələrini alıb bir yana qoydu, həsrətlə ürək parçalarını bağrına basdı, üz-gözlərindən doyunca öpdü, yalnız bundan sonra razılıq və sevinc ifadə edən nəzərlərini kupenin qapısında dayanmış ərinin gözlərinə zillədi. Əl verib görüşdülər, hər ikisinin ürəyindən olsa da, uşaqların yanında öpüşmədilər.

Böyük qardaş Tələt anasının əllərindən tutub soruşdu:

– ana, anacan, mənə konstruktor almısan?

– Bəs necə, oğlum, almışam.

– Bəs mənə? – kiçik qardaş Rüfət də qara gözlərini anasının mehriban üzünə dikdi.

– Sənə də, oğlum, istədiyin maşını gətirmişəm.

Rüfətin gözləri sevincdən parladı:

– Bəs hanı? Ver də, ver baxım.

– Bax, buradadır, oğlum, - ana çamadanın yanındakı bağlamanı göstərdi. – Bir az hövsələli olun, gedəyin evə, orada baxarsız.

***

Evdə onları ahil bir qadın mehribanlıqla qarşıladı:

– Kamilə!.. Can qızım! Xoş gəlmisən, bala!

– Xoş gün görəsən, ana! Çox sağ ol!

Ana-bala qucaqlaşdılar. Bəli, ana-bala! Bayaq ana olan Kamilə indi bu ağsaçlı, mehriban qadının – anasının qarşısında bala idi, özünü körpə bir uşaq kimi hiss edirdi. Ana əllərini Kamilənin boynuna dolamış, Kamilə də başını onun köksünə söykəmişdi. Bu, körpələrə də təsir etdi. Onlar dərhal qaçıb biri nənəsini, biri də anasını qucaqladı. Yeznənin, ərin, atanın gözləri qarşısında canlı bir tablo yarandı... O baxa-baxa özlüyündə bu tabloya ad da qoydu: «Ana-bala məhəbbəti». Analar bir-birindən ayrıldılar.

Fizzə arvad maraq içində soruşdu:

– Qızım, səfərin necə keçdi?

– Yaxşı keçdi, ana, sizinçün darıxırdım. – Bu sözləri deyə-deyə Kamilə anasını, uşaqlarını, əri Umudu mehriban nəzərləriylə süzdü.

– Biz də elə səninçün yaman darıxırdıq, bala. Uşaqlar da, Umud da, mən də.

Anasının bu sözlərindən məmnun olan Kamilə nüfuzedici qara gözlərini böyük oğlunun üzünə zillyəib soruşdu:

– Yaxşı, oğlum, bir de görüm məndən sonra nə qiymət almısan?

Tələt sinəsini qabağa verdi:

– Üç dənə «5».

Kamilə lini onun başına çəkdi.

– Afərin oğlum, mən elə bilirdim ki, sən «5» alacaqsan.

Sonra o, üzünü anasına tutub soruşdu:

– Yaxşı, ana, bir de görüm, mənqdən sonra bunlar səni incitməyiblər ki?

Fizzə arvad:

– Yox, qızım, ağıllı baladırlar, heç sözümdən çıxmayıblar, - deyərək nəvələrinin alnından öpdü.

Kamilə də:

– Elə isə qoy mən də onların hədiyyələrini verim, - dedi, bağlamanı açdı, hədiyyələri çıxartdı. Konstruktoru Tələtə, maşını Rüfətə verdi. Onlar hədiyyələrini alanda analarına «sağ ol» dedilər.

***

Kamilə Azərbaycan Sənaye İnstitutunun neft-mədən fakültəsini 1942-ci ildə əla qiymətlə qurtaranda aspiranturaya girmək ürəyindən keçsə də, o, bunu edə bilmədi. Ehtiyac əl-qolunu bağlayırdı. Cəbhə də neft tələb edirdi. Mədəndə işə girdi. Neftçıxarma ustası oldu...

Ölkə dinc quruculuq işlərinə qədəm qoyanda Kamilə rahat nəfəs aldı, elmlə məşğul olmağın vaxtı çatdığını hiss etdi. O, Azərbaycan Elmi-Tədqiqat

Neftçıxarma İnstitutunun aspiranturasına daxil oldu. «Qazın və qumun dərinlik nasosuna zərərli təsirini tədqiqat metodları» mövzusunda dissertasiya üzərində işlədi; texniki elmlər namizədi alimlik dərəcəsi adını aldı. İndi bir neçə ildir ki, Kamilə həmin institutun laboratoriyasında baş elmi işçi dzpbazcbylz xfksish.

***

Nəhəng bir qurğu aramla işləyir. Onun yanında dayanmış Kamilə işin gedişinə nəzər yetirir. Hərdəndir əlindəki qeyd dəftərçəsinə nə isə yazır...

Neft sahəsinə azacıq bələd olan bir adam diqqətlə işin gedişinə nəzər salsa, qurğuda neft quyularında aparılan əməliyyatın icra olunduğunu görər. Laboratoriyanın əməkdaşları bir qurğu vasitəsilə qaz lövbərlərinin qumla tutulmalarına qarşı mübarizə metodları üzərində çalışırlar. Kamilənin gəldiyi nəticəyə görə dörd gövdəli qaz lövbərinin sorucu deşiklərinin qarşısında metal konuslar qoyulur ki, bunun sayəsində mayenin sürəti artır, qum neftlə bərabər bayıra çıxır.

Bakıda artıq bu cür yeni quruluşlu qaz lövbəri hazırlanıb istehsalata verilmişdir. Bunlar hazırda Buzovnaneftin neft mədənlərində və başqa yerlərdə yoxlamadan keçirilir.

Kamilə bunun istənilən nəticəni verəcəyinə əmindir.

*1956*

## DƏZGAHLAR ARASINDA

Qarabuğdayı qız avtobusun pəncərəsindən boylanıb nəzarət qapısının üstündəki sarı rəngli enli, uzun taxta lövhənin üzərindəki ağ rənglə yazılmış iri hərfləri oxudu: «MLP Tekstilnıy kombinat im. V.İ.Lenina». Oxuyan kimi də yanında oturmuş rəfiqəsini dümsüklədi:

– Çatdıq, dursana...

Qızlar səs-küylə avtobusdan yerə tökülüşdülər. Onları uşaq evindən ekuskursiyaya gətirən tərbiyəçi tez nəzarət qapısından girdi. Qızlar hündür, daş hasarın yanına düzüldülər. Nəzarət qapısının sağında da, solunda da daş hasara lövhə vurulmuşdu. Sağdakı lövhədə Azərbaycan dilində həkk olunmuşdu: «Azərb. SSR YSN V.İ. Lenin adına toxuculuq kombinatı». Soldakı lövhədə də rus dilində eyni məzmunda yazı vardı. Qarabuğdayı qız bu yazıları da oxudu. Adətiydi: küçələrdə asılan şüarları, mağaza və müəssisələrin adlarını bildirən yazıları oxumamış getməzdi. Bunu rəfiqələri yaxşı bilirdilər. Onlardan biri dedi:

– Çimnaz yenə oxuyur.

O birisi əlavə etdi:

– Oxumasa rahat olar?!

Tərbiyəçi qayıtdı. Çimnaz əlini sağdakı lövhədə üç iri hərfin üzərinə qoyub xəbər aldı:

– Müəllim, bura baxın, bir, bu YSN nə deməkdir?

Çimnazın xasiyyətinə bələd olan tərbiyəçi dərhal cavab verdi.

– Yüngül Sənaye Nazirliyi.

– Bəs bu? – Çimnaz sol lövhədəki üç iri hərfi göstərdi.

– Ministerstvo Leqkoy Promışlennosti. – Sonra tərbiyəçi üzünü qızlara tutdu. – Qızlar, gedəyin!

Onlar içəri keçdilər. Əvvəlcə əyirici fabrikində oldular. Sonra toxuculuq fabrikinə yönəldilər. Burada onları toxucu sexinin rəisi Fətəli Kazımov qarşıladı. Bu q ı rx-qırx iki yaşlarında, ortaboylu, enlikürək, gülərüz adamdı. Göy sətindən pencək geymişdi. Pencəyinin sol döş cibində üç karandaş görünürdü. Sağ döş cibində isə kiçik dəftərçəsinin ucu nəzərə çarpırdı. Usta Fətəli (fabrikdə böyüklü-kiçikli hamı ona belə müraciət edir) uşaqların qabağına düşüb onları sexdə gəzdirməyə, ayrı-ayrı toxucular haqqında məlumat verməyə başladı. Müvəqqəti dayandırılmış bir dəzgahın yanına çatdıqda ayaq saxlayıb parçanın necə toxunduğunu izah etməyə çalışırdı:

– Qızlar, gördüyünüz kimi parça iki sapdan toxunur: əriş, arğac. Əriş çox möhkəm sapdır. Arğac ərişə nisbətən davamsız sapdır. Bu saplar əyirici fabrikində hazırlanıb bizə göndərilir...

Göy satin xalat geymiş orta yaşlarında bir qadın Fətəliyə yaxınlaşdı. Ondan astaca nəsə soruşub getdi.

Usta Fətəli bu qadın haqqında da uşaqlara danışmağı lazım bildi:

– Seximizin növbə ustası Dostuxanım Həsənovadır. Ana doğma balasına necə qayğı bəslərsə, Dostuxanım da cavan toxuculara eləcə qayğı göstərir...

Qızlar sexdən çıxarkən qapı ağzında Dostuxanımla qabaqlaşdılar. Dostuxanım soruşdu:

– Hə, qızlar, bizim sənət xoşunuza gəldi?

– Əlbəttə.

– Pis deyil

– Sənətdir də. _ qızlar yerbəyerdən cavab verdilər.

– Sənsə, qızım, deyəsən, bizim işi daha çox xoşlayırsan, eləmi? – Dostuxanım uşaqlardan bir az aralı, qapıya yaxın dəzgahların yanında durub onları idarə edən toxucunun çevik hərəkətlərinə tamaşa etməkdə olan Çimnaza müraciət etdi.

Çimnaz azacıq duruxdu, sonra isə çox yavaşdan:

– Bəli, usta, xoşuma gəlir, - deyə bildi və yoldaşlarının uzaqlaşdığını görüb Dostuxanımla xüdahafizləşdi, qaçaraq özünü onlara yetirdi.

Dostuxanım Çimnazın arxasınca çox baxdı. «Nə şirin, qarabuğdayı qızdır, ilk dəfə işə girəndə mən də bu yaşda idim... bu yaşda!..»

Düşündü, gənclik illərini xatırladı, kövrəldi Dostuxanım.

***

– Çinaz, yatdın?

– Yox, ay qız, elə-belə gözlərimi yummuşam, bəlkə deyirəm yuxu apardı. Bu gecə nədənsə heç yatmaq istəmirəm... Yuxum qaçıb.

– Mənim də yuxum qaçıb. Çimnaz, istəyirsən dur otur, bir az söhbət eləyək, bəlkə yuxumuz gəldi.

– Yaxşı, sən deyən olsun, ancaq yavaşca danışaq, yoxsa yatanları oyada bilərik.

Yan-yana qoyulmuş çarpayılardan iki qız baş qaldırıb uzandıqları yerdəcə oturdular; yuxusu qaçmış gözlərini bir-birinə zilləyərək pıçıltı ilə söhbətə girişdilər:

– Çimnaz, eşitdin, tərbiyəçi dedi ki, ekskursiyaya aid divar qəzeti çıxardacayıq.

– Eşitdim.

– Sən bir şey yazacaqsan?

– Fikirləşərəm.

– Nə yazacaqsan?

– Hələ bilmirəm. – Çimnaz qonşusunu ilk dəfə görürmüş kimi iti baxışları ilə nəzərdən keçirdi və sonra əlavə etdi: - Bilirsən, Dostuxanım mənim xoşuma gəldi, görürdün bizimlə necə mehriban danışırdı. Danışığıynan adamı özünə bağlayırdı. Sonra usta Fətəli... Yaxşı adamlardır, vallah. Bəlkə də mənə belə gəlir... Onlarla işləmək, deyirəm, pis olmaz.

– Necə, toxucu olmaq istəyirsən?

– İstəyirəm, bilirsən, işləmək istəyirəm. Çörək pulumu əlimin zəhmətiynən qazanmaq istəyirəm. Yetimxanada nə qədər qalacağıy eee?! Toxuculuq da ki, elə bilirəm, pis deyil. Lazımlı sənətdi. Düz demirəm?!

– Orası elədi, bəs dərs?!

– Eşitmədin dedilər ki, kombinatın nəzdində sənət məktəbi var. Orda oxuyaram. Bir də deyirlər ki, işləyə-işləyə də oxumaq olur. Axşam məktəblərində. Eh, bu hələm sonranın işidir. İndisə işləmək istəyirəm. İşləmək!.. Xoşuma gəldi bu gün toxucuların işi. Olacağam toxucu... Olacağam!..

Susdular. Yuxu, deyəsən, yavaş-yavaş öz gücünü göstərməkdə idi. Çinaz dərin fikrə getmişdi. Qonşusu sağ qolu üstə dirsəklənərək diqqətlə Çimnaza baxırdı. Haçandan-haçana xəbər aldı:

– Çimnaz, anan yadına gəlir?

Birdən-birə verilən bu sual Çimnazı xəyaldan ayırdı, o, həmsöhbətinin mənalı baxışlarla süzüb astadan dedi:

– Yox, mən lap körpə ikən o ölmüşdü... QOnşuların dediyinə görə mehriban ana imiş. İndi sağ olsaydı, yəqin Dostuxanım boyda olardı... Deyirlər yaxşı paltar tikirmiş. Qaraqaş, qaragöz bir qadınmış...

– A, denən anama oxşamışam da... Qara qaşlar, qara gözlər, uzun qara kirpiklər...

– Ürəyin istəyir deyim də...

– Bəs atan?.. Atan necə yadına gəlir, Çimnaz?

– Atam adıma gəlir. Səkkiz yaşında idim, dava başlandı. Onu davaya apardılar. Məni də bu yetimxanaya gətirdilər...

***

Dostuxanım növbəni təhvil götürəndə, hər bir dəzgahın işi ilə maraqlanar, baş vermiş bu və ya digər hadisəni təfərrüatına qədər öyrənməyə çalışardı. Növbəsi hələ işə başlamamış o, bir dəfə sexi gəzər, dəzgahları ötərgi də olsa nəzərdən keçirərdi; bəzilərini diqqətlə yoxlardı da. Növbəsi işə başlayandan sonra isə o, dəzgahlar arasında yenidən gəzib hər toxucunun işinə göz yetirər və gördüyü nöqsanları yerindəcə aradan qaldırmağa çalışardı.

O yenə adəti üzrə işə hamıdan əvvəl gəlmişdi, toxucular hələ işə başlamamış lazım olan hazırlığı təzəcə görüb qurtarmışdı ki, sexə bir dəstə qız daxil oldu. Bunlar sənət məktəbinin uşaqları idilər; bu gündən etibarən həm oxuyacaq, həm də sexdə çalışacaqdılar. Sənət məktəbinin direktoru, məktəbin təlimatçısı və toxucu sexinin rəisi də uşaqların yanında idilər.

Dostuxanım gələnlərə tərəf yeridi, onlarla salamlaşdı. Bu vaxt bir qız Dostuxanıma yaxınlaşıb salam verdi və utancaq baxışlarını onun mehriban gözlərinə zillədi. Dostuxanım salamı alıb bu qızı diqqətlə nəzərdən keçirdi və bir şey xatırlayırmış kimi:

– Qızım, deyəsən, səni hardasa görmüşəm, - dedi. – Ancan xatırlaya bilmirəm.

– Amma mən yaxşı xatırlayıram, usta. Həmçinin usta Fətəlini də.

Adının çəkildiyini eşidən usta Fətəli də nəzərlərini bu qıza zilləyərək onu harada gördüyünü xatırlamağa çalışdı.

– Qohum çıxsalar yerinə düşər. – Sənət məktəbinin təlimatçısı zarafat etmək istədi.

– Qızım, sən gərək ki, bir neçə ay irəli buraya ekskursiyaya gəlmişdin, eləmi? – Dostuxanım tərəddüdlə soruşdu.

– Bəli, usta, gəlmişdim, indi də işləməyə gəlmişəm.

– Qızım adın nədir?

– Çimnaz.

– Demək, toxucu olmaq istəyirsən?

– Bəli, usta!..

Usta Fətəli və Dostuxanım uşaqlar üçün ayrılmış dəzgahları onlara göstərdilər. Uşaqlara sənət məktəbinin təlimatçısı rəhbərlik edəcəkdi.

Məktəbin şagirdləri iş üsulları, dəzgahların əsas xüsusiyyətləri ilə tanış olandan sonra sexə təcrübəyə gələrkən onları əvvəlcə bir dəzgahda işə buraxır, sonra tədriclə dəzgahların sayını artırırdılar. Belə ki, ən yaxşı halda şagird təqribən bir aydan sonra iki, iki aydan sonra üç, üç-dörd aydan sonra isə dörd dəzgah işlədə bilərdi. Dörd dəzgahı idarə etmək isə məktəbi qurtarmaq deməkdi. İstedadlı şagirdlər elə bu müddət ərzində məktəbi qurtarmağa can atardılar.

Təlimatçı usta Çimnazı işləyəcəyi dəzgahın yanına gətirdi, işə başlamazdan əvvəl ona bəzi izahatlar verib, əlavə etdi:

– Qızım, dəzgahın indi işə hazır olub-olmadığını yoxlamaq sənin boynuna; başlaya bilərsən. Bax, gör, hər şey yerindədirmi?

Çimnaz dəzgah arxasına keçdi. Əvvəlcə məkiyə baxdı, arğac saplı makaranı götürüb nəzərdən keçirdi, sonra onu götürdüyü yerə qoyub məkiyn yaxşı doldurulduğunu ustaya söylədi. Usta Çimnazın düz cavab verdiyini başının hərəkətiylə təsdiq etdi.

Çimnaz dəzgahın başqa hissələrini yoxlayıb dedi:

– Usta, hər şey yerindədir. İcazə verin, dəzgahı işə salım.

Usta icazə verdi. Çimnazın ürəyi şiddətlə döyündü. Ömründə ilk dəfə müstəqil olaraq dəzgah işlədəcəkdi. Bu, on dörd yaşlı bir qızı, əlbəttə, həyəcanlandırmaya bilməzdi... Çimnaz özünü ələ aldı, özünə ürək verərək dəzgahı işə saldı. Və birdən-birə yüngülləşdiyini hiss etdi. Həyəcanı getdikcə azaldı, ürəyi aramla vurmağa başladı. Qəribədir! Elə bil bayaqdan bəri keçirdiyi həyəcanların hamısı dəzgahın işə düşməsinə qədəm imiş... İndi o, sıxılmadan dəzgahı işlədir, arğac və əriş saplarından hasil olan bez gözləri önündə ağarırdı...

Birdən Çimnaz dəzgahı dayandırdı. O biri qızların yanında olan usta bunu uzaqdan hiss etdi. Yaxınlaşarkən Çimnazı qan-tər içində minlərcə əriş sapının arasında nəsə axtaran gördü. Usta işin nə yerdə olduğunu dərhal anladı. Çimnaz məkikdəki arğaca vaxtında diqqət yetirmədiyindən sap məkikdən çıxmış, minlərcə ərişə qarışmışdı. İndiç Çimnaz sapın ucunu tapmaq istəyirdi. Çünki məkiyə yenidən makara qoyduqda itirilmiş sapla yeni makaradakı sapı bir-birinə bağlamaq lazım idi. Bunsuz dəzgahı işə salmaq olmazdı.

Gənc toxucuya kömək etmək fikrinə düşən təlimatçı usta da cərgə ilə düzülmüş əriş saplarını bir-bir aralayaraq itirilmiş sapı axtarmağa başlamışdı ki, birdən Çimnaz:

– Tapdım, usta, tapdım, - dedi. – Amma çox axtardım ha... Sex də yamanca istidir, usta!

– İsti olmağına istidir, - usta Çimnazın üz-gözündən tökülən iri tər damcılarını nəzərdən keçirərək sözünə davam etdi. – Ancaq sənə isti bir də ona görədir ki, qızım, həyəcanlanmısan, hətta hirslənmisən də. Hirslənməklə, həyəcan keçirməklə işi qabağa salmaq olmaz. Hər bir işdə olduğu kimi toxuculuq işi də tədbirli, diqqətli olmağı sevir. Hərgah sən arğac məkikdən çıxmamış dəzgahı saxlasaydın, məkiyi yenidən doldurarkən sapları asanlıqla bir-birinə bağlardın; daha nə həyəcan keçirərdin, nə də ki, sənə bu qədər isti olardı.

Çimnazın özünə bərk acığı tutmuşdu: «Diqqətsizəm elə... diqqətsiz!.. Arğac sapının ucunu yaman qaçırmışdım... Usta düz deyir, hirslənməsəydim tez tapardım. Yəqin tapardım...»

Təlimatçı ustanı yanındakı dəzgahda işləyən bir qız (bu da sənət məktəbinin şagirdi idi) səslədi. Usta cəld onun yanına getdi.

Çimnaz əlindəki kiçik yaylıqla üz-gözünün tərini silib dərindən nəfəs aldı; dəzgahı yenidən işə saldı. İlan vuran ala çatıdan qorxan kimi indi Çimnaz da bütün fikrini məkiyə verdi; məkiyin içindəki makara fırlandıqca arğac sapını dəzgahın bir tərəfindən o biri tərəfinə ötürür; bu sap da öz növbəsində əriş sapı ilə birləşirdi. Dəzgah işlədikcə bu hərəkət mütəmadiyən davam edir və beləliklə də, yeni bir şey – parça meydana çıxırdı.

Bir azdan usta yenə Çimnazın yanına gəldi, dəzgahı diqqətlə gözdən keçirdikdə əriş saplarından birisinin qırıldığını gördü. Məkikdən arğac sapının qurtarmasına az qaldığından Çimnaz bütün fikrini bura vermiş, əriş sapının qırıldığını görməmişdi. Usta Çimnaza müraciətlə dedi:

– Qızım, şahmatçılar oyun zamanı cəbhəni yalnız bir hissəsini yox, bəlkə bütün sahələrin göz altına alırlar. Bu cəhətdən toxucununun da işini şahmatçıların oyununa bənzətmək olar. Dəzgah işlərkən onu hərtərəfli müşahidə eləmək lazımdır. İndi bax, gör!..

Usta hələ sözünü tamamlamamış Çimnaz dəzgahı saxladı (usta şahmatçılardan danışarkən Çimnaz onun nə demək istədiyini anladığından dəzgahı diqqətlə gözdən keçirmiş, buraxdığı nöqsanı tapmışdı).

Çimnaz qırılmış sapın uclarını arayıb cəld bir-birinə bağladı...

İşin sonunda Çimnazdan toxuduğu parçanı yoxladılar. Müəyyən hissəsi keyfiyyətsiz idi. Bu, Çimnazın kefini pozmuşdu. Bunu təlimatçı usta da hiss etməmiş deyildi:

– Çimnaz, qaşqabağını niyə sallamısan, bax, bu olmadı, bundan mənim heç xoşum gəlmir. İşindəki səhvlər səni qorxutmasın, qızım! Ancaq sən bunları aradan qaldırmaq üçün ciddi düşünməlisən; səhvin nədən və nə səbəbə baş verdiyini öyrənməlisən...

***

Çimnaz yataqxanaya da çox dilxor gəldi. Həmişə Çimnazı şən, deyib-gülən görən qızlar öz təəccüblərini gizlədə bilmədilər, onu dövrəyə aldılar, dörd bir tərəfdən suallar, atmacalar yağdırıldı:

– Bıy, xətrinə kim dəyib, qaşqabağını sallamısan?

– Bəlkə başın ağrıyır?

– Vallah, ay Çimnaz, sənə qaraqabaqlıq heç yaraşmır, inanmırsan bu da güzgü, al bax!

– Sən bizim canımız, heç olmasa, bircə dəfə gülginən...

Çimnaz bu dəfə daha özünü ciddi saxlaya bilmədi; dodaqları qaçdı. Bunu görən qızlar da gülüşdülər.

– Bax, indi oldun bizim Çimnaz. Yoxsa bayaqkı təkin, özünü çəkib danışmaq da istəmirdin!..

– Eh, qızlar, işləri bu gün yamanca korlamışam! – Çimnaz nəhayət dilləndi.

– Nə olub ki?

– Necə bəyəm?

– Korladığın nədir ki? – qızlar soruşdular.

– Mən bilirəm Çimnaz niyə dilxordur, - bir qız özünü qabağa verdi.

– Niyə dilxordur, ay hər şeyin bilicisi, niyə? Desənə biz də bilək! – başqa bir qız kinayə ilə, sancırmış kimi ondan soruşdu.

– Çimnazın bu gün bir az brakı olub, toxuduğu bezi aşağı növ hesab eləyiblər. Buna görə də dilxordur, ay təzə xəbərləri bilməkdə həmişə dala qaçan Xırdaxanım.

– Bəyəm bu azdır, - Çimnaz acıqlı-acıqlı həmin qıza baxdı.

– Eh, nə olsun, uşaq yıxıla-yıxıla yeriməyi öyrənir də.

Çimnazın üz-gözünün aldığı ifadədən bu qıza çox kəskin, acı bir cavab verəcəyi məlumdu. Lakin Xırdaxınam onu qabaqladı:

– Hamı sənin kimi soyuqqanlı ola bilməz axı? Necə olsa adama təsir edir də.

– Bıy, qanım niyə soyuq olur, ölüb eləməmişəm ki!..

Bu vaxt bir qız qaçaraq içəri girdi:

– Qızlar, mübahisəyə son qoyulur, kluba yeni film gətirmişlər, gedirik?

– Əlbəttə, söz ola bilməz, - Xırdaxanım cavab verdi və sonra üzünü bayaqdan onunla danışan qıza tutdu, - hər şeyin bilicisi, görəsən, niyə bu gün kluba təzə film gətirildiyini bilmir?

– Bağışlayasan, bilirəm, istəyirsən adını da deyim, «Arşın mal alan».

– Doğrudur, - yeni gələn qız təsdiq etdi.

Xırdaxanım əlini sinəsi üstə qoyub dedi:

– Bacım, onda mən pəs! Sənin hər şeyi bildiyinə, çoxbilmişliyinə daha heç bir şəkki-şübhəm yoxdur.

– Ola da bilməz. Xırda, sən gərək biləsən ki, kimlə danışırsan.

Qızlar gülüşdülər.

Xırdaxanım:

– qızlar, onda gəlin bu çoxbilmişdən xahiş eləyək Cahan xalanın «Çadranı sallam başıma» mahnısını oxuyub oynasın, - dedi.

– Bilir? – filmin xəbərini gətirən qız soruşdu.

Xırdaxanım cavab verdi:

– Necə bəyəm?!

– Onda daha dayanmağın yeri deyil ki... Başla, qadası.

«Qadası» bir az nazlandı, əzildi, büzüldü, sonra başladı, oxuyub-oynamağa başladı:

Çadranı sallam başıma,
Üz-gözümü bəzərəm.
Gedib sənə qız axtarıb,
Hər tərəfi gəzərəm.

Bəyin, xanın və tacirin
Qızlarını düzərəm.

Çəməndəki o güllərin
Ən gözəlin üzərəm.

Xalan sənə qurban ola,
Zəhmətinə dözərəm.
Toyunda da sənin, bala
Bax, beləcə süzərəm...

«Qadası» o ki var süzdü... qurtaranda qızlar ürəkdən ona əl çaldılar.

Xırdaxanım bildirdi:

– Qızlar, tələsməliyik, yoxsa birinci seansa gecikərik. Biz hələ axşam yeməyini yeməmişik...

***

Çimnazın toxuduğu parçanın keyfiyyətini aşağı salan cəhətlərdən biri bu idi ki, o, qırılan sapları bir-birinə elə bağlamışdı ki, bunlar parçanın üzərində düyün kimi görünürdü. Bəzən təcrübəli toxucuların parçalarında da belə düyünlərə təsadüf olunur. Əlbəttə, bu, məqbul sayılmır və toxunan parçanın növünü aşağı salır.

Təlimatçı usta toxuculuq sənəninin bu ən incə nöqtələrindən birini Çimnaza başa saldı və sapı necə düzgün bağlamaq lazım gəldiyini göstərdi. Sonra Çimnaz bir neçə dəfə qırılan sapı bağladı, dəzgahı işə saldı, parçanı birlikdə gözdən keçirtdilər, indi onun üstündə düyün az görünürdü...

Toxuculuq sənətinin xüsusiyyətlərini öyrənməyə çalışan uşaqların taleyi ilə sexin ustaları da maraqlanırdılar. Dostuxanım, xüsusən, bu işin aludəsi idi. O özlüyündə qərara gəlmişdi ki, Çimnaz məktəbi qurtaranda onu öz növbəsinə götürsün.

İşə bağladığının iyirmi səkkizinci günü Çimnaza iki dəzgah işlətməyə icazə verdilər. Gənc toxucu qız iki dəzgahda da bacarıqla işlədi, sonra onu üç dəzgaha, daha sonra dörd dəzgaha keçirdilər...

Nəhayət, buraxılış günü gəldi. Çimnaz komissiya qarşısında dörd dəzgahı necə işlədəcəyini nümayiş etdirəcəkdi. Komissiyanın heyətində kombinatın direktoru, partiya təşkilatının nümayəndəsi, sənət məktəbinin direktoru, toxucu fabrikinin rəisi və növbə ustası (Dostuxanım) vardı.

Komissiya qarşısında dörd dəzgahı idarə etmək Çimnazı həyəcanlandırmışdı, doğrusunu desək, bu, əvvəlcə onu bir az qorxutmuşdu da.

Usta Fətəli gəlib çıxdı. Çimnazın özünü itirdiyini başa düşüb zarafatyana:

– Hə, deyəsən, qızımı bərk qısqanmısınız? – dedi. – Amma qızım, sən heç özüvü itirmə, atalar demiş, qorxan gözə çöp düşər, heç qorxub eləmə, ürəknən işə başla!..

Çimnaz dəzgahları işə saldı. Özü də onların arasında gəzib, lazım olan işi görməyə çalışırdı...

Usta Fətəli Dostuxanımın qulağına nəsə pıçıldadı və əli ilə ona dəzgahlardan birisini göstərdi. Bunu təlimatçı usta da hiss etdi və o, usta Fətəlinin göstərdiyi dəzgaha diqqətlə baxdı: elə bil od üstünə neft töküldü. Bayaqdan bəri onsuz da həyəcanlanmış təlimatçı ustanın indi ürəyi şiddətlə vurmağa başladı: «Görəsən Çimnaz bunu hiss edəcəkmi*»

Təlimatçı ustanın həyəcanlanmağa haqqı vardımı? Axı onun öyrədib yetişdirdiyi şagird imtahan verirdi. Əgər şagird imtahanı müvəffəqiyyətlə verirsə, ustanın da bilik və bacarığı sınaqlardan çıxmırmı?

Dostuxanım da həyəcan keçirirdi. Onun bütün diqqəti Çimnazın hərəkətlərinə yönəlmişdi. Təlimatçı ustanı narahat edən sual gəlib Dostuxanımın da özləri önündə durdu: «Görəsən Çimnaz bunu hiss edəcəkmi?»

İndi hamı maraqla Çimnazın hərəkətlərini izləyir və onun nöqsanını tapa bilib-bilməyəcəyi haqqında düşünürdü.

Birdən Çimnaz nə üçünsə çevrilib arxaya baxarkən nəzərləri ustasının gözlərinə sataşdı. Bu həyəcanlı baxışlar Çimnaza çoxdan tanış idi. O, həmişə

dəzgahda bu və ya digər bir işi düzgün görmədikdə usta çox vaxt həmin baxışlarla ona baxardı və bu zaman Çimnaz da bütün diqqətini bir yerə toplayaraq dəzgahı daha ətraflı yoxlar, buraxdığı nöqsanı tapardı.

Demək indi hansı bir nöqsansa yenə buraxılmışdı. Bu yəqindi. Çimnaz cəld dəzgahlara sarı döndü. Ustasının gözlərinin ifadə etdiyi məna, onun iri, qara gözlərinin iışığını sanki birə on qat artırdı. O, diqqətlə dəzgahların saplarını gözdən keçirməyə başladı. Əvvəlcə birinci dəzgaha baxdı, hər şey öz qaydasında idi, dəzgah işlədikcə saplar da uzun illər ayrısı olan həsrətlilər kimi bir-birinə sarılırdı.

İkinci dəzgahda da vəziyyət eyni idi.

Çimnaz üçüncü dəzgaha baxdı və ustasının təşvişinin səbəbini anladı... Arğac qırılmışdı. Bunu tezliklə bağlamaq lazım idi. Əks-təqdirdə toxunan parça yararsız olacaqdı. Çimnaz dəzgahı saxladı, qırılan sapı çevikliklə bağladı və sonra dəzgahı işə saldı. Çevrilib arxaya baxarkən ustasının gülümsədiyini gördü; demək hər şey öz qaydasında idi.

Çimnazın baxışları Dostuxanımın baxışları ilə qarşılaşdı. Dostuxanım da özünəməxsus bir tərzdə gülümsəyirdi. Gənc toxucu işini sevinclə davam etdirdi...

Komissiyanın üzvləri Çimnazı təbrik etdilər. Dostuxanım ürəkdən onu öpdü. Təlimatçı usta dedi:

– Qızım, sağ ol! Gələcək işində sənə müvəffəqiyyətlər arzu edirəm.

***

– Usta, deyirlər, Kirovabad toxuculuq kombinatında on iki, on altı, lap iyirmi dəzgah işlədən usta var. Neçin bizdə altı dəzgahdan çox işlədən toxucu yoxdur, usta?

– Ona görə ki, qızım, bizim dəzgahlar mexaniki dəzgahlardır, onlarınkı isə avtomatik dəzgahlardır. Gəncədə toxuculuq kombinatı tikiləndə (1927) avtomatik dəzgahlardan istifadə eləyirdilər. Bunun üçün də qızım. Gəncə toxucuları yeni kombinatda yeni dəzgahlarla işə başladılar. Bizim kombinatın əsası qoyulan vaxtda (1898) avtomatik dəzgah yox idi. Mexaniki dəzgah ən yaxşı dəzgah sayılırdı. İndi

biz, əlbəttə, gördüyün dəzgah ən yaxşı dəzgah sayılırdı. İndi biz, əlbəttə, gördüyün bu dəzgahları götürüb yerində avtomatik dəzgahlar qoymalıyıq. Bu isə asan deyil. Lakin Moskva, nazirlik bu işdə bizə kömək eləməyə, bizi lazımi qədər avtomatik dəzgahla təmin etməyə söz verib. Biz bu dəzgahları alan kimi köhnələri, əlbəttə, götürəcəyik...

Qız uşağı anasına necə bağlanırsa, Çimnaz da Dostuxanıma elə bağlanmışdı. Dostuxanımın ağıllı məsləhətləri Çimnaza təkcə işdə deyil, evdə, teatrda, kinoda, yoldaşları ilə münasibətdə – ümumiyyətlə, həyatın hər sahəsində kömək edir, həqiqi bir ana kimi onun əlindən tuturdu.

– Usta, bir söz də demək istəyirəm, amma bilmirəm deyim, ya yox?

– Əgər tərəddüd edirsənsə, deməsən yaxşıdır. Çünki tərəddüd edənlər əli aşından da olurlar, vəli aşından da.

– Usta, mən qəti fikirləşmişəm. Ancaq bilmirəm, siz nə deyəcəksiz!..

– Onda de görüm!

– Altı dəzgah işlətmək istəyirəm.

– Qızım, qorxuram bu, sənin üçün hələ ağır ola.

– Usta, bəyəm bacarmaram? – Çimnaz bir az incik halda soruşdu.

– Yaxşı, qızım, baxarıq. Qoy bir mən usta Fətəli ilə də danışım. Sənin xətrini o da çox istəyir. Görək o nə deyir.

– Usta, usta Fətəli çoxdan kombinatda işləyir?

– 1936-cı ildən qızım. Sənəti etibarilə toxucu texnikidir. Kombinatın içində bişib. Onun məsləhətinə mən həmişə qulaq asıram. Heç vaxt da yanılmıram.

***

Sexdə mexaniki dəzgahları avtomatik dəzgahlarla əvəz etmək haqqında çoxdan söhbət gedirdi. Nəhayət, bunu həyata keçirməyə başladılar. Moskvadan istənilən qədər «ATS-100-1» markalı avtomatik dəzgah alınmışdı. İndi bu dəzgahları quraşdırmaq lazım idi. İşin dayanması üçün sexin müdiriyyəti bunu tədriclə görməyi məsləhət bildi. Mexaniklər, çilingərlər işə başladılar.

İşin başqa bir çətin cəhəti də vardı. O da toxucuları bu dəzgahların əsas xüsusiyyətləri ilə tanış etmək idi. Bunun üçün toxucu fabrikinin nəzdində kurslar təşkil olundu. Toxucular işdən sonra bu kurslara gəlirdilər.

Avtomatik dəzgahların mexaniki dəzgahlara nisbətən böyük üstünlükləri vardır. Əvvələn mexaniki dəzgahlarda toxucu məkiyi yalnız sormaq və üfləmək vasitəsilə saplayırdı, bu da şübhəsiz, onun səhhəti üçün zərərli idi. Avtomatik dəzgahlarda isə toxucu bu işdən azad olmuşdur. İkincisi, mexaniki dəzgahlarda arğac qırılarkən dəzgah dayanmırdı və hərgah toxucu bunu vaxtında görə bilmirdisə, toxunan parça yararsız olurdu. Avtomatik dəzgahlarda isə arğac qırılan kimi dəzgah dayanır. Üçüncüsü, hər avtomatik dəzgahın özünün elektrik motoru vardır. Mexaniki dəzgahlarda isə 80 dəzgahın bir ümumi elektrik motoru vardı. Bu motor xarab olanda 80 dəzgah dayanırdı ki, bu da vaxtın itməsinə səbəb olurdu.

Çimnaz, xırdaxanım, Siranuş, Anna avtomatik dəzgahın da xüsusiyyətlərini tez mənimsədilər. Sexin müdiriyyəti qurulub hazır olan avtomatik dəzgahları bu toxucuların birinci işlətməsini qərara aldı.

Çimnaz və onun yoldaşları hərəsi birdən-birə on iki avtomatik dəzgahda işləməyə başladılar.

Çimnaz hələ işə başlamazdan əvvəl Dostuxanım onu avtomatik dəzgaha keçməsi münasibətilə təbrik etdi:

– Qızım, yaxşı yadımdadır. Avtomatik dəzgahda işləməyi çox arzulayırdın. İndi buyur, meydan sənindir! Altı mexaniki dəzgahdan on iki avtomatik dəzgaha keçirsən. Bacarığını göstər!

– Görək də usta...

Birinci gün Çimnaz o tərəf-bu tərəfə o qədər qaçdı ki, işin axırında lap yorğun düşdü.

Xırdaxanım da yorulmuşdu. Bunu hiss edən Çimnaz üzünü dostuna tutaraq dedi:

– İşin siftəsi bir az çətin başa gəlir, ay Xırda! Bir də, birinci gündür də. Dəzgahların da xasiyyətinə hələ sən deyən bələd deyilik. Sən işin dalısına baxarsan.

Xırdaxanım da ağır-ağır dilləndi:

– Nə deyirəm ki, Çimnaz, təki sən deyən olsun, ağzın fal olsun.

Toxunan parçaları yoxladılar. Parçaların keyfiyyəti yaxşı idi.

Ustalardan ikisi gündəlik normanı 99 faiz, Anna 102 faiz, Çimnaz 101 faiz yerinə yetirmişdi. Birinci gün üçün bu şübhəsiz pis deyildi. Ancaq bu ustaların heç də ürəyindən deyildi...

Ertəsi gün ustaların müvəffəqiyyəti birinci günə nisbətən bir az artıq oldu.

Ayın axırı üçün isə əhəmiyyətli dərəcədə fərq gözə çarpdı.

Sexdə avtomatik dəzgahda işləyənlərin sayı gündən-günə çoxalırdı. Yeni işə başlayanlar artıq Çimnaz, Nina, Xırdaxanım və Siranuşun iş təcrübəsindən istifadə edirdilər.

***

Aylar bir-birini əvəz edirdi. Çimnaz toxucu kimi püxtələşirdi. Bir gün sex rəisi usta Fətəli onu yanına çağırdı.

Usta düşüncəli görünürdü. Sözlü adama oxşayırdı. Görünür söhbəti necə başlamaq barəsində bərk fikirləşirdi. Əllini təzəcə adlayan usta Fətəlinin saçının yarıdan çoxu ağarmışdı. Bunlar Çimnazın gözü qabağında ağarmışdı. O, hərdən zarafatla deyərdi ki, saçımın ağarmasına baxıb məni qoca bilməyin. Bizim nəsildə saç tez ağarır. Çimnaz nədənsə onun bu sözlərinə heç bir əhəmiyyət verməmişdi. Bu gün zənnlə usta Fətəliyə baxırdı, saçın ağarması ilə bağlı söz-söhbəti xatırlayırdı və görürdü ki, usta doğrudan da üzdən yaşına görə cavan görünür.

– Qızım, Çimnaz, fabrikin müdiriyyəti belə qərara gəlib ki, seximizdə on altı dəzgahı birinci dəfə sən işlədəsən. Bilirəm, birdən-birə... – usta Fətəli qəsdən «ağır olacaq» kəlmələrini işlətmək istəmədiyindən duruxdu, başqa münasib söz axtarmaqda ikən Dostuxanım gəlib çıxdı.

Üçlükdə məsələni götür-qoy elədilər. Çimnaz boynuna götürdü.

Dostuxanım Fətəliyə dedi:

– Bu msəsələni qurtardıq. İndi də gəlin mənim məsələmi həll eliyək.

Çimnaz təəccüb və maraq içində soruşdu:

– O nə məsələdir ki, usta?

Dostuxanımın yerinə Fətəli Kazımov cavab verdi:

– Bilirsən, Çimnaz, Dostuxanım təqaüdə çıxmaq istəyir, bizi qoyub getmək istəyir, onu deyir...

Dostuxanım dilləndi:

– Vaxtıdı da, Fətəli. Bəsdi də işlədik. İndi də meydan Çimnazlarındı, Xırdalarında. Biz daha qocayıq. Qocaldıqca da istirahətə ehtiyacımız çoxalır. Sənin indi gərək qorxun olmasın, Fətəli, maşallah, seximizdə Çimnaz kimi usta toxucuların yetişib.

Fətəli Dostuxanıma düzəliş verdi:

– Yetişdirmisən. Dostuxanım.

Dostuxanım da Fətəliyə düzəliş verdi:

– Sənli-mənli yetişdirmişik, Fətəli... Sağ-salamat olsunlar, bizləri də yaddan çıxartmasınlar.

Çimnaz tələsik dedi:

– Nə danışırsınız, ay usta, sizi də unutmaq olar?

Dostuxanım əlavə etdi:

– Çox sağ ol, qızım. Mən sənin qəlbinə bələdəm. İndi sən də Fətəliyə dil-ağız elə, mənim xahişimə əməl eləsin, vaxtında təqaüdə çıxmağıma sex rəisi kimi razılığını versin.

Çimnaz sex rəisinə baxdı. Düşündü ki, doğrudan da ona nə desin.

Bunu duyan usta Fətəli özü tez söhbətə başladı:

– Dostuxanım, qızı çətinliyə salma, bir üç-dörd ay da döz. Təzə ildən gözüm üstə. Səni ürəyin istəyən kimi yola salarıq. Bu, mənim səndən axırıncı xahişimdir. Əməl eləyirsən?!

– Nə deyirəm ki, Fətəli, sən deyən olsun.

***

Dəzgahlar işləyirdi.

Sexdə ilk dəfə on altı dəzgah işlədən Çimnazın indi ardıcılları meydana çıxmışdı. Anna, Xırdaxanım, Siranuş...

Sex rəisi fətəli Kazımovun işi yaxşı gedirdi. Plan sarıdan nigarançılığı yoxdu. Müdiriyyətin yanında rəis kimi hörməti artmışdı. İclaslarda toxucu sexinin adı tez-tez eşidilirdi.

Dostuxanım təqaüdə çıxmışdı.

Çimnaz iki şagirdinə toxuculuğun sirlərini öyrədirdi. Gündən-günə işi çoxalırdı Çimnazın. Çoxalırdı.

Ninanın da, Xırdaxanımın da, Siranuşun da şagirdləri vardı.

Dəzgahlar işləyirdi.

Fətəli sexi gəzir, işin gedişinə göz qoyurdu...

İyirmi üç-iyirmi dörd yaşlarında, ortaboylu, qaraqaş, qaragöz toxucu on altı dəzgahın işinə mütəmadiyən diqqət yetirir, çeviklıklə o tərəf-bu tərəfə qaçır, dəzgahları idarə edirdi; alnındakı tər damcılarına qətiyyən fikir vermirdi.

Fətəli onun dəzgahlarının yanından keçəndə ayaq saxladı, «Salam, Çimnaz» dedi. «Əleyküməssalam, usta» eşitdi. Sual verdi, cavab aldı, deyəsən, razı qaldı, ötdü.

«Dostuxanım yoxdur... Çimnaz var... Sən olmayanda da Fətəli, bir başnası olacaq... Yerin boş qalmayacaq... Dəzgahlar işləyəcək...»

Dəzgahlar işləyirdi.

## MİNARƏ

Sənin haqqında hamıya, hər kəsə danışacağam, sən razı olsan da, olmasan da danışacağam. Təvazökarlıq yaxşı şeydir. Ancaq bu, səndə çox vaxt həddini aşır, öz barəndə danışanda çətinlik çəkir, xəsislik edirsən. Lakin sən deməsən də, mən sənin haqqında çox şey bilirəm, çox şey öyrənmişəm. Məni danışmağa məcbur edən də bunlardır...

Axşamdır, sərin bir yay axşamı! Göydə də, yerdə də qızıl fənərlər yanır. Onlar bir-birlərinə göz qırpır, bir-birləri ilə danışırlar. Gəmilərdə, estakadada yanan işıqların qızılı etlləri sularda əks edir, titrəşir, gözləri oxşayan füsunkar mənzərə yaradır.

Sən estakadada dəmir məhəccərə söykənib bu mənzərəni seyr edirsən. Xəfif, narın meh əsir, sən bunu ancaq sifətində duyursan. Meh sənin üzünü oxşadıqca, ürəyində xoş bir sərinlik çökür. Sən bundan xoşhal olub şirin xəyallara dalırsan.

Düşüncələr səni qoynuna alıb xatirələr aləminə aparır. Neft daşlarına, şıltaq Xəzərin şıltaq dağlaları qoynuna ilk gəlişini gözlərin önündə canlanır.

Söz, necə deyərlər, vaxtına çəkər, onda da axşamdı. İndiki kimi bir axşam... Sizi Neft daşlarına aparan sərnişin gəmisi «Andoqa» şəhərdən bir az gec çıxmışdı. O hələ «Daşlara» çatmamış qaranlıq düşmüşdü.

Sən onda gəminin göyərtəsində dayanıb dənizə, uşaqlıqdan dəlicəsinə sevdiyin, vurğunu olduğun dənizə tamaşa edirdin. «Neft daşları» görünəndə sənin gözlərin qarşısında qəribə mənzərə açılmışdı: sular üstündə meşə, seyrək bir meşə. Buruqlar üzərində, estakadada, ikimərtəbəli evlərdə ulduzlar alışıb yanır...

...Az çəkmir gəmi estakadaya yan alır. Səni görənlər arasında dodaq büzənlər də olur:

– Balam, bu balaca, arıq-marıq, cansız qızı bura niyə göndəriblər, görəsən?!

– Necə niyə? İşləməyə.

– Yəqin institutut qurtaranlardandı.

– Olsun da. Axı bu yazıq dəlisov dalğalar arasında necə işləyəcək? Bakıda bir iş-zad tapa bilmədilər bununçun?!

Bu sözləri sənin üçün deyirlər. «Neft daşları»na işləməyə gələn ilk azərbaycanlı geoloq qız, sənin üçün. Bu sözləri sənin də qulaqların alır. Ancaq özünü o yerə qoymursan, mənalı, nüfuzedici ala gözlərini bu adamların üzündə gəzdirirsən. Dodaqlarında xəfif bir təbəssüm əmələ gəlir. Bununla, yəqin demək istəyirsən ki, hələ bir az səbr edin, hövsələli olun, əvvəlcədən qorxuya düşməyin nə mənası?!

Ertəsi gün müdirin otağında gözləmədiyin sözlər eşidirsən:

– Səni operator təyin edirik. Hələlik geoloq üçün boş yerimiz yoxdur, bir az işlə, şəraitə alış, sonra baxarıq.

Cavab verirsən:

– Baxın da. Nə deyirəm ki...

Özünü o yerə qoymasan da hiss olunur ki, əsəbiləşmisən. Müdirin inamsızlığımı səni təbii halından çıxarmışdır, ya nə?

Ürəyində fikirləşirsən ki, müdirin səni geoloq qoymaması heç də yerin boş olmaması ilə deyil, sənin təcrübəsizliyin ilə əlaqədardır. Bəli, ancaq təcrübəsizliyin ilə. O, skamya arxasından yenicə durmuş qızı birdən-birə geoloq qoymağa cürət eləmir. Əvvəlcə səni operatorluqda sınamaq istəyir.

Sən belə düşünürsən. Bu, bəlkə də belədir. Bəlkə elə doğrudan da geoloq üçün boş yer yoxdur. Mən bilmirəm.

Onu bilirəm ki, sənin üçün vəzifənin böyüyü, kiçiyi yoxdur. Sən, harda olur-olsun öz zəhmətin, səyin və istedadınla fərqlənəcəksən. Sən çətinliklərə sinə gərməyə alışmısan! Məgər indiyə kimi keçdiyin qısa həyat yolu bunu deyirmi?!

***

Səkkizinci sinifdə oxuyurdun. Ailənizə böyük bir kədər üz verdi. Evinizin sütunu, yeganə çörpək qazananı, sənin sevimli atan vəfat etdi. Evin böyük qızı idin. Səndən başqa iki kiçik bacın, bir qardaşın vardı. Ailəni saxlamaq üçün təhsili buraxmaq və işləmək fikrinə düşmüşdün. Atanın yeddisindən sonra ananla bu barədə uzun-uzadı söhbətin oldu. O, israr edirdi ki, səni təhsilini buraxmağa qoymayacaq, özü işləyəcək, çalışacaq, vuruşacaq, ancaq sizi oxudacaqdır.

– Onda, anacan, icazə ver, mən həm oxuyum, həm işləyim... Axı bizi saxlamaq tək sənin üçün ağır olar. Ağır olar, ana! Mən daha böyük qızam, gərək sənə kömək edəm.

Sənin inadını görən anan qəlbini sındırmaq istəməyib dedi:

– Di yaxşı, Minirə, qızım, hələlik sən dərsə get, sonra ana-bala oturub bir yaxşı-yaxşı fikirləşərik. Mən sənin ağıllı qız olduğunu bilirəm.

O, bu sözləri deyib səni qolları arasına aldı. Sən də başını bərk-bərk onun köksünə sıxdın. Ana ürəyinin qüvvətlə çırpındığını aydınca eşitdin... Sən səssizcə ağlayırdın. Anan da. İkiniz də ağlayırdınız. Lakin heç biriniz bunu büruzə vermək istəmirdi.

Səhər məktəbə getdin. Rəngində bir sarılıq vardı. Bu neçə gündə necə də arıqlamışdın! Sifətin sınıxmış, sanki balacalaşmışdı. Sən kədərli və düşüncəli idin. Addımlarında bir cəsarətsizlik hiss olunurdu. Başını aşağı dikib asta-asta gedirdin. Bəli, artıq atasızdın. Atasız!.. Atasız yaşayacaq, atasız oxuyacaqdın. Atasız!.. Bunun nə olduğunu mən yaxşı bilirəm. Ancaq səni düşündürən, kədərləndirən heç də bu deyildi. Sən hansı şəraitdə olursa-olsun, təhsilini davam etdirəcəkdin. Səni kədərləndirən başqa şeydi. Axı sən mərhum atanı çox istərdin. Onu bir gün görməyəndə darıxar, onsuz bir yerdə qərar tuta bilməzdin. O, həyatda sənin üçün hər şey idi. Ona elə alışmışdın ki!

Bəs indi? İndi sən onu bir daha görməyəcək, onun şirin sözlərini eşitməyəcək, isti nəfəsini duymayacaqdın. Nədənsə əvvəllər sənə elə gəlmişdi ki, atan həmişə yanında olacaq, heç bir vaxt səni qoyub getməyəcəkdir. Ancaq ölüm!.. Başımızın üstünü gözlənilmədən alan ölüm!.. İstədiyi vaxt, istədiyi qapını döyən ölüm!.. O nə qədər qüvvətli, amansızdır!.. Nə üçün həyatda çox şeyin öhdəsindən gələn, çox şeyi bacaran insan ölümün qarşısında acizdir? Nə üçün?!

Sən yol gedə-gedə belə fikirləşir, yaşına uyğun olmayan bu cür suallardan dönə-dönə özünə verirdin. Birdən qəlbində doğan yeni bir hiss elə bil sənin qüssəni, kədərini alt-üst elədi: artıq olan olmuş, keçən keçmiş, yay gərilmiş, ox atılmışmışdır! Sızıldamaqdan nə çıxar? İnləməyin nə faydası var? Özünü ələ almaq lazımdır. Axı sən evin böyük qızısan. Böyük qız kimi də özünü aparmalısan. Kiçik bacılarına, qardaşına sən təsəlli verməlisən, qayğıkeş, bala fədakarı ananın fikrini dağıtmalısan. Həyat yollarında ona arxa olmalısan. Atanı əvəz edəcək, əvəzsiz bir arxa.

Bu düşüncə ilə də sən məktəbə gəldin. Yerində oturanda yoldaşların başına yığıldı. Kövrəldin. Ağlamamaq üçün göstərdiyin səylər hədərə getdi... Rəfiqələrin səni dilə tutdular. Haçandan-haçana gözlərinin yaşı dayandı. Sinif rəhbəriniz içəri girəndə ayağa qalxdınız. O, uşaqlara «oturun!» deyən kimi yanına gəldi. Əlini ərklə saçlarında gəzdirdi. Bəli, o sənin xətrini çox istəyirdi. Ancaq heç vaxt bunu büruzə verməzdi. O günsə sənin həyatının ən ağır dəqiqələrində hisslərini cilovlamaq istəmədi...

Tənəffüsdə ananla olan bütün söhbətlərini ona – ideal müəllim və ideal qadın hesab elədiyin, sənin üçün xətri əziz şəxsə söylədin. O da təhsili buraxmağına etiraz elədi... Və səni direktorun yanına apardı...

Bir neçə gündən sonra səni və səndən kiçik bacını internata götürdülər. İki il internatda oldun. 1950-ci ildə orta məktəbi müvəffəqiyyətlə bitirdin. Sonra Azərbaycan Sənaye İnstitutunun geoloji-kəşfiyyat fakültəsinə daxil oldun. Geoloq olmaq sənin çoxdankı arzun idi. İndi bu yolda sən ilk pillələrə qədəm qoyurdun... İnstitututda oxuyarkən azmı çətinliklərlə üzləşmisən?! Üçüncü kursda olanda «İliç buxtası»nda neftçıxarma operatoru vəzifəsində işə girdin. Bu zaman sənin iyirmi yaşın vardı. Ailəni saxlamaq üçün anana kömək etməyi artıq qəti fikirləşmişdin. İstehsalatda işləməklə institutda oxumaq asan bir iş deyildir. Lakin sən bunun öhdəsindən gəlirdin. Doğrudur, çox yoruldun. Evə qayıdarkən bəzən elə olurdu ki, tramvayda, trolleybusba başını soyuq pəncərəyə söykəyib şirin-şirin yuxulayırdın. Konduktorlar sənin harada düşəcəyini yaxşı bilirdilər. Səni şirin yuxudan otyamağa onların ürəkləri gəlməsə də özgə əlacları yox idi. Sən çiynində mehriban, tanış əlin təmasını hiss edən kimi diksinib gözlərini geniş açır, səni yuxudan eləyən adama utancaqlıqla təşəkkür edib, tez düşürdün...

Bu cür, buna oxşam və başqa çətinliklər çox olmuşdur. İndi bunları bir-bir yada salıb saymaq lazımdırmı? Çətinliklər səni cismən sıxsa da, mənən böyüdür, qüvvətləndirirdi. Bir də mədəndə işləmək səni neft istehsalatının xüsusiyyətləri ilə yaxından tanış edir, sənin gözünü açırdı. Bu isə sənə, gələcək geoloqa hava və su kimi lazımdı.

Ağır təhsil illəri başa çatdı və 1955-ci ildə, gözəl bir bahar günündə «Neft daşları»na gəlib çıxdın.

***

«Daşlarda» sadə, çit paltar geyirdin. Saçlarını həmişə qoşa hörür və orta məktəbdəki kimi qırmızı lentlə bağlayırdın. Sən bu lentləri bağlamayanda neftçiləri, iş yoldaşlarını təəccüb götürərdi. Axı onlar sənə alışdıqları kimi, sənin lentlərinə də alışmışdılar.

Sən yarım il operator işlədin. Həmişə quyular arasında olurdun. Bir quyunu tədqiq edib o, birisini yanına qaçırdın. Quyuların nəbzi elə bil sənin əlində vururdu.

Birinci mədənin neftçıxarma ustası Azər, quyuları tədqiqat ustası Ənvər həmişə sənin bacarığından danışardılar. Bu müdiriyyətin də gözündən qaçmadı. O gün gəldi ki, səni mədənə geoloq qoydular...

Birinci mədənin baş geoloqu Xoşbəxt Yusifzadə ağıllı, təvazökar, işini yaxşı bilən bir adamdı. İndi sən belə bir adamla çalışacaq, böyük bir mədənin geoloji işlərinə rəhbərlik edəcəkdin...

Sən geoloji şöbədə üç həftə idi ki, işə başlamışdın... Ayın axırına az qalırdı, birinci briqadanın planı doldura bilməyəcəyi ehtimalı vardı. Estakadadan xeyli uzaqda olan bir quyu pis işləyir, dedikcə az neft verirdi. Son günlərdə isə tez-tez dayanmağa başlamışdı. Bu, Azəri elə bil cin atına mindirmişdi. Havalar çox pis keçir, tez-tez güclü küləklər olurdu. Dənizə çıxmaq qorxulu idi. Azəri fikir götürmüşdü: «Bu küləklər də əsməyə vaxt tapdı! Elə bil qəsdən ayın axırını gözləyirlər. İndi oğulsan gəl işin içindən çıx görək»

Azər bir qədər fikirləşəndən sonra Ənvərlə danışmaq, onun belə havada dənizə çıxıb-çıxmayacağını öyrənmək qərarına gəldi.

Ənvər o gün mədənə çıxmamışdı, xəritə düzəltməkdə sizə kömək edirdi. Onunla danışmaq üçün Azər sizin otağa gəlməli oldu. Salam-kalamdan sonra quyu barədə vəziyyəti danışıb Ənvərdən soruşdu:

– İndi mənimlə dənizə çıxırsan?!

Ənvər də:

– Mən hazır, - dedi.

– Onda gedək, dəmiri isti-isti döyərlər.

Sən də söhbətə qarışdın:

– Mən də gedirəm, - dedin. – O quyuya bələdəm, onun «sirləri» mənə tanışdır.

Azər qeydinə qaldı:

– Yox, bu havala səninçin ağır olar.

Ənvər dostunun sözünə qüvvət verdi:

– Əlbəttə, çox ağır olar. Mən də razı deyiləm gedəsiniz. Dözə bilmədin:

– Niyə sizinçin ağır olmur, mənimçin olur, hə?! Gedəcəyəm!

Sənə elə gəlirdi ki, onlar səni ancaq qız olduğun üçün aparmaq istəmirlər. Bu səni daha çox əsəbiləşdirirdi, mənliyinə toxunurdu. Sən qətiyyətlə səfərə hazırlaşdın...

Dispetçer deyirdi ki, indi heç kəsi dənizə çıxmağa məcbur edə bilməz, əgər işdir, könüllü getmək istəyən olsa, bu başqa söz.

Könüllü tapıldı. Bu, «Pamir» barkazının kapitanı Pançenko idi. Sən, «daha kimi gözləyirik, yolçu yolda gərək» deyib bir göz qırpımında hamıdan əvvəl barkaza tullandın.

Xəzəri tanımaq olmurdu. Əvvəlki mavi düzənliyin yerində indi dərə-təpələr mələ gəlmişdi. Köpüklənən dalğalar barkazı atıb-tuturdu. O gah dərəyə enir, gah təpəyə qalxırdı... Başın gicəllənsə də, büruzə vermir, dişlərini bir-birinə sıxıb, işin axırını gözləyirdin...

Dalğalarla uzun çarpışmadan sonra siz gəlib istənilən buruğun meydançasına çıxdınız. Meydança yüyənini qırmış dalğaların səpələdiyi köpüklü suların altında qalmışdı. Siz quyunun tədqiqinə başladınız. Aydın oldu ki, quyu əvvəllər qoyulmuş on millimetrlik ştutserlə daha işləyə bilməz, siz onu altı millimetrlik ştutserlə əvəz etdiniz. Quyunun başqa nöqsanlarını da öyrənib aradan qaldırdınız.

Siz geri qayıtmaq üçün hazırlaşdınız. Sən barkazın göyərtəsinə atılanda ayağın bərk burxuldu, lakin heç kəsə bir söz demədin. Ayağının ağrısı getdikcə

şiddətlənirdi. Barkaz estakadaya yaxınlaşanda sən canını dişinə tutub bayıra tullandın. İkicə addım atmamışdın ki, ağrının gücündən başın fırlandı:

– Ah!..

Azər həyəcanla ancaq:

– Nə oldu?! – soruşa bildi...

Gözünü açanda özünü xəstəxanada gördün...

Yeddi gün xəstəxanada qaldın. İş yoldaşların gəlib səni yoluxur, kefini soruşurdular. Bilsən, bu səni necə də sevindirdi! Özünü artıq tək hesab eləmirdin. Anan, qardaşın, bacıların səndən uzaqda idilər. Lakin bu adamlar sənə onları əvəz edirdi. Səni darıxmağa qoymurdular. Bir dəfə Azərlə Ənvər yanına gələndə onlara dedin:

– Ürəyinizdə mənə gülmürsünüz ki?

Onların ikisi də birdən dilləndi:

– Niyə?!

– Axı siz məni özünüzlə aparmaq istəmirdiniz... İnadcıl qızın da başına görün nə gəldi?!

Azər dedi:

– Bu, sadəcə təsadüfdür. Bunun üçün ürəyini sıxmağa dəyməz. Adamın ayağı görürsən ki, düz yerdə də burxulur, sınır.

Ənvər təsdiq elədi:

– Əlbəttə, adam heç bilmir ki, bir saatdan sonra başına nə gələcək...

Xəstəxanadan çıxanda yoldaşların səni qarşılamağa gəlmişdi. Sənin gözlərində yaş görmək çox nadir bir haldır. Lakin sən burada özünü saxlaya bilmədin. Gözlərin yaşardı.

***

Dənizdən çıxan günəşə tamaşa etmək səndə bir adət olmuşdu. Ancaq o gün nədənsə gecikmişdin. Günəş artıq dənizdən bir qədər aralanmış, yuxarı qalxmışdı. Onun qızılı saçları çoxdan mavi sularda çimirdi.

Xoşbəxt məzuniyyətə çıxmışdı. Onun toyu olacaqdı. Bu toyda sən də iştirak etmək istəyirdin. Ancaq bu mümkün deyildi. Mədəni geoloqsuz qoymaq olmazdı. Axı indi Xoşbəxti sən əvəz edirdin. Mədənin geoloji işlərinin ipi indi sənin əlində idi. Bir balaca ehtiyatsızlıq böyük fəlakətə səbəb ola bilərdi.

Yolda Azərlə rastlaşdın. Şirin söhbət edə-edə idarəyə gəlirdiniz. Bu vaxt yanınızda bir maşın durdu. Azəri briqada üzvlərindən biri səslədi. Azər cəld ona sarı gedib xəbər aldı.

– Vəziyyət necədir?

Cavab qısa və həyəcanlı oldu:

– Yenə su verir...

Həyəcanlanmış Azər sənə baxdı. Bu baxışların mənası aydındı. Sən də bir söz demədən maşına mindin.

Bir azdan quyunun yanında idiniz. Haradansa Ənvər və mədənin baş mühəndisi də gəlib çıxdılar. Ətraflı müəyinədən sonra belə qərara gəldiniz ki, lay atılmalıdır. Bunun üçün lazım olan əməliyyat icra olundu. Bu iki gün çəkdi. Yalnız bundan sonra sən layın atılmasına icazə verdin... İş qurtaranda sən sinə dolusu nəfəs aldın. Quyunun neft verəcəyi yəqindi... Bunu sənin sifətindən, gözlərindən də oxumaq olardı, çünki gördüyün hər bir yaxşı iş, qazandığın müvəffəqiyyət sənin qəlbinin tellərini ehtizaza gətirməyə bilmirdi. Qəlbinin ifadəsi isə sənin gözlərindən, mənalı nüfuzedici ala gözlərin!

***

Yaxında dayanan barkazın zil fiti səni düşüncələrdən ayırır...

Göydə də, yerdə də qızıl fənərlər yanır. Onlar bir-birinə göz qırpır, bir-birilə danışırlar. Gəmilərdə, estakadada yanan ıışqların qızılı telləri sularda əks edir, titrəşir, gözləri oxşayan füsunkar mənzərə yaradır.

Sən estakadada dəmir məhəccərə söykənib bu mənzərəni seyr edirsən. Xəfif, narın meh əsir, sən bunu ancaq sifətində duyursan. Meh sənin üzünü oxşadıqca ürəyinə bir sərinlik çökür...

*Mart, 1957*

## POYLUNUN GƏNC ÇOBANI

Ağstafa dəmir yol məktəbində şagirdlər əl-ayaqda idilər: kimi divara şəkir vurur, kimi xitabət kürsüsünün tozunu silir, kimi stol daşıyır, kimi də... Xülasə, hərə bir iş görür, axşam keçiriləcək görüşə hazırlaşırdılar. Bir azdan ədəbiyyat müəllimi də gəlib çıxdı. Bugünkü görüşün təşəbbüskarı o idi. Uşaqlardan kimsə soruşdu:

– Müəllim, görüş altıda olacaq?

– Bəli, bu saat rayon komsomol komitəsindən gəlirəm. Katiblə danışdım. O da kəndə zəng elədi. Vaxtında gələcəklər. Siz çalışın gecikməyin, hər şeyi sahmana salın. Qonaqların yanında xəcalətli qalmayaq.

– Arxayın olun, müəllim, - şagirdlər bir ağızdan cavab verdilər.

– Di onda işinizdə olun.

Müəllim zalı gəzə-gəzə şagirdlərin işinə göz yetirib çatışmayan şeyləri onların yadına saldı. Bundan sonra şagirdlər bir neçə çiçək dibçəyi də gətirib qırmızı məxmərlə örtülmüş stolun üstünə qoydular.

– Müəllim, deyirlər o elə biz yaşdadır – doqquzuncu sinif şagirdlərindən ucaboylu bir oğlan soruşdu.

– Darıxmayın, bir azdan hər şeyi özünüz görərsiniz.

Bir şagird qaçaraq içəri girdi:

– Müəllim, gəlirlər, gəlirlər!.. – dedi.

Müəllim gələnləri qarşılamaq üçün getdi.

Bir azdan qonaqlar direktorun və ədəbiyyat müəlliminin müşayiəti ilə içəri daxil oldular. Şagirdlər ayağa durub onları alqışlarla qarşıladılar. Qonaqlar – rayon komsomol komitəsinin katibi İnqilab Vəliyev, Poylu komsomol təşkitalı katibi, kolxozun sürücüsü Revomir Kərimov və bayaqdan şagirdlərin səbirsizliklə gözlədikləri Tanrıverdi Ramazanov üstünə qırmızı məxmər salınmış stolun dalına keçdilər.

Zalda tam sakitlik yaranandan sonra direktor ayağa durub Tanrıverdi haqqında danışmaq üçün İnqilab Vəliyevə söz verdi. İnqilab xitabət kürsüsünə doğru yeridi, sağ əlini kürsüyə söykəyib dedi:

– Hörmətli müəllimlər, əziz şagirdlər, bu axşam görüşünə yığışdığımız adlı-sanlı zəhmət adamı Tanrıverdi Ramazanovun on altı yaşı hələ indi tamam olur. On altı! O qədər də böyük yaş deyil! Yenicə pasport almağa hazırlaşan bir oğlanın yaşı! Lakin Tanrıverdi bu yaşında təkcə pasport almağa qədər böyüməmişdir. O, az yaşı ilə elə bir yol keçmişdir ki, indi onu nəinki Poyluda, nəinki Ağstafada, hətta respublikamızın hər yerində, neft şəhəri Bakıda da tanıyırlar. Siz hərgah: «Bu hansı yoldur ki, on altı yaşlı bir oğlanı respublikada məşhur etmişdir?» soruşsanız cavab verib deyərəm: faydalı əmək, zəhmət yolu...

Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının XXI qurultayında bizim rayondan beş nümayəndə iştirak edirdi. Qurultayın Rəyasət heyəti seçiləndə Tanrıverdi Ramazanovun da adı çəkildi. Bu, buizim hədsiz sevincimizə səbəb oldu. Rəyasət heyətinə seçilən adamlar yerlərini tutmağa gedəndə hamının nəzərini cəlb edən bizim bu balaca çoban oldu.

Qurultayın ikinci günü Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının Mərkəzi Komitəsinə üzv seçilənlər içərisində Tanrıverdinin də adı vardı. İnanın ki, bizim uçmağa yalnız qanadımız yox idi...

Sonra İnqilab Vəliyev bala çobanın həyatı haqqında ətraflı danışdı. Məruzəsinin sonunda dedi:

– İndi gəlin sizinlə birlikdə Tanrıverdiyə, Poyluda böyüklü-kiçikli hamının Tanqulu çağırdığı bu adlı-sanlı çobana gələcək işində yeni-yeni nailiyyətlər arzu edək!

İnqilabın son sözlərini şagirdlər alqışlarla qarşıladılar. O, keçib yerində oturanda direktor ayağa durdu və dedi:

– İndi sözü bizim əziz qonağımız adlı-sanlı çoban Tanrıverdi Ramazanova verək.

Tanrıverdi üçün iclasda, yığıncaqda, adamlar qarşısında danışmaqdan çətin bir iş təsəvvürünüzə gəlməsin. «Mənə nə iş tapşırırlar tapşırsanlar, nə buyuruq

buyururlar buyursan, istəyirlər məni bir sürü canavarın qabağına göndərsinlər, ancaq danışmağı deməsinlər. İllah da ki, adamlar qabağında danışmağı. Ancaq indi neyləyim?! Camaat xətrimi istəyib çağırıb... Danışmasam ayıb olar».

Tanrıverdi ürəyi döyünə-döyünə kürsüyə qalxdı. Az danışdı, şirin, məzəli danışdı. Sözünün axırında dedi:

– Arzu eləyirəm siz də mənim kimi çoban olasız!

Onun bu sözləri oturanların gülüşünə səbəb oldu. Lakin hamı da Tanrıverdinin bu sözlərlə bz işini necə hərarətlə sevdiyini, ona necə qəlbən bağlandığını demək istədiyini başa düşdü. Ürəkdən əl vurdular...

***

Tanrverdinin atası Əbdülrəhman Ramazanov 1930-cu ildən kolkozda baş çobandır. O, üç oğul, iki qız atasıdır. Tanrıverdi onun dördüncü uşağıdır. Böyük Vətən müharibəsinin ilk aylarında anadan olmuşdur.

Əbdülrəhman Ceyrançöldən evə dincəlməyə gələndə uşaqlarına uzun illərdən bəri təsadüf etdiyi maraqlı əhvalatlar danışardı. Uşaqları da həvəslə dinlərdilər. Ailə yatmağa hazırlaşanda Tanrıverdi uman nəzərlərlə atasına deyərdi:

– Dədə, ay dədə, məni də özünlə apar da.

– Hələ tezdi, bala, tezdi! Vaxtı gələndə apararam! İndi sənə oxumaq lazımdı, - Əbdülrəhman kişi iri barmaqlarını oğlunun cod saçında gəzdirərdi.

– Elə həmişə deyirsən tezdi, mən ki, böyümüşəm, evdə hər işi görürəm, - uşaq incidiyini bildirərdi, - inanmırsan nənəmdən soruş!

– İnanıram, bala, inanıram! Get yat. Səhər danışarıq.

Səhər Tanrıverdi duranda atasını evdə görməzdi. Əbdülrəhman kişi sübhdən gedər, bir də on, on beş, bəzən də iyirmi gündən sonra gələrdi. Onun gəlişini Tanrıverdi səbirsizliklə gözlərdi. Gələndə ona çobanlıq, qızı otarmaq barəsində suallar verərdi. Aldığı cavablardan bir az da həvəslənərdi, yenə atasından onu da özü ilə aparmasını xahiş edərdi. Atası da həmişəki kimi Tanrıverdini sakit edər və sübhdən çıxıb gedərdi...

Bir dəfə Əbdülrəhman kişi dediyi sözün üstündə durdu. Bu zaman Tanrıverdinin on bir yaşı tamam olmuşdu. Ancaq o yaşına uyğun olmayaraq bədənli və qüvvətli idi. Yanaqları çiyələk təki yanırdı. Bir səhər odun doğrayarkən, onun baltanı necə qüvvətlə və böyüklərə məxsus bir tərzdə qaldırıb endirməsini görəndə atası gizli bir fərəh hissi duymuş və oğlunun zəhmətə olan bu sonsuz həvəsini ürəkdən bəyənmişdi. Öz-özlüyündə düşünmüşdü: «Belə uşaq heç də çörəksiz qalmaz. Bir dəqiqə dincliyi yoxdu bunun. Özü də başqa uşaqlar kimi boş-boşuna atılıb düşmür. Neyləyirsə eləsin, nə iş tutursa, tutsun, havayı olmur. İndi də baltanı gör necə qaldırıb endirir. Elə bil yekə kişidi. Yox, deyəsən, bu uşaqdan bir şey çıxacaq!..»

Əbdülrəhman oğlunun hərəkətlərinə diqqət edəndən sonra ona heç bir söz deməyib öz işi ilə məşğul olmağa getdi. Axşam isə oğlu yanına gəlib, sabah onu da özü ilə qoyuna aparmasını xahiş eləyəndə, o, bu dəfə qəti razı olduğunu bildirdi və arvadı Fatmaya tapşırdı ki, uşağın da şeylərini indidən hazır eləsin.

Səhər erkən gedəcəyindən yatmağa tez uzandılar. Əbdülrəhman kişi gözünü yuman kimi də yuxuladı. Şadlığından həyəcanlanmış və buna görə də yuxusu qaçmış Tanrıverdi isə ancaq gecədən xeyli keçmiş yata bildi. Səhər anası onu güclə oyatdı. Yuxu şirin olduğundan o, gözünü aça bilmirdi. Anası bir neçə dəfə «Tanqulu! Tanqulu!» deyib onu bərk silkələdi.

– Nənə, qoy bir az da yatım! – Tanqulu o biri böyrü üstə aşdı.

– Dədən gedir, a bala!.. Sonra demə ki səni oyatmadım. – Anasının sözlərini eşidən Tanrıverdi yerindən dik qalxdı...

Ata-bala evdən çıxanda hava işıqlanmamışdı. Onlar kolxoz idarəsinin qabağına gəldilər. Bir yük maşınının yanında beş-altı adam dayanmışdı. Əbdülrəhman kişini görəndə ona ədəblə salam verdilər.

– Əleykümssalam, - Əbdülrəhman salamın cavabında dedi, - Sizin də hamılıqnan sabahınız xeyir olsun!

– Əbdülrəhman kişi, bu balacanı nə əcəb belə səhər tezdən yuxudan eləmisən? – onlardan birisi maraqla soruşdu.

– Çoban olmaq fikrinə düşüb, ağrın alem! Qışlağımızı, qoyun yataqlarını görmək istəyir, - Əbdülrəhman kişi cavab verdi.

– Deyinən dədəsinin oğludur da. Sənin sənətini yaşatmaq istəyir!..

Əbdülrəhman kişi sürücünün yanına gəlib soruşdu:

– Bala, indicə gün çırtlayacaq, yola düşmürsən?

– Əbdülrəhman kişi, Ramizi, zootexnikimi gözləyirəm. Deyib mənsiz getməyin. Ceyrançöldə vacib işi var, - sürücü gözünü Əbdülrəhman kişinin neçə-neçə boran, qar görmüş, qızmar günəş altında yanmış mis rəngli üzünə zillədi.

Bu zaman təxminən iyirmi altı-iyirmi yeddi yaşlarında ortaboylu, girdəsifət, çox da dolu olmayan bir gənc onlara yaxınlaşıb salam verdi. Bu, zootexnik Ramiz Şirinov idi. Ramiz əl verib bir-bir hamı ilə görüşdü. Növbə Tanrıverdiyə çatanca təəccüblə soruşdu:

– Tanqulu, sən hara?

– Dədəmnən gedirəm! – Tanrıverdi sıxıla-sıxıla cavab verdi.

– Çoban olmaq fikrinə düşüb, Ramiz qağa! – Əbdülrəhman kişi dilləndi. – Çoxdandır elə hey baş-beynimi aparırdı: «Dədə, məni də özünlə apar! Quzu otarmaq istəyirəm». Budu, mən də aparıram. Görək indi neyləyəcək?

– Hə olar, həvəsi var apar, baxsın, görsün çobanlırımız necə işləyirlər, - Ramiz sınayıcı nəzərlərlə Tanrıverdinin üzünə baxdı, sonra nə fikirləşdisə tez Əbdülrəhmana sarı dönüb dedi: - Ancaq Əbdülrəhman kişi, Tanquluya demisənmi ki, çobanlıq o qədər də asan iş deyil. Çöldə, yağışın, dolunun altında, günəşin yandırıcı istisində hər cür çətinliklərlə qarşılaşmaq lazım gəlir. Hələ mən qurdu-murdu demirəm.

– Demişəm, bala, demişəm. Hər çətinliyi danışmışam ki, bəlkə bunlardan qorxub həvəsdən düşə, yaxamdan əl götürə. Ancaq, ağrın alem, gördüm ki, mən danışdıqca o, nə həvəsdən düşdü, nə də yaxamdan əl çəkdi. Axırı indi budu, görürsən, özümlə aparmağa məcbur oldum.

Əbdülrəhman kişi bu sözləri deyib maşına mindi. Əlini uzadıb oğlunun da minməsinə kömək etmək istədi. Lakin Tanrıverdi ayağını bir göz qırpımında dal təkərin üstünə qoyub cəld maşına dırmaşdı. Onun ardınca adamların hamısı bir-bir

maşına mindi. Sürücü kabinənin arxa pəncərəsindən maşındakılara baxdı. Hamının oturduğunu görəndə motoru işə saldı.

Şaumyan adına kolxozun qoyun qışlağı Ceyrançöldə İlanlıca adlanan yerdə idi. Kənddən buraya təxminən otuz-otuz beş kilometrlik bir məsafə vardı. Sürücü bu məsafəni tez qət eləmək üçün maşını sürətlə sürürdü.

Yol boyunca irili-xırdalı təpələr gözə çarpırdı. Tanrıverdi bu yerlərə maraqla baxırdı. Budur, qarşıda görünən böyük bir təpənin arxasındja səma qırmızı rəngə boyanmışdır. Maşın bu təpəyə yaxınlaşdıqca günəş də yavaş-yavaş təpənin arxasından boylanırdı...

Maşın İlanlıcaya çatanda günəş artıq öz şüalarını Ceyrançölün hər tərəfinə yaymışdı. Əbdülrəhman kişi maşından düşüb oğlu ilə birlikdə çoban yoldaşlarının yanına gəldi.

Onun başçılıq etdiyi qoyunçuluq briqadası özü ilə birlikdə beş nəfərdən ibarətdir. Çobanlar Tanrıverdinin gəlişinin məqsədini biləndə ürəkaçıqlığıyla dedilər:

– Təki Tanquluda həvəs olsun, ay Əbdülrəhman kişi, öyrətmək bizim boynumuza!.. Bildiyimizi ki, ondan əsirgəməyəcəyik!..

Ceyrançöldə hər çoban briqadasının ayrıca qoyun yatağı vardır. Qoyun yatağı beş hissədən ibarətdir. Birinci – bala hissə qoyunların «doğum evi» sayılır. İkinci hissədə körpə quzular saxlanılır. Buraya çobanlar «küz» deyirlər. Dördüncü və beşinci hissələr «qoyun damı» adlanır. Bunların hər birisində üç yüz-üə yüz əlli qoyun saxlanılır. Üçüncü hissədə isə çobanlar yaşayırlar...

Axşam çobanlar qoyun və quzuları yataqlarına haylayanda Əbdülrəhman kişi Tanrıverdini qoyun yatağı ilə tanış etdi.

Qoyun və quzular mələşə-mələşə öz yataqlarına doluşurdular.

Qoyunlar bir-bir içəri keçdikcə əlində böyük dəyənək tutmuş ucaboylu, enlikürəkli bir çoban onların adlarını da deyirdi:

– Ay gözünə dönüm, Qumral qoyun, Kərə qoyun, Kürə qoyun, Sarı qoyun, Təpəl qoyun. Ağ kəlin, Boz kəlin...

Tanrıverdi eşitdiyi bu adları yadında saxlamağa çalışır və çobanın hər bir qoyunu öz adı ilə tanımasına heyrətlənirdi...

Tanrıverdi yatmağa uzananda bu barədə atasından soruşdu. Əbdülrəhman kişi gülümsüyüb dedi:

– Bəs sən bilirsən, bala, o çoban ki, sürüsündəki qoyunları bir-bir tanımadı, daha onun harası çobandı? Çoban gərək otardığı qoyunların hamısını beş barmağı kimi bir-birindən ayırd edə bilsin. Bir də görürsən ki, bizim sürü ilə başqa bir sürünün qoyunları qarışdı. Kənardan baxana elə gəlir ki, indi bu qoyunları, görəsən, bir-birindən necə ayıracaqlar. Ancaq burada bizim üçün çətin iş yoxdu. Çobanlarımız öz qoyunlarını lap on sürünün içindən də olsa seçib ayıra bilərlər. Bunlar sənə çətin gəlməsin, bala! Öyrənərsən, darıxma, yavaş-yavaş sənin də gözün alışar, adətkərdə olarsan...

***

Tanrıverdi üç ildi ki, atasının başçılıq etdiyi briqadanın ən yaxın köməkçisi idi...

Bir gün onu Ağstafa rayon komsomol komitəsinin bürosuna çağırdılar. Bir sıra sual-cavabdan sonra büronun üzvləri Tanrıverdinin komsomola üzv qəbul etdilər və Poylu kəndindəki Şaumyan adına kolxozun fermasında çoban işləmək üçün ona komsomol putyovkası verdilər.

Axşamüstü kolkoz idarəsinin qabağında zootexnik Ramiz Şirinov ona dedi:

– Hə, Tanqulu, daha sənin köməkçilik, şagirdlik dövrün qurtardı. Sabahdan Əbdülrəhman kişinin brriqadasının ən cavan üzvü kimi işə başlayacaqsan...

Kolxoz sədri Fəxrəddin Osmanov da əlavə etdi:

– Həm də komsomol putyovkası ilə, Gülməmməd, sənin Tanquluya sualın-zadın yoxdur ki?! – sədr qoyunçuluq fermasının müdiri Gülməmməd Mehdiyevə müraciət etdi.

Gülməmməd yarızarafat, yarıciddi dedi:

– Balam, Tanqulu, atası Əbdülrəhman kişinin məktəbini keçib. Əlində də komsomolun o boyda kağızı. Mənim ona nə sualım ola bilər?!

– Mənim isə var, zootexnik özünü irəli verdi.

Sədr dedi:

– Zootexnik sualsız olmaz. Buyur, Ramiz.

Ramiz sorğusuna izahla başladı:

– Tanqulu, bilirsən ki, quzuları küzlərdə saxlayırıq. Yerləri nəm olmamaq üçün küzlərə şax, onun üstündən isə nəm saxlamayan çubuq-cığ döşəyirik. Bunları neçə gündən bir dəyişdirmək lazımdır?

Tanqulu fikirləşmədən cavab verdi:

– Yeddi günnən on gün arasında dəyişmək lazımdı, Ramiz qağa.

Sədr dedi:

– Bərəkəllah.

Ramiz soruşdu:

– Çobanlar qoyunları otaranda otlaqların fərqini nəzərə alırlarmı?

Tanqulu cavab verdi:

– Bəs necə, Ramiz qağa? Otlaqların da yaxşısı var, lap yaxşısı var, babatı var... Doğar qoyunları lap yaxşısında otarırlar...

– Zəif qoyunlara çobanlarımız necə baxırlar?

– Onlara qayğıyla baxırlar, onlara arpa yarması verirlər, yumşaq ot verirlər.

Ramiz üzünü sədrə tutdu:

– Mənim daha sualım yoxdur.

Gülməmməd gülə-gülə dedi:

– Ramiz, demədinmi ki, Tanqulu Əbdülrəhman kişinin məktəbini keçib...

Ramiz də özünü o yerə qoymadı:

– Dedin. Mən də istədim ki, bu məktəbin yetirməsilə yaxından tanış olasız.

...Bu əhvalatdan iki il keçməmiş doxsan nəfərə qədər komsomolçu oğlan və qızı birləşdirən Poylu kənd komsomol təşkilatı yaxşı işinə görə Tanrıverdini Ağstafa rayon XV komsomol konransına öz nümayəndəsi kimi göndərdi.

***

Günortadan xeyli keçmişdi. İlanlıcada ortaboylu, iyirmi səkkiz-iyirmi doqquz yaşlarında, qarabuğdayı gənc bir qadın baytar məntəqəsinin qabağında dayanıb sağıcılarla, baytar işçiləri ilə söhbət edirdi. Bu kolxozun ilk partiya təşkilatı katibi Fəridə Şirinova idi. O, bu yaxınlarda açıq partiya iclası çağırmaq və heyvandarlığın vəziyyətini müzakirə etmək istəyirdi. Elə buna görə də qabaqcadan özü hər bir şeylə yaxından tanış olmaq fikrində idi.

Fəridə ferma işçiləri ilə ətraflı söhbət elədi, dəftərçəsinə bir sıra qeydlər götürdü. Quzularını yatağına haylayan Tanrıverdini yanına gəldi, soruşdu:

– Tanqulu, quzuların işi şuluqdur, deyəsən ağız yarası onlarda da vardır, eləmi?

– Elədi, Fəridə bajı, elədi. Zootexnikimizə də göstərmişəm. Quzular burada qalsalar gec sağalarlar. Fəridə bajı, indi ki, siz də gəlmisiz, özüz bu məsələylə məşğul olun. Bir qərardan-zaddan çıxardın, aparaq bu yazıqları bir az aşağılara – xəsilliklərə. Çətini ağızları göy arpaya dəyənəcəndir.

Fəridə Şirinova Tanrıverdinin quzularının çoxusu özü bir-bir gözdən keçirdi. «Bala çoban düz deyir».

Fəridə Tanrıverdi ilə söhbət eləyə-eləyə onu gözləyən «Pobeda»nın yanına gəldi. Sürücü Revomir Kərimov irəli çıxıb Tanrıverdi ilə görüşdü. Sonra hər üçü baytar məntəqəsinə girdilər.

***

Adamlar çoxdan dağılışıb getmişdilər. Lakin mədəniyyəi veinin salonunda iki nəfər hələ də dururdu.

Fəridə bir az bundan qabaq olmuş açıq partiya iclasının protokolunu sahmana salırdı. Ondan bir az aralı dayanmış Ramiz isə pəncərədən kəndin yollarına baxırdı.

Fəridə kağızlarını qovluğa yığıb dəmir kassaya qoydu. Sonra ayağa durub Ramizin yanına gəldi.

– Gedək – dedi.

Onlar küçəyə çıxdılar. Səs-səmir çoxdan kəsilmişdi. Lakin hərdəndir it hürüşməsinin səsi eşidilirdi. Evlərdən işıq gəlmirdisə də, ancaq kənd işıqlı idi. Küçədə bir-birindən otuz-qırx metr aralı basdırılmış şalbanlarda elektrik lampaları yanırdı. Qadın bu lampalara baxa-baxa deyirdi:

– Ramiz, buraya gəldiyim on bir il içərisində kənd necə də dəyişib. Bayaq iclas keçirdiyimiz mədəniyyət evi... bu gördüyümüz elektrik lampaları onda yox idi. Ancaq bunlar hələ çox azdır, ramiz, çox azdır.

Fəridə Ramizin gözlərinə baxdı. İti baxışları onun düşüncəli gözlərinə dikiləndə ürəyinə nəsə gəldi. O, tez əlini Ramizin çiyninə qoyub tələsik və mehribanlıqla soruşdu:

– Çox fikirlisən, Ramiz!... Birdən mənim çıxışımızdan inciyərsən ha!..

Bir az bundan qabaq açıq partiya iclasında heyvandarlığın vəziyyəti barəsində Ramizin bir zootexnik kimi izahatı dinlənilmişdi. O öz izahatında qış aylarının quraqlıq keçməsinə baxmayaraq, ferma işçilərinin, çobanların yaxşı çalışdığından, hər yüz doğar qoyundan yüz bir quzu əldə edilməsindən keçən ilin müvafiq aylarına nisbətən bu il süd sağımının bir qədər artırılmasından bəhs etmiş və sonra nöqsanlar üzərində dayanmışdı. Göstərmişdi ki, heyvanlar arasında xəstəliklərə qarşı mübarizə ilə nədənsə az məşğul olunur. Baytarların işi qənaətbəxş sayıla bilməz. Quzuları ağız yarası tutmuş, mal-qaranın bir qisminə gənə daraşmışdır.

Ramiz sonra bu xəstəliklərin aradan qaldırılması üçün müvafiq təkliflər irəli sürmüş və keçib yerində oturmuşdu. Onun izahatından sonra çıxışlar başlanmışdı. Kolxozun qoyunçuluq fermasının müdiri Gülməmməd Mehdiyev, süd-əmtəə fermasının müdiri Kamal hacıyev, yemçilik briqadiri Tapdıq Namazov, kolxozun sədri Fəxrəddin Osmanov və başqaları öz çıxışlarında mal-qaranın vəziyyətindən, zootexniki, baytarların işindəki nöqsanlardan danışmış, yeni təkliflər irəli

sürmüşdülər. Sonra iclasa sədrlik edən Fəridə üzünü birinci cərgədə oturmuş Tanrıverdiyə tutub demişdi:

– Tanqulu, bəlkə sən bir-iki kəlmə deyəsən. Ağız yarası axı sənin də quzularında var.

Tanrıverdi qısa çıxışında göstərmişdi ki, quzularda ağız yarasının əmələ gəlməsində hamının: zootexnikin də, baytarların da, çobanların da, xülasə bütün kolxoz üzvlərinin günahı vardır. O öz çıxışını bu sözlərlə qurtarmışdı:

– Zootexnikimizlə mən də şərikəm. Quzuları, sözsüz xəsilliklərə aparaq gərək. Bunsuz işimiz çətin olar. Mən bir aya quzularımı ağız yarasından sağaltmağa söz verirəm.

Tanrıverdidən sonra Fəridə danışmış və kəskin çxışında nöqsanlar üzərində dayanaraq, zootexnikin, baytarların işini tənqid etmişdi. Bundan sonra isə heyvandarlığın vəziyyətini yaxşılaşdırmaq haqqında partiya iclasının qərarı çıxarılmışdı. Bu qərardakı maddələrin birində deyilirdi: «Kolxozun zootexniki Ramiz Şirinov yoldaşa tapşırılsın ki, quzu və buzovlarda ağız yarası, mal-qarada gənə xəstəliyinə qarşı mübarizəni gücləndirsin; heyvanların müalicəsini düzgün aparılmasından ötrü baytar işçiləri üzərində nəzarəti artırsın... heyvandarlığın vəziyyəti az bir zamanda əsaslı surətdə yaxşılaşdırılsın...»

Fəridənin: «Birdən mənim çıxışımdan inciyərsən ha!..» deyərək Ramizə müraciət etməsi onu elə bil yuxudan ayıltdı.

– Yox, yox, Fəridə, nə danışırsan?.. Çıxışın, əksinə mənim yadıma çox şeylər saldı. Bayaqdan fikirləşirəm: necə olursa-olsun iki ay ərzində nöqsanlarımızı gərək aradan götürək. Bunun üçün bizim imkanımız var. Ancaq hərəkət lazımdır, hərəkət!.. O ki, qaldı səndən inciməyimə, mənə elə gəlir ki, heç vaxt, heç vaxt səndən inciməyəcəm!

– Bəlkə incidin! – Fəridə ərköyünlüklə Ramizə baxdı.

– Yox, Fəridə, incimərəm, çünki sənin məni incidəcək bir hərəkət edəcəyinə inanmıram. İnanmıram, mənim ömür çiçəyim!

Ömür çiçəyi! Bu iki kəlmədə nələr ifadə olunmamışdı. Bunun qəribə bir tarixi vardı...

Ramiz Şirinov cəbhədə yaralandıqdan sonra kəndə qayıtdı. Bir qədər dincələndən sonra dostları ona Qazax kənd təsərrüfatı texnikumuna girməyi məsləhət gördülər. Texnikumda iki şöbə vardı: aqronomluq və zootexniklik. Ramiz imtahan verib zootexniklik şöbəsində oxumağa başladı.

Bir dəfə texnikumun həyətində Ramiz bir neçə yoldaşı ilə dayanmışdı. O, artıq ikinci kursda oxuyurdu. Bu vaxt onların qarşısından aqronomluq şöbəsində oxuyan bir neçə qız keçirdi. Oğlanların diqqəti onlarda idi. Ramizin gözləri qızların arasında öz balacalığı, arıqlığı ilə seçilən qarabuğdayı bir qıza dikilmişdi. Qızlar düz onların qabağından keçəndə Ramizin yoldaşları da onun həmin qarabuğdayı, balaca qıza çox baxdığını hiss etdilər. Hələ birisi zarafatla dedi:

– Aşna, yaman müştəri gözü ilə baxırsan ha!..

Ramiz birdən-birə özü də fərqinə varmadan, lakin inam və qətiyyətlə:

– Uşaqlar, mən o qızı alacağam! – dedi.

Ramizin sözlərinə uşaqlardan çoxu güldü. Kim isə dedi:

– Sən elə deyirsən ki, guya qızla danışıb hər şeyi qurtarmısan, qalıb təkcə evlənməyiniz.

Bir başqası əlavə etdi:

– Bənd olma, ə! Adam xam xəyala düşəndə ağzına nə gəldi deyər.

– Balam o qızı ki, mən tanıyıram onunla bircə əklmə alıb vermək olmur. O ki, qaldı gedib ona evlənməyi təklif edəsən.

Üçüncü bir gənc də yoldaşlarının fikrinə şərik çıxdı.

Ramiz həmin qızla bir neçə dəfə qarşılaşmış və hər dəfə də ürəyi döyünmüş, qızın arxasınca xeyli baxmışdı. İndi onun hökmlə dediyi: «Mən bu qızı alacağam!» sözlərini yoldaşlarının qəribliyə salmaları Ramizin bu fikrin üzərində daha inadla durmağa sövq etdi. Odur ki, o tay-tuşlarının tikanlı sözlərinə ancaq bir kəlmə ilə cavab verdi:

– Baxarıq!

Lakin onlardan bir qədər aralanmışdı ki, Ramizi fikir götürdü. Birdən dediyinə nail ola bilmədi? Onda necə olsun? Yoldaşları onu lağa qoymazlarmı? Ramiz ağzından qaçırdığı sözlərə özü belə təəccübləndi: axı necə oldu ki, o, qızla

bir kəlmə kəsməmiş tay-tuşlarının yanında qətiyyətlə onunla evlənəcəyindən söz saldı? Bəlkə bu iş heç... Yox, yox, Ramiz bunun baş tutmayacağını heç xəyalına belə gətirmirdi. Gətirmək istəmirdi.

O, balaca, qarabuğdayı qıza məktub yazdı. Məktubu taytuşları ilə olan söhbətindən başladı. Bunun ardınca ürəyini dolduran sevgisini, arzusunu bacardığı kimi qələmə aldı. Sonra isə qeyd elədi ki, əgər qız eşqinə rədd cavabı versə, o, dünyanın bədbəxt adamı olacaq. Səməd Vurğun demişkən:

Məhəbbət yaranmış ən byöük əsər,
Nə qədər bədbəxtdir sevilməyənlər!

Ramizin məktubuna cavab gəlmədi. O, təşvişə düşdü. İkinci, üçüncü məktubunu yazıb göndərdi. Yenə cavab gəlmədi. Nəhayət, qızın özü ilə danışmaq qərarına gəldi. Qız texnikumdan çıxarkən ona yaxınlaşdı. Salam verdi, qız salamı çox soyuq aldı, hisrli-hirsli ona baxdı. Ramiz bu baxışları indi də yadından çıxara bilmir. Bu baxışlarda həm qəzəb, həm də məhəbbət ifadə olunmuşdu.\

Qız ona baxmadan dedi:

– Həyatda cəsarətli olmaq yaxşıdır, ancaq bunun yerini bilmək ondan da yaxşıdır. Qızla bir kəlmə danışmamış, onu «Ömür çiçəyi» adlandıran, onunla evlənəcəyi haqqında yoldaşlarına söz verən oğlanı mən heç təsəvvür edə bilmirəm.

Ramiz danışmaq istədi. Lakin boğazının quruduğunu hiss etdi. Ona elə gəldi ki, dilini də bağladılar, nə desin, hansı sözlərlə öz hərəkətlərinə bəraət qazandırsın? Qəlbini, gələcək haqqında olan niyyətlərini ona necə açıb söyləsin? Haçandan-haçana o, qıza ancaq bu sözləri deyə bildi:

– Fəridə, axı mən sənə çoxdan göz qoyuram. Sənsiz... səni görmədiyim dəqiqələr mənim üçün bir il keçir, niyə bunu başa düşmək istəmirsən?

Görünür, Fəridə Ramizi doğrudan da başa düşmək istəmirdi.

– Məktublarınıza cavab yazmayacağam. Xahiş edirəm onlardan bir də mənə göndərməyin. Mənim sizə ancaq bir sözüm var. Bundan sonra qızın ürəyini öyrənməmiş, onun evlənəcəyiniz haqqında heç vaxt lovğalanmayın!

Fəridə bu sözləri deyib getdi. Ramiz sanki mıxlanıö yerində qaldı. Baxışları qızın getdiyi yola dikildi və birdən-birə hardansa qəlbini bir inam hissi doldurdu, bütün iradəsi ilə öz-özünə:

– Sən mənim... Ancaq mənim olacaqsan, Fəridə! – dedi:

Aradan bir il də keçdi. Bir ildə Ramiz fikrindən dönmədi. Fəridəyə məktub göndərməsə də, onunla söhbət eləməsə də, lakin həmişə, hər yerdə onu qəlbində gördü, onunla söhbət elədi.

Ramizə acıqlı cavab verməsinə baxmayaraq, Fəridə də bu bir ildə ona biganə qalmadı; uzaqdan-uzağa onun hərəkətlərinə göz qoydu...

Bir gün texnikumda ədəbi-bədii gecə keçirildi. Gecədə Ramizə elə gəlmişdi ki, Fəridə onu çağırır.

Gecə qurtaranda Ramiz Fəridəni gözlədi. Fəridə qızlarla çıxdığından Ramiz ona yaxınlaşa bilmədi. Bir xeyli getdikdən sonra qızlar Fəridəni tək buraxdılar. Onda Ramiz ürəklənib Fəridəyə yaxınlaşdı. Onlar dinməz-söyləməz yavaş-yavaş addımlayıb iri qovaq ağacının altına gəldilər... Könüllər bir-birini başa düşdü... Əhd-peyman bağlandı.

Ayrılarkən Fəridə razılıq verdi ki, Ramiz onun ailəsinə elçi göndərsin...

Bu söhbətdən bir neçə gün sonra texnikum tələbələri tətilə çıxdılar.

Evdə Ramiz Qazax Dəmirçilər kəndindən qız sevdiyini anasına dedi. Anası bunu atasına çatdırdı. Elçi göndərmək qərarına gəldilər. Ramizin kənddə təxminən yüz beş-yüz on yaşlarında Əhməd adında, bütün ömrünü çobanlıqda keçirmiş gümrah bir əmisi vardı. O, qardaşı oğlunun qonşu rayondan qıç seçdiyini eşidəndə ürəyi atlandı. Hamıya bildirdi ki, elçiliyinə özü tək gedəcəkdir.

Səhərisi Əhməd kişi gözəl bir ağ ata minib birbaş Dəmirçilər kəndinə gəldi. Fəridəgilin yaşadığı evi soraqlaşıb tapdı. Heç kəsə bir söz demədən darvazadan içəri girdi. Evə məhrəm adam kimi atını yaxındakı tut ağacına bağladı. Həyətdə üzüm tənəkləri vardı. Çoban Əhməd bir sadxım üzüm qoparıb yeməyə başladı. Bu zaman Fəridəgilin qohumlarından kim isə həyətdə nabələd bir adamın durduğunu gördü. Yaxına gələndə çoban Əhmədi tanıdı. Xoş-beşdən sonra soruşdu:

– Xeyir ola, əmican?

– Mal itirmişəm, bala! Sorağını sizin kənddən veriblər. Onu axtarıram. Evinizin qabağından keçirdim. Üzümü gördüm, xoşuma gəldi. İçəri girdim ki, bir salxım qoparıb yeyim. Məni qovlamayacaqsınız za?! – Çoban Əhməd xırda gözlərini müsahibinə dikdi.

– Öz evindir, Əhməd kişi, yaxşı eləyib gəlmisən. Ancaq daha burda niyə, yuxarı çıxaq, yol gəlmisən çörəkdən-zaddan ye!

Çoban Əhməd təklifi qəbul etdi. Eyvana çıxdı, əl-üzünü yudu. Bu zaman qarabuğdayı bir qız yaxına gəlib ona əl-üzünü qurulamaq üçün dəsmal uzatdı. Əhməd kişi dəsmalı alanda qıza diqqətlə baxdı. «Ramizin gözaltısı bu olmaya?! Dəsmalı qaytaranda qıza bir də baxdı... Bəyəndi.

Bir az keçməmiş süfrə açıldı. Ortaya yemək gətirildi. Lakin çoban Əhməd yeməyə əlini vurmadı, dedi:

– Mən axtardığımı tapmışam heç bir şey yemərəm. Boğazımdan da getməz. Zarafat deyil, kişilərə söz vermişəm. Əliboş qayıtmayacağam.

– Əhməd kişi, mal inşallah tapılar. Bir də burda süfrəmizin nə günahı! Biz ki, onun itməsində suçlu deyilik. Çörəyini ye, sonra bir yerdə axtararıq, - ondan xahiş etdilər.

Əhməd kişi sözü açmağın vaxtı yetişdiyini hiss etdi. Üzünü ev yiyəsinə tutub təmkinlə:

– Mənim axtardığım elə sizin evdədir, bala! – deyib məsələni açdı, nə məqsədlə gəldiyini söylədi.

Əhməd kişini Dəmirçilər kəndində hamı tanıyırdı. O, bir əsrlik ömründə çox evlərə elçi getmiş, heç yerdə bir sözünü iki eləməmişdilər. Əhməd kişinin fikrini Fəridənin anasına bildirdilər və ona başa saldılar ki, o, əliboş qaytarılası kişilərdən deyil. Ana qızı ilə danışdı. Sonra ananın fikrini Əhməd kişiyə bildirdilər.

Əhməd kişi böyük həvəslə qolunu çırmayıb:

– İndi hünəriniz var məni doyurun! – dedi və iştahla yeməyə başladı.

Günlər, aylar keçdi. Ramiz toy edib Fəridə ilə evləndi. Bir ildən sonra hər ikisi texnikumu qurtardı. Təyinat vaxtı Ramizgilin kəndinə düşdülər.

Fəridə Şirinova 1947-ci ildən 1955-ci ilin noyabr ayına kimi kənddə aqronom oldu, bacarığı, mehriban rəftarı sayəsində kolxozçuların rəğbətini qazandı. 1955-ci ilin noyabr ayında isə kəndin kommunistləri onu kolxoz partiya təşkilatı katibi seçdilər.

Ramiz texnikumu qurtarandan indiyə kimi kənddə zootexnik vəzifəsin çalışır.

...Ramiz Fəridə evlərinə çatanda hamı yatmışdı. Onlar səssizcə otağa girdilər. Övladları, saf məhəbbətlərinin qol-qanadları mışıl-mışıl yatırdılar.

Fəridə pəncəsi üstə astaca yeriyib, əvvəlcə oğlunun, sonra qızının üzündən öpdü ki, onlar yuxudan ayılmadılar. O, ərinə tərəf gəldi, başını onun döşünə sıxıb pıçıltı ilə:

– Mənim əzizim! – dedi.

***

Xəsilliklərə birinci Tanrıverdinin quzuları aparıldı. Sonra da başqa çobanların sürüləri gətirildi.

Zootexnik baytar işçilərini, çobanları səfərbərliyə almışdı. Çox vaxt belə olurdu ki, Ramiz gecəni də çobanların yanında qalırdı...

Bir ay keçər-keçməz bu gərgin zəhmətin səmərəsi özünü göstərdi. Quzuların ağız yarası sağaldı. Quzular kökəlməyə başladı. Gənələrdən də əsər-əlamət qalmadı.

Ramiz Tanrıverdiyə dedi:

– Hə, Tanqulu, indi rahatca nəfəs ala bilərik.

Tanrıverdi quzularından birin başını tumarlaya-tumarlaya:

– Heylədi, Ramiz qağa, heylədi, - dedi. – Amma siz də yamanca əldən düşdüz, ha!

– İşimiz belədi, Tanqulu. Yox, sağ olsunlar, bu işdə elə bütün kolxoz bizə kömək eləyirdi. Böyükdən tutmuş kiçiyə kimi.

– Heç Fəridə bajını demirsən, Ramiz qağa, Fəridə bajı. – Tanrıverdi söylədi.

– Elə Fəridə bacın deyil bizi evdən-eşikdən didərgin salan. O irəli kəndə getmişəm. İdarənin qabağında sədr məni tutub deyir ki, ə, Ramiz kənddən qaçaq düşmüsən, birdən bizdən inciyib eləyərsən ha? Mən də dedim: elə bir qərar çıxarmamısınız ki, evimizdə-eşiyimizdə rahat otura bilək. Gördüm Fəridə bajın da altdan-altdan özü üçün gülür.

– Ramiz qağa, çoxdandı bizə söz vermisən ki, Fəridə bajı ilə necə evləndiyini danışasan. Ancaq həmişə bir bəhanə ilə başımızı qatırsan, danışmırsan. – Tanrıverdi üzünü yanındakı çoban yoldaşına tutdu: - Dədəm evdə Ramiz qağanın əmisi rəhmətlik çoban Əhmədin...

Əhmədin adını eşidən kimi çobanlar «Allah rəhmət eləsin!» dedilər, Ramiz də:

– Allah sizin də ölünlərüzə rəhmət eləsin!

Tanrıverdi davam etdi:

– Hə, onu deyirdim ki, çoban Əhmədin necə elçiliyə getdiyini danışanda eşitmişəm. Çox məzəli əhvalatdır.

Başqa çobanlar da Ramizdən danışmasını ürək xahiş etdilər. O isə:

– Bir başqa vaxtda danışaram, - deyib yenə boyun qaçırtdı.

M Səhv eləmirəmsə çoban Əhməd gərək ki, dörd il olar, rəhmətə gedib, heylədir?

Ramiz dedi:

– Hə, 1953-cü ildə, yüz on yaşında ikən vəfat etmişdir.

– Eh, rəhmətlik yaxşı kişi idi. Bizim hamımızın boynunda o kişinin haqq-sayı çoxdur. Çobanlar onu heç vaxt yaddan çıxarmırlar, - orta yaşlı çobanlardan biri dilləndi.

***

«Pobeda» Ceyrançölə doğru süzürdü. Revomir Kərimov sükan arxasında idi. Yanında Fəridə oturmuşdu. Fəxrəddin, Ramiz arxada əyləşmişdilər. İlanlıcaya

gedirdilər. Fəxrəddin demişkən, Ramizin təsərrüfatına baş çəkməyə. Fəridə dirçəlişi gözləri ilə görmək istəyirdi. Fəxrəddin su ehtiyatı ilə maraqlanırdı.

– Ramiz, Tanqulu necə birqadirlik eləyir? – Fəxrəddin soruşdu:

– Ürəyin istəyən kimi.

Əbdülrəhman xəstə yatırdı. Onu Tanrıverdi əvəz eləyirdi.

– Yaşda hamıdan kiçikdir. Amma hamı ona hörmət edir, - Revomir sözə qarışdı.

Fəxrəddin:

– Səni bilmirəm, Fəridə, mən bu il çobanlardan, ümumən maldarlarımızdan razıyam.

Fəridə:

– Tərifləmə bu maldarları.

Fəxrəddin:

– Faktı dana bilmərik, Fəridə, fermamızda qoyunların sayı artıb.

Yarım saatdan sonra İlanlıcada idilər. Tanrıverdigil hələ gəlməmişdilər. Qoyun yataqlarını gəzməyə başladılar. Söhbət edə-edə İlanlıca bulağının yanına gəldilər. Bulaqdan çox yavaş-yavaş su sızılırdı. Bulağın axıb gəldiyi yerdən dik sıldırım başlayırdı. Keçən il bu bulağın yanında su anbarı düzəltmişdilər. Anbardan su xüsusi borularla kəhrizlərə axırdı.

Fəxrəddin düşünürdü: «Ceyrançöldə su sarıdan gərək ehtiyatlı olasan. Gərək həmişə su ehtiyatın olsun. Yoxsa qoyun-quzu, mal-qaranı susuzluqdan qıra bilərsən...»

Ceyrançöldə bir sıra balaca süni gölməçələr düzəldilib. Bu gölməçələr çobanların su ehtiyatıdır.

Yaxındakı kiçik bir gölməçənin yanına çatdıqda Fəridə ayaq saxladı. O birilər də dayandılar. Gölməçədə lap az su qalmışdı.

Zootexnik öz-özünə pıçıldayırmış kimi dedi:

– Su sarıdan qorxumuz aradan qalxmamışdır hələ...

Fəxrəddinin nəzərləri uzaqlara zillənmişdi.

– Fəxrəddin, yaman fikrə cummusan, bax, bu da fatkdır. – Fəridə əlilə gölməçənin dibini göstərdi.

Fəxrəddin dedi:

– Düzdür, Fəridə, Ramiz düz deyir... Lakin çox çəkməz ki, bizim bu yerlərdə su sarıdan qorxumuz aradan qalxar. Ceyrançöl tikinti idarəsi İori çayından bütün bu gördüyümüz yamaclara xüsusi borularla su gətirəcəkdir. Ondan gəlib Ceyrançölə baxarsan.

– Onda da gələrik, - Fəridə mənalı-mənalı Fəxrəddinə və Ramizə baxdı.

Göyün üzü getdikcə qaralmağa başlayırdı. Ramiz başını qaldırıb səmaya baxanda dedi:

– Yağmağa hazırlaşır!..

Bir azdan qara buludlar sıxlaşdı, elə bil hər tərəfə qaranlıq çökdü. Az çəkmədi göy guruldadı. İldırım çaxdı. İti yağış başlayanda onlar qaçıb baytar məntəqəsinin eyvanına çıxdılar. Yağış getdikcə daha da şiddətlənirdi. Üç-dörd dəqiqədən sonra dolu tökməyə başladı.

Onlar baytar məntəqəsinin eyvanında dayanıb noxud iriliyində dolunun necə sürətlə yer düşməsinə tamaşa edirdilər.

Yarım saata qədər güclü yağış yağdı. Sonra yenə hava açılmağa başladı. Axşam düşürdü. Qoyun-quzu, mal-qara otlaqdan qayıdırdı.

Bu vaxt onlara sarı bir neçə çobanın gəldiyini gördülər. Çobanlar yaxınlaşanda mehribancasına görüşdülər.

Tanrıverdi dedi:

– Yağışa düşdük. Bir az islanmışıq, paltarımızı dəyişək, bu saat gəlirik...

Çobanlar gəldilər. Birlikdə Ceyrançölü yenidən gəzməyə başladılar.

Yağışdan sonra hava çox yaxşılaşmışdı. Göydə ulduzlar sayrışırdı. Aypara onların başı üzərində asta-asta hərəkət edirdi...

*Ağstafa – Bakı, 1958*

## ƏMƏYİN BƏHRƏSİ

Onun atası evində də, ər evində də gördüyü işə, səliqə-sahmana söz yox idi. Özü də deyərdi ki, tənbəl arvad, suyu dağıdar, deyər: - Aydınlıqdır! Məncə, aydınlıq onda olur ki, arvad olan ev həmişə təmizliyiynən, səliqə-sahmanıynan par-par parıldayır.

Oğlu böyüdükcə atasının vaxtilə dediyi sözü xatırlayırdı: işə getməyən oğlun olunca, cütə gedən öküzün olsun!

Düşünürdü, ürəyi açılırdı: «Maşallah, uşaq əməyə möhkəm bağlanır. Elə oğuldur ki, durub».

Övladın zəhmətsevərliyi valideynə sevinc gətirir həmişə. Sevinirdi o da. «İlahi, kaş axıracan belə olaydı... Axıracan!..»

***

Evdə hamı səbirsizliklə onu gözləyirdi. Hərəsi onu birinci təbrik eləməyi ürəyindən keçirir, tez-tez qapıya baxırdı. O bu ailənin nəyiydi ki?

Ailə onun anasından, arvadından, bacısından və üç uşağından ibarətdi. Böyüklərdən çox uşaqlar həyəcan keçirirdilər. Bəs necə? İndicə ataları gələcək, onu salamlayacaq, təbrik edəcəkdilər.

Birdən qapı döyüldü. Ailə üzvləri qapıya axışdı. Gələn o idi. Hamı ona doğru yeridi...

Anası Rövşən xala qollarını onun boynuna doladı, bütün ailənin fikrini ifadə edirmiş kimi dedi:

– Sağ ol, oğul, sağ ol... Oğulsan ki, oğul!

O, işarəni başa düşdü. Babasının anasına dediyi sözü o da bilirdi: işə getməyən oğlun olunca, cütə gedən öküzün olsun!

Anasına baxdı, əməyə alqış yağırdı anasının gözlərindən.

Fikrət, Fərhad və Sevil atalarına sarıldılar...

Ailədə bu şadlığın səbəbi nəydi ki?

***

O, Hikmət Əfəndizadə 1926-cı ildə Şamaxı şəhərində müəllim ailəsində anadan olub. Şamaxıda yeddillik məktəbi qurtarandan sonra 6 nömrəli üzümçülük sovxozunda işləməyə başlayıb. Böyük Vətən müharibəsi illərində hər kəs əlindən gləni cəbhə üçün edirdi. Hikmət də öz borcunu yerinə yetirməyə çalışırdı. Dəfələrlə təşəkkür almışdı.

1944-cü ildi, müharibə yeyirdi adamları. Neft Bakısının fəhləyə ehtiyacı vardı. Rayondan bir dəstə gənc neft sənayesində işləməyə göndərilirdi. Hikmət də o dəstədəydi. Anası onu yola salanda demişdi ki, oğul, boğazından kəsib bizə yollama. Necə olsa, biz birtəhər dolanırıq. Təki sən bir yana çıxasan. Özündən muğayat ol, gözümün işığı.

Hikmət Kirovneftin qazma kontorunda işə başlamışdı. Pillə-pillə dərəcəsi artırdı. 1947-ci ildə artıq yeddinci dərəcəli qazmaçı idi. 1949-cu ildə onu Suraxanıdakı 6 aylıq təkmilləşdirmə kursuna göndərdilər. 1951-ci ildən o, Stalinneftin qazma kontorunda çalışmağa başladı. 1955-ci ilin martından isə M.İ.Kalinin adına Bakı Bakı mexaniki-cihazqayırma zavodunda çilingərdir.

Özünün əməksevərliyi, bacarığı ilə fərqlənən Hikmətə nə var ki?! Üç «Əməkdə fərqlənməyə görə» medalı var, dəfələrlə tərifnamə, pul mükafatı alıb. Alacaq da. 1958-ci ilin istehsalat tapşırığını layiqincə yerinə yetirib. 59-cu ilin yanvar və fevral aylarının tapşırıqlarını artıqlaması ilə ödəyib. 6 nömrəli Fioletov seçki dairəsindən Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizəd göstərilib...

Əməyin bəhrəsi!.. Zəhmət batmayanda sevincini yığıb-yığışdırmaq olmur. Rövşən xala demişkən, əməyə baş əyənin başı uca olur.

*Mart, 1959*

# QAYĞI

«Yox, adamlar cürbəcür imiş. Cürbəcür. Pisi də varmış, yaxşısı da... Bəli yaxşısı da! İşin çətini də elə bu yaxşı adamları tapmaqda, tanımaqda imiş!.. Məni bu fikrə gətirib çıxaran sizsiz, siz – yaxşı adamlar! Sizə tuş olandan bəri gözümü açmısız... Məni ömürlük özüzə minnətdar eləmisiz. Yox, səhv elədim, siz elə-belə, əvəz almadan yaxşılıq eləyən adamlarsız! Bu sizin xasiyyətizdi. Bəli, xasiyyətiz. Yoxsa sizi nə vadar eləmişdi ki...»

– Bıy, Sədaqət, çayın soyuyub ki! Qəzeti əlində bərk-bərk tutuban nə yaman fikrə cummusan? Bəs kinoya getməyəcəyik? Sora, bax, o günkü təkin tələm-tələsiyə düşərik aaa!..

Arvadının bir nəfəsə verdiyi suallar Sədaqəti düşüncədən ayırdı. Əvvəlcə nə edəcəyini bilməyib key-key arvadının üzünə baxdı. Bu, olsa-olsa ancaq bir an çəkdi. Sonra qəzeti bir yana qoydu, çayı qabağına çəkdi və mehribanlıqla, arxayın-arxayın dedi:

– Çayı da içəcəm, qəzeti də oxuyacam, hələ ürəyin istəyən kinoya da gedəcəyik. O ki qaldı tələm-tələsikliyə, hə, belə billəm bu, sənnən asılıdı.

– Ginə mənnən?! – arvad ərköyüncəsinə ərinə baxdı, giley-güzarını baxışları ilə bildirmək istədi.

Əri də eyni ərköyünlüklə, ancaq zarafata yaxın bir tərzdə:

– Bəs kimdən? Hökmən sənnən! – dedi – İstəyirsən gecikməyək, sən indidən hazırlaşmaqda ol... Bax, çayı içib qurtaranacan, qəzeti oxuyub başa çıxanacan hazır olsan, mən təslim. Sözsüz-sovsuz, əlli-ayaqlı sənin ixtiyarında. Nə qədər ki, şeytan gəlib əl-qolunu bağlamayıb hara deyirsən gedək!

Arvadın yanaqlarına xəfif qızartı çökdü. O, hamilə olandan bəri əri bu sözlərdən ona çox deyir və öz gələcək uşaqlarını gah «şeytan», gah «oğlum»!, gah «balaca» adlandırır, yarızafat, yarıciddi arvadından oğul doğmasını xahiş edirdi. Elə ki, görürdü sözləri arvadına toxunur, onda tez könlünü almağa çalışırdı:

– Əh, dodağın ginə bir çərək sallandı ki... Canım, mən elə-belə, söz gəlişi dedim, nə fərqi varmış ki, oğlan olmur, qız olsun, qız olmur oğlan olsun, belə canın sağ olsun, səfərin uğurlu olsun!..

O, indi də ağzından «şeytan» sözünü çıxardıqda arvadının yenə ərklə qaşqabağını salladığını görüb qolundan tutdu, mehribanlıqla:

– Şeytan deyəndə başa düş, mən qızı oğlandan, oğlanı qızdan ayırmıram ki... – dedi. – Elə ikisini də fikrimdə tutub deyirəm. İkisini də. Bəs necə?! Birdən olmadı belə, oldu elə, ikisi də birdən gəldi, hə?! Onda ikimizin də keyfi kökəlir: oğlan mənim, qız sənin, üstəlik ikisi də mənim. Yaxşı, üz-gözünü turşutma, həm də sənin... Amma bilirsən, əkiz balalardan necə xoşum gəlir... Yaxşı, yaxşı, hirslənmə, işində ol, hazır olanda mənə deyərsən...

Ər çay içməkdə, qəzet oxumaqda olsun, arvad hazırlaşmaqda olsun, mən də sizə onların barəsində bildiyimi, eşitdiyimi danışım.

***

– «Sədaqət yenə işə gecikib. Adətkərdədir də, tərgitsə naxoşlayar».

– «Ə, ondan neftçi-meftçi olan deyil, nahaq mədəndə saxlayıb özünə də, bizə də əziyyət verirlər».

– «Gədənin elə bil heç huşu-zadı yoxdur ey... Dindirəndə də deyir ki, canım-başım ağrıyır, məndən nə istəyirsiz?»

– «Əşi, hamısının başı tənbəllikdi. Tənbəllik onun qanına elə işləməyib ki, asanlıqla çəkib çıxarasan».

İşçilər arasında danışılan bu sözlər iyirmi ildən çox mədən müdiri işləyən Musa Bayramovun da qulağına çatmamış deyildi. Lakin o, səbr edirdi, dözürdü. O, bir-iki dəfə Sədaqəti yanına çağırmışdı, onunla söhbət eləmişdi; onun həyatını, xasiyyətini öyrənməyə çalışmışdı. Sədaqət işinin ağırlığından, ayaqlarında bərk ağrılar olmasından şikayətlənmişdi...

Musa Bayramov Sədaqətin operator köməkçisi işlədiyi yeraltı təmir briqadası üzvrlərinin də onun barəsində fikirlərinə qulaq asmışdı. Hərə bir söz

demişdi... Eşitdikləri, söz yox, təcrübəli müdiri çox düşündürürdü. O, bu fikirdə idi ki, yeraltı təmir briqadası üzvlərinin də bu işdə günahı az deyil. Onlardan bəziləri Sədaqəti bir yolluq tənbəl kimi tanımışlar, halbuki ona kömək eləmək, nöqsanlarını vaxtında başa salmaq lazım idi. Bunu eləməyiblər, ya da eləmək istəməyiblər. «Mənə nə var. Başımı mən niyə ağrıdım... Bunlar deyilmi evimizi yıxan... Bizi hər sahədə geri qoyan...»

Mədən müdiri bu gün işə gələndə yenə Sədaqət barəsində qulağına bəzi sözlər dəydi. Çox götür-qoydan sonra, o, bu qərara gəldi ki, Sədaqətin iş yerini dəyişdirsin. Lakin haraya, hansı sahəyə, hansı briqadaya? Musa Bayramov briqadaları, sahə rəislərini, təcrübəli neftçiləri bir-bir xəyalından keçirməyə başladı. Beşinci sahəyə çatanda dayandı. Briqada üzvlərini bir-bir gözləri önündən keçirdi. Sahə risi İmranla göz-gözə dayandı. Onun bütün işini xəyalında canlandırdı. «İmran!.. Yaxşı tapdım. Keçirəcəyəm İmranın sahəsinə... İmran öhdəsindən gələr. İmrana bələdəm... Bir işdən ki, yapışdı, nəticəsiz buraxan deyil...»

Sədaqət beşinci sahədə neftçıxarma operatoru kimi işə başlamışdı. İlk günlər çətinlikləri çox olurdu. Ancaq briqada üzvləri onun yarımçıq gördüyü işlərindən hisrlənmir, əksinə, səbirlə öyrədirdilər. Bu işdə, ələlxüsus baş operator Məmmədcan, operator Raya canıyananlıq göstərirdilər.

Məmmədcan İmamcanov sahənin köhnə işçilərindəndi. Zəngin həyat müşahidəsi, iş təcrübəsi vardı. O, qırx-qırx beş yaşlarında arıq, uzun bir kişi idi; yumşaq və şirin danışığı vardı. İşdə tələsməyi sevməz, hər bir işi aramla, səbirlə görər, ancan elə görərdi ki, ikinci dəfə bu işin üstünə qayıtmaq lazım gəlməzdi. Məmmədcanın bir xüsusiyyəti də öz təcrübəsini cavanlara öyrətməkdə həvəskar olması idi. Elə buna görə idi ki, İmran Sədaqti ən çox onunla bir növbəyə salırdı.

Bir dəfə səhər növbəsində (artıq Sədaqət bir ay idi ki, İmranın sahəsinə keçirilmişdi) belə bir hadisə baş verdi:

2638 nömrəli quyunu qum tıxacından yumalı idilər. Yeraltı təmir briqadasının adamları boruları buraxıb aqreqatın atqı xəttinin bağlanmasını gözləyirdilər. Operator Məmmədcan özü aqreqatın atqı xəttindəki flyans

birləşməsini bağlamaqla məşğul ikən Sədaqətə də göstəriş verir ki, gedib su nasosunu işə salsın. Sədaqət də gedib lazımi quyunun sürgüsünü açmaq əvəzinə başqa bir quyununkunu açır. Usta gözləyir ki, su gələcək. Ancaq su gəlmir. Sədaqət özü gələndə usta ucadan həyəcanla soruşur:

– Su niyə gəlmir?

Elə bu zaman usta gurultu eşidib qaçır. O, manometrdə təzyiqin qalxdığını görəndə məsələnin nə yerdə olduğunu anlayır, tez Sədaqətin açdığı quyunun sürgüsünü bağlayır, lazım olan quyununkunu açır. Təzyiq normaya düşür... Briqada quyunu yumağa başlayır.

Məmmədcan Sədaqətin üz-gözündən nə vəziyyətə düşdüyünü görüb ona daha bir söz demir...

Başqa bir vaxtda da Məmmədcan Sədaqətin özgə bir diqqətsizliyinin şahidi olur və yenə də qışqırmaqla yox, zövsələ, təmkinlə köməkçisini başa salır. Həmin hadisə də budur:1744 nömrəli quyunun altı xəttinin flyansları bir-birindən aralı dayanırdı. Usta bunların sıxılmasını Sədaqətə tapşırır. Özü isə bu zaman vakkum kəmərinin xəttini yoxlamaqla məşğul idi. Sədaqət flyansın bir tərəfini çox sıxır, ikinci boltu keçirərkən o sıradan çıxır. Operator Sədaqətə başa salır ki, birinci boltu bir qədər boşaltmaq və ayrı bolt tapıb onları paralel surətdə bağlamaq lazımdır. Sədaqət belə də edir və onun gördüyü bu iş iki saakt vaxt aparır (ehtiyat bolt olsaydı yarım saata da qurtarmaq olardı). Söz yox, burada borunun yivləri xarab olduğundan və quyunu saxlamaq mümkün olmadığından o, neft çölə tökülə-tökülə təmir olunur.

***

Sədaqət Hüseynquliyev ata-anasını lap erkən itirdiyindən uşaqlığı Şamaxı uşaq evində keçmişdi. Oradan Sabunçu sənət məktəbinə göndərilmiş, iki il oxuyandan sonra neftçi ixtisasını qazanmışdı. Yeddillik təhsili vardı...

Sədaqət briqadanın məsləhətilə axşam fəhlə-gənclər məktəbində təhsilini davam etdirməyə başladı. O, həmçinin, iş yoldaşlarının təkidi ilə ayaqlarını müalicə etdirirdi.

Günlər keçir, gecəli-gündüzlü öz üzərində çalışan Sədaqət əvvəllər də havayı keçən vaxtlarının yerini indi doldurmaq istəyirdi... Vaxtilə Sədaqətdən əllərini üzmüş adamlar indi onun müvəffəqiyyətini 5-ci sahənin ayağına yazır, briqadanın adına çıxırdılar. Beşinci sahənin adamlarında min cür zəhmətlə əkib-becərdiyi ağacın ilk meyvəsini dadan bağbanın sevinci var idi.

Mədən müdiri Musa Bayramovun da kefi kök idi. «Sosialist Əməyi Qəhrəmanı» adını almışdı. Onu təbrik edirdilər. Sədaqət də gəldi, yaxınlaşmağa cəsarət eləmirdi. Mədən müdiri onu gördü, özü çağırdı. Sədaqət yaxınlaşıb dedi:

– Musa dayı, təbrik eləyirəm. Sağlığuza qismət olsun.

Musa Bayramov onun əlini bərk-bərk sıxdı, sonra sağ əlini ərklə onun kürəyinə vurdu:

– Sağ ol, - dedi. – Səndən razıyam. Umudumuzu puç eləmədin, sağ ol.

Sədaqət elə aralanmışdı ki, mədənin quyuları tədqiqat üzrə operatoru Şamama Musa Bayramova yaxınlaşdı:

– Musa dayı, təbrik eləyirəm, - dedi. – Xoşbəxt olun!

Mədən müdiri:

– Sən də çox sağ ol, ay şəkli həmişə mədənimizin «Şərəf lövhəsi»ni bəzəyən qız. Sizin hamıza aiddi mənim bu adım. Hamıza.

***

Sədaqətə Birinci Zabratda mənzil vermişdilər. Mənzili yaxşıca təmir etmək lazım idi. Bunu briqada öz öhdəsinə götürdü. İstirahət günündə başda sahə rəisi İmran Hüseynov olmaqla Raya Smirnova, bədəl Allahverdiyev və başqaları yığışıb Sədaqətin mənzilinə gəldilər; qollarını çirməyib təmir işlərinə başladılar. Mənzili tamam-kamal səliqə-sahmana saldılar. Raya zarafatla Sədaqətə dedi:

– İndi qızların qəlbini ovsunlaya bilərsən. Ancaq gözlə, özün tələyə düşməyəsən.

Sahə rəisi Sədaqətin rayonlarından qız sevdiyini bildiyindən Rayanın zarafatının müqabilində tez dilləndi:

– Elə bilirəm, Sədaqətin tələyə düşmək qorxusu yoxdur, necə ki, islanmışın yağışdan qorxusu olmur, Raya. Sədaqətin sevdiyi qız çoxdan onun yolunu gözləyir.

Raya ciddiləşdi:

– Onda Sədaqət, qızı niyə nigarançılıq içində saxlayırsan?!

Sahə rəisinin kefi kökəldi:

– Bax, bu sözüvə varam, Raya. Sədaqət, gl, indi sən çıx məzuniyyətə, get Ağsuya, seçdiyin, sevdiyin qızı götür gəl, sizə bir keyfin istəyən fəhlə toyu eləyək, Zabrat tamaşasına çıxsın...

***

«Əziz bacım Səkinə, salam!

Məni unutmadığına görə sizə təşəkkür eliyirəm. İstəkli bacım, yazırsan ki, mənim deputatlığa namizəd göstərilməm səni çox sevindirib. Sağ ol! Mən buna ürəkdən inanıram. Axı biz yaxın rəfiqələr olmuşuq. Bir yerdə böyümüş, oxumuş, işləmişik. Bir-birimizin uğuru ilə həmişə sevinmişik. Fermada neçə il birgə inək, qoyun sağmışıq. Səhər-axşam qollarımızı çirməyib vedrələri südlə doldurmuşuq. Sağdığımız süd kimi həmişə də üzümüz ağ olub.

İndi sən yenə də sağıcısan. Öz işindən yazmasan da mən sənin barəndə Bakıya gələn tanış-bilişindən həmişə soruşmuşam. Onlar da mənə deyiblər ki, sən kənddə adlı-sanlı sağıcılardan birisən. Mən bununla ancaq fərəhlənirəm, əziz bacım!

Mehriban bacım! Bu sətirləri yazmamışdan bir az əvvəl seçicilərimlə görüşdə idim. Eh, əzizim, mən indi başa düşdüm ki, xalqın etimadını qazanmaq nə deməkdir!.. Haqqımda çox danışırdılar. Tərcümeyi-halımdan, işimdən dedilər.

Vaxtilə sağıcı olduğumu da yaddan çıxartmadılar... Sonra mənə söz verdilər. Ayağa durub danışmaq istəyəndə əlim-ayağım əsdi. Sən yaxşı bilirsən ki, mən danışmaqda o qədər də pərgar deyiləm. Nə isə, bir təhər özüiü yığışdırıb sözə başladım. Çox danışmadım. Dedim ki, siz məni özüzün vəkili seçirsiz, mən də əlimdən gələni sizin üçün əsirgəməyəcəm, çalışacam, əlimdən gələni eliyim. Elə bunları deyib qurtarmışdım ki, əl vurdular, doğrusu, məni tər basdı.

Əziz bacım, məndən bütün sağıcı qadınlara, qızlara salam de.

Mənə tez-tez kağız yaz, mən də sənə yazacam. Gələn məktubunda işindən yaz. «Qaragöz»dan yaz. Yadındadı, sən birinci dəfə onu sağmaq istəyəndə nə qədər çətinlik çəkdin. Səni heç yaxına buraxmaq istəmirdi. Onda mən sənə kömək elədim, sonra sən tədbirlə hərəkət elədin, inəyi sağdın. Sən yavaş-yavaş «Qaragöz»ə, «Qaragöz» də sənə alışdı, dostlaşdız.

Görürsənmi, Səkinə yaddaşım necə yaxşıdır, amma sən, sizi unudacağımdan qorxursan. Gör necə insafsızsan... Nə isə səbirsizliklə cavab gözləyirəm.

*Bacın Şamama».*

Şamam məktubu zərfin içinə qoyub yapışdırdı. Üstünü yazdı:

Naxçıvan MSSR, Şahbuz rayonu, Nurs kəndi. Səkinə Bağırovaya.

Bir az aşağıdan isə öz ünvanını yazanda beşikdən körpə çığırtısı eşidildi. Şamama o dəqiqə beşiyə sarı gəldi, əyilib uşağı götürdü, «mənim əziz balam, Elxan» deyib üz-gözündən öpdü, sonra uşağı əmizdirməyə başladı.

Şamama 1944-cı ildə yeddillik kənd məktəbini qurtaranda onun on dörd yaşı vardı. Kolxoz sədrinin yanına gəldi, işləmək istədiyini bildirdi. Sədr soruşdu:

– Qızım, nə iş görə bilərsən?

– Sağıcı olmaq istəyirəm!...

Söhbət uzun çəkmədi...

Səhərisi tezdən Şamama anası ilə birlikdə fermaya gəldi. İlk günlər, ilk aylar, əlbəttə, Şamama üçün ağır keçirdi. Lakin kənddə təcrübəli sağıcılar çoxdu. Onlar Şamamanın müəllimi oldular. Şamama əməksevərdi. Bilmədiyini öyrənməyə çalışırdı. İşə başladığının ikinci ilində hamı onun işindən danışdı. Elə bu zaman

Səkinə də fermaya işə gəldi. Səkinə Şamamadan iki-üç yaş kiçik olsa da yaxın rəfiqə idilər. Şamama dostuna hamilik etdi, bildiklərini ona öyrətdi.

Şamamanın atası Şahmərdan 1949-cu ildən Bakıya gəlib Leninneft mədənləri idarəsinin 8-ci mədənində quyuları yeraltı təmir işində operator vəziyəsində işləməyə başladı. O, işi barəsində, neftçi yoldaşları barəsində evə tez-tez məktublar yazırdı. Bu məktubları evdə hamıdan əvvəl oxuyan, əlbəttə, Şamama olurdu.

1951-ci ildə Şahmərdana işlədiyi yerdən ev verdilər. Ailəsini Bakıya gətirdi. Şamama dostlarından ayrılmalı oldu. Ayrılıq zamanı Səkinə köksünü ötürüb dedi:

– Elə deyirdin neft, neft, indi də get ol neftçi. Ancaq bura bax, bizi unutma ha!..

– Heç elə şey olar! Adam öz rəfiqəsini unuda bilər!

Şamama Bakıya gələn kimi bir gün də işsiz durmaq istəmədi. Şahmərdan qızını özünün işlədiyi mədənə gətirdi, onu məmnuniyyətlə işə qəbul etdilər. Əvvəlcə. Quyuları tədqiqat üzrə operator şagirdi kimi işlədi, ancaq bu çox az çəkdi. Şamama qabiliyyətini, bacarığını göstərdi. İki ay keçməmiş ona dərəcə verdilər və quyuları tədqiqat üzrə operator təyin elədilər. O vaxtdan Leninneft mədənləri idarəsində bu sadə, təvazökar qızı hamı tanıyır.

Şamamanın əri Hacəli Əbdülov da neftçidir. Bakıya 1950-ci ildə Xaçmaz rayonunun Çılqır kəndindən gəlib. Sabunçuda birillik sənət məktəbində oxuyub. Sonra 8-ci mədənə göndəriblər, indi burada yeraltı təmir briqadasında 6-cı dərəcəli operatordur.

Onlar 1952-ci ildə evlənmişlər...

***

Sədaqət düşünür, dünəni ilə bu gününü müqayisə edirdi...

– Sədaqət, mən hazıram, gedək? – deyən Güldəstə yenə ərini düşüncələrdən ayırdı.

– Gedək, əzizim, gedək! Nə qədər ki, şeytan gəlib əl-qolunu bağlamayıb, səni hər gün kinoya aparacam...

Bir azdan onlar mədəniyyət evinə doğru gedən küçədə idilər.

Kinonun başlanmasına hələ qalırdı. Şamama əri ilə kinoteatrın qabağına yetişəndə Sədaqətgilə rast gəldilər. Görüşdülər. Sədaqət də, yoldaşı da Şamamanı ürəkdən təbrik elədilər. Şamama da istədi Sədaqəti işdəki dəyişikliklərinə, ona münasibətin yaxşılaşmasına görə təbrik eləsin, ancaq düşündü ki, bunu ağartmamaq daha yaxşıdır. Qoy arvadı bilməsin ki, əvvəllər ondan narazılıq olub.

Şamamanın fikrə getdiyini görən Sədaqət soruşdu:

– Şamama bacı, bəs Elxan kişi hardadı, kimə tapşırmısuz onu?

– Kimə olacaq, Sədaqət, əlbəttə, nənəsinə, - bunu deyib o, üzünü Sədaqətin yoldaşına tutdu, - nə qədər ki, gəlib əl-ayağızu bağlamayıb gəzin özüzçün...

Heç gözləmədikləri halda Musa Bayramov onlara yaxınlaşdı. Onlarla ən əziz adamı kimi görüşdü, sonra üzünü Şamamaya tutub dedi:

– Ramana dairəsinin seçiciləri səni Azərbaycanımızın Ali Sovetinə deputatlığa namizəd göstərməkdə heç də yanılmayıblar. Əminəm ki, sən onların etimadını doğruldacaqsan. Çünki sən xalqımızın zəhmətsevən, təvazökar, ağıllı qızısan! Düzdü, Sədaqət?!

– Düzdü, Musa dayı, Şamama mədənimizin gülüdü.

Kinonun başlanmasına az qalmışdı. Onlar içəri girdilər.

*1959*

## ÖMRÜN UZUN OLSUN, HƏKİM!

– Məmi, ay Məmi... Dur ayağa! Uşağın halı xarabdı...

Arvadının təlaş dolu titrək səsinə Məmi kişi hövlnak yerindən qalxdı. Yarıyuxulu gözlər yuxusuzluqdan qızarmış gözlərə tuşlananda alındı, həyəcanla soruşdu:

– Arvad, nə dedin? Uşağın halı xarabdı?..

– Xarabdı, Məmi... Qorxuram əlimizdən gedə... Başımı yaman itirmişəm, kişi!..

Körpənin yanına gəldilər. Məmi kişi əlini uşağın alnına, sinəsinə qoydu, qaşları düyümləndi, üzünün əzələləri atdı. Əli uşağın sinəsində başını qovzayıb arvadına baxdı: «Arvad, uşaq odun içində yanır ki!..» sözlərini lap dilinin ucundan qaytardı. Arvadının onsuz da gözlərindən selləmə yaş gəlirdi. Dərdin üstünə dərd yükləmək istəmədi. Məmi kişinin ürəyi sıxıldı. Yaman sıxıldı. Heç olmasa arvadını bir anlıq sakit eləmək üçün söz axtardı, təsəlliverici, ürək sakitləşdirən söz! Tapa bilmədi. Susmağı, daxilində baş qaldıran təlatümü aşkar eləməməyi lazım bildi. Düşündü ki, belə gərgin dəqiqələrdə anaya təsəlli yalnız bu ola bilər.

Körpənin vəziyyəti pisləşirdi... Bunu arvad da, ər də görür, ürəklərinin sızıltısı ilə duyurdular. Daha dayanmaq vaxtı deyildi.

– Yaxşı, bəs indi biz nə edək?

Ərlə arvadın intizar baxışları bir-birinə sancıldı: «İki daşın arasında da olsa çarə tapmalı, uşağın halını yaxşılaşdırmalı, nigarançılığa son qoymalı!»

Ana qəlbinin, ata qəlbinin aramsız çırpıntıları da sanki bu sözlərin musiqisi imiş kimi onları müşayiət edirdi.

Kişi saata baxdı, bulud kimi tutuldu. Nə vaxt geyindiyi bilinmədi. Suğra bir də gördü ki, əri qapı ağzındadır.

– Məmi, hara?

– Gedim küçədəki avtomat telefondan təcili yardıma zəng vurum...

– O telfon işləmir...

– Onda özüm gedərəm təcili yardıma!..

– Gecənin bu vaxtı, payi-piyada... Qorxuram gec ola, Məmi, gedib gələnəcən...

– Bəs onda neyləmək istəyirsən, Suğra?

– Qonşu blokda, Məmi, bir gəlin yaşayır, yaxşı uşaq həkimi deyirlər. Qonşular danışanda qulağım alıb. Gedim onu çağırım, nə olar, adam adamın bəs nə gündə karına gələr?!

– Arvad, üə on dəqiqə qalır... Bu vaxtı heç düşmən düşmənin yuxusuna haram qatmaz.

– Amma bərk ayaqda yaxşı adamın qapısını ərk eləyib döymək olar. Gedəcəyəm. Sora uşağın başına, allah eləməmiş, bir iş gələr, onda qəbir evinəcən özümü bağışlamaram: niyə getmədim, niyə çağırmadım? Sən uşağın yanında dur, mən bu saat...

Suğra yun şalına büründü, qapını tələsik arxasınca örtdü.

O öz pilləkənlərini necə qətiyyətlə düşmüşdüsə, qonşunun pilləkənlərini də o qədər tərəddüdlə çıxırdı. Axırıncı pilləni çıxanda ayağı getmədi: «Yox, deyirəm qayıdım, yaxşı düşməz, gecənin bu vaxtı cavan zənən xeylağını mən necə oyadım?! Qohum deyil, tanış deyil... Demək ki, ay arvad, məscidin qapısı açıq oldu, bəs... Yox, kişinin qızına şər ata bilmərəm. O, belə deməz. Deyə bilməz. O cür ki, mən onu tanıyıram, deməz...»

Son pilləni də qalxıb qapıya yaxınlaşdı, «Ya mədəd» deyib sağ əlini qaldırdı, şəhadət barmağını zəngin düyməsinə basmaq istəyirdi ki, qolu sustaldı. Ona elə gəldi ki, ayaqları da əsir: «Birdən əri ağır söz deyər... birdən...» Hələ qırxı çıxmamış dilsiz-ağızsız çağanın vəziyyəti gözləri qabağına gəldi, ürəyi gizildədi: «Yox, tab edə bilmərəm, uzaqbaşı sözüm yerə düşəcək. Bala üçün dözərəm, analar nəyə dözmürlər... Yazıq analar!.. Yaxşı yadıma düşdü, axı o da anadır, iki qız uşağı var. Ana! Ana ananı eşidər, eşitməyə borcludur!..» Qoluna sanki güc gəldi. Zəngin düyməsini iki dəfə basdı, gözlədi. Həyəcan və nigarançılıq içərisində gözlədi. Hər ötən saniyə həyəcanlarını daha da artırırdı.

Zəngin səsinə birinci oyanan Lətifə oldu. Qəribədir, axı indicə o, zəng səsini yuxuda eşitmirdimi? Elmi şurada onun dissertaisya müdafiəsi gedirdi. Opponentlər, şura üzvləri arasında mübahisə düşmüşdü. Sədr mübahisə edənləri sakitləşdirmək üçün qabağındakı zəngi tez-tez götürüb çalırdı... Lətifə hövlnak gözlərini açanda yuxuda eşitdiyi zəng səsilə qapı zəngini birdən-birə ayırd edə bilmədi. Lakin zəng ikinci dəfə cingildəyəndə o, ərini çağırdı.

Əri durub ağır addımlarla qapıya sarı getdi.

Suğra ayaq səslərini eşidəndə özünü yığışdırdı.

– Kimdir?

– Mənəm, ay qardaş, bu həyətin süpürgəçisi, qonşu blokda yaşayanam... Uşağım...

Qapı açıldı.

– Əleykūməssalam, gəlin içəri.

Qapı örtüldü.

– Bağışlayın, qardaş, sizi yuxudan elədim, yanınızda hörmətsizlik edirəm, uşağın halı xarabdır...

Lətifə gəldi. Suğranın üstündə elə bir ağır yük götürüldü, ürəkləndi:

– Başına dönüm, balam əldən gedir, sizə pənah...

Həkim onu axıracan dinləmədi. «Bu ssat» deyib o biri otağa keçdi, əlüstü də hazır vəziyyətdə qayıtdı:

– Gedək, suğra xala, yaxşı eləyib gəlmisən!..

***

Xəstənin huşu özündə deyildi. Gözləri bir nöqtəyə dirənib qalmışdı. Ağzından köpük gəlirdi. Dodaqları, burununun ucu göyərmişdi. Ağır nəfəs alırdı. Cəngolma əlamətləri göz qabağında idi. Həkim dərhal pəncərələri açdırdı, ayaz gecənin soyuq havası içəri doldu:

– Bax, belə... Uşağa hava çatışmır. Streptomisin, penisilin lazımdır, sizdə yoxdur ki?..

– Xeyir, başına dönüm...

– Narahat olmayın, məndə var, bu saat...

Həkim pillərəi sürətlə düşdü, sürətlə çıxdı. Gətirdiyi sterilizatoru qaz pilətəsinin üstünə qoydu, şaqqaşaq qaynayanda götürdü, streptomisinin penisillinlə qatışdırıb şprisə yığdı, çağanın qılçasına yeritdi. Sonra qoluna kamfora vurdu... Bir saatdan çox xəstənin yanında qaldı. Yalnız zəhmətinin bəhrəsi aşkara çıxanda rahat oldu.  Qorxulu dəqiqələr sovuşdu. Uşağın hərarəti bir qədər enmişdi. Huşu da yavaş-yavaş özünə qayıdırdı. Qayıtdıqca ata-ananın da kədəri dağılırdı. Həkim

uzun qara kirpiklərini qırpa-qırpa gah çağaya, gah anaya, gah da ataya baxır, fərəhlənirdi...

Məmi qonşu otağa keçəndə Suğra həkimə dedi:

– Qızım, heç bilmirəm, xəcalətindən necə çıxacağıq!..

Həkimin qaşları dartıldı:

– Nə xəcalət, xala?

Suğra həkimin qəlbinə toxunduğunu onun iri, ala gözlərindən də hiss elədi:

– Yaxşı qızım, yaxşı daha demərəm...

– Suğra xala, bu neçənci uşağınızdır?

– On üçüncüdür, qızım!

– Ay maşallah! Qəhrəman anasınız, heç xəbərimiz yox...

– Qızım, qismətdi də, neyliyim.

– Əriniz nə iş görür?

– Maştağaya, Buzovnaya gedib-gələn elektrik qatarında pravadnikdir... Balaca adamlarıq.

– Zəhmət adamlarısınız. Zəhmət çəkən hər bir kəs hörmətə layiqdir, xala. Sən ki, həyəti tərtəmiz saxlayırsan, bunun özü nəyə desən dəyər.

– Əlimizdən gələn odur, onu da eləyirik.

Həkim çağanı bir də yoxlayıb ayağa durdu:

– Böhranlı dəqiqələr ötüşdü, dediklərimi vaxtlı-vaxtında eləyərsən, qorxma saxalacaq!

Suğra arvad da şalını başına atdı.

– Zəhmət çəkməyin, mən özüm gedərəm!

– Əsil zəhmət səninkidir, qızım, qapınızacan ötürəcəyəm.

Lətifə qapılarından girəndə arxasında bu sözləri eşitdi:

– Ömrün uzun olsun, həkim! Balalarının toyunu görəsən, nəvə-nəticə sahibi olasan!

Qapını astaca çəkdi, pəncəsi üstə yeriyib yataq otağına keçdi. Əri, uşaqları yatmışdılar. Gəlib uşaqlarını başı üstündə dayandı. Onların mışıltısını dinlədi. Xeyli dinlədi. Suğranın sözləri qulaqlarında cingildədi: «...Balalarının toyunu

görəsən!..» Ananın ürəyi riqqətə gəldi: «Balalarıma belə mən qurban olum, onların qadasın alım, dünyadan xəbərsix yatan balalarımın!»

Lətifə yatağına uzananda sübhə az qalırdı. Saat əqrəbinin yeknəsək çıqqıltısını, uşaqlarının ahəngdar mışıltısını dinləyə-dinləyə xəyal onu çəkib keçmişlərə apardı. Uşaq çağlarını xatırladı... İyirmi iki iyun, qırx birinci il. Ötənlərə xəyalən nəzər salarkən Lətifə nədənsə bu günün üstündən keçə bilmir. Səkkizincidə oxuyurdu. Hamı məktəbdə idi. Hamı narahat idi. Hamı müharibədən danışırdı.

– Yəqin məktəblər də bağlanacaq! – Şagirdlərdən kiminsə dediyi bu sözlər oradan keçən ağsaçlı müəllimi dayandırdı:

– Məktəblər bağlanmayacaq! Siz oxuyacaqsınız.

Lətifə də oxumuşdu. Dəhşətli müharibənin çətinliklərinə dözə-dözə oxumuşdu. Məktəbi fərqlənmə attestatı ilə bitirib qırx dördüncü ildə Azərbaycan Tibb İnstitutunun pediatriya fakültəsinə girmişdi... Müharibə!.. Onun bu sözdən lap zəhləsi getmişdi. «Bircə bəşəriyyət bu sözü lüğətdən birdəfəlik pozsaydı!»

Lətifə institutut həyatının necə gəlib keçdiyini hiss eləməməmişdi. Bir də onu görmüşdü ki, buranı da fərqlənmə diplomu ilə başa vurub. Tələbəlik illəri, müstəqil həyata atılmaq, öyrənib bildiyini təcrübədə tətbiq eləmək, qollarını çırmayıb amansız xəstəliklərlə ləbəyaxa olmaq, dilsiz-ağızsız körpələrə şəfa vermək, müalicə edə-edə müşahidə aparmaq, axtarmaq, yaratmaq illəri ilə əvəz olunub... Əllinci ildən instiututun qospital pediatriyası kafedrasında ordinator kimi işə başlayan Lətifə üç il sonra baş laborant, sonralar isə assistent vəzifəsinə keçirilmişdi... Kafedranın əməkdaşları xəstəxana şəraitində uşaqları müalicə edir, elmi iş yazır, gələcək uşaq həkimlərinə dərs deyirdilər. Bu cür iş Lətifənin ürəyincə olmuşdu. Çətinliklərsiz də keçməmişdi. Ancaq o büdrəməmiş, öyrənə-öyrənə yürümüş, min cür təlaş və həyəcan içərisində ürəkləri əsim-əsim əsən ata-anaları sevindirə-sevindirə çoxdan üzərində işlədiyi dissertaisyasının son nöqtəsini bu gecə qoymuşdu.

***

Səhər işə gedərkən o, Suğranın uşağını bir də müayinə etdi. İndi yan-yörəsinə o qədər uşaq yığışmışdı ki... Hamısının da nəzərləri ona, körpə bacılarını xilas edən həkimə zillənmişdi. Lətifə onlardan bir-ikisini danışdırdı, lap balacasının başına əl çəkdi:

– Nə qəşəng qızdır, - dedi.

Tələsirdi. Yoxsa oturub onlarla çoxlu-çoxlu söhbət edərdi.

Qapıdan çıxanda böyük bir dəstə onu yola saldı.

İşdən qayıdanda da o, Güləranı yoluxdu. Vəziyyətini yaxşı gördü, tapşırdı ki, bir şey olsa, xəbər eləyin.

Axşamüstü əri gəldi. Teatra bilet almışdı. Lətifə sevindi, «gedərik» dedi. Yeyib içdilər. Geyindilər. Çıxmaq istəyirdilər qapının zəngi çalındı. Açanda Suğra arvadın oğlunu gördülər. Həkim tərəddüd etmədən paltosunu çıxarıb xalatını çiyninə saldı, redikulunu qoyub fonendoskopu götürdü, ərinə «məni bağışla, tək getməli oldun!» deyib uşağın ardınca çıxdı...

***

«Məktəblər bağlanmayacaq! Siz oxuyacaqsınız...»

Düz iyirmi il sonra, altmış birinci ilin iyirmi iki iyununda Gürcüstan Tibb İnstitutunun Elmi şurasının xitabət kürsüsünə tərəf gedərkən Lətifə bu sözləri eşidər kimi oldu. Ağsaçlı müəllim sanki qolundan tutub onu kürsüyə qaldırdı. Çətini elə bil buraya qədər imiş. Buraya kimi o nə qədər yuxusuz gecələr, həyəcanlar keçirmişdi.

Lətifə «Uşaqların bakterial dizenteriya xəstəliyində qanın bəzi bioxomik dəyişiklikləri» mövzusunda yazdığı dissertasiyanın əsas müddəalarını söylədi, nəticələrindən danışdı. Rəyasət heyətində oturanda gürcü alimlərinin mehriban, qayğıkeş baxışlarını hiss elədi, demək işi bəyənmişdilər.

Rəsmi opponentlər, şura üzvləri danışdılar. Dissertantın işinə yüksək qiymət verilirdi. Mübahisə yox idi. Zalda sakitlikdi. Lətifə qeyri-ixtiyari vaxtilə yuxunu xatırladı. Gülümsədi...

Lətifə Hüseynovaya bir səslə tibb elmləri namizədi alimlik dərəcəsi adı verildi.

***

O, palatasında xəstələri müayinə edərkən birini evə yazdı. Tamam-kamal sağalmışdıö uşağını aparanda anası xəstəxananın şikayət və təkliflər kitabını alıb, əli titrəyə-titrəyə övladına nicat verən adamlar barədə ürək sözlərini yazdı. Lətifənin əlini sıxıb:

– Ömrün uzun olsun, həkim! – dedi.

Lətifə kafedraya gəldi. Müdirilə salamlaşdı. Ona xəstələrinin vəziyyətini danışdı.

Xeyli söhbətdən sonra müdir dedi:

– İndi də, Lətifə xanım, doktorluq dissertasiyası mövzusu üzərində düşünmək lazımdır...

Lətifə təvazökarlıqla:

– Tez deyilmi?! – dedi.

Müdirin sözü qəti oldu:

– Yox, tez deyil!

Kafedranın həkimləri həftədə bir dəfə Bakının rayon xəstəxanalırına gedirlər. Lətifə hər çərşənbə Patamdar qəsəbəsindəki 15 nömrəli xəstəxananın uşaq kabinetinə gəlir, çətin anlaşılan xəstəliklərin diaqnozunu müəyyənləşdirməkdə uşaq həkimlərinə kömək edir, ağır xəstələrə bəzən özü baxır... Buradakı uşaq həkimlərindən Rahilə Əliyeva Lətifənin tələbəsi olmuşdur. Rəhilə nə çətinliyi oldu Lətifəyə müraciət edir. Lətifə də özü nə bilirsə tələbəsinə öyrədir, öyrədir...

Lətifə həkimlər briqadasının heyətində ildə iki dəfə respublikanın rayonlarına gedir.

O deyir:

– Yoldaşlarım kimi mən də kolxoz və sovxozlarda oluram, xəstələri müayinə edirəm, uşaq həkimlərinə məsləhətlər verirəm, camaat üçün uşaq xəstəliklərinə dair mühazirələr oxuyuram.

Lətifə rayona getdimi, gündüzün, gecənin nə olduğunu bilmir, hara çağırırlar, nə vaxt çağırırlar gedir, baxır, məsləhət verir, müalicə edir. Nigaran ürəklər təskinlik tapır. Bakıdan gələn həkimə təşəkkürlər söylənilir. Uzaq kəndlərdə nicat verdiyi körpələn gülüşü deyir: «Ömrün uzun olsun, həkim!»

***

Otuz dörd-otuz altı yaşlarında, ortayoblu, girdəsifət, ağbəniz bir qadın gəlib axırıncını soruşdu. Qulağı tanış səs alan kassir Kübra başını qaldıranda sifəti işıqlandı.

– Lətifə xanım, xoş gördük, necəsiniz?

– Sağ olun, yaxşıyam. Qızınız necədir?

– Sizin sayənizdə çox yaxşıdır, həkim!.. Buyurun, qabağa gəlin, sizi tez buraxım...

Kübra iltifat göstərdisə də həkim qabağa keçmədi. Növbəsində gəlib pulunu verdi. Gedəndə kassir camaata:

– Qızıl kimi adamdır, - dedi, qızımı pulsuz-parasız ayaq üstə soydu, evdə müalicə elədiyi ilə kifayətlənməyib, işlədiyi xəstəxanaya apardı. Sağaldıb özümə qaytardı. Beləsinə adam canını qurban eləsə də uf deməz.

Lətifə mağazadan aldığı şeylər qucağında yaşadığı həyətə girərkən Suğra arvadla qızı Gülara qabağına çıxdılar. Gülara təzəcə ayaq açmışdı. Salamlaşıb görüşdülər. Gülara anasına qısıldı. Həkim ona bir ovuc kofet verdi. Qızının əvəzinə ana «sağ olun» dedi. Həkim onlardan aralanar-aralanmaz Suğranın tanış sözləri qulaqlarında səsləndi:

– Ömrün uzun olsun, həkim!

Dönüb baxdı. Sol əlilə anasının əlindən tutub asta-asta yeriyən Gülara da tez-tez dönüb baxır, sağ əli ilə ona «sağ ol» eləyirdi.

*Yanvar, 1962*

## «NƏ XOŞDUR BİR HİSS KİMİ QƏLBLƏRƏ GİRMƏK...»

İllər külək yürüşlü,
Qartal qanatlı illər.
Yaşayış yollarında
Yəhərli atlı illər.

Nə gözəl demisən!... Nə tez gəlib gedəndi illər! Nə tez!..

Srağagün əlli illiyini qeyd eləmişdik. Dünən təntənəli altmış illiyindi, bu gün də yetmiş illiyini keçiririk. «Külək yürüşlü, qartal qanadlı illər»in nə tez gətirdi onu, sənin yetmiş illiyini! Nə tez gətirdi!

Yetmiş il! Heç kəs səni bu yaşda təsəvvür eləmir, eləmək istəmir. Axı sən heç otuz yaşına çatmamış həyata göz yummusan. Yaradıcılığının kamil, qızğın çağında, «söz atı»nın, köhlən atının «göyün qatlarını titrətdiyi» bir zamanda, qollarını var gücünlə geniş açıb ana yurdunu, «dili diləkli Azərbaycan»ı, onun gur şəlaləli dağlarını, zümzüməli, dərin dərələrini, xan Arazı, dəli Kürü, şıltaq Xəzəri, bərəkətli çölləri, ruh oxşayan yaşıllıqları, sadə, zəhmətsevər insanları, dost-aşnanı, qaragözlü, ürəyi sözlü gözəllri bağrına basıb daha gur səslə, daha sənətkarlıqla, daha incəliklə, daha emosionallıqla tərənnüm elədiyin bir vaxtda göz yummusan.

Ah, mən gündən-günə bu gözəlləşən
İşıqlı dünyadan necə əl çəkim?
Bu yerlə çarpışan, göylə əlləşən
Dotsdan, aşinadan necə əl çəkim?

Sən dünyaya göz açanda iyirmi üç yaşlı anan Züleyxa necə də sevincək olmuşdu...

Ancaq sən saydığını say, gör fələk nə sayır... Sevinci çox az olmuşdu yazıq qadının, sənin cavan, mehriban, xoşrəftar ananın. Çox az olmuşdu! Yatağa düşmüşdü, necə düşmüşdüsə daha qalxa bilməmişdi... Ayyarımlıq körpə ikən səninki də həyatda beləcə gətirməmişdi.

Anasız böyümək asandır məgər?! Sən uzun zaman ana dərdi çəkmiş, ana kəlməsi həmişə qəlbində giziltiyə çevrilmişdi. Nəhayət, elə bir gün də gəlmişdi ki, sən bu hisslərini, ana həsrətli, övlad məhəbbətli hisslərini şeirə çevirmişdin, misralarla dilə gətirmişdin. Müşfiq misraları ilə!

Ana dedim, ürəyimə yanar odlar saçıldı,
Ana dedim, bir ürpəriş hasil oldu canımda,
Ana dedim, qarşımda bir gözəl səhnə açıldı.
Ana dedim, fəqət onu görməz oldum yanımda.

Müşfiq misralaraı. Müşfiq!.. Ədəbiyyatımızda ilk dəfə 1926-cı ildə eşidilən, rəhmdil, nazik ürəkli, mehriban insan mənasını verən bu sözü sən özünə təxəllüs götürmüşdün. Şəxsiyyətinlə necə də uyuşurdu bu ad!

Müşfiq!.. Azərbaycan poeziyasının təzə ulduzu, sən bu adla daxil oldun düşüncələrə, duyğulara, könüllərə. Bu adla! «Qaşlardan qaşlara süz»dün, «könül sularında uz»dün, «küləklərlə həmzəban olmaq» istədin, «çaxıb şimşəklərə könlünü verdin», «hər bağdan bir çiçək dərdin», «Oxu, tar!» sədası, «Yenə o bağ olaydı!» nidası, «Necə əl çəkim?! Harayı qartal qanadlarını ənginlərə səslədi... Yazdın, yaratdın! Nifrətin də böyük oldu, məhəbbətin də!

Yazmaram ürəyim sizi anmasa,
Sizin eşqinizlə alovlanmasa,
Burdaca el durub məndən sordu ki,
Gözdən yaş çıxarmı ürək yanmasa?

Ürək yanğısı! Bu deyildimi nəhəng Füzulini «əsrlərin fövqünə» qaldıran, Koroğlunun biləklərinə, diləklərinə güc verən, Babəkin inadını kəskinləşdirən, mətinləşdirən, Dədə Qorqudu müdrikləşdirən, əbədiləşdirən, Sabiri, Üzeyirbəyi məşhuricahan edən ulu qüvvə?!

Səndə belə bir ürək vardı. O ürəkdə od vardı. Odlar ölkəsinin, Səbayelin odu vardı. Yanır, yanırdı. Yana-yana od salırdı oxucularının, dinləyicilərinin qəlbinə! Od! Hörmətini çox saxladığın, xətri yanında həmişə əziz Hüseyn Cavid nahaq deməmişdi: «Müşfiq bir od ki, axırda öz-özünü yandıracaq!..»

Sən lap kiçik yaşlarından şeir vurğunuydun. Atan Mirzə Əbdülqədirin oxuduğu şeirləri elə yadında saxlayar, elə məharətlə əzbərdən söyləyərdin ki?!. Altı yaşı tamam olmamış uşağın çoxlu şeir bilməsi təəccüblü olsa da ata bunu bildirməz, sadəcə sənin başına əl çəkərdi. Ah, bu əlin saçlarında gəzməsini sən necə gözlər, necə gözlərdin!.. Axı bu əldə sən həm ana nəvazişinin, həm ata qayğısının hərarətini duyardın. Taleyin bunu da sənə çox gördü... Altı yaşında ikən ata itkisinin də dəhşətini duydun. Bu ağır, fəci halı yaşamaq gərəkdi. Yaşamaqçın dözüm gərəkdi. Dözdün də. Dözməz ağır olsa da. Sənin «çocuq dərdin heç əksilmədi».

Atan azərbaycanlı uşaqların oxuması üçün can yandıran, xalq maarifi yolunda şölə saçan bir müəllimdi. Vicdanlı, fədakar bir müəllim!

Axı, sən də müəllim olmusan, müəllim! Atan kimi azərbaycanlı balaların savadlanması, bədii zövqlərinin inkişafı üçün əlindən gələni əsirgəməmisən. Əsirgəyə bilməmisən. İndi vaxtilə çalışdığın 18 nömrəli məktəb, Bakının ən gözəl, ən böyük məktəblərindən biri sənin adını daşıyır!

Məktəb, müəllim, tərbiyə mövzusu poeziyanda bədii əksini tapan mövzulardandır. «Qaya», «Mənim dostum» poemaları, «Məktəbli şərqisi», «Pedtexnikum» şeirində məktəbin bilavasitə sənin öz üzərində oynadığı roldan söhbət açmış, öz yetimlik çağlarını xatırlamış, minnətdarlıq hissilə dolu qəlbinin nidalarını ağ vərəqlərə həkk eləmisən:

Ömrüm səxavətlərin dərin çuxurlarında
Ölgün vərəqlə kimi sürünən bir zamanda,
Dərs alıb bir çırpınan qartal qanadlı quşdan
Çəkdin, çıxartdın məni yıxıldığım yoxuşdan.

Hər bir dövrdə, hər bir zamanda olduğu kimi sənin vaxtında da ağzına gələni yazan, şairlik eşqinə düşən çoxdu. Hay-küy qoparan, gözə kül üfürən o qədərdi ki?! İstedad yox, qışqırıq çox.

Şairə ilhamdan maya gərəkdir!
Anasız çocuğa daya gərəkdir!
Şairəm söyləyir yerindən duran,
Adamın üzündə haya gərəkdir!

Sən belələrinə amansız idin. Başabəla cızmaqaçılara nahaq şairlik iddiasında olduqlarını deməkdən çəkinməzdin, onların böhtan və iftiralarından qorxmazdın, ürəyindəkini dilinə gətirməkdən çəkminməzdin. Sənin təbiilik, səmimilik aləmində ikiüzlülüyə, riyakarlığa, oxu atıb yayı gizlətməyə yer yox idi. Hər şey açıq idi, mərdi-mərdanə idi, kişi-kişiyanə idi sənin aləmində. Bunun üstündə başın ağrısa da, ağrımasa da sən belə idin. Belə yaranmışdın, belə də öləcəkdin. Səni dəyişdirmək mahaldı, səni dəyişdirmək səni öldürmək deməkdi. Sən ölərdin, Müşfiqliyini dəyişməzdin!

Sənin odlu, həssas ürəyin böyük arzuların yuvasıydı. Bu arzulardan biriylə «Sənətkar» şeirində tanış oluruq:

Ah, nə böyük şərəfdir sənətkar olmaq,
Könüllər dünyasından xəbərdar olmaq
Nə xoşdur bir hiss kimi qəlblərə girmək,
Səssiz-sorğusuz;
Bütün fənalıqları yıxıb devirmək

Qara-qorxusuz.

Sənətkarın cəmiyyətdəki mövqeyindən, şerin, sənətin bədii təsir gücündən, saflaşdırıcı, durulaşdırıcı, dəyişdirici qüvvəyə malik olmasından bəhs edilən bu şeirdə həm də bir arzu, bütün sənətkarlara xas olan gözəl, şirin bir arzu var: yaratdıqlarıyla qəlblərə girmək, qəlblərdə həmişəlik qalmaq, əbədi yurd salmaq. Arzulamağına hamı arzulayır bunu, ancaq bu hamıya nəsib olurmu? Ölməzlik qazanır buna nail olanlar, könüllərdə əbədi yurd salanlar. Ölməzlik!

Sən belə ölməzliyə çatan sənətkarlardansan.

***

Altmış illiyində çox sevdiyin Bakıda sənin büstün qoyuldu. Mübarəkdarlığa o qədər adam yığışmışdı ki!.. Mitinq keçirildi. Mənə söz veriləndə dedim: «Sənə odlar diyarının nəğməkarı deyirik, Müşfiq! Axı torpağımızın hər bir şəhərinə, hər bir kəndinə, hər bir küçəsinə qədəm qoyan, yurdumuzun təbii mənzərələrinə, çaylarına, meşə və çöllərinə tamaşa edən hər bir oxucu, sənin oxucun orada səndən mütləq yerinə düşən bir şeyi xatırlayır və sənin öz doğma xalqınla necə qaynayıb-qarışdığını bir daha şahidi olur.

Bəli, Xəzərin xırçın sualırnda, ləpələrin ütü çəkdiyi kəhraba qumlarında, füsunkar Göy gölün sahillərində sənin izin var. Kürün, Arazın, Tərtərin axışında, gur şəlalələrin tökülüşündə nəfəsin duyulur...

Ən nəcib hisslərimizdən olan məhəbbətii həmişə uca tutan, onu əzizləyə-əzizləyə, şairanəliklə yüksəkliyə qaldıran müqtədir sənətkarımızdan biri də sənsən, Müşfiq! Sənin aşiqanə lirik şerlərini oxuyanda, yaxud bu şerlərə bəstələnmiş mahnıları dinləyəndə kimin ürək telləri ehtizaza gəlmir, dillənmir, kimin?!

Mən ki, bilməz idim nədir məhəbbət,
Bu sirri sən mənə anlatmadınmı?!
Dünyaya sığmayan şair könlümü,

Köksümdə çıxarıb oynatmadınmı?!

Var olsun belə məhəbbət! Əbədi yaşasın belə məhəbbətin incəliklərini duymağa kömək edən sənin birbaşa könüllərə yol alan misraların!

Sən şeir üçün doğulmuş bir insan, həddindən artıq özünə tələbkar olan bir şair, bizim poeziyamızın səmasında ulduz kimi aprlamış, bu poeziyanın yaradıcılarından və banilərindən biri kimi şöhrət tapmış bir şair idi. Sənin şeirin onda da, indi də ürəklərə qonur, bahar təravəti gətirir, həmişə də gətirəcək, Müşfiq!..

Xalqilə titrəyən, xalqilə gülən,
Vətənçin yaşayan, Vətənçin ölən
Səmimi bir insan nə bəxtiyardır»

Bu misralar sənindir, sən özün də belə səmimi insanlardan olmusan! Odur ki, xalqımız, canından artıq sevdiyin, sevinci ilə sevindiyin, kədəri ilə kədərləndiyin xalqımız, ana yurdumuz, odlar diyarı, onun paytaxtı Bakı, əziz Bakımız sənə qoynunda, öz qəlbində yer verir. Adını əbədiləşdirir.

***

– Salam.

Sən əlini çənəndən çəkib şairanə düşüncələrindən bir an ayrılacaq, hüzuruna gəlmiş adama mehribancasına deyəcəksən:

– Əleykuməssalam!

Bu tez-tez təkrar olunacaq. Hər səhər, hər axşam, hər axşam, hər səhər. Təkrar olunacaq, Müşfiq! Günəşli günlərdə, tutqun havalarda da, qar lopa-lopa töküləndə, yağış narın-narın yağanda, ağaclar çiçək açanda, yarpaq xəzəl olub yerə töküləndə, xəzri havanı soyudanda, gilavar isidəndə, ilin-günün hər vaxtında, hər anında təkrar olunacaq, müşfiq!

Axı sən əbədiyyətə gedirsən, yolun uğurlu olsun, Müşfiq! Uğurlu olsun!»

O vaxtdan on il keçir. On il! Əbədiyyətə gedən adam üçün bu, bəlkə də bir andır, saniyənin mində biri qədər ömrü olan an.

Bu on ildə sənin poeziyana xalq məhəbbətinin, oxucu pərəstişkarlığının mütəmadiyən artığının şahidiyəm. Bəstəkarlarımız şeirlərinə yeni-yeni mahnılar bəstələyirlər. Sənin xalqımızın ən çox sevdiyi şairlərdən biri kimi mövqeyini getdikcə artır. Sən artıq klassikə dönmüsən. Sənin şeirlərin hamını riqqətə gətirir. Kitablarına tələbat gündən-günə artır.

Yetmiş yaşlı, qara saçlı cavan Müşfiqimiz! Xalqımızın doğma oğlu, istiqanlı, igid oğlu! Sən həyatda izi qalan, sözü qalan bir ömür yaşamısan, ürək qanınla yaratdığın əsərlərinlə, sənə bala əvəzi, övlad əvəzi əsərlərinlə qısa keçən ömrünü uzatmısan, uzadırsan, uzadacaqsan.

Sən yoldasan!.. Bitib tükənməyən, nəhayəti olmayan, sonu görünməyən yoldasan. Gedir, hey gedirsən! Qurtarmaq bilməz bu yol. Əbədiyyət yoludur, hara qurtarır. Bu yolun bütün başqa yollardan ən böyük fərqi odur ki, onun yolçuları bizdən uzaqlaşdıqca bizə daha da yaxınlaşırlar.

İndi sənin yetmiş illiyindir. Sən bizim canlı müasirimizsən. Səksən illiyini də, doxsan illiyini də, yüz, iki yüz, beş yüz, min illiyin də gələcək. Sən onda da həmvətənlərinin, yer üzündə yaşayanların, bəşəriyyətin müasiri olacaqsan. «Oxu tar!» sədası, «Yenə o bağ olaydı» nidası, «Necə əl çəkim?!» harayı həmişə səni müasirləşdirəcəkdir.

Əbədiyyət yolçusuna zaval yoxdur. Sən yoldasan, gedir, gedirsən!..

*1978*

## *«BALACA DOSTLARIM ÜÇÜN» SİLSİLƏSİNDƏN*

## XALQIMIZIN SEVİMLİ ŞAİRİ

### Yetimlik tez gəldi

1908-ci ilin iyun günlərindən birində Bakıda Dağlı məhəlləsindəki II Təzəpir döngəsində, 6 №-li evdə bir uşaq dünyaya gəldi. Oğlan uşağı. İyirmi üç yaşlı mehriban, xoşrəftar ana – Züleyxa sevinirdi. Tündməcaz, çox vaxt qaşqabaqlı görünən atanın – Mirzə Əbdülqədirin üzü gülürdü. Bu gülüş Züdeyxanın sevincini bir az da artırır, onun zəif düşmüş bədəninə qüvvət verirdi.

Uşağın adını Mikayıl qoydular. O, ayyarımlığına çatar-çatmaz anası Züleyxa qayğısı əskik olmayan dünyaya göz yumdu. Körpəsindən nigaran qala-qala!..

Oğul isti ana qoynundan, doğma ana nəfəsindən məhrum oldu. Sonralar, o doqquz yaşında o, bu böyük itkini belə ifadə edəcəkdir:

Ana dedim, ürəyimə yanar odlar saçıldı,
Ana dedim, bir ürpəriş hasil oldu canımda,
Ana dedim, qarşımda bir gözəl səhnə açıldı.
Ana dedim, fəqət onu görməz oldum yanımda.

Ata çaşbaş qalmışdı. Bilmirdi heç neyləsin? Körpəyə baxan, onu süd verən adam lazımdır?!

Mirzə Əbdülqədir müəllimdi. «Səadət» məktəbində işləyirdi. Çox fikirləşməyə vaxt yox idi. Birdən gözlərinin qabağına doluğduğu Xızı gəldi. Özünün gözəl təbiəti, ab-havası, rayihəli gül-çiçəyilə ömründə dərin il salmış doğma Xızı kəndi...

Ertəsi gün Mirzə Əbdülqədir oğlunu Xızıya apardı. Bibisi gəlini Səfiyyəni ona süd anası tutdu...

Səfiyyə körpəni sevdi, əzizləyə-əzizləyə ona süd verdi: analıq elədi. Sonra Mirzə Əbdülqədir Mikayılı öz yanına, Bakıya gətirdi. Ömürlük taleyini bağladığı Bakıya.

Mikayıl hafizəli, gözüaçıq, müşahidəli uşaqdı. Eşitdiklərini yadında saxlayır, gördüklərini özünəməxsus bir şirinliklə danışdırdı. Şeir əzbərləməkdən yamanca xoşlanırdı.

Axşamlar oğlunun məharətlə, həyəcanla şeir söyləməsindən zövq alan atanın gözlərində sevinc qığılcımları görünərdi. Bundan bir az da həvəslənən Mikayıl yorulmaq bilməz, şeiri şeir dalınca deyər, ata heyərt içində donub qalardı. Oğlunsa üz-gözündən sevinc aşıb-daşardı... Ancaq bu əziz axşamlar, bu xoş anlar uzun sürmədi. 1914-cü ildə Mirzə Əbdülqədir qəflətən vəfat etdi.

Yetimlik çox tez gəldi, yaman tez gəldi!

## Ehtiyacla əlbəyaxa

Adətən uşaqlıq illərini insan ömrünün qayğısız illəri adlandırırlar. Ancaq bu cür qayğısız illər çox təəssüf ki hamıya nəsib olmur. Ağır güzəranda, çətinliklər içərisində insanı göz açmağa qoymayan ehtiyacla əlbəyaxada Mikayıl da qayğısız uşaqlıq illərinin fərəhini duya bilməmişdir.

Bu barədə özü iyirmi yeddi yaşında xatırlayacaqdır:

Nə ata çağırışı, nə ana səsi,
Bunların gül kimi lətif busəsi,
Ruhuma ətrini saça bilmədi,
Mənim çocuq dərdim heç əskilmədi.

## Kitab vurğunu

1915-ci ildə Mikayıl yaxın qohumlarının köməyilə rus-Azərbaycan məktəbinə daxil oldu. 1920-ci ilə qədər orada oxudu, tbtidai təhsil aldı.

Mikayıl uşaqlıqdan mütaliəni çox sevirdi, əlinə keçən kitabı oxumamış yerə qoymazdı. Gecələr, bir də görərdin kəsif lampa işığında yerində dirsəklənib mütaliə edir. Nənəsinin nə vaxt gəlib başının üstünü aldığını bilməzdi:

– Bala can, gecənin yarısıdı ki... Hamı çoxdan yatıb, özüvə yazığın gəlmir sənin?! Nə vaxt yatacaqsan, sən?

Nənəsini çox sevən Mikayıl günahkarmış kimi deyərdi:

– Nənə can, lap azca qalıb, onu da qurtarıb yatacam. Nənə gedib yerində uzanardı, haçandan-haçana yuxulardı.

Nəvə də yatmağına yatardı, ancaq nə vaxt yatdığından özünün xəbəri olmazdı. Ev adamları onu tez-tez sinəsi üstə kitab olduğu halda yatan görərdilər.

Sinif yoldaşları Mikayılı sevirdilər. Ən çoxu da ona görə ki, yaxşı şeir oxuyurdu. Hərarətlə, həyəcanla, ürəkdən!

## Xatirələrdən sətirlər

Professor Əkrəm Cəfər xatırlayır: «1920-ci ildi. Azərbaycanda Sovet hakimiyyəti qurulmuşdu. Mən Lahıcdan Bakıya oxumağa gəldim, darülmüəlliminin pansionuna daxil oldum... O zaman qubernator bağında Belinski adına uşaq kitabxanası vardı. Burada cümə günləri «Çocuqlar sabahı» keçirilirdi. Məktəblilər hər cümə buraya yığışıb, bədii çıxışlar edirdilər. Mən də «Çocuqlar sabahı»na gedirdim, çıxış edən uşqaqlara tamaşa edirdim. Uşaqlar arasında bir əsmər oğlan da gözə dəyirdi. Onun şeir oxuması mənə çox gəlirdi. Həmin oğlanın özünəməxsus pafosu, əl-qol, baş və mimika hərəkətləri mənə xüsusi təsir bağışlayırdı...

1922-23-cü dərs ili başlamışdı. Birdən həmin əsmər oğlanı – Mikayılı darülmüəlliminin koridorunda gördüm. Gözəl bir sevinc ruhumuzu qapladı. Mikayıl da darülmüəlliminə oxumağa girmişdi... Mənim üçüncü, onun birinci sinifdə oxumağı dostluğumuza mane olmurdu».

Darülmüəlliminində Mikayılla oxumuş filologiya elmləri namizədi, alim-şair Cəfər Rəmzi deyir: «Mikayıl Müşfiqlə birinci, ikinci sinifləri birlikdə

oxumuşuq (mən «a», o, «b» sinfində). Qalan iki sinfi o, 12 nömrəli məktəbdə oxudu... Mikayıl Müşfiq məndən 3 yaş kiçik olsa da, həyatı, dövrü məndən yaxşı görürdü, məndən yaxşı düşünürdü. Onun bəzi məsləhətlərini indi də xatırlayıb, ona rəhmət oxuyuram. Məsləhətini mənə təklikdə deyərdi. Bir ərəb alimi deyir ki, adam arasında kəsir demək onu təhqir etməkdir».

Mikayıl 12 nömrəli iki dərəcəli məktəbi 1927-ci ildə bitirdi. Sonra Azərbaycan Dövlət Universitetinin dil və ədəbiyyat şöbəsinə qəbul olundu, 1931-ci ildə də ali təhsilini başa vurdu.

## Təxəllüs

O, şeir yazmağa çox erkən başlamış, fitri istedadı ilə hamının diqqətini cəlb etmişdir. Özü yazmışdır: «1925-ci ildən ədəbiyyata qızğın həvəsim vardı. O zamandan məktəbin divar qəzetində, sonra «Gənc işçi», «Kommunist», «Yeni yol» qəzetləri, «Komsomol», «İnqilab və mədəniyyət» jurnallarında şeirlərim çap olunmağa başlamışdır».

Məktəb divar qəzetində çıxmış şeirlərindən biri budur:

Mən sərsəri bir rüzgar,
Ellər mənə olmuş yar.
Hələ yenə matəm var
Mən ağladığım yerdə.

Mikayılın əlyazması şəklində mənə məlum ilk şeiri «Kölgəliklərdə» adlanır. 25 oktyabr 1925-ci ildə yazılmışdır. Əlyazmasının sonunda «Yeldəyən oğlu Səbayel» sözlərini oxuyuruq. Yəqin belə bir təxəllüs götürmək istəyirmiş. Onda bu şeiri çap etməmişdilər. İndi o şeiri M.Müşfiqin üç cilddə «Əsərləri»-nin birinci cildinə daxil etmişəm.

Şairin ilk mətbu şeiri «Bir gün»dür, 1926-cı ildə «Gənc işçi» qəzetində dərc olunmuşdur. Bunun ardınca onun dövri mətbuatımızda tez-tez şeirləri görünməyə

başlamışdır. O, bunları «M.Müşfiq» imzası ilə nəşr etdirmişdir. Şairin ədəbi təxəllüsü olan «Müşfiq» sözü mənası etibarilə çox çalarlı bir sözdür, şəfqətli, rəhmdil, nazik ürəkli, mehriban, məhəbbətli, sevən adam deməkdir. Bu təxəllüs şairə necə də yaraşır!

## Odlar diyarının nəğməkarı

1930-cu il. İlk kitab sevinci, fərəhi. «Küləklər»di ilk kitabın adı, «Küləklər»! Dörd ildə yazdıqlarını toplamışdı buraya. 1932-1935-ci illər arasında da daha doqquz kitabı nəşr olundu. Nədən danışırdı bu kitablarında şair? Azərbaycanımızın sərvətlərini, təbii gözəlliklərini, göllərini, çaylarını, çöllərini təsvir və tərənnüm edirdi. Zəhmətin ucalığından, tərbiyənin, təhsilin faydasından, vacibliyindən, sənəti sevməkdən danışırdı. Adamlarımızı gözəlliklərdən zövq almağa, hərəni öz işini, peşəsini sevməyə, həyatda bir iz qoymağa çağırırdı:

Bu vəfasız ömür, bu coşğun dərə
Gərək boş-boşuna axıb keçməsin!
Bu gözəl cahanı sanıb pəncərə,
Hər gələn sadəcə baxıb keçməsin!

Gözəl çağırışdı, deyilmi, uşaqlar?! Bədii, məhəbbətli, ilhamlı çağırış!

Müşfiqə odlar diyarının nəğməkarı deyirik.

## Uşaqların dostu

M.Müşfiq uşaqları çox sevirdi, uşaqlara böyük mid bəsləyirdi. Onların xalqın layiqli oğul və qızları olmasını ürəkdən arzu edirdi.

O, uşaqlar üçün «Coğrafiya», «Pambıq», «1 May», «Məktəbli şərqisi», «Pioner sarayı», «Zəhra üçün şeirlərini yazıb; «Vuruşmalar», «Qaya» poemalarını qələmə alıb; «Şəngül, Şüngül, Məngül», «Kəndli və ilan» mənzum nağıllarını

yadigar qoyub. Şairin nəzərini gah coğrafiya dərsinə əvvəllər etinasız yanaşan, sonralar səyahət nəticəsində səhvlərini başa düşən («Coğrafiya»), gah pambıq toplanışında ata-analarına kömək edən məktəblilər («Pambıq»), gah müəllimin şagirdlərinə vuruşmalardan söhbət açması («Vuruşmalar»), gah yetim,y urdsuz uşaqların həyat («Qaya»), gah da xalq nağıllarımızdan gələn maraqlı əhvalatlar cəlb edir.

Söz yox, bu deyilənləri müəllif biri-birindən seçilən maraqlı bədii vasitələrlə, oynaq və şirin bir dillə işıqlandırır.

## Müşfiq dağı

O hələ yazacaq, yaradacaqdı!..

Qəlbi böyük arzular yuvasıydı. Çox əsərlər uçurdacaqdı bu yuvadan. Çox!..

«Yelkənim açılır, qara yel əsmə!» Onun sözləridir, Müşfiqin. Çox istəyirdi qara yel əsməsin. Əsməsin!.. Gəncdi, yazmaq, yaratmaq arzusu tükənməzdi.

Ümid eləyirdi. Di gəl ki, şəxsiyyətə pərəstişin gülləsi onu nişan almışdı.

1937-ci il. Dörd iyun gecəsi... Həbs elədilər onu. Günahı olmaya-olmaya. Altı ay keçər-keçməz güllələdilər onu. 1938-ci il yanvarın altısında. Xalqın qəlbinə bir dağ çəkildi o gün. Müşfiq dağı!..

O, hələ çox yazacaq, yaradacaqdı!..

## Müşfiq məktəbi

Eşidən hər bir kəsdə xoş arzular, gözəl duyğular, əziz xatirələr oyadan bir söz var. Bu sözü hamı böyük ehtiram və məhəbbətlə çəkir, hamının sevdiyi bir sözdür bu söz. Hamının.

Məktəb! «Məktəb» sözü həmişə əzizdir. Hamı üçün əzizdir! Hamı üçün! Hamı buradan keçib həyata gedir. Hamı!

M.Müşfiq də hamı üçün əziz olan məktəbdə müəllim işləmişdir. İşlədiyi məktəb – 18 nömrəli məktəb indi onun adını daşıyır. Müşfiq məktəbi adlanır. Müşfiq məktəbi!

– Mən bu il məktəbə gedəcəyəm.

– Hansı məktəbə?

– Müşfiq məktəbinə.

– Mən bu il məktəbi qurtaracağam.

– Hansı məktəbi?

– Müşfiq məktəbini!

Hər il bu sözləri neçə-neçə şagird təkrar edəcək. Sevinəcək, fəxr edəcəkdir.

Müşfiq də onlarla sevinəcək, fəxr edəcəkdir! Axı o, uşaqları çox sevirdi. Müəllim kimi, böyük qardaş kimi, ata kimi sevirdi, şair kimi sevirdi.

*İyun, 1968; iyul 1988*

## BÖYÜK ŞAİR, BÖYÜK DRAMATURQ

### «Cahan sərgisi»ndə

Bəxtiyarsan, əgər çəkdiyin əmək
Cahan sərgisinə versə bir çiçək.

Zəhmətinin sayəsində, hünər və istedadınla parlamaq, öz xalqının içərisində tanınmaqla, sevilməklə bərabər dünyaya çıxmaq, başqa xalqların da diqqətini cəlb eləmək, «cahan sərgisi»nin iştirakçısı olmaq. Bu, unudulmaz sənətkar Hüseyn Cavid demişəkn, bəxtiyarlıqdır. Əsl yaradıcı insana, əsl zəhmət adamına xas olan bəxtiyarlıq.

Öz ölməz əsərləri – solmaz çiçəkləri ilə «cahan sərgisi»nin daimi iştirakçısı olan əsl yaradıcı insanlardan biri də böyük şair, böyük dramaturq Hüseyn Cavidin elə özüdür.

## Şagirddən müəllimə

24 oktyabr 1882-ci il. Bu gün onun – Hüseyn Molla Abdulla oğlu Rasizadənin Azərbaycanın ən qədim şəhərlərindən olan Naxçıvanda dünyaya göz açdığı gündür.

Molla Abdulla çox istəyirdi ki, Hüseyn də böyüyəndə ruhani olsun. Onu təhsil almaq üçün mollaxanaya qoymuşdu. Hüseyn də oxuyurdu... Böyük qardaşı Məhəmməddən də ərəb və fars dillərini öyrənirdi.

O böyüdükcə atasının onu ruhani etmək arzusu da böyüyürdü...

Ancaq bir gün (bu günü sonralar Hüseyn ömrü boyu xatırlamışdır) zəmanəsinin ağıllı maarifpərvərlərindən olan Qurbanəli Şərifov onu mollaxanada oxumaq fikrindən daşındırdı. Beləcə Hüseyn 1895-ci ildə mollaxanın buraxıb Məhəmməd Tağı Sidqinin «Məktəbi-tərbiyə» adlı dördsinifli məktəbinə getdi. Atasından gizli, onun razılığını almadan. Hüseyn yaxşı bilirdi ki, atası bundan xəbər tutsa böyük mərəkə olacaq. Axı arzusunun alt-üst olacağına hansı ata dözə bilərdi ki, Hüseynin də atası dözəydi?!

Ata oğlunun mollaxanadan qaçıdığından çox tez xəbər tutdu. Necə hirsləndi, necə hirsləndi, Hüseynə elə gəldi ki, ildırım çaxdı, göy guruldadı...

Ata «Məktəbi-tərbiyə»yə getməyi oğluna qadağan etdi. Hüseyn içəridən alışıb yandı: nə etsin, dərdini kimə desin?! Ən çox sevdiyi atası da onu başa düşmür!.. Başa düşmək istəmir! O, çox düşündü, daşındı, yenə sevimli müəllimi Sidqiyə, gözəl insan Qurbanəli Şərifova ümid bağladı. «Atamı bircə onlar yumşalda bilərlər. Bircə onlar!»

Əlacı hər yerdən üzülən Hüseyn dərdini Sidqiyə dedi. Sidqi ona ümid verdi:

– Sən ruhdan düşmə, Hüseyn. Görək Qurbanəliynən neyləyirik, Molla Abdullanı necə yumşaldırıq. Sən heç fikir eləmə.

Hüseynin üzü güldü. O, çox ağıllı uşaqdı, başa düşürdü ki, atasının arzusunu alt-üst eləməklə onun qəlbini sındırmışdır. Ona görə də indi atasının razılığı Hüseyn üçün hər şey idi.

Məhəmməd Tağı Sidqi və Qurbanəli Şərifov qoçaq adam imişlər. Molla Abdullanı onlar yumşalda bilmişdilər, onun razılığını ala bilmişdilər, bundan sonra onların qoçaqdan da qoçaq olmalarına daha bir adam şübhə edə bilməz. Hüseyn belə düşünürdü. O, atasının tezliklə yumşalmasına inana bilməsə də bu, həqiqət idi. Düşünürdü: «Gör necə hörmətlidirlər ki, atam sözlərindən keçə bilməyib»

Doğrudan da Molla Abdullanının Məhəmməd Tağı Sidqiyə də. Qurbanəli Şərifova da hörməti vardı. Bir də onlar atanı inandıra bilmişdilər ki, oğlunda böyük istedad var, bu istedadın qarşısında sədd çəkmək lazım deyil.

Hüseyn «Məktəbi-tərbiyə»ni 1898-ci ildə başa çatdırdı. Təhsilini davam etdirməyə böyük həvəsi vardı. Ancaq gözlərinin bərk ağrımağa başlaması işə əngəl törətdi. Ub vaxt onu böyük qardaşı Məhəmməd Təbrizdə idi. Atası Hüseyni müalicə üçün qardaşının yanına göndərdi. Hüseyn Təbrizdə gözlərini müalicə etdirə-etdirə təhsilini də buraxmadı, imkan olduqca oxudu, çətinliklərə, məhrumiyyətlərə dözdü, ancaq oxudu... Şərq fəlsəfəsini, Şərq tarixini və ədəbiyyatını öyrənməyə can atdı.

Sonralar Mişginaz xanım xatırlayardı: «Mənə deyərdi ki, gənclik illərində xoş bir gün görməmişəm. Boyum çıxandan yarıac, yarıtox oxumuşam».

O, müəllimi Sidqiyə məktublar göndərirdi. Bir dəfə müəllimindən aldığı məktuba sevinc içində belə cavab yazdı: «Gözlərinin xəstəliyi yaxşıdır. Görmək allahın insana bəxş etdiyi ən böyük nemət imiş... Mənə tez-tez məktub yazın. Mən sizin şagirdinizəm və həmişə çalışıram ki, sizdən bir söz eşidəm, öyrənəm».

## Cavid əbədi deməkdir

Ali təhsil almaq istəyilə Hüseyn İstambula gedirdi. Sevinirdi, uçurdu. «İstambul... dünyanın gözəl şəhərlərindən biri... Görək də necə qarşılayacaqsan məni, qoynunda günüm, təhsilim necə olacaq?!.»

Gəmi gedir, Hüseyn maraqla uzaqlara baxırdı. «Günəş qürub eləyir... Göy... fəza, dəniz, gömgöy... Uzaqda, yalnız üfüqlərdə var bir aləmi-nur...

Qüruba qarşı dəniz səhneyi-lətafət olur.

Qüruba qarşı dəniz başqa bir qiyamət olum».

1906-cı il aprelin 24-ü... «Gecə... İstambulun Boğazına daxil olduq. Elə ki, sübh açıldı, tamaşa etdik. Boğaz nə Boğaz!!! Allah zaval verməsin...»

Hüseyn ömrünün dörd ilini Türkiyədə keçirdi. İstambul universtitetlərində azad müdavim kimi mühazirələrə qulaq asdı. Ədəbi aləmlə maraqlandı, Rza Tofiq, Tofiq Fikrət təkin məşhur şairlərlə dostlaşdı.

1910-cu ildə Hüseyn Rasizadə Naxçıvana qayıtdı. Tiflis, Bakı, Gəncə şəhərlərində müəllim işlədi... 1919-cu ildə isə həmişəlik Bakıya gəldi. 1937-ci ilin dörd iyununa kimi bu şəhərdə yaşadı, yaratdı, müəllimlik də etdi, öyrətdi.

O, harada olur-olsun, oxusun ya işləsin, fərqi yox idi, hər şeyə şair gözüylə baxırdı. Düşünür, duyğularını qələmə alırdı.

Çox erkən «Gülçin», «Salik» təxəllüsü ilə şeirlər yazsa da oxucular arasında o, «Cavid» təxəllüsü ilə sevildi, məşhurlaşdı, əbədilik oldu.

## Solmaz nişanələr

Şeirlə ədəbiyyata gələn Hüseyn Cavid ilk pyesi «Ana»nı (1910-cu il) yazana kimi lirik şair kimi tanınmışdı. «Keçmiş günlər», «Bahar şəbnəmləri» şeir kitabları onun incə zövqlü, dərin düşüncəli mütəfəkkir şair olduğunu təsdiq etmişdir. «Ana»dan sonra yazdığı «Maral», «Şeyx Sənan», «Uçurum», «Şeyda», «İblis», «Afət», «Peyğəmbər», «Topal Teymur», «Knyaz», «Telli saz», «Səyavuş», «Şəhla», «Xəyyam», «İblisin intiqamı» pyesləri ona böyük şöhrət qazandırmışdır. Ədəbiyyat tariximizdə mənzum dram Hüseyn Cavidin adı ilə bağlıdır.

Su kimi duru, almaz kimi saf.

Böyük dramaturq Cəfər Cabbarlı Hüseyn Cavidin şeir dili və şeiriyyəti haqqında görün nə gözəl demişdir: «Caviddə su kimi duru, almaz kimi saf, parlaq

və oynaq bir lisan vardır... Caviddə hər kəsi məftun və əsir edəcək bir qüvvəyi-şeriyyət vardır».

Hüseyn Cavid yaradıcılığının görkəmli tədqiqatçısı, akademik Məmməd Cəfər də belə yazır: «Cavidin sənəti bədii forma, janr cəhətdən çox zəngin, əlvan olmuşdur. O, yüksək sənəkarlıqla yazılmış lirik şeirlər, poemalarla yanaşı, Azərbaycan səhnəsinə faciə və dramlardan ibarət 15 orijinal əsər vermişdir. Azərbaycan ədəbiyyatında ilk mənzum faciə və dramların yaradıcısı Cavid olmuşdur. Sonradan mənzum dram yazanlar onun sənətindən çox təsirlənmişlər».

## Uşaqlara töhfə

Hüseyn Cavid uşaqları da unutmamış, onlar üçün də yeri düşəndə, yazıb yaratmışdır. Şairin «Kiçik bir məktəbliyə» ithaf etdiyi «İlk bahar» və «Qız məktəbində» şeirləri uşaqlara böyük töhfə deyilmi? «İlk bahar»da yaz fəslinin özünəməxsus cizgilərlə təsviri ürəyi oxşayır, oxucuya zövq verir:

Sevgili bir çoban, on bir yaşında,
Düdük çalar axar sular başında.
Ətrafında qoyun, quzu hoplaşır,
Oynar, mələr, qoşar, yenə toplaşır.

«Qız məktəbində» şeiri elə səmimi, elə təbiidir ki...

– Quzum, yavrum! Adın nədir?
– Gülbahar.
– Pəki sənin ana, baban varmı?
– Var.
– Nasıl, zənginmidir baban?
– Əvət, zəngin, bəyzadə...
– Öylə isə, geydiyin geyim neçin böylə sadə?

Yoxmu sənin incilərin, altun bilərziklərin?
Söylə, yavrum! Heç sıxılma.
– Var əfəndim, var... Lakin
Müəlliməm hər gün söylər, onların yox qiyməti,
Bir qızın ancaq bilikdir, təmizlikdir ziynəti.

Uşaqlar, Hüseyn Cavidin yaradıcılığında qanadlı, ibrətamiz ifadələr, aforizmlər çoxdur. Bunlardan bir neçəsini sizə təqdim eləməkdə məqsədim odur ki, keçəcəyiniz həyat yollarında şairin arzusunca yaşamağa çalışın.

Ölüm var ki, həyat qədər dəyərli,
Həyat var ki, ölümdən də zəhərli.

***

Nəfsinə xor baxan bir qəhrəman ol,
Haqq üçün başından keçən insan ol!

***

Yaşamaq gərçi xoş əməl,
Yaşatmaq daha gözəl.

### «Koroğlu»

Mişginaz xanım xatırlayardı: «Üzeyir bəyin bacanağı Pənah bəy Qasımova biz... qonşu idik. Üzeyir bəy, eləcə də Müslüm bəy Maqomayev tez-tez Pənah bəygilə gələr və hər dəfə ya onlara getməzdən əvvəl, ya da çıxandan sonra bizə gəlib söhbət edərdilər...

Yadımdadır... 1936-cı ilin sentyabr ayının 27-də Pənah bəyin kiçik qızı Nigarın ad günü idi... Söhbət zamanı Üzeyir bəy üzünü Cavidə tutub dedi: «Cavid əfəndi, özün bilirsən «Koroğlu» üzərində işləyirəm. Yaman vuruşdayam. Bu yaxınlarda qurtarıram. İnşallah, «Koroğlu»nu qurtarandan sonra ürəyimdə tutmuşam ki, sənin «Şeyx Sənan»ınna opera yazım.

Cavid dedi:

– Üzeyir bəy, mən sənin qulluğunda həmişə hazıram. Nə vaxt istəsən «Şeyx Sənan»a libretto yazaram».

Azərbaycan operasının şah əsəri – «Koroğlu»nun ilk tamaşası 1937-ci ilin 30 aprelində oldu. İlk tamaşa gözlənildiyindən də yaxşı təsir bağışladı. Qürur, sevinc hissləri tamaşaçıları qanadlandırmışdı. Bunların arasında Cavidlə Miginaz da var idi. Üzeyir bəy öz onlar üçün iki bilet göndərmişdi.

Tamaşa qurtaran andaca gurultulu alqışlar qopdu, nə qopdu. Sanki birdən-birə ardı-arası kəsilməyən dolu yağmağa başladı.

Mişginaz əl çala-çala Cavidə dedi:

– Xalq gör necə qarşılayır «Koroğlu»nu, Cavid!

Cavid də ona dedi:

– Bu gün, Mişginaz, əsl xalq bayramı, əsl sənət bayramıdır.

Pərdə enəndə onlar Üzeyir bəyi təbrik üçün səhnə arxasına keçdilər...

Bütün mətbuat mədəniyyətimizin bu böyük hadisəsini iftixar hissilə qeyd etdi. «Yeni yol» qəzeti «Koroğlu»nun ilk tamaşası münasibətilə səhifə verdi. Səhifədə Hüseyn Cavidin də ürəkdən gələn sözləri vardı: «Koroğlu» operası, Azərbaycanın opera aləmində öz revolyusion coşğunluğu ilə, bədii yenilikləri ilə, parlaq xalq musiqisi ilə son dərəcə yüksək bir yer tutmaqdadır».

*İyun, 1984*

# DÜNYA ŞÖHRƏTLİ SƏNƏTKAR

## Bir uşaq vardı

Bir uşaq vardı. 1885-ci ildə sentyabrın 18-də dünyaya göz açmışdı. Dörd tərəfi qayalarla əhatə olunan, tez-tez xəfifi duma bürünən, ab-havası ilə həmişə esçilən bir şəhərdə boy atıb böyüyürdü.

Qəribə uşaqdı bu uşaq. Özü də qəribəlikləri gündən-günə çoxalırdı bu uşağın. Gündən-günə.

Bulaqlar onunla danışırdı. Şırıltıları ilə.

Yarpaqlar onunla dərdləşirdi. Pıçıltıları ilə.

Quşlar onunla sevinclərini bölüşürdülər. Cəh-cəhləri ilə.

O da dayanıb qulaq asır, asırdı, heç birisinin xətrinə dəymək istəmirdi.

Yoldaşları çöldə-çəməndə hey onu səsləyirdilər:

– Üzeyir, gəlsənə, niyə dayandın axı?!

Üzeyir başını qaldırırdı:

– Heç, gəlirəm, - cavab verirdi və yoldaşlarının dalısınca götürülürdü.

Gəzintidən qayıdanda hansı evdənsə tarın səsi eşidilirdi. Qədimi musiqi aləti fəqan eləyirdi. Üzeyir ayaq saxlayır, o səsi, o fəqanı dinləmədən gedə bilmirdi.

– Üzeyir, nə oldu yenə?!

– Heç, gəlirəm!..

***

Şuşada səsi olmayan adam az tapılar, deyirlər. Üzeyirin də səsi vardı. Tez-tez oxuyurdu. «Muğam» və «təsnif» oxuyurdu. Səsi xoşa gəlir, ruhlanırdı.

Dinləməyi də xoşlayırdı Üzeyir. «Çoban bayatısı»nı da, «Qarabağ şikəstəsi»ni də, «Qalada yatmış idim»i, «Sona bülbüllər»i, «Üç telli durna»nı da dinləyirdi. Doymaq bilmirdi bu xalq mahnılarından. Bilmirdi heç.

«Üç telli durna»nı dinləyəndə ruhu oynayırdı yerindən onun, düşünür, düşünürdü.

Evlərinin dalı qaya.
Qayadan baxarlar aya.
Mənim dərdim gəlməz saya...

Hələ muğamlarımız... Onun uşaq xəyalına qol-qanad verirdi həmişə...

Üzeyir sonralar uşaqlıq çağlarını belə mənalandıracaqdır: «...İlk musiqi təhsilimi... Şuşada, ən yaxşı xanəndə və sazəndələrdən almışam».

## Qori müəllim seminariyasında

1 sentyabr 1899-cu il. Üzeyir Qori müəllimlər seminariyasının şagirdidir. O, necə də sevinir. Oxumaq, öyrənmək onun ürəyincə olmuşdur həmişə. Ürəyincə!

Üzeyirlər o vaxt bir yerdə oxumuş, dostluq etmiş Əli Terequlov onunla ilk görüşünü 1945-ci ildə belə təsvir etmişdir: «...Qəbul olunanlar arasında açıq qəhvəyi rəngli şagird kurtkası geymiş, belinə ensiz qayış bağlamış və qaragül papaqda qarabuğdayı, arıq bir cavan oğlan da vardı. Bu, Üzeyir Hacıbəyov idi».

Biləndə ki, seminariyada hseab, həndəsə, tarix, təbiətşnüaslıq, coğrafiya, pedqogika və s. fənlərlə yanaşı musiqiyə də geniş yer verilir, mahnı oxumağı, musiqi alətlərində çalmağı öyrədirlər. Üzeyirə elə bir dünyanı bağışladılar.

«Nə yaxşıdı. Musiqi mənim dünyamdı. Tale məni özü ondan ayırmır. Ayırmır!..»

Əli Terequlovun məqaləsindən: «Nəğmə oxumağı və skripkada çalmağa öyrənmək dərsləri, xüsusən Üzeyir Hacıbəyovuq, Müslüm Maqomayevin, mənim və daha bir neçə yoldaşımızın xoşuna gəlirdi.

Biz ancaq skripkada çalmaqla kifayətlənməyib nəfəs alətlərində çalmağı da öyrənmək qərarına gəldik. Üzeyir baritonu seçdi, Müslüm klarneti, mən isə

korneti. Məşğələlərimiz müəvəffəqiyyətlə davam edirdi və 6-7 aydan sonra bizi orkestrə qəbul etdilər.

Bir qədər keçəndən sonra seminariyada simli orkestr təşkil edildi. Üzeyir səylə violençeldə çalmağı öyrənməyə başladı...»

Axşamüstüdür, xəfifi meh nəzərləri uzaqlara zillənən Üzeyirin ruhunu sığallayır.

– Nə bərk fikrə getdin, Üzeyir?! – Əli soruşur.

– Heç...

– Deyəsən Şuşa yadına düşüb?!

– şuşa unudulası şəhərdir ki?! Ancaq könlümü sıxan indi başqa şeydi, Əli.

– Sənin könlün niyə sıxılsın ki, Üzeyir. Üç musiqi alətində çalırsan, hamıdan da qabaqdasan.

– Məsələ bunda deyil. Əli, bilmirəm heç səni necə başa salım?! Qoy elə əhvalatı danışım da. Bu gün musiqi müəllimiz Pekker Ağəlinin düz çala bilməməsindən əsəbiləşib qışqırdı: - Üç ildir çalırsan, yenə düz çala bilmirsən. Hacıbəyov isə – o məni göstərdi – cəmi bir ildir oxuyur. Buna baxmayaraq üç çalğı alətində çalmağı bacarır. Onda mən özümü birtəhər hiss elədim. Fikirləşdim ki, mən olmasaydım müəllim Ağaəlini bəlkə də elə danlamazdı. İndi Ağəli də yəqin məndən inciyib.

– Qəribə oğlansan aaa, Üzeyir. Burada sənin bir günahın var, yəni? Peker yazıq da səni Ağəliyə nümunə göstərməkdə məqsədi bu olub ki, ornu bir az hərəkət gətirsin. O ki, qaldı Ağəlinin səndən inciməyinə bu dünyasında ola bilməz. Onun könlünə mən bələdəm. Özü də sən musiqinin...

Üzeyir bilirdi ki, sözün dalısı nə gələcək, tez ili ilə onun ağzını tutdu:

– Sus, sən allah sus, məni elə təriflməyin.

Əli də susdu. Təvazökar dostunun təvazökarlığı qarşısında daha bilmədi nə desin.

***

İllər ötürşdü, vaxt yetişdi. Əli Terequlovun yaddaşında bu sözlər də bizə gəlib çatdı: «1904-cü il iyun ayının əvvəllərində biz Zaqafqaziya müəllimlər seminariyası ilə vidalaşıb, evlərimizə dağılışdıq, sonra da təyin olunduğumuz xalq məktəblərinə, işə getdik...»

## Xalqa xidmət yolunda

Üzeyir Hadrut kənd məktəbinə təyin olunmuşdu. Bir il burada işlədi. Sonra çoxdan arzusunda olduğu Bakıya gəldi. Özü demişkən, 1905-1908-ci illərədək pedaqoji sahədə çalışıb. Bibiheybət rayonunda və şəhərdə müəllimlik edib, eyni zamanda redaksiyalarda çalışırdı.

Üzeyir müəllimliyə hörmət bəsləyir, əsl müəllimi yüksək qiymətləndirirdi. «...Müəllimlərdən savayı kimimiz vardır ki, camaat içində yaşayıb da, onların həm özlərinin, həm də uşaqlarının qeydinə qalsın? İndi bu saat zaman o zamandır ki, müəllimlərimiz uşaqlara tərbiyə verən kimi, ümumi camaatımıza dəxi gərək tərbiyə versinlər... «Millət-millət» deyənlərimizin içində, doğrudan da, millət xeyri üçün iş (söz yox a!) görməyə iqdam edənlər birinci dəfə müəllimlərimiz oldular...»

1906-cü ildə o, belə fikirləşirdi. Fikirləşə-fikirləşə də məktəbə yollanırdı, xalqa sözdə yox, işdə xidmət etməyə çalışırdı.

O, dövri mətbuatda fəal iştirak edirdi, məqalələr, felyetonlar, səhnəciklər, hekayələr, miniatürlər yazırdı. Güldürə-güldürə oxucularını düşündürür, yurd üçün iş görməyə vətəndaş olmağa çağırırdı.

Qəzetə o, böyük əhəmiyyət verir, xalqın oyanışında, maariflənməsində onun rolunu aydınca görürdü və ona xor baxanlara gülürdü. «Qəzet» miniatüründə olan kimi:

«Birdən, fərz elə, Avropada bir məmləkətdə, məsələn, Firəngistanda qəzetlərin hamısı durduğu yerdə bağlandı.

Onda nə olar?

Onda tamam Firəngistan bir-birinə dəyər... Kişi, arvad, uşaq – hamısı bir-birinə qarışıb, bir çığır-bağır salarlar ki, qonşular dəli olarlar.

Biri çığırır ki:

– Ay, kor oldum!

O birisi:

– Ay, kar oldum!

Bir başqası:

– Ay, lal oldum!

...Bəs bizim qəzetlərimiz bağlansa nə olar?

– Heç zad!»

Bəli, o gözəl müəllim idi, gözəl jurnalist idi, gözəl yazıçı idi. Amma musiqi üçün darıxırdı. Yaman darıxırdı... «Musiqi mənim dünyamdır. Mən o dünyada yaşamalıyam, musiqi dünyasında...»

## Onun musiqi dünyası

O, dərs deyir, məqalə, felyeton yazıryoldaşları ilə görüşür, yazdıqları haqqında yaxşı rəylər eşidir, daxilində isə narahatlıq gündən-günə çoxalırdı. Son zamanlar böyük Azərbaycan jurnalisti Həsənbəy Zərdabinin «Kaspi» qəzeti redaksiyasında ona dediyi sözlər qulaqlarında cingildəyir, onu rahat buraxmırdı. «Sən elə bir teatr yaz ki, iştikar edənlər oxusunlar».

Nəhayət o, opera yaradacağı haqqında qəti qərara gəldi. Dahi Füzulinin «Leyli və Məcnun» poemasının əsasında eyni adlı muğam operası yaratmaq. Özü bu barədə sonralar yazmışdır: «Leyli və Məcnun necə yaranmışdır? Mən opera üzərində 1907-ci ildən işləməyə başlamışam; lakin məndə bu ideya xeyli əvvəl, təxminən 1897-1898-ci illərdə, mən on üç yaşlı uşaq ikən doğma şəhərim Şuşada həvəskar aktyorların ifasında «Məcnun Leylinin məzarı üstündə» səhnəsini gördükdən sonra yaranmışdır.

Həmin səhnə məni o qədər həyəcanlandırdı ki, bir neçə ildən sonra Bakıya gəlib operaya bənzər bir şey yazmaq qərarına gəldim. Mən xalq yaradıcılığının

klassik nümunələri olan muğamlardan musiqi materialı kimi istifadə etməyi nəzərdə tutmuşdum. Vəzifəm ancaq Füzuli poemasının sözlərinə forma və məzmunca zəngin, rəngarəng muğamlardan musiqi seçmək, hadisələrin dramatik planını işləyib hazırlamaq idi».

12 yanvar 1908-ci ildə Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasının Tağyev teatrında ilk tamaşası oldu. Azərbaycan opera sənətinin əsası qoyuldu. Üzeyir bəyin musiqi dünyası başlandı. Bu dünyada «Leyli və Məcnun» ilk övlad kimi birinci dayanmışdı. Bunun ardınca «Şeyx Sənan» (1909), «Rüstəm və Söhrab» (1910), «Şah Abbas və Xurşudbanu», «əsli və Kərəm» (1912) «Harun və Leyla» (1915) muğam operaları gəldilər.

Dahi bəstəkar musiqili komediyalar müəllifi kimi də şöhrətləndi. «Ər və arvad» (1910), «O olmasın, bu olsun» (1911), «Arşın mal alan» (1913) əsərləri onun musiqi dünyasında öz yerlərini tutdular.

20-30-cu illərdə Üzeyirin musiqi dünyasına mahnılar, xor üçün yazılmış kantatalar axışdı... Sonra... Sonra elə bil hadisə baş verdi ki?! Səhnəmizdə Koroğluya geniş meydan verildi. Koroğlu gəldi səhnəmizə öz dəliləriylə. Koroğlu!

Bu, 1937-ci ilin 30 aprelində oldu. «Koroğlu» operası onun musiqi dünyasında öz şərəfli yerini tutmaqla opera sənətimizin yenilməz tacı oldu.

## Uşaqları sevmək azdır...

Üzeyirin ömür-gün yoldaşı Məleykə xanım Hacıbəyovanın xatirəsindən sətirlər: «O, həmişə uşaqların səsini, gülüşün eşitmək istəyirdi...

Yaşadığımız həyatin uşaqları ilə Üzeyir arasındakı səmimiyyətdən danışmaqla qurtaran deyil... Bəzən o, uşaqları ardınca düz otağa gətirir, özü pianonun arxasında əyləşir, müxtəlif mahnılar çalır, uşaqlara isə xorla oxumağı öyrədirdi...

Üzeyirin qohumlarının uşaqları tez-tez bizə gələrdi. Üzeyir onların təlim-tərbiyəsi ilə ayrıca məşğul olurdu. Bir dəfə uşaqlardan hansısa xörək yeyib ayağa qalxarkən Üzeyir onu çağırdı. O biri otaqda ona nə isə dedi. Bir azdan uşaq

pəncərənin ağzında dayanıb nə isə əzbərləyirdi. Mən ona yaxınlaşdım. Diqqətlə qulaq asdım. O, bu sözləri təkrar edirdi: «Durmaq olarmı?.. Çox sağ ol».

Sonra öyrəndim ki, bu sözləri Üzeyir öyrətmişdir. Xörək yeyildikdən sonra oynamağa və ya həyə düşməyə icazə almaq, sonra razılıq əlaməti olaraq «çox sağ ol» demək lazımdır».

Uşaqları sevmək azdır, onların tərbiyəsilə məşğul olmağı da sevmək lazımdır. Üzeyir Hacıbəyov kimi.

### Bir dahi vardı, yaxud ölümsüzlük

Bir dahi vardı. 1948-ci ildə noyabrın 18-də dünyaya göz yummuşdu. Amansız ölüm heç nəyə, heç şeyə baxmamışdı, aparmışdı onu – böyük şəxsiyyəti, dahi bəstəkarı. Ancaq sənətinə toxuna bilməmişdi ölüm.

Ölümsüzlük qazandı onun sənəti – Üzeyir Hacıbəyov sənəti. Ölümsüzlük!

*Avqust, 1984; sentyabr, 1990*

## GÜNƏŞƏ BƏNZƏDİLƏN DAHİ

### Kərbəladə bir uşaq dünyaya göz açdı

1494-cü il. Kərbəlada bir uşaq dünyaya göz açdı. Atası Süleymana xəbər çatdı ki, oğlu olub, ürəyi atlandı, sinəsində sözlər qatarlandı: «Bayatıların bir iyidi də artdı, sayımızı çoxaltdı. Qədəmi yüngül olsun, ad-sanımızı həmişə ucaltsın, ilahi! İştahan pis deyil Süleyman, çağa yenicə dünyaya gəlib, sən igidliklikdən, ucalıqdan dəm vurursan... Atayam da. Ata istəyinin qabağına səddmi çəkmək olar?!.»

Süleyman Bayat qəbiləsindəndi. Oğuz soylarının bir qolu olan Bayat qəbiləsindən. Bayatlar İraqda, ərəblərin əhatəsində yaşasalar da, öz doğma

dillərini, adət-ənənələrini göz bəbəyi kimi qoruyub-saxlayırdılar. «Dədə Qorqud kimi ulumuz, sazlı-sözlü ozanımız olub bizim», - deyirdilər.

Dədə Qorqud Süleymanın da dilindən düşməzdi. Onun müdrik sözlərindən tez-tez misallar çəkərdəi:

Baba malından nə fayda, başda dövlət olmasa?

Qız anadan görməyincə öyüd almaz.

Oğul atanın yetiridir, iki gözünün biridir.

## Məhəmməd

Gecəydi. Süleyman hələ yatmamışdı, oğluna ad fikirləşirdi. Pərəstiş etdiyi Dədə Qorqudun nə vaxt gəlib gözlərinin qabağında dayandığını o heç bilmədi. «Dədəm Qorqud, nəvənə ad qoymağa gəlmisən?! Fikir eləmə, elə ad qoyacağam ki, sənin də ürəyincə olsun. Qohum-əqrəba da bəyənsin, bayatlar da fərəhlənsin. Məhəmməd qoyacağam uşağın adını, Məhəmməd...»

– Adı ilə böyüsün, ay kişi, nə yaxşı ad tapmısan?!.

Sən demə, Süleyman son sözünü özü də hiss etmədən ucadan demiş, arvadı da eşitmişdi.

– Sən hlə yatmamısan?! – Süleyman arvadının qeydinə qalırmış kimi narahatlıqla soruşdu:

– Yox, Süleyman, - arvadı cavab verdi, - mən də fikirləşirdim... Sən məni qabaqladın.

– Yaxşı, nə qədər ki, Məhəmməd oyanmayıb bir hovur yuxula. Oyansa, yenə qoymayacaq yatasan...

Bir-birinə «gecən xeyrə qalsın!» çoxdan demişdilər. Susdular. Süleyman qaranlıqda gözlərini qapıya tərəf zillədi. Dədə Qorqud nə gəzirdi?! Xəyalındakı, qəlbindəki, dilindəki Dədə Qorquddu gəlib gözlərinə görünmüşdü.

Süleymanı fikir götürdü: «Dədəm Qorqud, ey böyük ulumuz, görək də, nəvən sənin dediyin oğullardan olacaqmı?! Mənim arzumu bilirsən. İstəyirəm o təkcə mənim adımı yox, bütün bayatların, oğuzların adını ucaltsın!..»

## Mütaliənin sonu yoxdur

Süleyman qohum-əqrəbasına, dost-doğmasına, tanış-bilişinə deyərdi: «Ac qal, yavan çörək ye, ancaq uşağını oxut!».

Məsləhət gördüyünü Süleyman özü birinci eləyirdi. Məhəmmədin oxumaq yaşı çatanda əlindən tutub mollaxanaya apardı. Məhəmməd yaxşı oxudu. Adı mollanın dilindən düşmədi. Süleyman fərəhləndi. Gözləri güldü.

Gün gəldi. Məhəmməd mollaxananı «Əhsən!», «Afərin!» eşidə-eşidə bitirdi. Bu dəfə atası onu Kərbəlanın yaxınlığındakı böyük şəhərə – Bağdada apardı. Məhəmməd Bağdad mədrəsəsində təhsilini bir az da həvəslə davam etdirdi. İllər keçdikcə o, elmin daha dərinliklərinə baş vurdu. Mədrəsəni də uğurla bitirdi.

Ancaq onun oxumağı, mütaliəsi bitmədi. Hey oxudu, oxudu... Başa düşmüşdü ki, insan ömrü boyu oxumalı, öyrənməli, heç vaxt mütaliəsini dayandırmamalıdır. O da dayandırmadı. Dövrünün elmlərini mənimsədi, zəmanəsinin ən bilikli adamlarından oldu.

O lap erkən yaşlarından şeirə vurğundu. Mədrəsədə oxuyanda yazmağa başlamışdı, şeirlə canbir, qəlbbir olmuşdu. Mədrəsəni qurtarar-qurtarmaz taleyi artıq öz hökmünü vermişdi: o yalnız şair olacaqdı! Bəs elmləri niyə belə ehtirasla öyrənirdi? Bir az sonralar o, azərbaycanca divanının dibaçəsində yazacaqdı: «..Elmsiz şeir əsası yox divar olur və əsassız divar ğayətdə bietibar olur».

## Füzuli

Təbi rəvan, ilhamı güclü Məhəmməd özünə təxəllüs seçə bilmirdi. Gündə bir təxəllüs götürür, bir müddət sonra həmin təxəllüsü işlədən şairə rast gəlir və onu atırdı. «Demə, məndən əvvəl gələn dostlar ibarələrdən çox təxəllüsləri götürmüşlər».

O elə bir təxəllüs götürmək istəyirdi ki, onu heç kəs işlətməmiş olsun. «...Əgər şeirdə başqaları ilə müştərək bir təxəllüs götürərsəm, müvəffəq olmayanda mənə zülm olar, müvəffəq olanda ortağıma zülm etmiş olaram».

Şair hey fikirləşir, düşünüb-daşınırdı. Nəhayət, bir axşam öz-özünə dedi: «Füzuli... bu sözü təxəllüs götürəcəyəm... və onun himayəsinə sığınacağam...

Axı, Füzul sözü fəzlin cəmidir. Füzuli sözünün xalq arasında başqa bir mənası da vardır. Bu da ədəbə müxalif deməkdir».

O qət etdi. Həmişəlik özünə təxəllüs götürdü: Füzuli.

Onun dünyaya deyəcəyi sözləri çoxdu. Odur ki, vaxt itirmədən yazdı, yaratdı. Elə şöhrətləndi, elə şöhrətləndi ki, səsi-sorağı dünyaya yayıldı və təxəllüsünün ikinci mənası barəsində heç düşünən də olmadı. Hamı onu elə birinci mənasında qəbul etdi, sevdi, ürəyində ona yer verdi.

## Üç dildə

Təzkirəçilərimizdən Sadiqbəy Əfşan Məhəmməd Füzuli barəsində iftixarla yazmışdır: «...Heç bir insana bu istedad səadəti əl verməyibdir ki, türki, farsi və ərəbi kəlama bu qədər qadir olsun».

Qadir Füzuli Azərbaycan dilində şeirlər divanı, «Leyli və Məcnun» poeması, «Bəngü Badə», «Söhbətül-əsmar» alleqorik poemaları, «Şikayətnamə» və s. əsərləri yazmışdır. Fars dilində onun şeirlər divanı, «Səhhət və Mərəz», «Rindü Zahid», «Həft cam» («Yeddi cam») və s. vardır. Ərəb dilində isə şair «Ənisülqəlb» («Ürək dostu») kimi həcmcə ən böyük qəsidəsini və qəsidələrini, «Mətləül-etiqad» adlı elmi fəlsəfi əsərini qələmə almışdır. Füzuli bədii tərcümə ilə də məşğul olmuşdur. Onun «Hədisi-ərbəni» («Qırx hədis»), «Hədiqətüs-süəda» («Xoşbəxtlər bağçası») adlı tərcümələri vardır.

Dahi Füzuli uşaqlar üçün də əsər yazmışdır. Bu, «Söhbətül-əsmar», yəni «Meyvələrin söhbəti» adlı alleqorik əsərdir.

Təsəvvür edin ki, bir bağdasınız. Qulağınıza hər yandan səslər gəlir. Yan-yörənizə nəzər salın. Kimsəni görməyəcəksiniz... Danışan, daha doğrusu, mübahisə eləyən meyvələrdir. Bir qulaq asın:

Zərdalı (ərik) lovğa-lomğa özünü öyür. Alma ona deyir:

Key qarnı vərəmli, sinəsi çak...
Vey caməsi tozlu, zəlləti xak...
Hər kim səni yedi qarnı şişdi.
Dəryayi-bəla içinə düşdü.

Əryi tənqid edəndən sonra Alma da özünü öyür. Bu, Əmrudun (armudun) xoşuna gəlmir, ona cavab verir:

Gər qabili-iftixar olubsan?
Alma adını neçün qoyubsan?
Gər yaxşı olardın al deyərdin.
Alma neçün adını qoyardın?

Bağda Gilas, Heyva, Nar, Şaftalı, Üzüm və s. meyvələr beləcə başqasını pisləməklə özlərini öyürlər.

Böyük şair bu əsərilə bir-birini bəyənməyən lovğa adamlara istehza ilə gülür, onları təvazökar olmağa çağırır.

Yüzulinin tərbiyə ilə əlaqədar nəsihətamiz, hikmətli, poetik fikirləri, düşüncələri çoxdur. Bir-ikisi ilə tanış olun:

Düzlükdə artmışdır sözün qiyməti,
Düzlükdür hər şeyin ilk məziyyəti.

***

Yoxdursa meyvədə ağaca ehtiyac əgər,
Meyvə ağacda tutmamalı boş yerə məkan.

***

Mal çox yığma, həzər eylə əzabından kim,
Rənci artar ağır olduqca yükü həmmalın.

**«Salam verdim, rüşvət deyildir deyə almadılar»**

Sultan Süleyman Bağdadda olanda Füzuli təqaüddən ötrü ona ərizə verir. Sultan da ayda doqquz ağça alması üçün ona barat göndərir. Ancaq Füzuli bu pulu ala bilmir. Təqaüd alacağı yerə gedib gəlməkdən cana doyur: «Əcəb özümü işə saldım. Gərək heç ərizə verməyəydim... Elə dedilər ver, ver, köməyi olar. Mədədçi yoxdur, neyləyim?! Cəfaçı dünyada iltifatsız oldum.

Taleimdir mənə cəfa gətirən,
Hər anında min bəla gətirən.

Neyləyim, əldən nə gəlir?..»

Dahi şairin əlindən o gəldi ki, oturub yaşadığı dövrün haqsızlığından etiraz səsilə dolu məşhur «Şikayətnamə» əsərini – bədii məktubunu yazdı. Məktubda onu get-gələ salan idarə məmurlarını, onların süründürməçiliyini, acgözlüyünü, rüşvətxorluğunu damğaladı:

Salam verdim, rüşvət deyildir deyə almadılar
Hökm göstərdim – faidəsizdir deyə mültəfit olmadılar.

**Kərbəlada bir dahi dünyaya göz yumdu**

Məhəmməd Füzuli İraqi-Ərdəbin bir sıra şəhərlərində: Bağdadda, Hillədə, Nəcəfdə yaşamışdır. Sonralar doğulduğu məskəninə – Kərbəlaya gəlmiş, elə burada da 1556-cı ildə taun xəstəliyindən vəfat etmişdir.

Doğulduğu torpaqla – Kərbəla ilə Füzuli həmişə fəxr etmişdir:

Ey Füzuli, məskənim çün Kərbəladır, şerimin
Hörməti hər yerdə vardır, xəlq onun müştaqıdır.
Nə qızıldır, nə gümüş, nə lələ, nə mirvarıdır,
Sadə torpaqdırsa, lakin Kərbəla torpağıdır.

## Ürəklərin fatehi

Füzuli poeziyası həmişəyaşardır.

İngilis şərqşünası Kibb yazmışdır: «Dühasının orijinallığı ilə məşhur olan Füzuli Şərqdə parlayan günəşə oxşadıla bilər».

Günəş kimi Füzuli poeziyası da əbədidir.

Kibb bir də demişdir:

«Füzuli Şərqin yetişdirdiyi ən səmimi, ən həssas şairdir».

Səmimi, həssas poeziya həmişə ürəklərdə yuva qurar. Ürəklərin fatehidir Füzuli.

*İyul, 1985*

# POVESTLƏR

# YAŞIL TƏPƏ DÖŞÜNDƏ

*Elman Ağazadənin əziz xatirəsinə*

## I

Kənddə çətin adam tapılardı ki, təpə döşündəki qoşa məzara baş çəkməsin, orada əbədi yuxuya gedənlərin xatirəsini yad eləməsin. Ancaq o hamıdan fərqli buraya tez-tez gəlir, qəbirlərin yanında əyləşib düşünürdü...

Kəndin yaxınlığında idi təpə. Yaz gələndə yaşıl məxmərdən don geyər, bir də yerə ilk qar düşəndə onu əynindən çıxarırdı. Yəqin buna görə də ona yaşıl təpə deyirdilər. Yaşıl təpənin yan-yörəsi səfalıydı. Burada bir-birindən otuz-qırx metr aralı basdırılmış dirəklərdə axşamlar elektrik lampaları yanırdı. Ağır işdən sonra kəndin cavanları buralara gəzməyə çıxırdılar. Təpənin üstündə çiçəklərin xoş rayihəsini duya-duya neçə oğlan neçə qıza öz məhəbbətini açmış, ürək sözlərini bir-birinə demişdi. Yaşıl təpə sevişən gənclərin sanki xeyir-dua verəni olmuşdu.

Qoşa məzar səliqə ilə hasara alınmışdı. Qəbirlərin dörd tərəfində ağ, qırmızı, bənövşəyi rəngli güllər əkilmişdi.

Kənddən qoşa məzaracan yol ağarırdı. Gecələr uzaqdan baxanda, adama elə gəlirdi ki, yaşıl təpədən kəndə bulaq axır.

O bu gün də adəti üzrə qoşa məzarı dövrəyə almış hasara yaxınlaşıb, onun kiçicik qapısını açdı, içəri girib qəbirlərin önündə diz çökdü; məhzun baxışları qəbirlərə dikilib qaldı, gözlərindən ixtiyarsız yaş damlaları axdı, axdı, yanaqlarında zolaqlar buraxdı... Xəfif meh əsdi, onun dümağ saçlarını oynatdı.

O, ayağa durdu, xaç çevirdi, dərindən-dərinə köksünü ötürdü, kiçik yaylığı ilə gözlərinin yaşını sildi.

Kimdir bu ixtiyar qadın? Qoşa məzardakılar onun nəyidir?

Siz soruşmasanız da mən bu sualları baxışlarınızdan oxuyuram. Səbr edin, səbr edin, hər şeyi biləcəksiniz...

## 2

Hər iki tərəfdən xırda söyüd ağacları ilə əhatə olunmuş geniş yolla gəlin gətirilirdi. Təxminən qırx beş yaşında görünən güər üzlü yengə qoşa zurnadan süzülən təranə altında sındıra-sındıra oynayırdı. Onun arxasınca sağında və solunda qız yengələri olduğu halda duvağa tutulmuş gəlin yavaş-yavaş irəliləyirdi. Gəlinin sağ qolundan tutmuş iyirmi yaşlarında, mütənasib bədənli qız tez-tez gəlinin qulağına pıçıldayırdı:

«Bu gecə muraduva çatırsan eee, bəxtəvər!..»

«Hər şey ürəyincə, istəyincə olsun, yarıyasan!..»

«Qədəmin sayalı olsun, getdiyin evi bərəkətlə doldursun!..»

«Arvuza qovuşursan eee, bəxtəvər, belə sənə qurban olum!..»

Dəstə evə yaxınlaşanda yengə yaşına uyğun olmayan bir cəldliklə eyvana qalxdı, üzünü camaata tutub gülə-gülə sevdiyi bayatını oxudu:

Mən aşıq, qız aranda,
Yanağın qızaranda.
Oğlan murada çatar
Toy tutub qız alanda.

– Sağ ol səni, Gülsüm bacı, səni mən heç bu cür bilmirdim, görək oğlun Bəxtiyarın toyunda necə oynayıb sındıracaqsan?! – ortaboylu, enlisifətli, yoğun bığlı toy ağası Həsən yengə ilə zarafatından qalmadı.

– Təki toy olsun, Həsən qardaş, oynamağa nə var ki?.. – yengə əlüstü cavab verdi.

Gəlin eyvana çıxarıldı. Qoşa zurna daha da coşdu.

Gəlini eyvanda təxminən qırx beş-qırx səkkiz yaşlarında gümrah bir arvad gözləyirdi. Saçlarına tək-tək dən düşmüşdü onun, enli, uzun tumanının ətəkləri yerlə sürünürdü. Bu gün oğlunun toyunda geyinib-kecinmişdi. Gəlinlik dövründən

əzizləyə-əzizləyə sağladığı baftalı arxalığı onu yaraşığa mindirmişdi. Bu günü o, ömrünün ən əziz günlərindən sayırdı. İllərdən bəri bəslədiyi arzusuna çatmışdı.

Həsən ona da söz atmaqdan özünü saxlaya bilmədi:

– Gör indi səni nə qədər oynadacağam Xanım bacı, Azərin toyudur, boyun qaçıra bilməyəcəksən.

Özlüyündə düşündü: «Ölmüşün hələ canı suludur, adamın tamahı düşür...»

Azər Xanımın ilki və sonbeşiyi idi. O, ərini çox erkən, Azər iki yaşında olanda itirmişdi. Əri Hidayət ali təhsilli ruhani idi. Nəcəfdə oxumuşdu. Kəndin axundu idi. Bolşeviklər gələndə onu axtarırlar. O, bu vaxt hamamda olur. Tutmaq üçün arsacınca hamama gedirlər, müqavimət göstərdiyindən onu elə oradaca güllələyirlər.

O irəli yeriyib başı üstündən nabat səpələdi. Sonra elə duvağın üstündəcə onun alnından öpdü.

***

Toy davam edirdi. Gecə yarısı Bəxtiyar fürsət tapıb gəlini müşayiət edən mütənasib bədənli qızı bir təhər bayıra çıxara bildi.

Həyətə endilər. Tut ağacının altına gəldilər. Azərgilin həyətində gövdəli, qollu-budaqlı bu ağacın yan-yörəsi Bəxtiyarın ən çox xoşladığı yerdi. Azər deyirdi ki, ağac atasından yadigardır.

Aydın gecəydi, on dörd günlük ay başları üstündəydi. Yüngül meh əsir, ağacın yarpaqlarını xışıldadırdı. Toyun şən, oynaq musiqisi gecənin sakitliyi içərisində ayrı cür səslənirdi.

Bəxtiyar Aynanın girdə sifətini, çənəsindəki kiçik qara xalları diqqətlə süzüb onun barmaqlarını iri ovucu içərisinə aldı:

– Darıxma Ayna, bu vaxtacan gözləmisən, bir az da...

Ayna giley-gileyli onun sözünü kəsərək:

– Elə hey «gözlə», «gözlə» deyirsən, - dilləndi. – Səbəbi də nəymiş gözləməyin: nə var, nə var Azər bundan bir yaş böyükmüş! İndi doğmaca qardaşlar, bu adəti gözləmirlər. Sənsə...

Bəxtiyar əlüstü onun sözünü kəsdi:

– Biz doğmaca qardaşdan da yaxınıq, Ayna can!.. Özü də Azərin əli yüngüldür, bu gün səhər ertə ona dedim ki, qardaş, sağ əlini çək başıma. O da ürəklə, dostyana çəkdi...

Azər, Bəxtiyar, Məmməd. Çox yaxın və mehriban olan bu üç yoldaşı kənddə həmişə bir yerdə görməyə alışmışdılar. Azər yaşca dostların ən böyüyü idi. Onun iyirmi bir, Məmmədlə Bəxtiyarın isə iyirmi yaşı vardı. Azər çayçılıq təsərrüfatına başçılıq edirdi. Bəxtiyar sıravi kolxozçu idi. Məmməd bir ildi ki, hesabdardı. Bir neçə il bundan qabaq dostlar sözü bir yerə qoymuşdular ki, eyni ildə evlənsinlər, ev-eşik sahibi olsunlar. Hamıdan qabağa Azər düşmüşdü. Bəxtiyar nişanlanmışdı. Azərin ardınca o da toy eləmək fikrindəydi. Məmmədinsə gözaltısı olsa da hələ bu barədə qərara gəlməmişdi.

Həsən toy keçirilən otağın eyvanında göründü, o tərəf-bu tərəf boylanıb:

– Bəxtiyar, ay Bəxtiyar! – çağırdı. – Bu haramzadəni lazım olanda tapmaq olmur ki?.. İndi nə bilim nişanlısıyla hara əkildi?..

Bəxtiyar pıçıltı ilə Aynaya dedi:

– Gör ha, zalım oğlu hər şeyə fikir verir, səni aradan çıxartdığımı necə də başa düşüb?! Ayna da narazı-narazı:

– Mənim ondan heç xoşum gəlmir, - dedi. Qız-gəlinlər danışırlar ki, şorgözün biridir...

– Vallahı onun başına bir oyun açaram sənə əyri gözlə baxsa o da adamını tanıyır.

– Bəxtiyar!.. – Həsən bu dəfə qışqırdı.

Ayna pıçıldadı:

– Sən allah Bəxtiyar, səsinə səs vermə, qoy qışqıra-qışqıra qalsın!..

– O da, bax, mənim bu gözlərim üstə! – Bəxtiyar Aynanın qulağına pıçıldadı və onu öpdü.

Ayna Bəxtiyarın əlindən qurtarmağa cəhd elədisə faydası olmadı. Bəxtiyar bir də, bir də öpdü.

Axır ki, Ayna onun qolları arasından çıxa bildi, yaman hirslənmişdi, di gəl ki, Bəxtiyardan çox uzaqlaşa bilmədi. Həsən hələ də eyvanda idi.

Bəxtiyar sevdiyinin hirsi soyusun deyə günahkar-günahkar pıçıldadı:

– Ayna can, bir öpüşü də adama çox görürsən. Belə də zülm olar?!

Ayna da acıqlı-acıqlı:

– Olar, - dedi, - sənə bu da azdı.

Bəxtiyar yazıq-yazıq:

– Niyə ki, ayna can?! – soruşdu.

Ayna bir az da acıqlı:

– Niyə ki, niyə ki?! Ona görə ki... başladın dayanmaq bilmirsən. Dalı gedəcək ha!..

– Bəs eşitməmisən xalq bayatımızda deyiləni?! Bir qulaq as:

Mən aşıq yalqız alma,
Ağacda yalqız alma.
Yardan öpüş alanda
Cüt-cüt al, yalqız alma!

Həsən o ki var qışqırdı, səsinə səs verən olmadığını görüb içəri keçdi.

Bəxtiyar dedi:

– Qışqıra-qışqıra qaldı fağır.

Ayna özünü saxlaya bilmədi:

– Ay onun fağır başı batsın. Mənə düzü bir pisliyi keçməyib, amma görməyə gözüm yoxdur onu.

Bəxtiyar Aynanın sözlərinə sevindi.

– Ayna, zalım oğlu, Aşıq Vəlinin həcvini heç unuda bilmir ha! Hərçənd, Vəlinin oxuduğu:

Yük üstə güllü xalça,
Kim qaldıra, kim aça
O yara qurban olum,
Dindirə, könlüm aça –

bayatısından sonra zarafata salıb dedi ki, bu kəlamdan sonra keçdim sənin bütün günahlarından, Vəli. Amma yox, keçməyib.

Bəxtiyar zənnində yanılmırdı ki?..

Briqadir işləyən Vəli həmişə yox, yer düşəndə, aşıqlıq edirdi. Məlahətli səsi vardı. Saz çalmağı da yerindəydi. Ancaq özünün yaradıcılığı yoxdu. Çox nadir hallarda, təsadüfdən-təsadüfə özündən söz deyərdi. Belə təsadüflərdən biri də toy ağasının payına düşmüşdü. Bir neçə il bundan əvvəl hələ toy ağası Həsən Dünyamalıyev kolxoz sədri olmamışdan qabaq Vəli zarafatyana onun enli sifətinə görə çox byöük görünən burnunu «vəsf» eləmişdi. Qoşma bu bəndlə başlayırdı:

Bu necə burunlu, necə, ay Həsən?
Tapılmaz heç yerdə ona tay, Həsən!
Kiloluq badımcan kiçikdi ondan,
Görən qorxub deyər:  - «Dədəm vay!» - Həsən.

Həsən onda sahə briqadiri işləyirdi. Vəli də onun briqadasındaydı. Bir dəfə o, istirahət vaxtında Həsənə yazdığı həcvi briqada üzvlərinə oxumuş, elə o gündən də qoşma camaat arasında yayılmışdı. Həsən sədr olandan qoşmanı açıqda yada salan yox idi. Xəlvətdə isə deyib-gülüşən tapılırdı. Bunu Həsən də bilməmiş deyildi. İndi də toyda zarafata salıb bunu özü ağartmaqla göstərmək istəyirdi ki, bu, heç onun vecinə deyildir. Əslində isə Həsən bunu unuda bilmirdi. Özünü Vəliyə borclu hesab eləyirdi. Fürsət axtarırdı Vəlini sancsın. Vəli də buna imkan vermirdi: işini yaxşı tuturdu, aşıq Ələsgər demişkən, el içində pak oturub, pak dururdu.

– Bəxtiyar, Vəlinin oxuduğu ikinci bayatıdan heç olmaz:

Ağaclar xəzəl olsa
Sünbüllər gözəl olsa,
Ürəkdə dərdim qalmaz
Adaxlım gözəl olsa! –

– Əlbəttə düz deyirsən. Məsələn, mənim bu sarıdan heç bir dərdim yoxdur. – Bəxtiyar istədi Aynanı yenə özünə tərəf çəkib öpsün.

– Yaxşı, yaxşı, bəsdi, zarafata salma, - Ayna mane oldu.

– Ayna, heç bilirsən bu bayatıyla Vəli sədri necə yaxıb-yandırdı. O çalıb oxuyanda mənim fikrim Həsəndəydi. Qapqara qaralmışdı yazıq. Arvadı axı çox kifirdi onun.

– Özü dünya gözəlidi ki?!

Bəxtiyar:

– Necə olsa da, o yenə kişi xeylağıdı, arvad qəşəng olsa yaxşıdı da. Elə deyil?!

– Siz kişilər yaxşı bilərsiz.

## 3

Əlli beş-altmış yaşlarında görünən, qonur çöhrəli Bilal kişini öz həyətində böht aparmışdı.

Arvadı Gülsüm xurcuna oğlu üçün yol azuqəsi, yun corab və s. qoyur, hərdənbir dəsmalını gözünə aparırdı.

Bəxtiyarla Ayna onlardan bir az aralı dayanmışdılar. Ayrılıq saatı yaxınlaşırdı. Hər birisinin ürəyindən nələr, nələr keçmirdi bu anlar. Onlar ancaq indi, həyatlarında birinci dəfə olaraq ayrılığın acılığını, onun böyük, ağır bir daş kimi yumruq boyda ürəyin üzərinə çöküb onu necə amansızcasına sıxdığını hiss

edirdilər. Elin ayrılığa aid qoşuduğu bayatı bu an hər ikisinin qulağında cingildəyirdi:

Əzizim olmayadı,
Saralıb solmayaydı.
Bir ayrılıq, bir ölüm
Heç biri olmayaydı!..

Bəli, ayrılıq, ölümlə yanaşı qoyulan ayrılıq! İnsafsızlıqdır, bir-birinə bağlı ürəkləri ayıran ürəksizdir, ayrılıq! Ürəksizdir!

Bir az gec gəlsəydin nə olardı, hə? Axı biz toyumuzu eləməyə hazırlaşırdıq, başa düşürsən, toyumuzu! Eh, sənin nə vecinə! Sən ki, başqalarının arzu-kamını ürəklərində qoymağa alışmısan, adətkərdə olmusan!..

Bu hisslər, ayrılıqdan doğan giley-güzar onların hər ikisinin düşüncəsinə hakim kəsilmişdi idi. Lakin bu haqda heç biri dilinə bir söz gətirmirdi, gətirməyə qorxurdu. Sözsüz də hər şey məlumdu. Onlar bir-birinin ürəyindən keçənləri aydınca başa düşürdülər.

Nəhayət aralığa çökmüş dərin sükutu Bəxtiyar pozdu:

– Ayna!..

Aynanın iri, ala gözləri Bəxtiyarın iti baxışlarına zilləndi.

– İndi sən gözləməli, çox gözləməli olacaqsan, Ayna!..

– Əzizim, gözlərəm, indi nə qədər desən, gözlərəm, ömrüm boyu gözlərəm!

– Sağ ol, Ayna, sağ ol!

Bəxtiyar Aynadan ayrılıb ata-anasının yanına gəldi, atası ilə görüşdü, anasını qucaqladı, öpdü.

– Sağlıqla qal, ana!..

– Sağlıqla qayıdasan, ay bala!..

– Darıxma, ana, darıxmayın, bildiz!

– Allah köməyin olsun, ay bala! – ər-arvad bir ağızdan dilləndilər.

Bəxtiyar anasının bayaqdan doldurduğu xurcunu götürüb yola çıxdı və:

– Azərrr! – çağırdı.

Azər anasının boynuna sarılmışdı. Bəxtiyarın səsini eşidən kimi anasından ayrıldı. Peyhana doğru getdi. Reyhan qollarını onun boynuna doladı.

Xanımın gözləri yaşarmışdır. Bunu gənclərə hiss etdirməmək üçün üzünü o yana çevirib köksünü dərindən ötürdü. «Bir az sevinmişdim, gözümdə qaldı, ilahi!» Əllərini yuxarı qaldırıb:

– Allah, sən özün zamin ol! – dedi.

Azər Reyhanın gözlərindən təkrar-təkrar öpüb onları ilkin görürmüş kimi diqqətlə seyr elədi və astaca pıçıldadı:

– Ər-arvadlığımız iki ay da çəkmədi, gülüm, - dedi.

Reyhan qüssəli və düşüncəli gözlərini ərinin gözlərinə zillədi:

– Eh, Azər can! Biz iki ürək bir canda yerləşirdik. İndi bunlardan birisi gedir. Ancaq əminəm ki, ürəelərimiz həmişə olduğu kimi yenə də bir yerdə olucuq. Həm sənin yanında, həm mənim yanımda, həmişə bir yerdə!

– Doğrudur, gülüm, sevən ürəklər ayrı cür ola da bilməzlər – Azər Reyhanın sözlərinə qüvvət verdi.

– Bir də Azər can, bilirsən? – Axı mən... – Reyhan sıxıldı, yaqanlarında xəfif qızartılar zahir oldu, utandığından sözlərinin gerisini deyə bilməyib başını aşağı saldı.

– Əzizim, mənim canım-ciyərim, adını Hidayət qoyarsan. İşdir bəlkə səfər ağır oldu, qayıtmadım...

– Elə demə əzizim, yoxsa ürəyim partlar! Azər can, bilirsən, mən onu necə oxşayacağam, sənin iyini ondan alacağam.

Onlar qucaqlaşıb öpüşdülər...

Azər rayon mərkəzinə aparan geniş yola çıxanda Bəxtiyarın onu gözlədiyini gördü. Birlikdə dəstəyə yaxınlaşdılar.

Hamının üzündən kədər yağırdı, kədər!..

Dəstə yola düşəndə Gülsümün gözlərindən iki damla yaş yanaqlarına yuvarlandı, dodaqlarından ixtiyarsız bu sözlər çıxdı:

– Allah amanında!..

Hamı bu sözü təkrar elədi:

– Allah amanında!..

**4**

Günün qızmar vaxtı idi. Bilal kişi xırmanda döyülmüş taxılı samandan təmizləmək üçün havaya sovururdu. O, cəld işləyir, istinin fərqinə varmırdı. Ancaq hərdən bir dayanıb boynundan salladığı dəsmalla üz-gözünün tərini silirdi.

Taxıl dərzləri yüklənmiş araba xırmanın yanındakı dərz tayalarına yaxınlaşdı. Altmış yaşında ağsaqqal arabaçı arabadan düşüb gətirdiyi dərzləri boşaltdı. Sonra arabanı xırmanın beş addımlığındakı söyüd ağaclarına tərəf sürüb öküzlərin boyunduruğunu açdı, onları meşəyə tərəf hayladı. Öküzlər baş alıb getdilər. Özü isə gəlib söyüd ağaclarının kölgəsində oturdu, cibindən uzun çubuğunu çıxarıb tütünlə doldurdu, tütün kisəsindən kiçik daşı və çaxmağı axtarıb tapdı, onları qüvvətlə bir neçə dəfə bir-birinə vurub əmələ gələn qığılcımdan pambığı alışdırdı və pambıqla çubuğunu yandırdı. Bir-iki qullab vurandan sonra diqqətlə ətrafı müşahidə etməyə başladı. Bağlamanın yanındaca su ilə dolu sənək dururdu. Aclıq ağsaqqal kişiyə yamanca yer eləmişdi. O, üzünü taxıl sovuran Bilala tutub ucadan dedi:

– Ay Bilal, deyəsən axı sən bu gün nahar-zad eləmək xəyalında deyilsən! Ay kişi, işləməyin də bir təhri var ya yox?!

Bilal bir anlıq əlini saxlayıb:

– Əhməd, qoy bu əlimdəkini qurtarım, - dedi, sora gəlim nahara da. Nahar qaçmır ha!..

– Belə məsələ ondadı ki, mən qaçıram.

– De onda qurbandı sənə, ƏHməd, sən başla, mənsiz başla.

– Heç elə şey olar a kişi, sənsiz mən heç o dünyaya getmərəm, o ki, qaldı nahar aşırmaq olsun. Gəl bir yerdə nuşi-can eliyək, fatihəsini oxuyaq.

– Gəl deyirsən gəlim də, sən məni evləndirsən də sözündən çıxmaram.

– Bax, burda mənə üz vurma, Bilal, amanın günüdü, Gülsüm bacının cənginə salarsan məni, sora heç yaxamı əlindən qurtara bilmərəm.

Bilal xırmandan çıxıb Əhmədin yanına gəldi. Dəsmalı boynundan açıb alnının tərini sildi. Sənəkdəki su ilə əl-üzünü yuyub Əhmədlə qarşı-qarşıya oturdu. Bağlamanı açıb ortalığa qoydu.

– Bilal, lap məəttəl qalmışam axı? – Əhməd kişi pendir tikəsini çörəyin arasına qoya-qoya dilləndi.

Bilal kişi təəccüblə onun üzünə baxıb:

– Nəyə, balam? – soruşdu.

– Bu arvad-uşağın işinə! A kişi, keçən il biz kişilər həmin təpə döşündəki böyük tarlanı düz altıca günə biçmişdik. İndisə a başına dönüm, bunlarnan üççə günə qurtardıq.

– Sədrin zoruna desənə. Çomaq kimi dayanmışdı başlarının üstündə, nəfəs dərməyə macal vermirdi. Hünərləri vardı işi bir balaca zəiflədə idilər...

– Orası sən deyəndi, Əhməd, sədri mən heç belə sərt rəftarlı görməmişdim.

– Yəqin onnan da tələb eliyən var.

– Əlbəttə var? Davadı da. Sədr də dava qayda-qanunuynan işləməyi tələb eliyir. – Bilal sənəyi ağzına alıb nurthaqurtla içməyə başladı. Doyandan sonra yerə qoyub dedi: - Ancaq di gəl ki, ağzı yavadı şorgöz köpəkoğlunun... Nə qız-gəlin bilir, nə arvad-uşaq...

– Yava dedin qoydun, Bilal. Müharibədi deyən əlinə fürsət düşüb adamları söyməyə... Neyləyəsən?!

– Heç nə. Dava salanların görüm beli qırılsın, dərdlərinə dərman diləsinlər, tapa bilməsinlər!.. İsti aşımıza soyuq su qatdılar... Yamanca işə saldılar bizi!..

– Məxləs, Biləl, uzun zırıltıdı düşmüşük. Bu müharibə bizi var-yoxdan da, abır-həyadan da eliyəcək deyəsən... Oğul istəyirəm bu zırıltının qabağında duruş gətirsin, abır-həyasını, namusunu qorusun!..

Sədr meşə tərəfdən qara kəhərini onlara tərəf sürürdü. Qabaqca Bilal gördü bunu:

– Adını tutdun, qulağın çək, odu gəlir. Əhməd, ancaq qorx ki, bizim qulağımız onun əlinə keçməsin.

Həsən atdan düşüb, kəhərin cilovunu arabaya bağladı, onların lap yaxınına gəldi, salam-kəlamdan sonra soruşdu:

– Dincəlirsiz?

Bilal dilləndi:

– Günortadı da. Allah verəndən yedik. Elə ayağa dururduq...

Sədr axıracan onu dinləmədi:

– Güvəndiyim sizsiz. Əhməd, dərz üçün sən yenə gedəcəksən də?

– Gedəcəyəm, əl-əlbət gedəcəyəm, - Əhməd fəövrən cavab verdi.

Sədr arxayınlaşdı:

– Sizə sözüm yoxdu mənim, axıracan belə olsun. Mənə bir sözüz yoxdu ki sizin?

– Xeyir yoxumuzdu, - Bilalla Əhməd bir ağızdan dedilər.

– Elədə mən getdim, - Həsən bunu deyib atının yanınan gəldi, minib kəndə çapdı. «Daha dözə bilmirəm... Bu gün... necə olsa bu gün... Əl-əlbət... bugün...»

At onun həyət qapısına çatmışdı, içəri sürdü, tez düşüb atı tövləyə saldı; sürətli addımlarla kitabxanaya tələsdi.kitabxana xolxoz idarəsi olan ikimərtəbəli binanın birinci mərtəbəsindəydi. İdarənin həyətində sədrin gözünə heç kəs dəymədi. Hesabına görə dəyməməliy də. Bunu o yaxşı bilirdi. Axı bucün səhər tezdən özü şəxsən nəzarət eləmişdi ki, hamı işə çıxsın. «Məmə yeyəndən pəpə yeyənə kimi». Bu sözləri o çox xoşlayırdı işlətsin. Göstərişinə hamı da əməl eləmişdi. Başqalarına görk olsun deyə öz arvadını da işə göndərmişdi. İdarəsində də bir adam qoymamışdı qalsın. Gün batanacan hamı iş başında olacaqdı. «Əsl vaxtıdı, Həsən... Dərə xəlvət, tülkü bəy...»

O, kitabxananın qapısını açıb içəri girdi. Qapını örtəndə cəftəsini də keçirtdi. Bunu elə cəldliklə elədi ki, özünün də xoşu gəldi. «Hələ ki, hər şey istədiyim kimi gedir...»

Sədrin çoxdan ələ gətirmək üçün tələ qurduğu, gecələr arvadı ilə yatanda da gözlərinin qabağında dayandığı, həsrətiylə yandığı Şəfa içəridə təkdi. Qapı

açılanda içəri otaqda olduğundan sədrin cəftəni keçirməsini görmədi. Qapının səsinə bu biri otağa keçəndə sədrlə qabaq-qabağa gəldi. Salamlaşdılar. Sədr ərkyana, həm də arxayınlıqla soruşdu:

– Adamsız, oxucusuz darıxmırsan ki?! Hamı işdədi. İdarədə də heç kəs yoxdu. Bircə sənə qıya bilmirəm, Şəfa can.

Şəfa sıxıldı, utandı, qızardı, oddan çəkinirmiş kimi dedi:

– Xahiş eləyirəm, Həsən dayı, mənə «can» deməyin. İstəyirəm məni də kolxoz işinə göndərəsiz. Burda oturub neyləyirəm ki?!

– Mən ölmüşəm ki, sənin kimi xanım gəlini ağır işə göndərim. Sənin əvəzinə arvadımı göndərirəm. Canı bərkdir o kifircənin. Səni isə qorumaq lazımdı, ölməmişəm ki...

– Siz allah, Həsən dayı, elə sözlər deməyin, xəcalət çəkirəm, - Şəfanın səsi titrədi.

– Xəcalətli səni gözü götürməyənlər olsun. Sən fəxr elə ki, kəndimizin birinci gözəlisən. Bilirsən, nə qədər paxıllığını çəkən arvadlar var.

– Onların da işi-gücü qurtarıb, nəyim gözəldi ki, mənim?!

– Hər şeyin, göyçəkcə! – Həsən Şəfanın əlindən tutdu, - hər şeyin!

Şəfa əlini onun iri barmaqları arasından çıxarmağa cəhd elədi, çox gücəndi, Həsən tutduğunu buraxmadı.

– Devin canı şüşədə olduğu kimi Həsənin də canı sənin əlindədi, ay mənim göyçəyim, - deyən sədr onu alıcı quş kimi çəkə-çəkə ikinci otağa apardı, qolları arasına aldı, sıxdı.

Şəfa nə qədər çalışdısa qarmaq kimi onu sarımış qolların arasından çıxa bilmədi. Get-gedə qarmaq daha da bərkiyir, Şəfa süstəlirdi. Bunu hiss eləyən sədr ounun üzündən, qulağının dibindən öpürdü. Şəfa artıq müqavimət göstərə bilmirdi. Həsən onu bir həftə bundan qabaq məxsusi kitabxana üçün aldığı təzə divanın üstünə yıxdı.

– Kifircənin, başı batmış arvadımı deyirəm, kifir üzündən cana doymuşam, heç olmasa sən məni cana gətir, göyçəyim! Cana gətir məni, gözümün işığı. Allahım ol, qulun olum, quluna rəhm eələməyə çalış, başına dönüm.

Şəfa yalvarmağa başladı:

– Sən allahın, Həsən dayı, sən mənə rəhm elə, el-oba içində məni biabr eləmə.

– Bir sən biləcəksən, bir mən, ay səfeh...

Həsən onun paltarını qaldıranda Şəfanın səsi ucaldı:

– YOx, nə edirsən, Həsən dayı, yox, qoymaram, qoymaram, şikayətə...

Həsən dodaqlarını onun dodaqlarına elə kip yapışdırdı ki, Şəfanın daha səsi çıxmadı...

***

Kəhər asta-asta gedirdi. Sədr yırğalana-yırğalana onun belində oturub fikirləşirdi. «Köpəyin qızı göyçəkdi, doğrudan da indiyəcən belə can əlimə keçməmişdi. Bildim indi Vəli köpəkoğlu nə kef çəkirmiş...»

At xırmanın yanından keçdi. Xırmandakılar işləyirdilər. «Vəlidən də hayıfımı beə aldım... Amma arvadı şikayətə getməsə yaxşıdı. Gedərmi?! Çətin. Elə billəm abrına qısılıb qalacaq. Allahın verib, Həsən, kefinə bax, kifircənin əvəzində gör qabağına nə çıxıb! Çoxdan gözüm vardı ölmüşdə. Ölürdüm dərdindən... Şikayət eləməsə yaxşıdı!... Eliyəndə nə olacaq ki?!. Qabaqcıl kolxoz sədriyəm, Lenin ordeni də döşümdə. Planı xvaxtında verirəm. Cəbhəyə bu saat taxıl lazımdı. Mən də onu nəyin bahasına olursa-olsun artıqlamasıyla verirəm. Veərəyəcəm də. Camaatı ac qoyub verəcəyəm. Bundan sonra kim mənə bir söz deyəcək?! Əsgər arvadıdı axı, Həsən, əsgər arvadı... Olsun da...

Mən də bu frontun ağır vaxtında əlimdə qamçı gün çıxandan gün batanacan camaatı yarıac, yarıtox işlədirəm qul kimi. Mənim sayəmdə rayon da planını doldurur. Bir əsgər arvadına görə mənim kefimə soğan doğrayacaqlar?..

Amma yox, şikayətə getməsə yaxşıdı, Həsən özü əlində çıxa bilər. Nə çoxdu rayonda sənin kimilər. Get-gələ salıb saqqızını oğurlayarlar... Biri elə raykomun birinci katibi, görən kimi əlimdən alacaq... Acgözün biridi şorgöz köpəkoğlu... İtə də tamah salır. Gördü əlimdən alacaq. Bircə qorxum ondandı...»

Həsən fikirli-fiikrli arvadı işləyən yerə gəlib çıxmışdı. İstər-istəməz arvadını, özü demişkən, kifircəni Şəfayla, Göyçəkcəylə müqayisə elədi, gözündən lap düşdü arvadı. Heç baxa bilmirdi üzünə.

Sədr arvadının yanından tez ötüb keçdi.

Qızların arasında biri nəzərini yamanca cəlb elədi. Atdan düşdü, atın yüyəni əlində qıza yaxınlaşdı. «Bu ki, Nübardı, hə, özüdü ki, var. Məmmədin gözaltısı. Ölmüş nə yaman gözəlləşib. Az qalmışdı tanımayam!..»

– Qızım, Nübar necəsən?!

– Sağ olun, Həsən daya, görürsüz də, tər tökə-tökə işləyirik.

Həsənin ağzı sulansa da özünü o yerə qoymadı:

– Görürəm, Nübar yaxşısan.

Ürəyində pıçıldadı: «Xoş nübarını dadanın halına!..»

**5**

Reyhan əlində məktub fikrə getmişdi...

Ayna gəldi, Reyhanın əlində məktubu görcək:

– Gözün aydın, nə yazır? – soruşdu.

– Sağ ol, ay qız! Yazır ki, Bəxtiyardan məktub almır. Onun ünvanını istəyir.

– Hərbi məktəbdə işləri necədir?

– Yazır ki, yaxşıdır. Bu yaxınlarda məktəbi bitirəcək. Yaxşı, ay qız, bu neçə gündə niyə görünmürdün?

– Rayonda idim. Təzəcə təşkil olunmuş şəfqət bacıları kursunda oxumaq üçün çağırmışdılar.

– Necə oldu?

– Necə olacaq?!. Sabahdan dərsimiz başlanır. Bura bax, lap yadımdan çıxmışdı: təbrik edirəm səni, briqadir olmusan.

– Sağ ol, zor ilə boynuma qoydular. Sədrimizi tanımırsan?! Etiraz etməyim özümə qaldı.

– Bura bax, Reyhan, özünü ondan gözlə ha!

– Məni tanımırsan?!

– Tanıdığım üçün də belə arxayın-arxayın danışıram da.

M Uşaq olma, o da adamın tanıyır. Amma çox bic kişidi, özünü belə saya aparmasına baxma. Bir də unutma ki, onu da yuxarıdan sıxırlar, iş tələb eləyirlər, planı doldurmağı tələb eləyirlər. O da buna görə məndən bərk yapışıb. Bilir ki, mən özüm də işləyənəm, başqalarını da işlədəcəyəm. Bildin?!

– Bildim, bildim, ürəyinə heç nə gətirmə, sənə özümdən də çox inanıram.

Reyhan gülümsündü:

– Çox sağ ol, inamın artıq olsun. Mən də sənə elə o cür baxıram. Möhkəm... Əsl azərbaycanlı qız kimi. Nişanlısının yolunda hər cəfaya dözən, sədaqətli, dəyanətli bir qız kimi.

– Bilirsən də, o, Şəfada əvvəl kitabxananı mənə tapşırmaq istəyirdi. Nə qədər səy elədi, toruna düşmədim. Dediyi də elə bu idi ki, sən Bəxtiyarın nişanlısısan, istəyirəm gözümün qabağında olasan, sənə hörmətim olsun. Amma mənimlə danışanda gözlərindəki ehtirası üz-gözümü qarsıyırdı. Qəti surətdə yox eləmək üçün. Sözündən çıxan adamı, bilirsən də, görməyə gözü yoxdu şorgözün. O da belə həşaratdı. Müharibə əlinə çox böyük imkanlar verib.

Reyhan qan qaraldan söhbətin gərginliyini azaltmaq üçün zarafata keçdi:

– Sən də yazığı ağzının suyu axa-axa qoymusan ki.

M Allah vurmuşdu onu. Bəxtiyarın çölə atılan dırnağını onun bütün vücuduna dəyişmərəm.

– Səni bütün kənd belə tanıyır, Ayna.

Ayna təəssüflənirmiş kimi dedi:

– Ancaq, Reyhan, Şəfanı, deyəsən, tora salacaq köpəkoğlu. Yaman qırsaqqızdı.

Reyhan fikirli-fikirli:

– İradəsi var düşməsin, - dedi.

**6**

İradə! Həsən və onun kimilərinin qarşısında dayana biləcək iradə Şəfada vardımı?!.

Həsənin qorxusu doğrultmadı özünü. Şəfa şikayətə getmədi... Həsən onun gözünə görünməməyə çalışsa da gizlində güdürdü onu. Şəfa iki gün işə gəlmədi. Üçüncü gün gəlib elə öz otağında oldu... Sonrakı günlər də belə... Bir həftə belə keçdi. İkinci həftədə Həsən fikirləşdi: «Bir səs-soraq çıxmadı. Şəfa şikayətə-zada getmədi. Getməyəcəkdi də, Həsən. Ürəyini yemək elə sənə qaldı. Əşşi, ürəyimi ona görə yeyirdim ki, əntiqədi, yeməlidi, əlimdən çıxa bilərdi, birincinin – acgöz Müzəffər Müzzəffərovun qulağı bil balaca bu söhbəti alsaydı Şəfa üzünə həsrət qalacaqdım... Qorxum mənim ondandı ancaq. Yaxşı ki, getmədi şikayətə. Bugün istəyirəm ona bir baş çəkim. Yaxşı padarka da hazırlamışam. Kifirgənin gözündən iraq... Həsən, sən çox da narahat olma, onun şikayətə getmməyinin bir səbəbi də, bilirsən, nədi? Nədi?!. Görünür özünün də canında varmış... YOx, onu deyə bilmərəm mən... Deyə bilmərəm... Abır-həyasına qısılıb getməyib desəydin yenə dərd yarıydı. Yoxsa ki?! YOx, mən ona qol qoya bilmərəm. Adama şər atmaq yaxşı deyil. Bəs, elədə niyə onun... Hə, dinlənsənə, niyə susdun?!. Özün bilirsən!.. Mən onu dəlicəsinə istəyirəm, onu arvad kimi saxlayacağam. Qulluğunda duracağam. İkinci arvadım olacaq Şəfa... Əri var axı?! Əri, əri... Hanı əri?!. Allah bilir indi harda, hansı güllənin qabağındadı...»

Bu fikirlərlə Həsən əlində balaca bağlama aşağı düşdü, kitabxananın qapısını açdı. Şəfanın üzünə baxmağa çalışaraq salam verdi. Cavab gözləmədən:

– Necəsən, Şəfa, - deyib bağlamanı stolun üstünə qoydu, tez də çıxdı. Ürəyində: «Belə yaxşıdır!» düşündü. Birdən gözləri alacalandı, böyüdü, böyüdü: «Allah, sən saxla, gözümə qara görünür, ya nədi. Birincinin maşınıdı, bəs özü hanı?!

Tez pilləkənə doğu gəldi ki, yuxarı çıxsın. Gördü ki, Birinci pilləkəni düşür. Görüşdülər.

Birinci katib Müzəffər Müzəffərov Həsənin qolundan tutub kitabxanaya tərəf apardı. Həsənin dalağı sancdı: «Alacaq əlimdən, alacaq itə tamal salan köpəkoğlu. Əlimlə güllələsəf uf demərəm...»

Müzəffər dedi:

– Kitabxanaya yaxış baxırsan, eşitmişəm, gəldim gözlərimlə görüm.

Həsən ürəyində düşündü: «Gözlərin kor olaydı içəri girəndə, görməyəydin onu, görməyəydin...» Müzəffərəsə dedi:

– Əlimdən gələni eliyirəm də, yoldaş katib, mədəniyyətdi də...

İçəri keçdilər. Şəfa ayağa durdu. Müzəffər onun əlini sıxdı, gözləri gözlərində ilişib qaldı. «İlahi bu nədir, buçağacan niyə xəbərim olmayıb?!»

Həsən özünü güclə saxlayırdı. «Bir ölən günümü bilmirəm. Bilirdim ki, görsə hayıl-mayıl olacaq!.. Oldu da, köpəkoğlu, oldu da!..»

Müzəffər tez çıxdı, sədrə üzünü tutub dedi:

– Gedək, sahəyə də baxmaq istəyirəm.

Maşına oturdular. Müzəffər sahə yox, Həfa haqqında düşünür, həsənin qəlbindən qara qanlar axırdı. Dinib danışmırdılar. Nəhayət Müzəffər dilləndi:

– Cəbhələrdə vəziyyət ağırdır, göstəriş gəlib, bronu olanların da çoxunu göndərməli olacayıq. Amma səni saxlamağa cəhd eləcəyəm..»

Həsənin Bakıda yuxarıda adamı, arxası vardı. Həsən hətta onun evinə gedib gəlirdi də. Bütünlükdə kolxozun gəliri, demək olar ki, onun evinə daşınırdı. Bunu Müzəffər bilirdi. O dura-dura Həsənə toxuna bilməyəcəkdi, odur ki, «səni saxlamağa cəhd edəcəyəm» dedi. Eyni zamanda fikirləşirdi ki, Həsən dura-dura Şəfaya girişə bilməyəcəkdi. Həsənin «dayısı»na onun gücü çatmayacaqdı.

Müzəffər sahəni gəzməyə də çox vaxt sərf eləmədi, Həsənə bəzi tapşırıqlar verib rayona qayıtdı. Kabinetinə keçib Bakı ilə danışdı. Öyrəndi ki, Həsənin «dayısı» dünən məzuniyyətə çıxıb kurorta getmişdir. Sevincindən az qaldı otağında durub oynasın. Sonra öz-özünə acıqlandı: «Özünü ələ al, Müzəffər, ələ al!..»

Müzəffər hərbi komissar Səlimxanovu yanına çağırda, səfərbərliyin necə getməsilə maraqlandı.

Səlimxanov dedi:

– Belə getsə rayonda kişi qalmayacaq.

Müzəffər:

– Qadınlarımızın canı sağ olsun, allah onları bizə çox görməsin.

Müzəffər bu sözləri deyəndə «Şəfanı gözlərinin qabağına gətirdi, fikrində sarıldı ona, öpdü, öpdü...

Sonra başını qaldırıb hərbi komissara dedi:

– Siyahına Həsən Dünyamalıyevi də əlavə elə. Ayrı əlacımız yoxdu.

Telefon dəstəyini qaldırdı, RİK-in sədri Ümidvar Ömərovla danışdı.

– Ümidvar, salam, gözün aydın, Həsən Dünyamalıyevi də orduya çağırırlar. Mən də razılıq verdim. Ayrı əlacım yoxdur. Yerinə yaxşı bir adam fikirləş. Qadın olsun. Seçkini şəxsən özün gedib keçirərsən. Çalış yaxşı, işgüzar qadın olsun, Həsəni əvəz eləyə bilsin. Neyləyək, ayrı əlacımız yoxdu, müharibə adamlarımızı bir-bir dənləyir. Kadrsız qoyur bizi.

Müzəffər dəstəyi yerinə qoyub fikirləşdi: «Həsənin «arxası», «dayısı» məzuniyyətdən qayıdandan sonra bir ay keçəcək, görəcək ki, lələ öçüb yurdu qalıb. Kim bilir onda Həsən hansı faşistin gülləsinə tuş olacaq... Əgər bu barədə himayədarı mənə giley-güzar eləsə deyərəm məsləkim haqqı bilməmişəm sizin adamdı... Yoxsa bu boyda rayonda bir adamı saxlamağa nə vardı ki?!.»

Müzəffər sonra hərbi komissara dedi:

– Səlimxanov, sən də gecikmə. Əvvəlcə bronunu al, sonra deynən hazırlaşsın getməyə. Oldu?

– Oldu yoldaş Müzəffərov.

Hərbi komissar çıxan kimi Müzəffər kreslosuna yayxandı, Şəfanı gözlərinin önünə gətirdi, onun iri, ona azca kədərli görünmüş gözlərini süzdü, süzdü, öz-özünə pıçıldadı: «Müzəffər, işin yaxşı gedir!..»

## 7

Vıyıltı ilə gələn bir neçə mina lap yaxınlarda partladı, torpaq-kəsəyi dənizçi paltarında olan döyüşçülərin üstünə səpələdi. Bir neçə mina atəşindən sonra səngərə sıxılmış iri, mavi gözlü, enli kürəkli, ucaboy, sarışın bir döyüşçü üstünü çırpa-çırpa dedi:

– Köpək uşaqları, deyəsən axırımıza çıxmaq istəyirlər.

Həmin döyüşçü ilə yanaşı dayanmış Bəxtiyar da papağını çırpıb başına keçirtdi:

– Vasya, sağ-salamatsan?

– Hələ ki, sağ-salamatam, Bəxti, hələ ki...

Bəxtiyar və Vasya eyni vaxtda başlarını ehtiyatla çıxarıb qabağa baxdılar. Qarşıdakı düzənlikdə uzaqdan bir neçə yerdən dağıdılmış məftil çəpər görünürdü. Çəpərdən o tərəfə iki tank tüstülənirdi.

Vasya papiros kötüyünü Bəxtiyara uzatdı. Bəxtiyar kötüyü alıb iki dəfə sümürdü, tüstünü içərisinə çəkdi. Sonra kötüyü yanındakı yoldaşına ötürdü. Elə bu anda Vasyanın yanında uzanmış döyüşçü həyəcanla üzünü yoldaşlarına tutub:

– Tanklar göründü, odur, tanklar, - dedi.

Vasya arxayınlıqla və istehza edirmiş kimi:

– Qorxursan? – soruşdu.

– YOx, xəbərdarlıq üçün deyirəm də, - döyüşçü yenidən yerinə uzanıb diqqətlə tanklar gələn tərəfə baxdı.

Tanklar doğrudan da yaxınlaşmaq üzrə idi.

– Tank vuran tüfəngləri hazırlayın! – onlardan bir az aralı taqım komandiri Azərin səsi eşidildi. Onun verdiyi əmr təkrar edilərək səngər boyu yayıldı.

Üç tank sürətlə irəliləyirdi... Nəhayət məftil çəpərə çatdılar. Azər Vasyanın yanında özünə yer düzəldib atəş açmağı əmr etdi. İlk atəşdən bir tank alışıb yanmağa başladı. Onun üstündən yerə atılan faşist əsgərləri özlərini itirdiklərindən nə etdiklərini bilməyirdilər.

Bəxtiyar ikinci tankı alıb atdı. Tank tüstüyə büründü. O biri tank dönüb geri getdi. Bəxtiyar dedi:

– Hə, aldın payını, çağır Qulamhüseyn dayıvu, Vasya, sağ-salamatsan?

– Uşaqsan, səninlə mənə. Demişəm, zaval yoxdu.

Döyüşçülərin əhvali-ruhiyyəsi Azəri qanadlandırmışdı. O, hərbi məktəbi qurtarandan sonra komandir təyin olunduğu taqım ilə bir neçə ağır döyüşlərdən çıxmış, az vaxtda əsgərləri yaxşı tanımışdı. Xüsusən dostu Bəxtiyarın və ukraynalı Vasyanın döyüş qabiliyyətləri onu heyran edirdi.

– Sən lap ustalaşmısan Bəxtiyar, atdığın boşa çıxmır, - Azər Bəxtiyara yaxınlaşdı, əlini onun çiyninə qoydu.

Vıyıltı ilə gələn minalar yaxında pratladı, torpağbı havaya sovurdu. Döyüşçülər səngərə sıxıldılar.

– Yəqin əvvəl yaxşıca bir mina atəşinə tutacaqlar, necə bilirsən, Vasya?

– Eh, hamısı birdir, istər mina, istər top, öyrəşmişik, Bəxti.

– Hə, düz deyirsən, - Bəxtiyar ayağa qalxdı, əyilə-əyilə gəlib Vasyanın yanındaca oturdu, nə fikirləşdiə birdən papağını gözünün üstünə aşırdı, zümzümə ilə pəstdən oxudu:

Mən aşıq yalqız alma,
Ağacda yalqız alma.
Yardan öpüş alanda
Cüt-cüt al. Yalqız alma!..

Vasya dilləndi:

– Bu dəfə yaman qəmli oxudun, Bəxti. Yaman.

– Xəyalım məni çəkib el-obamıza apardı...

Vasya onun ətəyindən çəkib:

– Qəm eləmə, bir az tütün ver görüm, nədənsə bu gün elə hey çəkmək istəyirəm!.. – dedi.

Bəxtiyar tütün kisəsini çıxarıb ona verdi. Bu zaman arası kəsilməyən mina atəşi başlandı. Torpaq göyə sovrulurdu, havadan tökülən bombalar dəhşətlə partlayırdı...

Bir az keçmiş atəş kəsildi. Azər sıxıldığı yerdən durub üstünü çırpdı. Səngər boyu gəzməyə, döyüşçüləri və silahları yoxlamağa başladı. İki döyüşçü tankvuran tüfəngin yerini düzəldirdi. Azər onlara çatanda dayandı:

– Afərin, uşaqlar, yaxşı düzəldin, bu saat onlara layiqli cavab verəcəyik, - dedi və ötüb keçəndə gözləri yerdə bir-birinin yanına uzanmış iki meyitə sataşdı. Onların gözləri səmaya zillənmişdi. Azərin qaşları çatıldı, əyilib onların gözlərini qapadı. Ayağa qalxdı, dərindən köksünü ötürdü.

Qarşıda yeni faşist tankları görünəndə Azər tez yüyürüb öz yerini tutdu və səngər boyu əmr etdi:

– Döyüşə hazırlaşın, mənim əmrim olmadan heç kəs bir güllə belə atmamışdır. Bəxtiyar, pulemyotu gətir. Orada, - əli ilə sol tərəfə işarə etdi, - qurarsan, tez!..

– Bu saat! – Bəxtiyar pulemyotu gətirmək üçün getdi.

– Vasya, sən sol cinaha keç, oradan atəşi bir an da kəsməzsən, bildin?

– Bildim, - deyərək Vasya yerdən bir neçə avtomat diski götürdü.

Yolda o çiynində əl pulemyotu olan Bəxtiyarla qarşılaşdı:

– Sən hara, Vasya!

– Sol cinaha.

Bəxtiyar əl pulemyotunu qurmaqla məşğuldu. Vasya sol cinahda yerini rahatladı, avtomatı döşünə götürdü, qaşları çatıldı. Döyüşçülər əlləri çaxmaqlarda, sifətlərində ciddiyyət gözləyirdilər. Bəxtiyarın baş barmağı pulemyotun düyməsi üzərində idi.

Qarşı tərəfdə tanklar irəliləyirdi. Onların üstündə və böyürlərində gizlənə-gizlənə gələn faşistlər görünürdü. Atəş açılmadığı üçün onlar bir qədər cürətlə gəzirdilər. Tanklar lap yaxınlaşanda Azər əmr verdi:

– Atəş!

Arası kəsilməyən atəş səsi ətrafı bürüdü. Bir tank od tutub alovlandı.

Bəxtiyarın pulemyotu durmadan gurlayanda Vasya avtomatla faşistlərə atəş açırdı. Faşistlər də avtomatlardan atəş açа-aça tankların dalınca gəlirdilər. Tanklardan şiddətli pulemyot təşi açılırdı. Dal tərəfdən yenə bir neçə tankın gəldiyi görünürdü.

Azərin sağ tərəfində iki döyüşçü vurulmuşdu. Azər tankvuran tüfəngin arxasına keçib atəş açmağa başladı.

Lap yaxınlığında bir döyüşçünün keçindiyini görən Bəxtiyar bir an atəşi kəsib səsləndi:

– Sənə nə oldu, ə, Yunus!

Yunus bir əli sinəsində, o biri əli ilə torpaqdan tutub dayanmaq istədi, bacarmadı, səngərin içinə yıxıldı.

– Bəxtiyar, su... su... Bir az su!.. – deyərək bir əlində avtomat, köynəyi al qan içində olan başqa bir döyüşçü üzü üstə yerə sərildi.

Bəxtiyar su qabını götürüb:

– Bondaryov, Bondaryov, - bərkdən qışqırdı və döyüşçünün keçindiyini görüb su qabını yerə qoydu. Atəşi davam etdirdi.

Azər bir tankı nişan aldı, çaxmağı çəkdi. Tank alışdı.

Faşistlər artıq otuz metrliyə çatmaq üzrə idilər. Bir tank sürətlə Vasyanın üstünə gəlirdi. Vasya özünü itirmədi. Əlindəki qumbaranı onun qarşısına tulladı. Partlayışdan tank zədələnməyib Vasyanın olduğu səngərin üstünə çıxdıqda, Vasya lap səngərin dibinə yatdı. Tank keçmədi və Vasyanın üstündə durub onu əzmək məqsədilə torpağı dağıtmağa başladı. Bunu görən Vasya uzandığı yerdə cəld sağa sürünüb tankın altından çıxdı, ayağa qalxdı və:

– Görək kim-kimi! – deyib əlindəki bir-birinə bağlı olan iki qumbaranı tanka çırpdı. Bərk partlayışdan tank yanmağa başladı. Bu dəhşətli mənzərəni seyr edən Bəxtiyar cəld Vasyanın yanına atıldı.

– Vasya, Vasya, - deyərək onun başını astaca yerdən qaldırıb dizləri üstünə aldı.

Vasyanın alnındakı yaradan axan qan qaşı üstündə sağ tərəfə axıb gedirdi. Siması tanınmaz şəklə düşmüşdü.

– Bəxtiyar! – Azər gülləsi qurtarmış pulemyotun arxasından durub Bəxtiyara tərəf yüyürmək istəyirdi ki, üstünü faşistlər aldı. Azər özünü itirmədən üzərinə atılan faşistə avtomatın qundağı ilə möhkəm bir zərbə endirdi. Lakin faşistlər onun başının üstünü yaman almışdılar. Birdən-birə üçü üstünə tullandı. Əlbəyaxa oldular.

Yuxarıdan faşist zabitinin səsi eşidildi:

– Diri tutun, diri tutun!

Bəxtiyar artıq keçinmiş Vasyanı buraxıb ayağa qalxdı. Avtomatı döşünə basıb Azərin üstünə yüyürən faşistləri atəşə tutdu. Onlardan ikisi yıxıldı, qalanları dərhal yerə yatdılar.

Azər üç faşistin altında çapalayırdı. Nəhayət onlardan birinin qarnına qüvvətli bir təpik ilişdirdi. Faşist qarnını tutub küncə qısıldı. Bu zaman yuxarıdan bir faşist əsgəri səngərə atıldı, tüfənginin qundağını qaldırıb Azərə vurmaq istəyəndə birdən-birə özünü çatdırmış Bəxtiyar onun qolundan qüvvətlə vurub tüfəngi yerə saldı və sonra avtomatın qundağını onun başına zərbə ilə elə endirdi ki, faşsit əsgəri yerə sərildi. Bəxtiyar fürsəti əldən verməyib avtomatını ikinci dəfə Azərin üstündəki faşistlərdən birinin başına endirdi. Faşist yumbalandı. Üçüncü faşisti isə Azər altına alıb boğazından yapışdığı vaxt iki faşist Bəxtiyarın üstünə atıldı, əlbəyaxa oldular. Bu zaman faşist əsgərləri bir-birinin arxasınca səngərə doluşmağa başladılar. Bəxtiyarla Azərin uzun müqavimətindən sonra onları yerə yıxdılar, əl-qollarını möhkəm bağladılar, səngərdən çıxartdılar. İkisinin də köynəyi cırıq-cırıqdı. Bədənlərində demək olar ki, sağ yer yoxdu. Sifətləri qorxunc şəklə düşmüşdü. Bəxtiyarın üzü bir neçə yerdən çapılmışdı, saçları alnına tökülmüşdü.

Faşist zabiti diqqətlə onlara baxdı və hirslə:

– Sizi asmaq da azdır, vəhşilər, sizə mənə çox əziyyət verdiniz, - sonra o, üzünü əsgərlərə tutub əmr etdi: - Aparın!..

***

Azər qolları bağlı zabitin qarşısında dayanmışdı. Sifəti bir neçə yerdən göyərmiş və şişmişdi. Bunlar sarıbəniz, orta yaşlarında olan zabitin ona göstərdiyi «yüksək iltifatın» bəhrəsi idi.

Masa arxasında oturmuş zabitin gözlərindən hiyləgərlik yağırdı. O, Azərə çox vaxt eynəyinin üstündən baxırdı. Deyirdi:

– Yaxşı düşünün, unutmayın ki, sizin başqa əsirlər kimi öldürülməyiniz əbəs deyil. Nə üçün bunu başa düşmək istəymirsiniz? Niyə tərslik edirsiniz? Niyə xoşbəxtliyinizə mane olursunuz?

– Mən belə «boşbəxtliyi» istəmirəm, cənab zabit!.. Bir də bilirsinizmi, başınızı nə ağrıdım, sözün düzünü bilmək istəyirsinizmi? – Azər soruşdu.

– Bəs necə, əlbəttə, doğru sözün dünyada qiyməti yoxdur.

– Sözün düzü budur ki, sizin heç bir niyyətiniz baş tutmayacaq, - Azər qətiyyətlə söylədi.

– Canım, niyə axı, baş tutmasın? – zabit tülküvarı bir sifət aldı. – Bunda nə var ki, radioda çıxış edib könüllü bizim tərəfimizə keçdiyinizi deyəcəksiniz, sovetlərin hərbi qüvvə və ehtiyatlarının tükəndiyini, adamlarınızın fürerə olan məhəbbətini sadəcə etiraf edəcəksiniz, vəssalam. Bunun harası çətindir?

Bərk əsəbiləşmiş Azər əzab çəkə-çəkə zabiti güclə dinləyirdi. Zabit isə bunun fərqinə varmadan sözünə davam edirdi:

– Sonra da böyük hörmətlə imperiyamızın paytaxtına gedəcəksiniz, ooo!.. Orada sizi məmnuniyyətlə qəbul edəcəklər. Siz Sovet zülmündən canını qurtarmış alman təbəəsi olacaqsınız. Hələ sizi bəlkə Gebbels cənabları özü qəbul etdi... Ooo! Onda yəqin bizi heç bəyənməyəcəksiniz.

– Bəsdirin, yetər, cənab zabit, - səbr kasası dolan Azər qəzəblə cavab verdi.

– Hə, nə deyirsən, razısan? – Zabit Azəri başa düşmürmüş kimi bir də soruşdu.

– Dedim ki, bu barədə artıq yetər! Sizə lazım olan «hə» cavabını bizim yalnız meyitimizdən ala bilərsiniz, - Azər qəti fikrini bildirdi, - ancaq meyitimizdən. Əgər düzünü bilmək istəsəniz, cənab zabit, mənim buna da şübhəm vardır. Sizi inandırıram ki, meytimiz belə sizə nifrətlə baxacaqdır.

– Aparın! Aparın yaramazı, - zabit qapıda dayanmış iki silahlı əsgərə əmr etdi. Əsgərlər Azəri aparmaq istəyəndə zabit:

– Yox, durun! – qışqırdı. Azərə yaxınlaşdı. – Bax, budur, sənə son dəfə olaraq bir saat... Başa düşürsən, bir saat vaxt verirəm, yaxşı düşün, qəti bir söz deməsən hər ikinizi güllələyəcəm, eşidirsənmi? – Sonra o, üzünü əsgərlərə tutub, - aparın! – deyərək hirslə bağırdı.

Azəri kiçik, alçaq bir daxmanın qarşısına gətirdilər. Burada iki əsgər keşik çəkirdi. Əsgərlər daxmanın qapısını açıb Azəri içəri itələdilər. Bəxtiyar ona tərəf dönəndə daxmanın qapısı bağlandı.

– İndi nə deyirsən? – Bəxtiyar dostundan tələsik xəbər aldı.

Azər yerə otura-otura:

– Eyni sözləri... Satın almaq istəyirlər, - cavab verdi.

Bəxtiyar dişlərini bir-birinə sıxıb qəfəsə salınmış aslan kimi çırpınırdı:

– Əclaflar!..

– Son dəfə fikirləşməyə bir saat vaxt verdi. – Azər dərindən köksünü ötürdü. – Eh!.. dostum, artıq əcəl bizi yaxalamışdır. Onu dəfə eləmək mümkün deyil.

Bəxtiyar onun qabağında əyləşdi. İki cüt göz bir-birinə zilləndi. Qrıpınmadan baxdılar. Bəxtiyarın da qolları bağlı idi. Sinəsinin tez-tez qalxıb enməsi həddindən artıq həyəcan keçirdiyini göstərirdi, gözləri məşəl kimi yanır, hirsindən dodaqlarını çeynəyirdi. Sifəti üç yerdən cızılmış, bir gözünün altı qaralmış və şişmişdi. Əynindəki köynəyin sağ yeri yox idi. Dərin bir sükutdan sonra nəhayət Bəxtiyar dilləndi:

– Eh, Azər, məni bu ölüm qorxutmur, onu mən gülə-gülə qarşılamağa hazıram. Ancaq bilirsən faşistlərin əlində ölməyimiz, özü də qərib ölməyimiz mənə çox yer eləyir.

Azər köks ötürdü:

– Yəqin bəxtimiz belə imiş... Eh!

Bəxtiyar daxmanın divarına söykənib, dərin düşüncəyə daldı və sonra üzünü Azərə tutub:

– Azər!.. Bilirsən indi yadıma nə düşdü? – dedi.

– Nə? – Azər fikirli-fikirli soruşdu.

– Bizim aşıq Vəlinin həmişə sevə-sevə oxuduğu bir bayatı, - deyib qəlblərə çox təsir edən, qəmli bir səslə oxudu:

Əzizim kətan yaxşı,
Geyməyə kətan yaxşı,

Gəzməyə qərib ölkə,
Ölməyə Vətən yaxşı!

Bəxtiyar oxuduqca Azər mənalı-mənalı başını tərpədirdi. Bəxtiyar oxuyub qurtaranda Azər ayağa durdu. Daxmanı var-gəl etməyə başladı. Daxma mal tövləsinə oxşayırdı. Kiçik pəncərəsi elə bil yalnız nəfəs almaq üçündü. Bu pəncərədən içəri süzülən on dörd günlük ayın ziyaları daxmanı işıqlandırdı. Azər pəncərə önünə gəldi. Ayın ziyaları onun kədərli sifətinə düşdü. Ətraf sakit olduğundan Azər daxmanın keşiyini çəkən əsgərlərin danışığını aydınca eşidirdi. Ancaq sözlərini başa düşə bilmirdi. Onlar rumın dilində danışırdılar. Faşistlər Rumıniyanı işğal edəndən sonra rumın gənclərini də səfərbərliyə almışdılar. Onlardan hər yerdə istifadə edirdilər.

Azərgilin keşikçiləri də rumındı. Bir ilə yaxın idi ki, ordu sıralarına çağırılmışdılar. Onlar mühüm bir məsələ haqqında söhbət edirdilər:

– Petru, görünür sən çox ürəyi yumşaq adamsan, ha!.. Heç saldata oxşamırsan, doğrudan da jurnalist ki, jurnalist.

– Saldat, yəni deyirsən insan olmamalıdır, Karl?

– Ay dedin ha!.. Bura bax, aşna, gözlə bu sözlər üçün səni bir təhər eləməsinlər. Yadındadır, əlimizə bu zəhrimarı verəndə, - Karl çiynindəki avtomata əli ilə işarə elədi, - təlimatçı faşist zabiti deyirdi: saldat amansız olmalıdır. Saldat düşmənə güzəştə gedə bilməz! Saldat saldatdır, rəhm deyilən şey ondan uzaqdır. Bunu kim bacarsa o birinci saldatdır.

– Yadımdadır, Karl, özü də bu sözləri deyəndə mən düz onun gözlərinin içinə baxırdım. Bu sözləri ürəkdən deyib demədiyini bilmək istəyirdim. Bəli Hitlerin bu sadiq köpəyi bunları lap ürəkdən deyirdi. Dedikcə də vəcdə gəlir, coşurdu. İnsan qanına susamış canavardan ayrı nə gözləmək olardı! Həmin günün axşamı mən onun dediklərinin çoxusunu öz qeyd dəftərçəmə də yazdım, əlbəttə, unutmamaq üçün!

– Bura bax, özünü işə salarsan, ha!.. Deyirəm axırı bu jurnalistliyin başına bir oyun açacaq. Ay qardaş qoysana bir, biz saldat babayıq öz işimizi görək.

Qorxuram axırda sənin ucbatından mən də əngələ düşüm. Deyəcəklər ki, sən də rumınsan, elə onun tayısan. Di gəl cavab ver görüm necə verirsən.

– Onsuz da faşitslər bizə şübhə ilə baxırlar.

– Sənə elə mən də olsam şübhə ilə baxaram, məgər dinc durursan, ağzına gələni danışırsan. Saldat babasan, buyuruq qulusan! Sənə deyirlər düşünmək yasaqdır, sənsə qulaq ardına verib hər şey üstündə baş sındırırsan. Belə olanda, əlbəttə, mən də səndən şübhələnərəm, bildin ya yox?

– Yox, Karl, yox, bilmədim! Bircə mənə de görüm indi keşiklərini çəkdiyimiz adamların nəyi bizə düşməndir və nə üçün biz onlarla amansız olmalıyıq, hə? De görüm? Burada adam fikirləşməyib neyləsin?

– Sənin ağzından qan iyisi gəlir, Petru!

– Bir özün fikirləş, Karl, onların nə günahı var?! İndi bizim Vətənimiz, sənin və mənim doğma yurdum həmin bu xidmət etdiyimiz faşistlərin tapdağı altındadır, onlar isə öz vətənlərinin tapdaq altına düşməməsi üçün inad edirlər. Onlar bunda çox haqlıdırlar. Mən bu cürə qorxmaz, iradəli adamları çox sevirəm.

Karl hövsələsiz halda:

– Bir mənə açıq de görüm, sən nə eləmək fikrindəsən? – soruşdu.

Petru qətiyyətlə dedi:

– Mən istəyirəm... Belə bilirsən nə var, mən onlara kömək eləmək istəyirəm, ancaq, sözün düzü, səndən çəkinirəm.

Karlın gözləri alacalandı:

– Mən demişəm, axırı sən məni bir işə salacaqsan! Axı əzizim bu çox qorxuludur. Bilsələr o dünyalığıq. Özümüz cəhənnəm, arvad-uşağımızı, yetim-yesirimizi güdaza verə bilərik.

Petru inamla:

– Qorxma, Karl, qorxma, qorxan gözə çöp düşər, - dedi.

– Çöp düşsə yaxşıdır. Bundan kəndir iyisi gəlir, əzizim, kəndir!

– Kəndirdən yaman qorxursan.

– Yaman!..

– Əvvəl-axır öləcəyik!

– Canım daha kəndirlə yox da... Yaxşı, Petru, bir məni başa sal görüm, sən indi nə etmək istəyirsən? Vallah qorxudan bədənim tir-tir əsir, sən həmişə danışanda mənim bədənimə titrətmə düşür.

– Qulaq as, Karl, bilirsən ki, inadlarından dönməsələr onları güllələyəcəklər. Onu da bilirsən ki, axırıncı dəfə fikirləşmək üçün onlara bir saat vaxt vermişlər. Ancaq mən bilirəm ki, tikə-tikə doğrasalar da onlar vətənlərinə xain çıxmayacaqlar. Belə adamların ölməyi isə heç insafdan deyil. Axı, onlar, hər şeydən əvvəl, insandırlar. Özü də yaxşı, nəcib, mərd insandırlar. Belə adamlar ancaq hörmətə layiqdirlər. Hə, başını nə ağrıdım, mənim fikrim belədir ki, biz onların sağ qalmasına çalışmalıyıq. Bunun üçün mən hələlik ancaq bir şeyi fikirləşmişəm: onların əl-qolunu açmaq, sonra da yalandan bağlamaq. Əgər bunu bilsələr deyərik xəbərimiz yoxdur, yəqin özləri açmışlar.

– Yaxşı bunun onlara nə xeyri?

– Çox xeyri ola bilər. Adamın əl-qolu açıq olanda çox şey edə bilər. Xüsusən də ki, bu cürə igid Qafqaz balaları. Görürsənmi daxmanın içində qəfəsə salınmış pələng kimi necə də var-gəl edirlər.

Karl həyəcan içində soruşdu:

– Deyirsən yəni güllələnməyə aparanda qaça bilərlər?

Petru arxayın-arxayın dedi:

– Niyə qaçmasınlar, bacarsalar buna ancaq afərin deyərəm. A-fə-rin... Bacarmasalar daha öz bəxtlərindən küssünlər, bildin?

– Bilməyinə bildim, ancaq kəndir yadıma düşəndə bədənimə üşütmə yayılır. Məni qınama, Petru, asılmaqdan yaman qorxuram.

– Qorxma, Karl, möhkəm ol! Mən elə edərəm heç kəs bilməz!.. Bir də əzizim, unutma ki, bizim vətənimiz də faşistlərin pəncəsində inləyir. Onlara qarşı vuruşan isə bizim ancaq dostumuz ola bilər.

Azər və Bəxtiyar rumınların söhbətlərinin məzmunundan və xüsusən Petrunun onlara onlara olan hüsn-rəğbətindən xəbərsiz idilər. Azər düşüncəli halda pəncərə önündə dayanmışdı. Öz-özü ilə danışırmış kimi:

– Vaxta az qalmışdır! – dedi və birdən-birə çevrilib Bəxtiyara sarı gəldi:

– Bəxtiyar, heç olmasa qollarımız açıq olsaydı!..

Azər elə bu sözləri demişdi ki, daxmanın qapısı ağzında ayaq səsləri eşitdi. Bir azdan qapı açıldı. Petru qapı ağzında göründü. O, işarə ilə Azəri yanına çağırıb ona almanca nəsə dedi və Azərə balaca bir bıçaq uzatdı. Azər alman dilini pis bilmirdi. O, hələ orta məktəbdə oxuduğu zaman alman dilindən həmişə beş alırdı. Orta məktəbi bitirən kimi xarici dillər institutunda oxumaq fikrində idi. Lakin o, orta məktəbi qurtaranda Bakıya, oxumağa getmədi. Anası onun çox əziyyətini çəkmişdi. İndi o da istəyirdi ki, kənddə qalıb anasına kömək eləsin. Onun böyük zəhmətini əvəzini verə bilsin. Bunu Azər yaxşı başa düşürdü. Kolxozda işləməyə başladı. İki aya yaxın müxtəlif işlərdə çalışdı. Sonra bacarığını görüb irəli çəkdilər, briqadir qoydular. Azər oxumaqdan da əlini üzmədi. Bir ildən sonra Bakıya gəlib Azərbaycan qiyabi pedaqoji institutuna daxil oldu...

Hərbi məktəbə oxumağa gedəndə alman dilində danışmağı bacarırdı. Hərbi məktəbdə isə bunu bir az da təkmilləşdirmişdi.

Azər rumın əsgərinin fədakarlığı və insanpərvərliyi qarşısında donub qalmışdı. Bıçağı alandı ona böyük minnətdarlığını bildirdi.

– Həlalik əlimizdən bu gəlir, - Petru təvazökarlıqla deyirdi. – Ancaq heç şeydən qorxmayın. Fədakar oğlanları mən çox sevirəm.

Petru daxmanın qapısını bağlayanda eynəkli zabit stol arxasında oturmuşdu. Ciddi məşğul idi. Azər ilə Bəxtiyarı ələ gətirə bilməməsində öz gücsüzlüyünü hiss edirdi. Odur ki, onların əlindən acıqlı idi. Onları diri-diri qəbrə qoysaydı belə hirsi yenə soyumazdı. O, tez-tez saata baxırdı. Azərə fikirləşmək üçün verdiyi vaxt qurtarmaq üzrə idi. Bu zaman bir kiçik zabit içəri girib təzim etdi. Onun əlində teleqram vardı. Eynəkli zabit dərhal teleqramı alıb oxudu. Oxuduqca üzünü təəccüb ifadələri bürüyürdü. Teleqramda deyilirdi ki, bu vaxta qədər tutulmuş və hələ öldürülməmiş olan bütün hərbi əsirlər Almaniyaya göndərilmək məqsədilə dərhal ən yaxın hərbi lagerə verilməlidir!

Zabit əmri oxuyub qurtarandan sonra onu masanın gözünə atdı, ayağa qalxdı. Kiçik zabitlə birlikdə tələsik otaqdan çıxdılar onlar daxmaya yaxınlaşanda

Azər ilə Bəxtiyar çoxdan bir-birlərinin əllərini açmış, sonra da bilinməsin deyə yalandan bağlamışdılar.

Qapı açıldı. Eynəkli zabit içəri girib:

– Hə, nə deyirsiniz, fikirləşdiniz? – deyərək hiyləgərliklə soruşdu.

– Biz ölümü seçdik! – Azərlə Bəxtiyar bir ağızdan cavab verdilər.

– Aparın, - zabit iki avtomatlı saldata əmr etdi.

**8**

Gülsüm xala evin ortasında nimdər üstə diz çöküb dua edir, dodaqları arasında pıçıldayırdı: «Allah, sən balamı xətalardan qurtar, onun həyanı ol! Nəzərini üstündən əksik eləmə, allah!..»

Qapı səssizcə açıldı. Ayna hiss olunmadan içəri girdi. O, Gülsüm xalanı duasından ayırmamağa çalışıb yerindəcə durdu, ətrafa göz gəzdirməyə başladı. Nəzərləri buxarı başında asılmış Bəxtiyarın iri, təbəssümlü portretinə sataşanda donub qaldı.

Gülsüm xala duasını qurtarıb, çevriləndə Aynanı gördü, lakin onu durduğu vəziyyətindən ayırmamaq üçün səsini çıxarmadı.

Ayna özü də fərqinə varmadan şəkillə danışırmış kimi astaca dodaqları arasında pıçıldadı:

– Bəxtiyar!.. Bəxtiyar!.. İndi sən hardasan, əzizim, harda!

Gülsüm xala özünü saxlaya bilmədi:

– Kim bilir, qızım, kim bilir, allah köməyinə çatsın, - deyib dərindən köksünü ötürdü.

Ayna diksinib tez Gülsüm xalaya tərəf çevrildi. Nəzərləri birləşəndə Ayna utandığından və dediyinə peşman kimi başını aşağı dikdi.

– Qızım, üst-başından səfərə gedənə oxşayırsan, hara belə?

Ayna başını qaldırdı:

– Cəbhəyə göndərirlər, Gülsüm xala, yaralı əsgərlərimizə kömək eləməyə.

– Yaxşı ay bala, gərək elə indi gecəynən gedəsən?

– Bəli, Gülsüm xala, bu gecə on iki qatarı ilə yola düşürük. Hərbi komissardan icazə alıb sizi görmək üçün gəldim.

– Axı, qızım, axşam, tək necə gedəcəksən?

– Tək niyə olur ki, ana, Reyhanın atası Əhməd əmi məni aparacaq arabasıyla. Əsdrdən icazə alıb.

Ayna görüşmək üçün ona yaxınlaşdı. Gülsüm xala qollarını onun boynuna doladı:

– Qızım, əgər işdir, Bəxtiyara rast gəlsən mənim dilimdən ona deyərsən ki... – o dayandı, sözünün gerisini deyə bilmədi. Fikirləşmək üçün başını aşağı saldı.

– Nə deyərəm, gülsüm xala?

– Deyərsən ki, anana niyə kağız yazmırsan. Bildin?!.

– Baş üstə, ana, baş üstə! Təki ona rast gəlim.

Ayna getmək istəyəndə Gülsüm xala onu saxladı:

– Qızım, dayan, mən də səninlə çıxıram. Səni özüm yola salacağam!..

***

Əhməd arabası ilə gözləyirdi. Qəmli-qəmli çubuğunu tüstülədirdi.

Aynanı yola salmağa Xanım, Reyhan da gəlmişdi. Reyhanın qucağında gözəl bir uşaq vardı.

Ayna Gülsüm xala ilə öpüşdü, Xanım xalanı qucaqladı. Sonra Reyhana sarı yeridi. Uşağın yanağından öpdü, totuq əllərini əlində sıxıb:

– Sağ ol, Hidayət, bax, məni unutma ha! – dedi.

Hidayət sanki onu başa düşürmüş kimi gülümsədi.

– Sağlıqla get, Ayna, tez-tez məktub yaz! Eşidirsən?! Gündə birini!

– Baş üstə, Reyhan, baş üstə, - deyərək Ayna anasının yanına gəldi.

Ana-bala sarmaşıq kimi bir-birinə sarıldılar. Ayna anasından ayrılıb cəlb arabaya sarı yeridi:

– Sağ ol, ana, - dedi. – Bax ağlamayasan, ha, ana! Anacan! Eşidirsən? Ağlamayasan! Sənə qurban olum!

– Get qızım, get! Allah sənə yar olsun! – anası gözləri dolmuş halda cavab verdi.

Reyhan Aynaya sarı gəldi, cibindən bir zərf çıxarıb ona uzatdı:

– Aynacan, əgər ona təsadüf eləsən bu məktubu verərsən. Bir də deyərsən ki, oğlun Hidayət səndən cavab gözləyir. Bəxtiyara da rast gəlsən məndən salam deyərsən. Azər axırıncı məktubda yazmışdı ki, Bəxtiyarla bir yerdədir.

– Baş üstə, Reyhan, onları gərək tapam, sağlıq olsun. – Sonra o, üzünü analara tutdu: - Sağ olun, darıxmayın, Reyhan can, bax, analarımı sənə tapşırıram, - deyib Əhmədə işarə elədi ki, arabanı sürsün.

Əhməd işarəni anladı. Araba yola düşdü.

Reyhan onun dalınca:

– Arxayın ol, Ayna, - qışqırdı.

Uzaqdan Aynanın səsi eşidildi:

– Hidayətdən muğayat olun!..

## 9

Ay işığı altında uzanıb gedən yolla təqribən otuz nəfərlik bir dəstə faşist əsgərlərinin müşayiətilə hərəkət edirdi. Bunlar əsirlər idi. Paltarları cırıq, çoxunun ayağı yalındı. Bəxtiyarla Azər sol tərəfdə bir az da dalda gedirdilər. Diqqətli nəzərlərlə ətrafa baxırdılar. Qarşıda dəniz görünürdü. Yol sanki birbaşa dənizin içərisinə gedirdi. Azər başını qaldırıb göyə baxdı. On dörd gecəlik ay buludlar arasından məlum-məlum baxırdı. Böyük və qara bir bulud parçası dəyirmi ayın yarısını örtürdü. Yol lap dəniz kənarına gəlir, oradan sağa burulur, sahildən tamamilə uzaqlaşırdı. Bu yerdə sahil sıldırım şəklində idi. Aşağıda ləpələr oynaşırdı. Göz işlədikcə orda-burda kiçik qayalar nəzərə çarpırdı.

Dəstə bu yerə yaxınlaşanda Bəxtiyar əvvəlcə dənizə, sonra da mənalı nəzərlərlə Azərə baxdı. Azər onun nə demək istədiyini dərhal anladı və ona eyni işarə ilə cavab verdi və birdən-birə Bəxtiyar gözlənilməz yumruq zərbəsi ilə yanınca gedən faşisti yerə sərdi, bir göz qırpımında hər ikisi yüyürüb sıldırım

sahildən dənizə atıldılar. Faşist zabiti və əsgərlər əl-ayağa düşdülər. Zabit sıldırım üzərinə çıxıb qaçanların arxasınca atəş açdı. Əsgərlərdən də ikisi onu təqib etdi.

Əsirlər hay-küy qopartdılar:

– Əl çəkin onlardan!

– Getdilər eee...

– Uşaqlar, bəlkə biz də...

Zabit hay-küyü eşidib əsgərlərə:

– Qoy rədd olsunlar, - dedi, - yəqin ki, güllə hər ikisinə dəydi. Bu birilərini qorumalı. Bunlara etibar yoxdur!..

Dəstə hərəkət etdi... Uzaqlaşdı.

Dəniz ay işığında parıldayırdı. Bəxtiyar əlini Azərin boynuna saldığı halda çox çətinliklə sudan çıxdılar. Sahildə çoxlu qaya görünürdü. Lap yaxında isə bir-birinin yanında iki qaya vardı, üçüncü də onların üzərində yerləşmişdi. Bu qayaların arası yaxşı sığınacaqdı. Azərgil bura çatanda Azər dostunu astaca qumun üzərinə uzatdı:

– Yaran bərkmi incidir? – mehribanlıqla soruşdu.

– Çox... Kürəyim... – Bəxtiyar güclə cavab verdi.

Azər səbrsizliklə səhərin açılmasını gözləyir, lakin onun nə gətirəcəyini özü də bilmirdi. Bəxtiyarın vəziyyəti ağırdı. Onunla birlikdə qaçıb bir yerə çıxmaq uzun bir işdi. Bəs nə etməli? Bu sual Azəri çox düşündürdü. O heç vəchlə yenidən düşmənlərin əlinə düşmək istəmirdi. Bəxtiyarı yaralı halda qoyub getməyi isə o, fikrinə belə gətirə bilmirdi. O, nə olursa-olsun Bəxtiyarla bir yerdə qalmağı qət etdi. Hətta yenidən ölümün pəncəsinə belə keçsələr bu yaxşı idi. Heç olmasa iki dost bir-birinin üzünə baxıb gülümsər, sonra mərdliklə, qürur hissilə canlarından keçərdilər. Bəli bir yerdə yaxşıdır, ancaq bir yerdə! Lakin idi Bəxtiyara müalicə, istirahət, dincəlmək lazımdı. Bu şəraiti Azər ona necə yaradacaqdı? Bu suallarla beynini yora-yora o, səhəri açdı. Qızılı şüalar mavi suları rəngdən-rəngə salanda Azər uzaqdan nəğmə səsi eşitdi. Diqqətlə qulaq asdı. Nəğmə getdikcə yaxınlaşır, ucalırdı.

Birdən o, bir dəstə uşağın oxuya-oxuya sahilə tərəf gəldiyini gördü. Uşaqların hamısının əlində kiçik vedrə və ucuna tilov keçirilmiş uzun qarğı vardı. Onların içərisində birisi öz diribaşlığı, cəld hərəkətləri ilə o birilərindən seçilirdi. Bu, on iki yaşında oynaq gözlü, qıvrım saçlı bir oğlandı. Uşaqlar sahilə yetişəndə dayandılar, sakit, mavi sulara baxmağa başladılar. Qıvrım saçlı oğlan üzünü onlara tutub əmr edirmiş kimi dedi:

– Hə, uşaqlar, indi hərəniz bir qaya üstünə. Görək bu gün kim çox tutacaq?

Uşaqlar dağılışdılar. Qıvrım saçlı oğlan onların arxasınca:

– Bax, sonra hamınız buraya yığışın, çağıran kimi, - qışqırdı və Azərgili gizlənmiş olduğu qayalara sarı oxuya-oxuya addımladı.

Azər iti baxışları ilə onun hərəkətini izləyirdi. O, yarısına qədər suyun içinə girmiş qayanın üzərinə atıldı, əlindəki qarğının ucuna keçirilmiş tilovu nəzərdən keçirib suya tulladı. Bunu görən Azər səssizcə onun oturduğu qayaya yaxınlaşdı.

– Qoçaq, - deyib yavaşcadan onu səslədi.

Qıvrım saçlı oğlan çevriləndə Azəri gördü, təəccübdən böyümüş gözləri ilə ona diqqətlə baxdı. Azər əl edərək onu yanına çatırdı. Oğlan tərəddüdlə ona tərəf gəldi. Onu dənizçi paltarında görəndə ürəklənib yanına atıldı. Birlikdə Bəxtiyara tərəf getdilər.

– Qorxdun? – Azər qayğıkeş və mehriban nəzərlərini oğlana dikdi.

– Yox! Nədən qorxacam, - o, cəsarətlə cavab verdi və tez Bəxtiyara yaxınlaşdı. Bəxtiyarın sifəti olduqca solğun və pərişan görünürdü.

– Xəstədir? Oğlan xəbər aldı.

– Yaralıdır, kürəyindən dəymişdir, - Azər cavab verdi. Soruşdu: - Yaxşı, qoçaq, de görək adın nədir?

– Volodya! Bəs sizinki?

– Azər.

– Yəqin dənizçisiz? – Volodya iti gözlərini Azərə dikdi.

Azər mənalı:

– Onları sevirsənmi? – soruşdu

– Sevirəm. Özü də lap çox, - Volodya cavab verdi. – Mənim qardaşım da dənizçidir.

– Volodya, yubanmaq olmaz, sən bizə kömək etməlisən, başa düşürsən?

– Düşürəm.

– Onda bir qabaqca de görüm kənddə faşist çoxdur?

– Çoxdur. Camaatı təngə gətiriblər, hər gün onun-bunun evindədilər.

– Sizin evə, necə, gəlirlərmi?

– Hələ ki, gəlməyiblər.

– Evdə kiminlə olursan?

– Anamla, - Volodya Azərə yaxınlaşdı, qulağına pıçıldayırmış kimi əlavə etdi. – Babam partizanlığa getdi, evdə ikimiz qalmışıq.

– Volodya, yoldaşımın vəziyyətini görürsən də... Mən bu halda, özümü onunla partizanlara necə çatdıra bilərəm?!

– Çətindir, - Volodya təsdiq etdi.

– Onda Volodya, sən indi çaparaq evə qaç, dostumu müəyyən vaxta qədər evinizdə gizli saxalamaq üçün ananın fikrini öyrən, razılaşsa, gəl mənə de!

– Yaxşı! Evimizin altında zirzəmi var, lap sən deyən, oradaca qalar. Anam da göydə razılaşacaq. Lakin kənd yatana qədər gözləmək lazımdır.

– Ancaq, Volodya, elə et ki, uşaqlar bilməsin.

– Uşaqsan?! Mən hər şeyi başa düşürəm.

***

Kənd çoxdan yatmışdı. Kəndin kənarında faşist əsgəri keşik çəkirdi. O, yan-yörəsinə heç bir şey hiss etmədən var-gəl edirdi.

Yaxındakı ağacların arası ilə Azərgil hərəkət edib, bir böyük gövdəlisinin altında dayandılar. Bəxtiyarı ehmalca ağacın dibində yerə uzatdılar.

– Odur, - Volodya qarşıda ağaran evi Azərə göstərdi.

– Növbətçi faşistin getməsini gözləmək lazımdır, - Azər nəzərləri onun ardınca olduğu halda söyləndi.

– gedənə oxşamır, - Volodya əlüstü cavab verdi.

– Partizanların qorxusundan faşistlər gecələr kəndin dörd bir tərəfinə növbətçilər qoyurlar, - Volodyanın anası Mariya Vasilyevna da söhbətə qarışdı.

Onlar həyəcan və təlaşla bir az da gözlədilər. Növbətçi heç nə aldırmadan var-gəl edirdi.

– Doğrudan da bu faşist heç gedənə oxşamır, - Azər mənalı surətdə Volodyaya baxdı, dodaqları arasında pıçıldadı, - deyəsən axı onu cəhənnəmə vasil etmək bizə qismət olacaq.

– Başqa yol yoxdur! – Volodya Azərin sözünü təsdiq etdi. – Səhərə az qalır, ələ keçə bilərik!..

Azər tez özünü yığışdırdı, siması ciddiləşdi, birdən-birə gözlərindən elə bil od qalxdı. Sürünə-sürünə növbətçinin var-gəl etdiyi çəpərin dibinə gəldi. Yerə qısılıb bir an nəfəsini saxladı. Növbətçi bir şey hiss etmiş kimi dörd yanına baxdı və şübhəli bir şey görməyib yenə yoluna davam etdi.volodya oynaq və iti baxışları ilə Azərin hərəkətlərini izləyirdi. Növbətçi Azərin qarşısından keçəndə Azər pələng kimi onun üstünə atıldı və bir an içərisində qüvvətli qolları ilə onu boğdu, qucağına alıb ağacın altına gəldi. Onu cəld soyundurdular:

– Silah və paltarı bizə lazım olar, - Azər astadan dilləndi. – Ancaq cəmdəyi, deyəsən, bizə yük olacaqdır. Sən nə fikirdəsən, Volodya?

– Fikir çəkmə, onu da yaxındakı quyuya atarıq, - Volodya cavab verdi.

Elə də etdilər. Volodya növbətçinin avtomatını, cibindəki iki bıçağı və paltarlırını götürdü. Azər və Mariya Vasilyevna isə Bəxtiyarın qoluna girib evə tərəf getdilər...

Onlar kiçik pilləkanı qalxanda Volodya artıq qapını açırdı. Otağa girdilər. Sağ tərəfdə içində od qızaran iri, rus peçi diqqəti cəld edirdi. Onun üstündə ağzı açıq bir qazan vardı. Volodya dərhal şam yandırdı. Otaq işıqlandı. Qapıdan sağ tərəfdə pərdə ilə örtülü iki pəncərə, solda həmçinin bir örtülü pəncərə, miz və onun ətrafındakı köhnə kürsülər, yerə salınmış palazlar aydın göründülər. Otağın sağ tərəfində küncə yorğan-döşək yığılmışdı.

Mariya Vasiyevna sol küncdə döşəmədə zirzəminin qapısını qaldırdı. Volodya əlində tutduğu şamla oraya girdi, bir azdan geri dönüb buxarıya tərəf yüyürdü. Mariya Vasiyevna bir-iki pillə düşüb Bəxtiyarın qollarından tutdu. Azər yaralının belindən yapışmışdı.

– Yavaş-yavaş, oğlum, qoy rahat düşsün, çarpayı, yorğan-döşək hazırlamışam, - Mariya Vasilyevnanın qayğılı səsi eşidildi.

Bəxtiyarı çarpayıda uzadıb, üstünə yorğan örtdülər. Bəxtiyar bir dəfə inildəyib gözlərini yumdu.

– Mariya Vasilyevna, - Azər danışmağa başladı, - indi Bəxtiyarın taleyi sizdən asılıdır. Mümkün olduqca... Daha özünüz bilirsiz. Mənim deməyim artıqdır.

– Oğlum, mən ona bir ana kimi qulluq edəcəyəm. Bundan savayı heç bir şey vəd eləmirəm!

Mariya Vasilyevna şamı pilləkanın yanından götürüb çarpayıya tərəf gəldi. Şamın tutqun ziyası Bəxtiyarın solğun sifətini işıqlandırdı.

Zirzəmidə daş pilləkandan, bir-iki köhnə kürsüdən, küncə tullanmış bir sıra qırıq, toz basmış şeylərdən başqa bir şey gözə dəymirdi.

Volodya əlində iri  qab tələsə-tələsə zirzəmiyə endi. Qabı kürsünün üstünə qoya-qoya:

– Nənə, yaman ləzzətlidir, sağ ol, deyəcəksiz, - dedi və buğlanan bir yekə kartofu çarpayının qırağında oturmuş Azərə uzatdı:

– Bir gör nə ləzzətlidir!

Azər kartofu duza batırıb yeyə-yeyə dedi:

– Bəli, demək olar ki, işlər yavaş-yavaş düzəlir. Bircə mühüm şey qalır.

Volodya və Mariya Vasilyevna ikisi də birdən təəccüblə soruşdular:

– O nədir elə?

Azər diqqətlə onların təəccüblü baxışlarını gözdən keçirdi, kartofun son tikəsini ağzına qoydu və dedi:

– Hə, məsələ budur ki, mən bu saat qayıtmalıyam. Mütləq qayıtmalıyam!

Volodya əlindəki kartofu dişlədi.

– Qayıtmalısan?.. Hara? – mariya Vasilyevna soruşdu.

– Bizim tərəfə, özümüzünkülərin yanına, sonra yenə də buraya, sizi xilas etməyə!

Volodya başını buladı:

– Gedə bilməzsən. Heç özünü işə salma!

– Çox təəssüf. Axı mən sağ-salamat burada qala bilərəmmi? Bu vicdansızlıq olmazmı?

– Məcbursan, - Volodya oynaq gözlərini Azərə zillədi.

– Heç olmasa dənizə çıxmağa bir qayıq olsaydı... Ehhh. Azər kədərlə dizinə vuranda Volodya birdən yerindən qalxdı və:

– Sən nə dedin? Qayıq? Mən bu saat sənə qayıq taparam, - dedi.

– Hanı, haradan? – Azər həyəcanla soruşdu.

– Bizim Mefodi dayının bir yaxşı qayığı vardı. Həmin qayığı partizanlığa gedəndə gizlədib. Mən onun yerini bilirəm, əgər ələ keçməyibsə orda olar.

Azər əlini onun çiyninə vurub:

– Əhsən Volodya! Əgər qayıq orda qalıbsa bu lap qiyamət olacaq. Daha niyə dayanmısan, yüyür bayaqkı frisin paltarını gətir, hər şey düzəlsin getsin.

Volodya yuxarı çıxıb qucağında paltar və avtomat olduğu halda qayıdtı. Azər növbətçinin paltarını geyindi.

– Vay səni, frisə oxşadın, heç kim şübhələnməz, - Volodya Azəri başdan-ayağa süzdü.

Azər növbətçinin avtomat tüfəngini ehmalca Bəxtiyarın yasdığı altına qoydu:

– Bu da onun silahı, bərk ayaqda lazım olar. – Sonra o, üzünü Mariya Vasilyevnaya tutdu: - hələlik özünüzdən muğayat olun. Daha başqa sözüm yoxdur. Hər şeyi özünüz yaxşı bilirsiz. Mənimköməyim artıqdır.

Volodya qabdan bir neçə kartof götürüb gizlincə Azərin cibinə salmaq istəyəndə Azər mane oldu. Lakin inadcıl Volodya buna baxmayıb kartovları bir-bir onun ciblərinə saldı.

– Bizdən nigaran olma, oğul! Bizi unutma! Tezliklə qayıdın! – Mariya Vasilyevna ümid dolu baxışlarını Azərə zillədi.

Azər pilləkanı qalxa-qalxa:

– qayıdacağıq, ana, mütləq qayıdacağıq, - deyib çıxdı.

Volodya da onun dalınca pillələri qalxdı. Birlikdə bayıra çıxdılar. Hələ işıqlanmamışdı. Qayığın gizlədilmiş olduğu yerə gəldilər. Onu yerində görəndə Azər sevincindən Volodyanı götürüb başının üstünə qədər göyə qaldırdı. Sonra yerə qoyub əlini onun kürəyinə vurdu.

– Sağ ol, Volodya, heç bilmirəm sənin bu yaxşılığının əvəzini necə verəcəyəm, - dedi.

– Mənə heç nə lazım deyil. Təki siz sağ-salamat bizimkilərə qovuşun. – Volodya cavab verdi.

Qayığı köməkləşib suya saldılar. Azər bir göz qırpımında qayığa atılıb əlini Volodyaya uzatdı:

– Volodya, sağ ol! – Azər qayığı sahildən uzaqlaşdırdı.

Volodya qaya üzərinə çıxdı:

– Salamat get, Azər! Bizdən arxayın ol!

Qayıq uzaqlaşınca Volodya papağını çıxarıb havada yellədi. Sonra papağını başına qoydu, əlləri yanına düşdü.

## 10

Yenicə sakitləşmiş döyüş meydanında bəzi yerlərdən qara tüstü dumanları qalxırdı. Arabir atəş səsləri eşidilirdi. Qabaq səngərdəki döyüşçülər üstlərini çırpır, sifətlərini silirdilər.

Arxa tərəflərdə şəfqət bacılarının yaralı döyüşçüləri apardıqları görünürdü. Səngərin yaxınlığında bir düşmən əsgəri zarıyırdı. Şəfqət bacısı ona tərəf süründü. Cəld yarasını bağladı. Başını üsulluca yerdən qaldırıb sifətinə baxdı. Yaralı gözlərini açdı, nəzərlərini şəfqət bacısına dikdi. İri, mavi gözlərində hiss olunurdu ki, o, danışmaq, nəsə şəfqət bacısına demək istəyir. Lakin, görünür ağrının gücündən bunu bacarmırdı. O gözlərini yumdu. Bu zaman səngərə gedən baş

leytenant Azər bu vəziyyəti görəndə yaxına gəldi. Şəfqət bacısı başını qaldıranda onların baxışları birləşdi. Azər təəccüb və heyrətlə:

– Bıy... ayna... sən... – deyib əlini ona uzadanda gözləri yaralıya sataşdı, həyəcan və talaşla «Petru» deyərək ona doğru əyildi. Bu zaman vıyıltı ilə gələn mina onları yerə atmağa məcbur etdi. Mina onlardan xeyli aralı düşüb partladı.

***

Üstü örtülü qazmada Azər və Ayna qarşı-qarşıya oturmuşdular. Azərin əlində bir yaşında uşağın şəkli vardı. Bu, oğlu Hidayətin şəkli idi. O, şəklə xeyli baxandan sonra onu sol əlində tutduğu zərfin içinə qoydu və dedi:

– Deyirsən salamatlıqdır, şükür... gör bir nə yaxşı oldu, məktub da aldım. Evdən nigaran qalan əsgər ürəyi daha çox çıxılır. Yaxşı Ayna, bəs anam nə edir?

– Canına dua edir. Nəvəsinə də baxır, kolxoz işinə də gedir. Bircə səndən nigarandır, kağız gəlməyəndə...

– Bilirəm, bilirəm! – Azər onun sözünü kəsdi. – Biz də burada beləyik. Eh... Ayna!.. Bilirsən ayrılıq nə yaman dərddir?! Xüsusilə, ana, övlad... hə, heç Gülsüm xaladan danışmırsan?

– Axır vaxtlar yazıq arvad çox düşüb. Oğlunun kağızı gəlməyəndən çox fikir edir...

Azərin qaşları çatıldı, alnındakı qırışlar dərhal özünü büruzə verdi.

– Doğrudan, Azər, - Ayna tələşla və utancaqlıqla davam etdi. – Sən məktubunda axı Bəxtiyarla bir yerdə olduğunu yazmışdın. Eləmi?

– Bəli, Ayna, - Azər sakit halda cavab verdi. – Mən hərbi məktəbi bitirən kimi ön cəbhəyə göndərildim. Mənim düşdüyüm rolkda sən demə Bəxtiyar da varmış. Lakin bunu mən əvvəlcə bilmədim. Bir gün məni bizim polk komandiri çağırıb bir taqıma komandir təyin etdiyini söylədi. Həmin taqımın komandiri və onun müavini bir neçə saat əvvəl döyüşdə həlak olmuşdular. Mən vaxt itirmədən səngərə gəldim. Burada kimi görsəm yaxşıdır!.. Bir özün təsəvvür elə ki, necə bir-birimizlə qucaqlaşdıq, Ayna! Bir-birimizin üzərinə necə atıldıq, necə bir-birimizi

barımıza basdıq?!. Döyüşçülər gəlişimlə çox şad oldular. Xüsusən Bəxtiyar!.. Mən onunla bir neçə ağır vuruşmada olmuşam. Onun cəldliyi, qoxmazlığı, döyüş məharəti məni valeh etmişdi. Onun vuruşmasını gözlə görmək lazım idi. Ayna, bunu sözlə demək çətindir.

– Bəs o necə oldu, Azər? – Ayna həyəcanlı baxışlarını Azərə zillədi, - məndən niyə gizlədirsən?..

– Səndən nəyi gizlədəcəyəm, - Azər ayağa qalxdı. – Sənin təlaşların nahaqdır, Ayna. Bəxtiyar sağ-salamatdır. Onun və mənim sağ qalmağımıza həmin o yaralı rumının, Petrunun böyükköməyi olmuşdur.

– Bəs o haradadır, harada, Azər?

– Harada? – Azər gözlərini irəli zilləyib nəyi isə axtarırmış kimi diqqətlə baxdı, - orada, uzaqlarda, mehriban bir insanın himayəsində, - deyərək əhvalatı müxtəsərxcə Aynaya danışıb qayıqla necə dənizə çıxdığının üzərində bir az çox dayandı:

– Ayna, bir özün fikirləş, dənizə çıxmaq dedikcə qorxulu idi, ancaq necə olsa mən bu addımı atmalıydım. Ürəyimdə «Ya Allah, Ya Məhəmməd, ya Əli!» deyib qayığa atılanda birdən-birə elə bir yüngülləşdim, kürəklərdən möhkəm yapışıb var gücümlə avar çəkməyə başladım. Bəxtimdən hava da yaxşı idi o gün. Suyun üzü heç tərpənmirdi. Gedir, gedirdim. Nə gözləyirdi məni qabaqda, kimə rast gələcəkdim, dostamı, düşmənəni bilmirdim. Elə gedir, gedirdim...

Sular artıq günəşin qızılı şüaları altında parıldamağa başlamışdı, qollarımda yorğunluq hiss eləsəm də, özümü oy yerə qoymur, avar çəkməkdən qalmırdım. Birdən gözlərimə işıq gəldi. Sevinc hissi qəlbimi bürüdü. İrəlidə qaraltı görmüşdüm. Qaraltı getdikcə böyüyürdü. Gəmi idi, hərb gəmisi, mənə doğru gəlirdi. Qəlbimi həm sevinc, həm kədər bürüdü. Düşündüm ki, nə olaydı, bizimkilər olaydı, düşmən əlinə keçməyəydim.

Gəmidəkilər deyəsən məni görmüşdülər... Nəhayət yaxınlaşdılar. Məni gəmiyə götürdülər.

Qaragöz, qaraqaş birisi diqqətlə sir-sifətimə baxıb yanındakına göz vura-vura:

– Heç frisə oxşamır, - dedi.

Mən onların şübhələrini dağıtmaq, ürəklərinə gələnləri doğrultmaq üçün tələm-tələsik əynimdəki pencəyi çıxarıb bir yana tulladım, papağımı da.

Əynimdəki yer-yerdən cırılmış dənizçi köynəyi məni əhatə edənlərin marağını bir az da artırdı. Bu dəmdə, Ayna, elə bil mənim üçün möcüzə baş verdi. Bakıda anadan olmuş, hərbi məktəbdə mənimlə bir yerdə oxumuş Kolya yan-yörəsində bir neçə dənizçi mənə doğru gəlirdi... İndi özün bizim görüşümüzü təsəvvür elə, Ayna.

**11**

Bəxtiyar çarpayının üstündə əyləşib qundağına öz adının baş hərflərini cızırdı. O, indi özünü yaxşı hiss edirdi, demək olar ki, sağalmışdı.

Volodya əlində avtomat tüfəng pilləkənlə aşağı enirdi.

Bəxtiyar avtomatı görcək tələsik:

– Volodya, bu nədir? Haradan bunu ələ keçirmisən, hardan?

Volodya qürurlandı:

– Uşaqlarnan qayalıqlara getmişdik. Bir də eşitdik ki, yaxındakı iki qayanın arasından xorultu səsi gəlir. Özümüzü tez ora verdik. Nə görsək yaxşıdı, Bəxtiya dayı? Görürəm ki, bir pota, keçi saqqal fris iki qaya arasında xorhaxorla yatır. Ayaqqabılarını çıxarıb bir tərəfə atmış, ayaq dodaqlarını günə sərmişdi. Avtomatını başının sağ tərəfində kiçik qayanın çuxurunda gizləşmişdi. Bunu gördüyüb oldu, üzümü uşaqlara tutub pıçıldadım:

– Bu köpək oğlunun avtomatında mənim çoxdan gözüm vardı. İndi onu çırpışdıracağam.

Bunu deyib yavaş-yavaş kiçik qayaya sarı gəldim. Yaxınlaşdım. Nəfəsimi dərib gözlədim. Onun xorhaxoru ətraf başına götürmüşdü. Əlimi avtomata uzatdım. Ürəyim bərk döyünürdü. Götürdüm. Bu zaman o tərpəndi. Elə bildim ki, ürəyim ağzımdan çıxdı. Fris bir böyründən o biri böyrü üstə çevrildi. Bir də onu gördüm ki, uşaqların yanındayam. Əlimdə də avtomat. Sonra qayalıqlarda gəzib

xeyli cındır əsgi tapdıq. Avtomatı ona sarıdıq və geri döndük. İndi Bəxtiyar dayı, mənim də avtomatım var. Bu gün məni elə axırıncı dəfə bu avtomatda imtahan elə, gör tamam öyrənmişəm, ya yox, məndən döyüşçü olar, ya yox?

– Niyə olmur, ay qoçaq, imtahanı da gərək yaxşı verəsən. Buna heç şübhəm yoxdur. Yaxşı, bir de görüm mənim tapşırdığım şeyləri tapdın?

– Bəs necə, buyur – o, cibindən üzqırxan aləti çıxarıb stolun üstünə qoydu, qürurla gülümsədi.

Bəxtiyar üzqırxan aləti əlinə aldı, diqqətlə baxdı:

– Volodya, sən doğrudan da qoçaqsnmış, bunu hardan tapdın? – soruşdu.

– Qardaşımışındı. Ancaq ülgücü yox idi. Onu da bu gün bir frisdən çırpışdırmışdım. Bu da güzgü, - cibindən balaca bir güzgü çıxartdı.

– Onda deyinən hər işimiz düzəlib ki, - Bəxtiyar güzgünü alıb baxdı.

Güzgüdə özünün saqqal basmış sifətinə, batıq ordlarına diqqət edəndən sonra onu stol üzərinə qoydu və:

–Volodya, di gəl səni bu gətirdiyin avtomatda imtahan edim. Görüm mənim müəllimliyimdən nə çıxıb və sən necə şagirdən?

– Mən hazır, Bəxtiyar dayı! – Volodya avtomatını götürüb Bəxtiyarın qabağında hazır dayandı.

Bu zaman zirzəminin qapısı açıldı. Pilləkəndə Mariya Vasilyevna göründü. Onun əlində çörək vardı.

– Mariya Vasilyevna, indi günüzdür, ya gecə? – Bəxtiyar soruşdu.

– İndi gün batdı, oğlum!

– Eh, ana, altı aydır ki, mən gün üzü görmürəm. Günəşsiz keçinirəm. Amma di gəl ki, həmişə günəşi görmək arzusunda olmuşam!

## 12

Bir neçə yerdən uçulmuş səngərdə döyüşçülər ciddi məşğul idilər. Qarşıda kənd görünürdü. Azər əlində durbin irəli baxırdı. Mariya Vasilyevnanın evini tapanda dayandı. Diqqətlə baxdı. Bu zaman bir döyüşçü Azərə yaxınlaşıb:

– Yoldaş komandir! – deyərək ona müraciət etdi.

Azər ona baxmadan:

– Eşidirəm, - cavab verdi.

– Yoldaş komandir, o dediyiniz oğlanı bu gün xilas edəcəyik, deyilmi?

– Mütləq, bir azdan hücuma keçirik. Yaxın gəl, bax, - Azər durbində döyüşçüyə Mariya Vasilyevnanın evini göstərdi, - görürsən?! Mənim sizə haqqında danışdığım igid oğlan orada yatır!

Döyüşçü diqqətlə Azərin göstərdiyi səmtə baxıb:

– Birgə sağ-salamat onları qurtara bilsəydik! – dedi.

Azər qolundakı saata baxdı, döyüşçü pulemyot arxasında uzanmış yoldaşlarının yanına getdi.

Bir saniyə keçmədi bir-birinin ardınca düşmən mövqelərinə atəş açıldı. Atəşə tutulan yerlər tüstüyə bürünəndə Azər əmr etdi:

– Hücum, dostlar, Vətən naminə irəli!

Dəstə «ura-ura» qışqıra-qışqıra hücuma keçdi. İti addımlarla, bəziləri qaça-qaça düşmən üzərinə şığıdılar. Özgə səngərlərdən də döyüşçülər hücuma keçmişdilər. Xüsusən döyüş meydanının sağ tərəfində cəsur dənizçilər dəstəsi irəli atılmışdı. Kolya onların qabağında idi, Azər öz dəstəsi ilə Mariya Vasilyevnanın evinə tərəf gedirdi...

Faşistlər nizamsız, başıpozuq surətdə geri çəkilirdilər. Onların yolu Mariya Vasilyevnanın evinin yaxınlığındandı. Volodya yüyürə-yüyürə nəfəsi tutulmuş halda evə qaçdı. Anasına doğru gedib sevinclə:

– Ana... bizimkilər... gəlirlər. Bizimkilər gəlirlər, - dedi və onu qucaqladı.

Mariya Vasilyevnanın üzündə sevinc əlamətləri zahir oldu, gözləri yaşardı:

– Can bala! – deyib oğlunun alnından öpdü.

Bir neçə faşist əsgəri geri çəkilməkdə olan dəstədən iki puleymyot və bir neçə avtomat tüfənt götürüb Mariya Vasilyevnanın evinə tərəf gəlməyə başladı. Volodya pəngərədən onları görcək:

– Onlar buraya niyə gəlirlər? – təəccüblə anasından soruşdu.

– Yəqin indi də bizim evi sığınacaq etmək istəyirlər. Gəl Bəxtiyarın yanına düşək!

– Uf yarasalar, öz evimizdən özümüzkülərə atəş açacaqlar!

Mariya Vasilyevna zirzəminin qapısını qaldırdı, hər ikisi Bəxtiyarın yanına düşəndə faşistlər evə yaxınlaşdılar. Onlar yeddi nəfərdi. Qabaqlarınca gələn zabit üzünü arıq, uzun birisinə tutub:

– Bura lap münasib yerdir, Müller, elə bax, bu evdəcə yerləşin, - dedi və siması ciddi bir vəziyyət aldı, - bizim hissə çəkilənə qədər... Özünüz hər şeyi bilirsiniz, nəyin bahasına olursa-olsun hücumun qarşısı alınmalıdır, eşidirsizmi, nəyin bahasına olursa-olsun!

– Eşidirik, cənab zabit, əmriniz yerinə yetiriləcəkdir, - Müller cavab verdi.

– Səni bu dəstəyə komandir təyin edirəm, Müller!

– Eşidirəm, cənab zabit! – Müller zabitin qarşısında taxta kimi qurudu.

– De haydı iş başına, ancaq atəş açmaqda ildırımdan geri qalmayın ha!..

Zabit onlardan uzaqlaşdı. Müllerin dəstəsi evə doluşdu. Zabit evdən xeyli uzaqda geri çəkilməkdə olan dəstəyə qarışarkən, Azərgil tərəfdən topçuların yaylım atəşi həmin hissəsini pərən-pərən saldı, zabit və çoxlu faşist əsgəri yerə sərildi. Qalanları isə bağıra-bağıra qaçdılar.

Müllerin dəstəsi pulemyotları pəncərələrdə yerləşdirdi. Hər pulemyotun arxasına iki nəfər uzandı. Müller onları diqqətlə gözdən keçirib dedi:

– Bax belə, çox yaxşı! Atəş açarkən həm də bütün gücünüzlə qışqırın, qoy sayımızın çox olduğunu zənn etsinlər, - sonra o, üzünü arxada dayanmış pota, keçisaqqal əsgərə çevirdi, - sən isə, Şults, çöldə dur, gözlə ki, arxadan bizi güdaza verməyəsən, de haydı!

Şülts cəld çıxdı. Müller pəncərəyə yaxınlaşdı. Durbinlə baxdı. Puleymot arxasında uzananlar puleymyotları hazırlamağa başladılar...

Bəxtiyar, avtomat tüfəngi əlində həyəcanlı halda zirzəminin ortasında dayanmışdı. Mariya Vasilyevna onun yanında idi. Volodya faşistlərin hərəkətlərini pusurdu. Bəxtiyar qətiyyətlə deyirdi:

– Yox, mən onlarla çarpışmalı olacağam.

Mariya Vasilyevna titrək səsiylə soruşdu:

– Axı, sən tək necə?..

– Vuruşacağam, hə? – Bəxtiyar onun sözünü kəsdi.

– Hə, necə vuruşacaqsan, onlar ki, bir deyil, iki deyil, yeddi nəfərdir.

– Qoy olsun, Mariya Vasilyevna, mən onlardan qorxmuram.

– İndi pulemyotları işə salacaqlar! – Volodya pıçıldadı.

Bəxtiyar ciddiləşdi, əsəbi halda dedi:

– De baxın, Mariya Vasilyevna, onlar burada yerlərini möhkəmlədib bizimkiləri qıracaq, mən də durub gözləyəcəyəm ki, nə vaxt bizimkilər gəlib bizi azad edəcəkdir... Yox, mən bunu edə bilmərəm!

– Bəxtiyar, bir də unutma ki, mən sənin səlamətliyin üçün bir ana kimi söz vermişəm.

– Siz mənə bir ananın öz doğma oğluna etdiyi hörmətdən daha çox hörmət etmisiz. Siz mənim anamsız, ikinci anam!.. Ancaq mən onlarla vuruşacağam!..

Azərin dəstəsi sürətlə irəliləyirdi.

Müller atəş açmağı əli ilə əmr etdi. Vdən atəş açıldı. Faşistlər ucadan bağırırdılar...

Hücum edən əsgərlərdən bir neçəsi yıxıldı. Azərin komandası eşidildi:

– Yerə yatın, uşaqlar, yerə, tez-tez!

Döyüşçülər yerə yatdılar...

Faşistlər atəşin arasını kəsmirdilər. Azər üzünü döyüşçülərə tutub dedi:

– Bir az gözləmək pis olmaz. Onlar bizi qabaqlamışlar. Evi mühaisrəyə almaq lazımdır!

– Ay köpək uşağı – döyüşçülərdən kimsə deyindi, - vallah Bəxtiyar, Mariya arvad, Volodya qanınınızın arasına girdilər. Bircə dəfə toplarımızın püskürməsi sizə bəs edərdi!..

Bəxtiyar Mariya Vasilyevnanın və Volodyanın israrına baxmayaraq zirzəminin pillələrini qalxdı, Volodya da əlində avtomat onun dalınca çıxmaq istədikdə Bəxtiyar onu geri qaytarıb zirzəminin qapısını qaldırdı v əhmin dəqiqə pulemyot arxasında uzanmış iki faşistə atəş açdı. Onlar çığıraraq bir anda yerə

sərildilər. Bəxtiyar digər iki faşistə atəş açıb şir kimi evin içinə atıldı. Elə bu vaxt müller onu köksündən yaraladı. Bəxtiyar yıxılmadı, Müller ikinci dəfə atarkən Bəxtiyar sərrast atəşlə onu yerə uzatdı. İki yara almasına baxmayaraq, pəncərəyə tərəf getməyə başladı.

Bu zaman Şults içrəi girib əlindəki avtomatı Bəxtiyara tuşlarkən pilləkən üstündə durmuş Volodya bir atəşlə onu yerə sərdi. Bəxtiyar cəld çevrilib bu mənzərəni gördükdə:

– Sağ ol, Volodya, sən imtahanı əla verdin! – dedi.

Bəxtiyar ağır yaraların şiddətindən ayaq üstə dura bilməyib yerə oturdu. Volodya cəld onun yanına qaçdı, qolundan yapışdı. Bəxtiyar qüvvətini toplayıb ayağa qalxdı. O, Volodyanın köməyi ilə səndələyə-səndələyə kandar üstünə gəldi. Yenicə üfüqlərə boylanmış günəş onun gözlərini qamaşdırdı. Bəxtiyar onu süzüb:

– Ah... Nəhayət.... Səni... gördüm!.. – deyib yıxıldı.

Volodya «Ah» deyib ona tərəf əyiləndə Mariya Vasilyevna tələşla özünü yetirdi. Azər və döyüşçülər də gəldilər. Azər yetişən kimi Bəxtiyarın başını yerdən qaldırdı, həyəcanla:

– Bəxtiyar, Bəxtiyar! – dedi. – Əlini onun köksündə gəzdirdi, - qəlbi hələ vurur, yox dostlar, o, hələ sağdır, Bəxtiyar ölməyəcəkdir!

Bəxtiyar gözlərini açdı. Azəri görcək sifətində sevinc, təəccüb əlamətləri zahir oldu:

– Az... ər... bu... sən... – dedi və yenə gözlərini yumdu.

– Aç gözlərini qardaşım, aç, mənəm, sənin qardaşın, dostun, - Azər onun üzünə tökülmüş saçlarını alnından aşırdı.

Bəxtiyar gözlərini açdı. Qalxmaq üçün qüvvəsini toplamağa çalışdı. Azər ona kömək etdi. Bəxtiyar boylanıb ətrafdakılarla vidalaşırmış kimi bir-bir onları gözdən keçirtdi.

Mariya Vasilyevna gözləri dolmuş halda dayanmışdı. Volodya məhzun-məhzun Bəxtiyarın hərəkətlərini süzürdü. O, Bəxtiyara doğru əyilmişdi. Döyüşçülər qəmgindilər, dalğındılar.

Bəxtiyar qırıq-qırıq dınışırdı:

– Azər... anamı... sənə tapşırıram...

– Sən nə danışırsan əzizim, biz hamımız alnı açıq evə dönəcəyik.

– Yox... Azər... təsəlli... – O bir az dayandı və sonra davam etdi. – Bir xahişim də var... Ona deyərsən ki, günahkar... mən deyiləm... Məni daha... göz... – o, artıq danışa bilməyib can verdi.

Döyüşçülərin papaqlarını çıxarması ilə bir «villis» maşınının yetişməsi bir anda oldu. Petru maşından düşüb cəld Azərin yanına cumdu, məsələdən agah olan zaman pərişan halda Bəxtiyarın meyiti üzərinə əyildi. Bir az sonra ayağa qalxıb Azərin qulağına pıçıltı ilə:

– Ayna ölümcül vəziyyətdədir. Üç yerdən yaralanmışdır. Huşunu itirmək üzrədir. Bəlkə heç... Mən sizinlə Bəxtiyarın dalınca gəldim... Bəxtiyar isə belə... Eh, dünya!..

Azər Petruya sözlərini qurtarmağa imkan vermədi. Tez «villisə» oturdu, Petru maşını işə salıb sürətlə uzaqlaşdı.

## 13

Kəndin yaxınlığındakı təpənin döşündə Bəxtiyarı və Aynanı dəfn edirdilər. Döyüşçülər torpağı qəbirlərin üzərinə töküb qurtardılar. Azər, Petru, Kolya, Mariya Vasilyevna, Volodya qəbirlərin önündə diz çökdülər.

Azər əyilib məzar taxtası üzərində sevdiyi şairin misralarını yazmağa başladı.

Mariya Vasilyevna yaşarmış gözlərini qəbirlərə dikmişdi. O, sanki Bəxtiyarı axtarırmış kimi hey qəbirlərə baxır, baxırdı.

Petru qayğılı nəzərləri ilə Mariya Vasilyevnanın yanaqlarından diyirlənən jöz yaşlarını izləyir, köksünü ötürürdü.

Volodya çiynindən asılmış avtomatın üzərində iri hərflərlə yazılmış Bəxtiyar sözünü nəzərdən keçirirdi. Onun yanaqlarında donmuş göz yaşları nəzəri cəlb edirdi.

Kolya Azərin yazdıqlarını oxumaq üçün əyilmişdi.

Azər yazıb qurtardı, ayağa durdu. Qəbirlərlə vidalaşdılar.

Azər Mariya Vasilyevna ilə görüşdü. Mariya Vasilyevna içini çəkə-çəkə:

– Mən oğlumun iyini ondan alırdım... Axı oğlum Vasya onun dizləri üstündə can vermişdi... Eh, onu da... yox, mən artıq ağlamayacağam! – O, gözlərinin yaşını sildi. – Gedin balalarım, qoy intiqam sizin ilk və son borcunuz olsun, gedin!

Dəstə qərbə tərəf yola düşdü. Dəstə ilə yüyürən Volodya birdən anasının yanına qaçıb:

– Ağlama, ana, qardaşımın, Bəxtiyarın, Aynanın intiqamını mən alacağam, - dedi və qaçıb dəstəyə qoşuldu.

## 14

Təpə üstündəki ağacın kölgəsində Gülsüm, Xanım, Reyhan və balaca Hidayət nahar edirdilər. Poçtalyon Əmrah ağacın altına gələndə arvadlar onu dövrəyə aldılar. Həsrətli baxışlar Əmrahın əllərinə dikildit. Əmrah nəfəsi tutula-tutula Xanıma:

– Səhərdən səni axtarmaqdan əldən-ayaqdan düşmüşəm, - dedi. – düz üççə dəfə evə getmişəm. – O, əlini çattasına sala-sala: - Ay rəhmətliyin qızı, bu qədər də işləmək olar, gecə-gündüz zəmidəsiz, - çantasından çıxartdığı kağızı ona uzatdı, - amma bu dəfə qonaqlığı əldən verməyəcəyəm ha!.. Özü də sarı anac kəsilmək şərtiylə!

Xanım sevincək:

– Baş üstə, Əmrah, baş üstə, səni istədiyin kimi sevindirəcəyəm, - zərfi alıb bağrına basdı, sonra dodaqlarına apardı.

Əmrah getdi. Xanım zərfi Reyhana uzatdı. Reyhan zərfi açdı, məktubu bərkdən oxumağa başladı: «Mənim əzizlərim, məktubuzu aldım. Elə bil yenidən qollarıma qüvvət gəldi».

Arvadlar diqqətlə qulaq asmağa başladılar. Reyhan oxuduqca Xanımın gözləri yaşardı. Hidayətin nəzərləri anasının əllərinə zillənmişdi.

«Məktubu tələsik yazdım, bağışlayın! Aynadan arxayın olun, mənim yanımdadır...»

Xatun daha da irəli gəldi.

«Nigaran olmayın, keyfimiz yaxşıdır!»

Xanım əlindəki yaylıqla gözünün yaşını sildi:

– Can bala! – dedi.

«İki gündən sonra qəti hücuma keçirik. Gülsüm xalaya mənim adımdan deyin ki...» - Reyhan Gülsümün yanına gəldi, son cümləni bir də təkrar etdi. – «Gülsüm xalaya mənim adımdan deyin ki, Bəxtiyar sarıdan ürəyini sıxmasın. Bu yaxınlarda ona Bəxtiyardan xəbər yazacağam. Bütün qohum-qardaşa, dostlara məndən salam deyin. Hidayətimin gözlərindən mənim əvəzimə öpün!

Sizin Azər».

Camaat yavaş-yavaş təpənin sağ tərəfindəki taxıl zəmisinə yığışırdı. Xanım, Xatun oraqlarını götürüb təpəni endilər. Reyhanla Hidayət isə təpənin sol tərəfində yerləşmiş çaylağa doğru yönəldilər.

Təpənin üstündə tənha durmuş Gülsüm dərin nəfəs alıb gözlərini vaxtı ilə oğlunu ötürdüyü uzun yollara, uzaqdakı dağlara dikdi. Zəmidən incə nəğmə eşidildi. Kim isə məlahətli səslə oxuyurdu:

Bir gül əkdim ləyəndə,
Gül boynunu əyəndə,
On iki qurban kəsərəm
Əlim-əlinə dəyəndə.

## 15

Qoşa məzar önündə durmuş ixtiyar qadın başını yuxarı qaldırıb günəşə baxdı.

Günəş, görünür bugün öz yatağına getməyə tələsmirdi. Onun qızılı şuaları yaşıl təpənin göy otlarını, güllərini rəngdən-rəngə salırdı.

Bir azdan günəş gedəcək, onu ay əvəz edəcəkdi. Ayın çıxması ilə bərabər yaşıl təpəyə cavanlar axışıb gedəcəkdi...

İxtiyar qadın xaç çevirdi. Getmək istərkən kənddən ona sarı xeyli adamın gəldiyini görüb dayandı. Diqqətlə, təccüblə baxdı. Onlardan bəzilərinin əlində çiçək dəstəsi vardı. «Yəqin kəndə qonaqlar gəlib, indi də qoşa məzara baxmaq istəyirlər, axı bu adət olub».

İzdihamın qabağında gələn adamı ixtiyar qadın uzaqdan seçdi. Bu, onların kolxoz sədri Kovalenko idi. Onun yan-yörəsində gələnləri isə o, tanıya bilmədi. Qonaqlar içərisində qadınlar da vardı. Onların qəribə geyimləri çox-çox uzaqlardan gəldiklərini bildirirdi.

İzdiham yavaş-yavaş yaxınlaşırdı. İxtiyar qadın artıq ona doğru gələnləri aydınca seçə bilirdi. Birdən onun nəzərləri sədrin yanınca addımlayan bir gəncə dikildi. Bu ona nə qədər də tanış gəldi. İxtiyar qadının diqqətli nəzərləri həmin gəncdə ikən bir də gördü ki, gənc dəstədən ayrılıb sürətlə ona tərəf gəlir. Elə bu anda o da həmin gənci tanıdı. Hasarın qapısından çıxar-çıxmaz gənc özünü ona yetirdi. Onlar ana-bala kimi bir-birinə sarıldılar:

– Can oğul, mənim əzizim, Azər!..

– Mariya Vasilyevna, ana, yaxşısan?..

Reyhan, Gülsüm, Xatun, Bilal kişi, Kolya, Petru və rnun iki jurnalist yoldaşı, Kovalenko və Volodya ön cərgədə idilər. Mariya Vasilyevna arvadlarla bir-bir tanış oldu, qucaqlaşıb öpüşdülər. Onların həzin hıçqırtıları eşidildi. Bu, məzar başındakıları sarsıtdı. Yanaqlarda səhər şehin xatırladan şəffaf damcılar zahir oldu.

Kovalenko qoşa məzarın yerləşdiyi hasarın kiçik qapısını açıb dedi:

– Burada iki Azərbaycan balası yatır. Lakin onlar təkcə Azərbaycanın balaları deyildilər, onlar biz ukraynalıların da doğma balalarıdırlar. Biz bu igid balaların məzarını, gördüyünüz bu qoşa məzarı göz bəbəyimiz kimi qoruyuruq. Bəxtiyar və Ayna! Kəndimizdə bu adları hörmət və iftixarla çəkirlər. Qızlarımız qoşa məzarın ətrafında həmişə gül-çiçək əkirlər. Axı burada yatanlar bizim azadlığımızın, bizim xoş günlərimizin qurbanlarıdırlar. Mən bu igid balalarımızın

əziz xatirəsi üçün onların məzarı qarşısında baş əyməyinizi və bir dəqiqə sükut etmənizi xahiş edirəm...

Dərin bir sükutdan sonra arvadlar bir-bir içəri girdilər. Gülsüm birinci keçdi. Onun əlində qırmızı xonça var idi. O, xonçanı qoşa məzarın yanında açıb hıçqıra-hıçqıra ağı dedi:

Bülbülə qonça gedər,
Bir əldə dolça gedər,
Toysuz ölən cavana
Bəzəkli xonça gedər.

Arvadlar ağlaşdılar. Gülsüm Bəxtiyarın, Xatun Aynanın məzarını qucaqladılar. Gülsüm xala yanıq-yanıqlı ağlayırdı:

– Can balalarım, dünyadan nakam gedən... balalarım, sizə kim qıydı, kim?

Ay nədən güldü, getdi
Gecəni böldü getdi.
Düşmən aman vermədi,
Cavanlar öldü getdi.

Xatun da ağlaya-ağlaya onun səsinə səs verdi:

Dərdi qoşa deyərəm,
Coşa-coşa deyərəm.
İki əzizim ölüb,
Qoşa-qoşa deyərəm.

Kovalenko və Azər arvadları sakit etdilər. Petru onların ağlayarkən nə deyib oxuduqlarını Azərdən soruşdu. Azər başa saldı. Volodya onların yanına gəldi. O,

artıq böyük oğlan olmuşdu. Azər qoşa məzar qarşısında diz çökdü. Əvvəlcə Bəxtiyarın, sonra Aynanın məzarını öpdü, ayağa durdu, dedi:

– Burada mənim döyüş yoldaşım, qardaşım və onun aslan ürəkli sevgilisi yatır. Onların nə cür həlak olduqları hamıyıza bəllidir. Müharibə artıq qurtarmışdır... Mənim indi demokratik respublikalarda da çoxlu dostlarım var. Onlarla odlu döyüşlərdə tanış olmuşam. Onlardan biri də rumın dostum Petrudur. O, bugünlərdə rumın jurnalistləri ilə birlikdə bizim respublikaya gəlmişdi. Vəfalı dost kimi axtarıb məni tapdı. Mən bura gəlməyə hazırlaşırdım. Birlikdə gəldik. Qoşa məzarda yatanların xatirəsi mənim üçün, sizin üçün, - o, əlini Mariya Vasilyevnagilin kəndinə uzatdı, - nə qədər əzizdirsə, mənim rumın dostum Petru üçün də, onun xalqı üçün də bir o qədər əzizdir.

Azər geri çəkildi. Petru irəli keçib rumın jurnalistləri və öz xalqı adından gətirdikləri gül dəstələrini qoşa qəbrin üzərinə qoyub dedi:

– Dünyada qiymətli, mənalı, insan üçün əziz sözlər çoxdur. Bunlardan biri də sülhdür! Bəli, sülh!

Ey insanlar! Anaların göz yaşı tökməmələrini, gənclərin arzularına yetmədən həyatı vaxtsız tərk etməmələrini, körpələrin rahat və xoşbəxt böyüməl追ərini, mədəniyyətinizin inkişafını, xalqların dostcasına, qardaşcasına əl-ələ verib yaşamasını istəyirsinizsə sülh uğrunda mübarizə edin! Elə edin ki, mənim indi sizə nəql etdiyim kimi bir-birini böyük məhəbbətlə sevən gənclər dünyadan nakam getməsinlər!..

İki igid azərbaycanlı gəncin həyatını əbədiləşdirən «Yaşıl təpə döşündə» povestimi mən bu sözlərlə başlayacağam!

Hamının nəzərləri qoşa məzara dikilmişdi. Budur, qoşa məzar sanki bunu hiss edirmiş kimi onu əhatə edənlərin gözündə böyüyür, böyüyürdü... Onların üzərindəki yazılar daha aydın nəzərə çarpırdı...

Xalqilə titrəyən, xalqilə gülən,
Vətənçin yaşayan, Vətənçin ölən
Səmimi insanlar nə bəxtiyardır!..

Xəfif-xəfif əsən meh adamların saçlarını oynadırdı. Hamı düşüncəli halda baxırdı. Azər dedi:

– Bəli, dostlar, vaxtı ilə şairimiz yaxşı demişdir:

Sülhün, səlamətin dadı başqadır,
Qardaşca zəhmətin dadı başqadır.
Bir günəş altında bir yer üzündə
Asudə qismətin dadı başqadır!

*1947, 1959*